**Bakı Dövlət Universiteti**

**Tarix fakültəsi**
**Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası**
**nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya"**
**Elmi-tədqiqat laboratoriyası**

# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK

**(Elmi-nəzəri toplu)**

## VII BURAXILIŞ

***Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 100 illik, "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" və "Azərbaycanın maddi-mədəniyyət tarixi" Elmi-tədqiqat laboratoriyalarının 30 illik yubileylərinə və Qarabağ zəfərinə həsr edilir.***

*Toplu BDU-nun Tarix fakültəsi Elmi Şurasının 18 dekabr 2020-ci il tarixli qərarı ilə çap edilir.*

**BAKI – 2020**

## REDAKSİYA HEYƏTİ

akad.Yaqub Mahmudov (BDU, AMEA Tarix İnstitutu)
prof.Anar İsgəndərov (BDU)
prof.İbrahim Zeynalov (BDU)
prof.Kərim Şükürov (AMEA Tarix İnstitutu)
prof.Qüdrət İsmayılzadə (BDU)
prof.Məmməd Fətəliyev (BDU)
t.e.d.Tarix Dostiyev (BDU)
dos.Mehman Abdullayev (BDU)
dos.Firdovsiyyə Əhmədova (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası)
dos.Yeganə Çağlayan (Türkiyə Cümhuriyyəti, Alparslan Universiteti)
dos.İlqar Niftəliyev (AMEA Tarix İnstitutu)
dos.İradə Məmmədova (AMEA Tarix İnstitutu)
dos.Səidə Əli qızı (BDU)
dos.Arzu Məmmədova (BDU)
dos.Kəmalə Nəcəfova (BDU)
dos.Elvira Lətifova (BDU)
dos.Səidə Quliyeva (BDU)
dos.Sevinc Qasımova (BDU)
dos.Boran Əziz (BDU)
dos.Rövşən Hətəmov (BDU)
t.f.d.Asəf Hacıyev (BDU)
t.f.d.Zəhra İslamova (BDU)
b.e.i.Ulduz Paşayeva (BDU)
e.i .İlham Məmmədov (BDU)

**Dünya azərbaycanlıları: tarix və müasirlik**. (Elmi-nəzəri toplu). VII buraxılış. Bakı, "Füyuzat" nəşriyyatı, 2020, 222 səh.

***Ünvan:*** Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, III tədris binası, 9-cu mərtəbə, 904-cü otaq
***Əlaqə:*** 012-537-04-61; dunya.azerbaycanlilari.etl@gmail.com

K 0501000000-65
2020

© "Füyuzat", **2020**

## MÜNDƏRİCAT

**Səidə Əli qızı**
*Qarabağin zəfər nəğməsi* 5

## I BÖLMƏ
## ELMİ-TƏDQİQAT LABORATORİYALARININ YARANMA TARIXI VƏ FƏALIYYƏTI

**Tarix Dostiyev**
*Azərbaycanın maddi mədəniyyət tarixinin öyrənilməsində yeni mərhələ* 13
**Habil Məmmədov**
*Azərbaycanın maddi mədəniyyət tarixinin tədqiqində elmi-tədqiqat laboratoriyasının rolu* 20
**Səidə Quliyeva**
*Dünya azərbaycanlıları elmi tədqiqat laboratoriyasında Azərbaycan diasporuna dair tədqiqatlar və nəticələr* 25
**Şəfayət Fərəcov, Hikmət Əhmədov**
*Azərbaycanın tarixi demoqrafiyası elmi-tədqiqat laboratoriyasının elmi fəaliyyəti* 37

## II BÖLMƏ
## AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ

**Səidə Əli qızı**
*Statistik məlumatlar ərazi və əhali məsələlərini öyrənmək üçün mənbə kimi* 45
**Mehman Abdullayev**
*Qarabağ xanlığında ali zümrənin tərkibi və statusu* 53
**Arzu Məmmədova**
*Qarabağ xanlığının əhalisinin say dinamikasi və etnik tərkibi (XVIII əsrin II yarısı-XIX əsrin I rübündə)* 61
**Zəhra İslamova**
*XVIII əsrdə Azərbaycan əhalisi və sayı haqqında* 69
**Elşən Aslanov**
*Qarabağnamələr"də Qarabağ xanlığının ərazi və əhali məsələləri* 75
**Asəf Hacıyev**
*Rusiyanın işğalından sonra Dərbəndin idarə edilməsi* 84
**Aydın Məmmədov**
*XIX əsrdə Azərbaycanda cərəyan edən siyasi proseslərin demoqrafik vəziyyətə təsiri* 91
**Ulduz Paşayeva**
*Bakı şəhər əhalisinin say dinamikası (1897-1917-ci illər)* 98

**Sitarə Mustafayeva**
*Zaqatala dairəsi məsələsi Azərbaycan və Gürcüstan münasibətlərində (1917-1922-ci illər)* 108
**Kəmalə Nəcəfova**
*Azərbaycan Xalq Cümhuriyyəti dövründə əhali problemi* 122
**Kəmalə Məmmədova**
*II Dünya müharibəsinin Azərbaycan əhalisinin say və tərkibinə təsiri* 130
**Aydın Məmmədov**
*Azərbaycan xalqının Vətənin müdafiəsi və ananın yenilməzliyi ilə bağlı inanclar sistemində tarixi demoqrafiya məsələləri* 141
**Leyla Vaqif qızı, Aida Ağayeva**
*Azərbaycan Respublikasının Şimal-Qərb bölgəsində əhalinin təhsil səviyyəsi (1991-2017-ci illər)* 149
**İlham Məmmədov**
*Tovuz rayonunun inzibati ərazi bölgüsü və əhalinin say dinamikası (1999 və 2009-cu il siyahiyaalma materialları əsasında)* 164

## III BÖLMƏ
## ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

**Hicran Mahmudova**
*Erkən dəmir dövründə Azərbaycanda miqrasiya prosesləri* 171
**Sevil Heydərova, Nigarxanım Qasımova**
*Azərbaycanın sirli tarixi abidəsi – Qobustan* 178
**Samirə Hadıyeva**
*XX əsrin sonu – XXI əsrin əvvəllərində Ahısqa türklərının repatriasiyasına mane olan amillər* 186
**Gülnarə Sədrəddinova**
*Azərbaycan və Türkiyə arasında Mərkəzi Asiya ilə bağli layihələr (XX əsrin sonu)* 196
**Arzu Abbasova**
*Müasir dövrdə Qarabağin maddi mədəni irsinin saxtalaşdırılmasına dair* 203
**Murad Əsədov**
*Cənubi Qafqazda sülhün və sabitliyin formalaşmasında Azərbaycan Respublikasının rolu* 211

# QARABAĞIN ZƏFƏR NƏĞMƏSİ



*Qarabağ qeyrətimdir,*
*Qarabağ zəfərimdir,*
*Tariximə yazılan,*
*Mənim Şah əsərimdir.*

*Azərbaycandır Qarabağ!*
*Canımda candır Qarabağ,*
*Yurdumun hər yeri gözəl,*
*Bir Gülüstandır Qarabağ!*

*Qarabağ Vətənim, Qarabağ elim,*
*Qarabağ cənnətim, xarı bülbülüm.*
*Topxana meşəsi, İsa bulağı,*
*Həm qışlağı gözəl, həm də yaylağı.*

*Dalğalanır üç rəngli bayrağım Qarabağda,*
*Dalğalanır qürurla hər təpədə, hər dağda.*
*Şəhərləri, kəndləri bayraqla bəzəmişik,*
*Bu günü, bu anları 30 il gözləmişik.*

*30 il bundan öncə bir görün oldu nələr,*
*Dünya düzənin pozan siyasi hadisələr.*
*SSRİ dağılır, erməni fəallaşır,*
*Qarabağımdan ötrü gecə-gündüz çalışır.*

*Zəbt eləyib tuturlar Vətənimin torpağın,*
*Doğma yurddan kəsirlər yerli xalqın ayağın.*
*Milyonlarla insanı yuvasından qovurlar,*
*Beynəlxalq aləm susur, ermənidən qorxurlar.*

*Otuz ildir, nigaran, zəfər gözləyirdim mən,*
*Rəhbərimdən, xalqımdan hünər gözləyirdim mən.*
*Düşünürdüm, ilahi, nədən Vətən dardadır?*
*Düşmən Qarabağdadır, igidlərim hardadır?*

*Torpaq Vətən, torpaq el, torpaq qürur, vüqardır.*
*Torpağın namus qədər yenilməz adı vardır.*
*Hər şeydən pay verərlər, torpaqdan pay verilməz,*
*İgid torpaqlar üçün qurban gedər, yenilməz.*

*Qarabağ əldən gedib, kafir meydan sulayır,*
*Namusum, qeyrətimsə məni yaman qınayır.*
*Qarabağın baş tacı Şuşa göz yaşı tökür,*
*Zalım, murdar erməni Qarabağımı sökür.*

*Sökür, daşıyır mənim elimin sərvətini,*
*Oğurlayıb çalışır artıra şöhrətini.*
*Azıxı qarət edir, divan tutur Zarıma,*
*Daha dözə bilmirəm, gəlir mənim zoruma.*

*Mədəniyyət yaratmaq hər xalqın işi deyil,*
*Terrorçu ermənilər barbardır, kişi deyil.*
*O nə bilir haqq nədir? Ədalət nə? Vəfa nə?*
*Ən çətin məqamlarda dönük çıxır vətənə.*

*Dinsiz, imansız kafir təhqir edir dinimi,*
*Deyirəm, qoy Allahım olsun onun qənimi,*
*Müqəddəs məscidimdə donuzların saxlayır.*
*Dağıdır məzarlığı, insanlığa baxmayır.*

*Nə qədər cinayətlər, nə qədər xəyanətlər,*
*Törədib bu erməni türk-müsəlmana qarşı.*
*Yüz illərdir sönməyir qanındakı kin, nifrət,*
*Yurdunda yaşadığı Azərbaycana qarşı.*

*Vətənin torpaqları yerlə yeksan edildi,*
*Daş üstə daş qalmadı, yanğınlar göyə çıxdı.*
*Talan etdi hər yeri, hər şey qarət edildi,*
*İnsanların ah-vayı, naləsi göyə çıxdı.*

*Bəs hardadır Cavanşir, Müsafirim, Babəkim?*
*Hardadır qoç Koroğlum, Cavad xan, qaçaq Nəbim,*
*Tarix boyu türk oğlu, igid türk olmuşam mən,*
*Bəs, bu necə oldu ki, meydan sulayır düşmən?*

*İmzalanan atəşkəs, ATƏT-in Minsk qrupu,*
*Yastıq idi baş altda, deyirdi dayan, gözlə,*
*Eşitməkdən yorulduq bu yalanı, bu gopu,*
*Guya həll edəcəkdi, danışıqlarla, sözlə.*

*Deyirdilər hərb yolu həll yolu ola bilməz,*
*Bacarmazsız, alınmaz, bu münaqişə bitməz.*
*Amma tarix yetirmiş zəmanə Qəhrəmanın,*
*Tarixə düşdü adı Ali Baş Komandanın.*

*Dedi: özüm bilirəm nəyi, necə və nə vaxt?*
*Otuz il keçıb artıq, mənə göstərməyin vaxt.*
*Bəs, bu müddət ərzində sizlər haradaydınız?*
*Qarabağ qan içində olanda ordaydınız?*

*Milyonlarla qaçqınım evsiz-eşiksiz qalıb,*
*Paşinyan yallı gedir, sanki qələbə çalıb.*
*Özgə torpaqlarında o dövlət yaradanda,*
*Sizlər haradaydınız? Yəqin, onun yanında.*

*Xocalı qırğınında niyə dillənmədiniz?*
*O qanlı soyqırımı bəs niyə görmədiniz?*
*Siz susduqca erməni daha da azğınlaşdı,*
*Yeni əraziləri tutmaqçun hazırlaşdı.*

*Baş Komandan söylədi: - sonadək gedəcəyik,*
*Qarabağı, Şuşanı biz azad edəcəyik.*
*Heç kim döndərə bilməz bizi haqq yolumuzdan,*
*Haqq, ədalət, hürr üçün vuruşan qolumuzdan.*

*Namərd basqılarından səbir kasamız daşdı,*
*Atəşkəs pozulması əks-hücuma yol açdı.*
*Xalqım ayağa durdu, bir nəhəngə çevrildi,*
*44 günlük döyüşüm böyük cəngə çevrildi.*

*Orduya səfərbərlik hələ heç başlanmamış,*
*Könüllü igidlərim düzüldülər sıraya.*
*Vətən, yurd sevgisinə hər kəs məəttəl qalmış,*
*Dövlət və xalq bir anda gəldilər bir araya.*

*Haqq, ədalət istədik, qalxdıq hürr savaşına,*
*Dəmir yumruğa döndük, endik düşmən başına.*
*Ordumuzun başında Ali Baş Komandanım*
*Ona həsr olunacaq neçə-neçə dastanım.*

*Tariximin ən gözəl, qızıllı səhifəsi,*
*Həsr olunacaq onun siyasət uğuruna.*
*Bütün qələbələrdə olan sözü, nəfəsi,*
*Siyasi, diplomatik və sərkərdə roluna.*

*Pilotsuz raketlərin pilotu oldu İlham,*
*Ordunun, həm də xalqın pir yeri oldu İlham.*
*Atadan miras qaldı ona bu keyfiyyətlər,*
*Ümummilli liderdən ən gözəl məziyyətlər.*

*Həm ata, həm də oğul çox sevdi yurdumuzu,*
*Onlar yaratdı bizim Müzəffər ordumuzu.*
*Düzgün siyasət ilə Azərbaycan qurdular,*
*Düşmənin niyyətinə ağır zərbə vurdular.*

*İlhamdan ilham aldı xalqım, ordum, əskərim,*
*Məhz onun sayəsində artdı milli hünərim.*
*Danışdı xalq dilində yumorla, məharətlə,*
*Xalqa olan sevgisin göstərdi cəsarətlə.*

*Dünya diplomatları mat qaldı zəkasına,*
*Dörd dildə söylədiyi məntiqli dühasına.*
*Təmkini, düşüncəsi dillərdə əzbər oldu,*
*Yağı düşmənə qarşı siyasi zəfər oldu.*

*30 müsahibəsi 30 ilə tuş gəldi.*
*Hər ölkədə sülhsevər insanlara xoş gəldi.*
*Düşmənlər isə yandı, az qaldı ki, çatlasın,*
*Ona qulaq asarkən ürəkləri partlasın.*

*Gözlədik intizarla hər gün onun çıxışın,*
*Qələbə xəbərlərin, o sevincli baxışın.*
*Biz ona heyran olduq, İlhamım danışanda,*
*Birləşib bir can olduq, İlhamım danışanda.*

*Nə qədər insanların, əskər analarının*
*Ürəyinə su səpdi, xeyir-duasın aldı.*
*Sadaladı kəndləri, qəsəbə, şəhərləri,*
*Dedi: - bunlar bizimdir, ordum qələbə çaldı.*

*Cəbrayıl bizimkidir, Füzuli bizimkidir,*
*Xudafərin körpüsü, Qubadlı bizimkidir.*
*Pənah xan tikdirdiyi, Qarabağın baş tacı*
*Məğrur Şuşa qalası yenə də bizimkidir.*

*Gözlədik hər sözünü, bəzən güldük, ağladıq.*
*Sevinc göz yaşlarını qələbəyə bağladıq.*
*Dillərdə əzbər oldu işlətdiyi kəlmələr,*
*Sevincli söyləmələr, danışmalar, gülmələr:*

*"Bəs nə oldu Paşinyan, Şuşada şərab içib,*
*Yallı gedib, oynayıb, yeni prezident seçib,*
*Onun and mərasimin Şuşada keçirirdin?*
*Namərd əməllərinlə bizə acıq verirdin?*

*Bəs hardadır "yenilməz", "qüdrətli" ordun sənin?*
*30 il yaratdığın ohanyan səngərlərin?*
*Sənin "cəsur" əskərin fərari oldu, qaçdı.*
*Səngərlər dağıdıldı, Qarabağa yol açdı.*

*Bunların müəllifi mənəm, bir də əskərim.*
*Tamam dağılacaqsız, budur sizə xəbərim.*
*Odur deyirəm sənə tərk et, get öz xoşunla,*
*Zor ilə yaratdığın yığma, qorxaq qoşunla.*

*Sənin pis niyyətinin qarşısını biz aldıq,*
*Ordunu it tək qovub, Cəbrayıla yol saldıq.*
*Məcbur olub qaytardın, Kəlbəcəri, Laçını",*
*İndi get ağla və yol olan-qalan saçını.*

*Döyüşdü Qarabağda igidlərim nər kimi,*
*Məhv etdi daşnakları qara qüvvə, şər kimi.*
*Qoyub qaçdı silahın, namusun, ləyaqətin,*
*Fərarilik eyləyib alçaltdı şəxsiyyətin.*

*Borcluyuq şəhidlərə, borcluyuq qazilərə,*
*Yaşatdı qələbənin sevincini bizlərə.*
*Həyatın qurban verdi, sinəsi səngər oldu,*
*Oğul olmaqdan başqa, qalib bir əskər oldu.*

*Hər an getdi irəli, geri addım atmadı,*
*Düşmən tamam məhv oldu, niyyətinə çatmadı.*
*Şuşa deyib dırmaşdı sıldırım qayaları,*
*Əlbəyaxa döyüşdə məhv etdi daşnakları.*

*Şuşa qələbəsiylə ordum dedi sözünü,*
*Sevindirdi, güldürdü bütün xalqın üzünü.*
*Qalib Baş komandana qürur, vüqar yaşatdı,*
*Qarabağ məsələsi öz həll yoluna çatdı.*

*Daşnak elə daşnakdı, namərdliyə əl atdı,*
*Zalım düşmənin gücü dinc əhaliyə çatdı.*
*Raket bombalarıyla dağıtdı dinc yerləri,*
*Viran qoydu evləri, qırdı dinc sakinləri.*

*Gecə-gündüz Tərtəri tutdu top atəşinə,*
*Gəncə, Bərdə tuş gəldi raketdən hücumlara.*
*Hücum nədir? Faciə, Xirasimo bəlasın*
*Yaşatdı məsum-məsum uyuyan insanlara.*

*94 dinc sakinim şəhid oldu burada,*
*404 nəfər insan ciddi xəsarət aldı.*
*Beynəlxalq təşkilatlar susdu, sanki görmədi,*
*Düşmən bu susqunluqdan yeni cəsarət aldı.*

*Analar ağlamadı oğul şəhid olanda,*
*Başsağlığı verəndə dedi: Vətən sağ olsun!*
*Ata göz yaşlarını zorla saxlayıb dedi:*
*"Vətən üçün döyüşdün, oğul üzün ağ olsun".*

*Dağıntılar altından çıxarılan insanlar,*
*Mal-mülk dərdi çəkmədi, dedi: Vətənə qurban.*
*Ordumuz dayanmasın, getsin ancaq irəli,*
*Malımız və canımız Azərbaycana qurban.*

*Arzusuna çatmadı mənfur, məkrli düşmən,*
*Xalq yurdu tərk etmədi, hər kəs yerində qaldı.*
*Xalqın bu duruşuna arxalanan ordumuz,*
*Ancaq irəli gedib, böyük qələbə çaldı.*

*Düşmənim tək deyildi, arxasında quyruqlar,*
*Bizə göndərirdilər ismarıclar, buyruqlar.*
*Lobbisi, diasporu dərhal qalxdı ayağa,*
*Başladı əvvəlki tək xalq üçün ağlamağa.*

*"Yazıq", "məzlum" erməni görün bir nə haldadır,*
*Etnik təmizləmədə, soyqırımda, dardadır.*
*Amandır, kömək edin, Avropa rəhbərləri,*
*Qırın əvəzimizdən bütün bu düşmənləri.*

*Məqsəd nədən ibarət? Rusiya da qoşulsun,*
*Azərbaycan ordusu Qarabağdan qovulsun.*
*Münaqişə həllini tapmasın heç bir zaman,*
*Türklərə, müsəlmana gəlin verməyək aman.*

*Bizi heç tək qoymadı türk qardaşım Ərdoğan,*
*Türkiyənin Başqanı, mərd, cəsur, igid insan.*
*Bütün dünya eşitdi bizim arxamızdadır,*
*Hərbi və diplomatik hər an yanımızdadır.*

*Bir millət, iki dövlət hayqırdı: - bir yerdəyik,*
*Lazım gəlsə düşmənlə hər yerdə döyüşdəyik.*
*Düşmən ağıla gəlsin, yoxsa məhv olacaqdır.*
*Təkcə Qarabağ deyil, vətənsiz qalacaqdır.*

*Vətənimin uğrunda ölənim, yaralanım,*
*Qanları, canlarıyla qoymadı paralanım.*
*Torpağımı, elimi günbəgün geri aldı,*
*Ermənini alçaltdı, ayaq altına saldı.*

*Qaldırdı ağ bayrağın, imdad dilədi bizdən,*
*Alçaq əməlləriylə daha da düşdü gözdən.*
*Qarabağ zəfəriylə Azərbaycan ucaldı,*
*Günahsız şəhidlərin qisasın belə aldı.*

*Bütün Türkiyə xalqı səs verdi səsimizə,*
*Yeni bir qüvvət gəldi döyüş nəfəsimizə.*
*Düşməni Qarabağda sonunadək ram etdik,*
*Xalqımın qələbəsin birlikdə bayram etdik.*

*Azadlıq meydanında keçdi hərbi nümayiş,*
*Ərdoğanla İlhamım dayandılar yan-yana.*
*Qoşa bayraqlarımız, hərbi sursatlarımız,*
*Od vurdu düşmənlərə, qaldılar yana-yana.*

*Meydanlarda nə böyük coşub-daşan izdiham,*
*Hər kəsin dilindədir Milli Ordumuz, İlham.*
*Milli ordu döyüşlə, İlham siyasətiylə*
*Vətəni azad etdi sonsuz cəsarətiylə.*

*Qələbəylə dünyaya tanıtdıq özümüzü,*
*Düşmənlərə dərs verdik, göstərdik gücümüzü.*
*Burada yada düşür şair Məmməd Arazım,*
*Qoy, onu təkrarlayım, mən də onun tək yazım:*

*Azərbaycan – mayası nur, qayəsi nur ki...*
***Hər daşından alov dilli ox ola bilər.***
***“Azərbaycan!”*** *deyiləndə ayağa dur ki,*
***Qalib xalqın*** *ürəyinə toxuna bilər.*

*Bu gün Zəfər günündür Qarabağ, Azərbaycan!*
*Nə qədər şəhid verdik, nə qədər töküldü qan?*
*Ölümsüz şəhidlərin qoy ruhları şad olsun,*
*Milli Müzəffər Ordum, Prezidentim sağ olsun!*

*Onlar yaşatdı bizə bu sevincli günləri,*
*Onların sayəsində qazandıq bu Zəfəri.*
*Yaşa Qarabağ Yaşa! Yaşa baş tacım Şuşa!*
*Yaşa qəhrəman xalqım! Azərbaycanım Yaşa!*

***Səidə Əli qızı***
***BDU-nun dosenti***

# I BÖLMƏ
# ELMİ-TƏDQİQAT LABORATORİYALARININ YARANMA TARİXİ VƏ FƏALİYYƏTİ

**UOT 94 (479.24)**

## AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏT TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ YENİ MƏRHƏLƏ

***Tarix Dostiyev***
***BDU, Tarix fakültəsi,tarix elmləri doktoru***
***dostiyev.tarikh@mail.ru***

*Məqalədə Bakı Dövlət Unversitetinin Azərbaycanın maddi mədəniyyət tarixi elmi-tədqiqat laboratiyası yaranması və fəaliyyəti və onun Azərbaycan elminə verdiyi töhfələrdən bəhs olunur. 1989-cu ildə təşkil olunan elmi-tədqiqat laboratoriyası universitetdə Azərbaycanın maddi mədəniyyət tarixini öyrənildiyi mərkəzə çevrilmiş, ETL-nın ekspedisiyaları kaçən əsrin 90-cı illərində respublikanın şimal-şərqində, şimal-qərbində və cənub-şərqində uğurlu arxeoloji və etnoqrafik çöl tədqiqatları aparmışdır. Nəticədə Azərbaycanın qədim və orta əsrlər arxeologiya üzrə unikal materiallar əldə edilmiş, cöl etnoqrafik materialları toplanmışdır. ETL-nın qarşısına qoyulan mühüm vəzifələrdən biri "Azərbaycanın maddi mədəniyyət tarixi" fundamental əsərinin yazılması idi. Həmin əsər 2009-cu ildə nəşr olundu.*

***Açar sözlər:*** *universitet, arxeologiya, etnoqrafiya, maddi mədəniyyət tarixi, tədqiqat.*

## *НОВЫЙ ЭТАП В ИЗУЧЕНИИ ИСТОРИЮ МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА*

*В статье рассматриваются возникновение и деятельность НИЛ Бакинского государственного университета «История материальной культуры Азербайджана», и ее вклад в азербайджанскую науку. Научно-исследовательская лаборатория организованной в 1989 г., стала значительным центром изучения материальной культуры азербайджанского народа в университете. Экспедиции НИЛ в 90-х гг. прошлого века вели успешные полевые исследования в северо-восточных, северо-западной и юго-восточной регионах республики. В результате были получены уникальные материалы по древней и средневековой археологии Азербайджана, были собраны полевые этнографические материалы. Одной из приоритетных задач НИЛ*

*была подготовка фундаментального издания «История материальной культуры Азербайджана, которая была выпущена 2009 г.*

***Ключевые слова:*** *университет, археология, этнография, история материальной культуры, исследование.*

## *THE NEW STAGE OF THE STUDY OF THE HISTORY AZERBAIJAN`S MATERIAL CULTURE.*

*Present article coming on the beginning and activities of the Scientific Research Laboratory of Baku State University and its contribution to Azerbaijani science. In 1989, the research laboratory "History of the Material Culture of Azerbaijan" was organized, which has become a significant center for studying the material culture of the Azerbaijani people at the Baku State University. Scientific Research Laboratory`s expeditions in the 90s. of the last century conducted the successful field research in the north-eastern, north-western and south-eastern regions of the republic. In resulting work, unique materials were obtained on the ancient and medieval archeology of Azerbaijan, and field ethnographic materials were collected. One of the priority purposes of the Scientific Research Laboratory was the preparation of the fundamental publication work "History of the Material Culture of Azerbaijan', which was released in 2009.*

***Keyword:*** *University, archaeology, ethnography, History of Material Culture, research*

**Giriş.** Maddi mədəniyyət hər bir xalqın maddi yaddaşını təmsil etməklə onun tarixinin çox mühüm hissəsi, qürur və özünütəsdiqləmə predmetidir. Maddi mədəniyyət nümunələri insanın müxtəlif növ tələbatını ödəmək üçün istehsal olunur və yaradılır. Konkret olaraq buraya alət və silahlar, nəqliyyat vasitələri, yaşayış evləri və müxtəlif təyinatlı tikililər, geyim və bəzələr, qab-qacaq, yemək və içkilər, və s. daxildir. Hər bir xalqın maddi mədəniyyəti yalnız ona məxsus spesifik – məhəlli cəhətləri və fərdi xüsusiyyətləri ilə seçilir. Bu isə bir etnosun mədəniyyətini digər etnosların mədəniyyətindən əsaslı surətdə fərqləndirir.

Azərbaycan xalqının çoxəsrlik emprik təcrübə, bilik və vərdişlərə əsaslanan maddi mədəniyyəti zəngin olub özəllikləri və milli xüsusiyyətləri bariz şəkildə nümayiş etdirir. Xalqımızın maddi mədəniyyətinin mühüm hissəsini arxeoloji irs təşkil edir. Arxeoloji irs – yenidən yaradılması və istehsalı mümkün olmayan, qorunub gələcək nəsillərə ötürülən keçmişin maddi obyektləri olub müasir dünyanın mühüm, unikal dəyərlərindəndir [1]. Arxeoloji irsin çox mühüm özəlliklərindən biri ən qədim və qədim mədəniyyətlərin incilərinin müasir cəmiyyətə bəxş etməsi ilə yanaşı sadə xalqın həyatını, gündəlik məişətini səciyyələndirən tapıntıların kütləviliyi, xalqların yüksəliş və tənəzzül dövrlərini dəqiq əks etdirən maddi

mədəniyyətin inkişaf dinamikası izləməyə imkan verməsindədir.

**Bakı Dövlət Universiteti Azərbaycanın maddi mədəniyyətini öyrənən ilk elmi mərkəz kimi**. Azərbaycanın maddi mədəniyyətinin, arxeoloji irsinin öyrənilməsi, toplanması və təbliğində Bakı Dövlət Universitetinin rolu danılmazdır. 1919-cu ilin dekabrında Bakı Universiteti nəzdində müsəlman xalqlarının, ilk növbədə Azərbaycanın maddi mədəniyyətinin öyrənilməsini qarşısına məqsəd qoymuş "Müsəlman Şərqini öyrənən cəmiyyət" yaradıldı. Cəmiyyət Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsini, xüsusilə orta əsr şəhərlərinin tədqiqini önə çəkmiş, Şabran şəhərinin xarabalıqlarının axtarılmasını, dahi Azərbaycan şairi Nizami Gəncəvinin qəbirüstü abidəsində və Bakı ətrafındakı tarixi abidələrdə arxeoloji tədqiqatlar aparılmasın; planlaşdırmışdı. Bakı universitetinin Tarix-filologiya fakültəsinin ilk əməkdaşlarından olan L.A.Zimin elmi tədqiqat işlərinin təşkilində fəal iştirak edirdi. V.V.Bartoldun sevimli tələbəsi olmuş, Mərkəzi Asiyada aparılan arxeoloji qazıntılarda təcrübə toplanmış L.A.Zimin 1920-ci ilin martında "Müsəlman Şərqini öyrənən cəmiyyət"in iclasında "Azərbaycanın arxeoloji, etnoqrafik və linqvistik cəhətdən tədqiqi üzrə suallar tətbiq etmək haqqında" məruzə ilə çıxış etmiş və bu məruzədə Azərbaycanın maddi mədəniyyətinin öyrənilməsi vəzifələri öz əksini tapmışdı [5, s. 191-193]. 1920-ci ilin Aprel hadisələri "Müsəlman Şərqini öyrənən cəmiyyət"in hazırladığı layihələri gerçəkləşdirməyə imkan verməsə də, Azərbaycanın maddi mədəniyyətinin öyrənilməsi üzrə ilk məqsədyönlü, elmi əsaslandırılmış sənəd oldu. Cəmiyyətin təqiblərə məruz qalmayan üzvləri sovet hakimiyyəti illərində Azərbaycanın maddi mədəniyyətinin tədqiqində yaxından iştirak etdilər.

**BDU-nun Azərbaycanın maddi mədəniyyət tarixi ETL-nın təşkili və xalqımızın maddi mədəniyyətinin öyrənilməsində yeni mərhələ.** Sovet hakimiyyətinin son illərində milli dirçəliş, müstəqillik uğrunda mübarizə zamanı Bakı Dövləti Universiteti, xüsusilə onun Tarix fakültəsi hərəkatın önündə oldu. Universitetin ilkin adı bərpa olundu, xalqımızın tarix və mədəniyyətinin dərindən öyrənilməsi, onun maddi mədəniyyətinin, etnogenez və etnik tarixinin problemlərinin obyektiv araşdırılması hədəflərdən biri kimi ön plana çəkildi. Təbii qarşıya qoyulan məqsəd, problemin həlli yazılı mənbələrin, arxeoloji, antropoloji, etnoqrafik, linqvistik, folklor materialların, dəlillərin toplanmasını və təhlilini tələb edirdi. Məqsədyönlü arxeoloji, etnoqrafik tədqiqatlara ehtiyac vardı. Bu istiqamətdə bir sıra keyfiyyət dəyişiklərini, uğurları təmin edən tədbirlər həyata keçirildi. Bakı Dövləti Universitetinin Tarix fakültəsində Azərbaycanın maddi mədəniyyət tarixi və Dünya azərbaycanlıları elmi-tədqiqat laboratoriyaları təşkil olundu, fakültədə tarixçi-şərqşünas, arxeoloq kadrların hazırlanması üçün ixtisaslar açıldı.

1989-cu ildə yaradılan Azərbaycanın maddi mədəniyyət tarixi elmi-tədqiqat laboratiyası "Azərbaycanın maddi mədəniyyəti" mövzusu üzrə tədqiqatlara başladı. Artıq 1990-cu ildə Azərbaycan Respublikasının şimal-şərq, şimal-qərb və cənub-şərq bölgələrinə arxeoloji-etnoqrafik ekspedisi-

yalar təşkil olundu, uğurlu çöl tədqiqatları aparıldı. Fakültə rəhbərliyi o zaman tədqiqatların prioritet istiqamətlərini tamamilə düzgün müəyyənləşdirərək, respublikanın tədqiqata zəif cəlb olunmuş, arxeoloji və etnoqrafik baxımdan yaxşı öyrənilməmiş, xüsusilə də sərhəd bölgələrini ön plana çəkdi. Keçid dövrünün bütün çətinliklərinə baxmayaraq 1993-cü ilədək ekspedisiyalar çöl tədqiqatlarını davam etdirdi. Həmin illərdə Bakı Dövlət Universiteti respublikada arxeoloji-etnoqrafik çöl tədqiqatlarını təşkil edən yeganə elmi müəssisə idi. Bir məqam da diqqətdən kənarda qalmamalıdır: həmin çöl tədqiqatlarında tarixçi tələbələr, arxeoloq tələbələr fəal iştirak edirdilər. Cəlilabad rayonunda Əliköməktəpəsi yaşayış yerində aparılan tədqiqatlar Azərbaycanın erkən əkinçilik mədəniyyətinə aid zəngin, mötəbər mənbələrin əldə olunması ilə nəticələndi, erkən metallurgiyanın meydana çıxması, dulusçuluqdakı uğurlar, Azərbaycanın cənub və şimal memarlıq ənənələrinin qarşılıqlı təsiri və digər məsələlə dair əsaslandırılmış fikirlər irəli sürməyə imkan verdi. Əliköməktəpəsi yaşayış yerində aparılan arxeoloji tədqiqatların nəticələri, aşkarlanan artefaktlar Muğanın erkən əkinçi əhalisinin maddi mədəniyyətinin öyrənilməsində bu gün də başlıca mötəbər mənbə olaraq qalır [14, s. 41-43].

BDU-nun Balakən rayonunda tədqiqat aparan arxeoloji-etnoqrafik ekspedisiyası Təpəçöl adlandırılan ərazidəki kurqanları öyrənmiş, e.ə. IV-II minilliklərinə aid maddi mədəniyyət qalıqları əldə etmiş, bölgənin məskunlaşmasına dair ilkin ehtimallar irəli sürmüşdür [7, s. 10-12].

Müşkür arxeoloji ekspedisiyasının Xaçmaz rayonununda tədqiq etdiyi Seyidli kurqanı eneolit dövrünün final mərhələsinə, Leylatəpə mədəniyyətinə aid arxeoloji qazıntılarla öyrənilən, Leylatəpə mədəniyyəti daşıyıcılarının kurqanaltı dəfn adətini sənədləşdirən ilk kurqan oldu [6;11]. Həmin kurqan qazıntısı həm də Ön Asiyadan Şimala Qafqaza miqrasiya xətlərinin müəyyənləşdirilməsi nöqteyi-nəzərdən böyük elmi əhəmiyyət kəsb edir. Mütəxəssislərin fikrincə e.ə.IV minilliyin ilk qərinəsində İkiçayarasında şəhər həyat tərzinin və dövlət qurumlarının bərqərar olması demoqrafik partlayış, İkiçayarasından miqrasiyalarla müşayiət olunurdu [12; 13]. Görkəmli arxeoloq, REA müxbür üzvü R.M.Munçayev bildirir ki, Şimali Qafqazdakı parlaq Maykop mədəniyyətinin mənşəyi məsələsi ilə məşğul olaraq bu mədəniyyətin Ön Asiya ilə bağlılığına əmin edim. Amma, əvvəllər səhv olaraq miqrasiyanın Qara dəniz vasitəsi ilə baş verdiyini düşünürdüm. Leylatəpə mədəniyyəti abidələrinin aşkarlanması miqrasiyanın İran, Azərbaycan, daha sonra Xəzərsahili Dağıstan və Çeçenistan vasitəsi ilə baş verdiyini ehtimal etməyə əsas verir [16, s.129]. Bəzi tədqiqatçılar hətta Leylatəpə, Maykop arxeoloji mədəniyyətlərinin ilk Qədim Şərq sivilizasiyalarının ucqarları, onun tərkib hissəsi hesab edir [17, c.281]. Belə qənaətə gəlmək olar ki, Azərbaycan, onun Xəzəryanı bölgəsi Yaxın Şərq sivilizasiyalarının nailiyyətlərinin Şərqi Avropaya ötürülməsində körpü rolunu oynamışdır və BDU-nun Müşkür ekspedisiyasının tədqiq etdiyi Seyidli

kurqanı həmin etnik-mədəni prosesləri sənədləşdirən arxeoloji abidələrdən biridir. Ekspedisiyanın Canaxır qədim şəhər yerində və onun nekropolunda apardığı tədqiqatlar da uğurlu olmuş, şəhər xarabalıqlarının Masaha-hunların şəhərlərindən birinə mənsubluğu ehtimalı irəli sürülmüşdür [3]. Ekspedisiyanın Seyidli və Salmanbulaq yaşayış yerlərində apardığı tədqiqatlar orta əsr kəndlərinin öyrənilməsi nöqteyi-nəzərindən böyük elmi əhəmiyyət kəsb edir. Seyidli yaşayış yeri Azərbaycanda tala tipli kənd məskəninin ilk dəfə arxeoloji qazıntılarla tədqiq olunduğu abidədir. Salmanbulaq yaşayış yeri isə ilk dəfə son orta əsrlərə aid geniş arxeoloji qazıntıtlar aparılan kənd tipli məskənin qalıqlarıdır [4, s. 37-44].

ETL-nın ekspedisiyalarının apardığı arxeoloji qazıntılar Universitetin "Arxeologiya və etnoqrafiya muzeyi"nin erkən əkinçilik mədəniyyəti, alban maddi mədəniyyəti və İslam arxeologiyası üzrə kolleksiyasını zənginləşdirdi. Ekspedisiyaların çöl tədqiqatlarında etnoqrafik materialların toplanmasına da böyük diqqət yetirilirdi və sonradan həmin materiallar ölkəmizin ayrı-ayrı bölgələrinin maddi mədəniyyətinin tədqiq olunduğu dissertasiyaların, monoqrafiyaların, eləcə də Azərbaycanın maddi mədəniyyəti tarixi üzrə ümumiləşdirilmiş monoqrafik əsərin yazılmasında istifadə olundu. Bu yöndə Habil Məmmədovun Muğanın, Arif Mustafayevin Azərbaycanın şimal-qərb bölgəsində yaşayan ingiloyların maddi mədəniyyətinə həsr olunmuş monoqrafiyalarını qeyd etmək olar [8; 9]. Laboratoriyanın çöl tədqiqatlarının uğuru 1991 və 1992-ci illərdə Azərbaycanın maddi mədəniyyəti üzrə respublikada aparılan tədqiqatların yekunlarına həsr olunmuş elmi konfransların Bakı Dövlət Universitetində keçirməsini şərtləndirdi. Həmin elmi toplantılar Azərbaycanın maddı mədəniyyət tarixi ETL-nın ciddi tədqiqat mərkəzinə çevrilməsinə və uğurlu tədqiqatlarına dəlalət edirdi. Arxeoloji ekspedisiyaların təşkilinin 1993-cü ildən sonra dayandırılması ETL-nın elmi tədqiqat işlərinə mənfi təsirini göstərdi. Bundan sonra əməkdaşlar əsasən yazılı mənbələr, elmi ədəbiyyat və fondlardakı materiallar üzrə araşdırmalarını davam etdirdilər. Bu araşdırmaların sonucu olaraq Azərbaycanın maddi mədəniyyəti üzrə fundamental monoqrafik əsər işıq üzü gördü [10]. Azərbaycanın maddı mədəniyyət tarixi ETL-nın tədqiqatlarının digər bir istiqaməti Azərbaycanın izahlı arxeoloji və etnoqrafik lüğətinin tərtibinə yönəlmişdi. Həmin araşdırmaların nəticəsi olaraq Azərbaycan arxeologiya elmində ilk dəfə olaraq Arxeoloji lüğət tərtib olunaraq çap olundu [2].

Diqqətəlayiq haldır ki, Tarix fakültəsinin "Antropologiya" ixtisasında bakalavr səviyyəsində maddi mədəniyyət tarixi fənni tədris olunur. Fənnin tədrisində Azərbaycan maddi mədəniyyətinin təqdim olunmasına xüsusi əhəmiyyət verilir və BDU-nun elmi tədqiqat laboratoriyasının nəşrə hazırladığı "Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat)" monoqrafiyası tələbələrə tövsiyyə olunan əsas ədəbiyyatlardandır.

**Nəticə.** BDU-nun Azərbaycanın maddi mədəniyyət tarixi ETL-nın

hazırladığı "Azərbaycanın maddi mədəniyyət tarixi" adlı sanballı tədqiqat əsərini Azərbaycan elminə böyük töhvə kimi dəyərləndirə bilərik. Belə ki, bu monoqrafik tədqiqat əsəri ilk növbədə xalqımızın emprik bilik, nəsillərin düşüncə və yaradıcılıq istedadını ehtiva edən, onun qürur və özünütəsdiqləmə mənbəyi olan maddi mədəniyyətinin zənginliyini nümayiş etdirir. Müasir inkişaf tədris və tədqiqatın vəhdətini tələb edir. Azərbaycanın maddı mədəniyyət tarixi ETL-nın çöl tədqiqatlarının bərpası, onun maddi-texniki bazasının gücləndirilməsi, Arxeologiya və etnoqrafiya kafedrasının professor-müəllim heyəti ilə müştərək tədqiqatların aparılması sözü gedən laboratoriyanın elmi potensialından səmərəli istifadə etməyə, ETL-nın inkişaf perspektivlərini genişləndirməyə və fakültənin, universitetin elmi-tədqiqat göstəricilərinə töhfəsini yüksəkməyə imkan yaradar.

***Ədəbiyyat siyahısı:***

1. *Approaches to the archaeological heritage. New York: Cambridge University press., 1984, 138 p.*
2. *Dostiyev T.M. Arxeoloji lüğət. Bakı: Elm və təhsil, 2018, 324 s.*
3. *Dostiyev T.M. Canaxır qədim şəhər yerinin tədqiqinin bəzi nəticələri haqqında // Qafqaz Albaniyasının etno-mədəni irsi. Bakı, 2001, s.74-75.*
4. *Dostiyev T.M. Salmanbulağı yaşayış yerinin arxeoloji tədqiqinin nəticələri // Azərbaycan arxeologiyası, 2000,№ 3-4, s.37-44.*
5. *Dostiyev T.M. Azərbaycanda islam arxeologiyası: başlanğıc, durumu, perspektivləri // Müsəlman Şərqində ilk parlamentli respublika. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubleyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı, 2018, 191-194.*
6. *Dostiyev T.M., Orucov A.Ş., Rəsulova M.M. "Müşkür" ekspedisiyasının 1990-cı il tədqiqatlarının hesabatı. Bakı, 1991.*
7. *İsmayılov Q.S., Dadaşov Ə.N., Ələkbərov R.A. Balakən rayonunda ilkin arxeoloji tədqiqatlar // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı, 1991, s. 10-12.*
8. *Məmmədov H. Muğanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Bakı universitetinin nəşr., 2001, 221 s.*
9. *Mustafayev A.N. İngiloyların maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı:Çaşıoğlu, 2005, 224 s.*
10. *Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2009, 420 s.*
11. *Müseyibli N.Ə. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətlər. Bakı: Nafta-Press, 2014, 140 s.*
12. *Амиров Ш.Н. Месопамско-кавказские связи IV-III тыс. до н.э. в свете климитаческих флуктуации // Краткие сообщения Института археологии РАН. М.:2014, вып. 233. С. 3-17.*

*13. Амиров Ш.Н. Дагестан: культурный процесс эпохи раннего и среднего голоцена в свете климатических колебаний // Кавказ в системе культурных связей Евразии в древности и средневековье. XXX «Крупновские чтения» по археологии Северного Кавказа». Материалы Международной научной конференции.. Карачаевск, 2018. с. 29-32.*

*14. Ахундов Т.И. Древнейшие обитатели муганской степи (традиция муганского неолита). Кавказ в системе культурных связей Евразии в древности и средневековье. XXX «Крупновские чтения» по археологии Северного Кавказа». Материалы Международной научной конференции. Карачаевск, 2018. с. 41-43.*

*15. Мунчаев Р.М., Амиров Ш.Н. Лейлатепинская культура и Кавказ //Кавказ как связующее звено между Восточной Европой и Передним Востоком: диалог культур, культура диалога (к 140-летию Александра А. Миллера): Материалы Международной научной конференции и Гумбольдт-лектория. Санкт-Петербург: ИИМК РАН; Евразийское отделение ДАИ; Невская книжная типография, 2015.–200 с.*

*16. Патриарх Кавказской археологии //Azərbaycan arxeologiyası, 2008,№ 1-2, s. 126-132.*

*17. Трифонов В.А. Западные пределы распространения майкопской культуры //Известия Самарского научного центра РАН, 2014, №3, с. 276-284.*

**UOT 94 (479.24); 001.89:378**

# AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏT TARİXİNİN TƏDQİQİNDƏ ELMİ-TƏDQİQAT LABORATORİYASININ ROLU

***Habil Məmmədov***
***Bakı Slavyan Universiteti, professor***
***habildos@mail.ru***

*Məqalədə Azərbaycanın maddi mədəniyyət tarixinin etnoqrafik materiallar əsasında öyrənilməsində Elmi – Tədqiqat Laboratoriyasının rolu nəzərdən keçirilir. Azərbaycanın maddi mədəniyyət tarixinin arxeoloji və etnoqrafik tədqiqatı ETL-nin əsas istiqamətini təşkil etmişdir. ETL Azərbaycan xalqının tarix boyu yaratdığı zəngin mədəniyyət abidələrinin öyrənilməsində mühüm uğurlar qazanmışdır ki, bu işdə laboratoriyaya uzun müddət rəhbərlik etmiş professor Arif Mustafayevin mühüm rolu olmuşdur.*

***Açar sözlər:*** *Azərbaycan, Elmi – Tədqiqat Laboratoriyası, arxeoloji, etnoqrafik, maddi mədəniyyət*

## *РОЛЬ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКОЙ ЛАБОРАТОРИИ В ИССЛЕДОВАНИИ КУЛЬТУРНОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА*

*В статье рассматривается роль Научно-исследовательской лаборатории в изучении истории материальной культуры Азербайджана на основе этнографических материалов. Основным направлением НИЛ является археологическое и этнографическое исследование истории материальной культуры Азербайджана.НИЛ добился значительных успехов в изучении богатых культурных памятников, созданных азербайджанским народом на протяжении всей истории, чему способствовал профессор Ариф Мустафаев.*

***Ключевые слова:*** *Азербайджан, научно-исследовательская лаборатория, археологическая, этнографическая, материальная культура*

## *ROLE OF SCIENTIFIC RESEARCH LABORATORY IN RESEARCH OF CULTURAL HISTORY OF AZERBAIJAN*

*The article considers the role of the Research Laboratory in studying the history of the material culture of Azerbaijan based on ethnographic materials. The main direction of the NIL is an archaeological and ethnographic study of the history of the material culture of Azerbaijan. The NIL has achieved significant success in studying the rich cultural monuments created by the Azerbaijani people throughout history, which was facilitated by Professor Arif Mustafayev.*

***Keywords****: Azerbaijan, Scientific-Research Laboratory, archeologycal, ethnographic, material culture*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 fevral 1989-cu il 76 saylı əmrinə əsasən BDU Tarix fakültəsinin nəzdində Azərbaycanın maddi mədəniyyət tarixi Elmi Tədqiqat Laboratoriyası (ETL) təsis olundu. ETL arxeoloji və etnoqrafik olmaqla iki istiqamətdə materialların toplanması, elmi dövriyyəyə cəlb edilməsi və əldə edilən elmi nailiyyətlərin oxucuya, elmi ictimaiyyətə çatdırılması məqsədilə ilə yaradılmışdı [4,s.123].

Belə bir elmi tədqiqat özəyinin yaradılması real həyati ehtiyacdan irəli gəlmişdir. Məlum olduğu kimi, XX əsrdə Azərbaycanın bir sıra bölgələrində səmərəli arxeoloji və etnoqrafik çöltədqiqat işləri aparılmış, olduqca dəyərli maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Həmin faktik materiallar əsasında ayrı-ayrı abidələrə həsr olunmuş xeyli monoqrafik əsər və çoxsaylı məqalələr yazılmışdır. Lakin pərakəndə səciyyə daşıyan bu tədqiqatların nəticələri əsasında Ümumazərbaycan məkanında ümumiləşdirici monoqrafik əsər yazılmamışdır. Ən başlıcası isə, həmin araşdırmalarda bu problemin tədqiqinin tipoloji aspekti nəzərdən qaçırılmış, əsas diqqət ənənəvi maddi-mədəni örnəklərin aşkarlanıb təsbit edilməsinə və onların təsviri şərhinə yönəldilmişdir. Bu səbəbdən də, xalqımızın minilliklər boyu yaratdığı nadir mədəni dəyərlərin, o cümlədən, zəngin maddi-mədəni örnəklərin təkamül tarixi, xüsusilə də, onun tipoloji zənginliyi yetərincə araşdırılmamışdır. Bu çatışmazlığın aradan qaldırılması zərurəti Azərbaycan xalqının zəngin maddi mədəni dəyərlərinin təkamül tarixini xüsusi olaraq, tipoloji baxımdan hərtərəfli və dərindən tədqiq edən əlahiddə bir elmi mərkəzin yaradılmasını labüd etmişdir. Belə bir elmi tədqiqat özəyinin yaranması lüzumu həm də ölkəmizin hüdudlarından kənarda elliklə məskunlaşmış soydaşlarımızın yaşadıqları tarixi ərazilərdə: Gürcüstan (Borçalı, Başkeçid, Pəmbək), Ermənistan (Göyçə, Dərələyəz, Vedi, Gümrü, Zəngəzur), Dağıstan (Dərbənd), İran, İraq, Türkiyə, Orta Asiyada arxeoloji və etnoqrafik çöl tədqiqat işlərinin aparılması zərurətindən irəli gəlirdi. Qürbətə düşmüş soydaşlarımız doğma vətənlərindən kənarda da qurub yaratmaq əzmlərini itirməmişlər. Əsaslı tədqiqata möhtac olan, lakin uzun müddət elmi araşdırma orbitindən kənarda qalan həmin etnomədəni dəyərlərin hərtərəfli və dərindən öyrənilməsi lüzumu tarixşünaslığımız üçün olduqca önəmli olub mühüm elmi əhəmiyyət kəsb edirdi. Ölkəmizin müstəqillik yoluna qədəm qoyması da bu işıqlı ümidləri xeyli dərəcədə artırırdı. Bütün bu amillər respublikamızın ali təhsil sistemindəki tədris müəssisələrinin nəzdində Azərbaycan xalqının maddi mədəniyyət tarixini xüsusi olaraq tədqiq və tədris edən mükəmməl bir elmi mərkəzin təsis olunmasını təkidlə tələb edirdi [3,s.3].

Laboratoriya qarşısında Universitetin tarixçi tələbələrini çöl-tədqiqat işlərinə cəlb etmək, arxeoloji qazıntı və etnoqrafik araşdırma işlərinin əməli təcrübəsini onlara mənimsətməkdən əlavə, həm də Azərbaycan xalqının

qədim və zəngin maddi mədəniyyətinin təkamül tarixini tipoloji baxımdan tədqiq edib monoqrafiya halında çapa hazırlamaq vəzifəsi qoyulmuşdur.

ETL qarşıya çıxan problemlərə baxmayaraq uğurla fəaliyyət göstərmişdir. 1990-cı illərin əvvəllərində Muğan, Müşkür və Alazan bölgələrinə arxeoloji və etnoqrafik ekspedisiyalar təşkil edildi. Həmin ekspedisiyaların 1990, 1991 və 1992-ci illərdə apardığı çöl tədqiqatlarının yekunlarına dair respublika miqyaslı üç elmi konfrans keçirilməsi təşkil edilmiş və tezislər nəşr edilmişdir. Lakin maliyyə çatışmazlığı üzündən 1993-cü ildən etibarən Elmi Tədqiqat Laboratoriyası tərəfindən həyata keçirilən ekspedisiyalar fəaliyyətini dayandırmağa məcbur olmuşdur.

Hesabatlarında da qeyd edildiyi kimi, sonrakı illərdə laboratoriyanın çöl-tədqiqat işləri üçün maliyyə məsrəfləri ayrılmadığından ekspedisiya və elmi səfərlərin olmaması (yaxud epizodik olması) arxeoloji və etnoqrafik materialların toplanmamasını və çap işlərini məhdudlaşdırmışdır. Hesabatlarından göründüyü kimi, laboratoriyada rəqəmsal fotoaparat, surət çıxaran aparatlar (skayner, printer), «noutbuk», maqnitofon, diktofon və s. kimi texniki avadanlıqların çatışmaması onun elmi-tədqiqat işlərinə mənfi təsir göstərmişdir [1,3].

Buna baxmayaraq, ETL bu günə kimi öz fəaliyyəti müddətində Azərbaycanın maddi mədəniyyət tarixinin tədqiqində, ölkəmizin tarixi etnoqrafiyasının öyrənilməsində əhəmiyyətli rol oynamışdır. Belə ki, laboratoriya əməkdaşları respublikamızın Muğan, Şəki – Zaqatala, Qax, Şirvan, Şabran, Cəlilabad və digər bölgələrinin tarixi etnoqrafiyasının tədqiqi sahəsində, Azərbaycan sənətkarlığının tarixi-etnoqrafik aspektdən dərindən və zəngin çöl materialları əsasında öyrənilməsi sahəsində [2] ciddi uğurlar qazanmışdır. Ən böyük nailiyyət təbii ki, Azərbaycan xalqının maddi mədəniyyət tarixinin etnoqrafik materiallar əsasında təsnifatına, etnotipoloji cəhətdən fundamental tədqiqinə həsr edilmiş monoqrafiyanın [3] çap edilməsidir. Azərbaycanın tarixi etnoqrafiyasında bu sayaq tədqiqat ilk dəfə aparılmışdır. Əsərdə xalqımızın ötən nəsilləri tərəfindən yaradılmış maddi mədəni sərvətlərin tipoloji növləri ilkin olaraq tam və əhatəli şəkildə araşdırılmışdır. Maddi mədəniyyət nümunələri təkamülün dərin qatlarını izləmək üçün əsərdə etnoqrafik faktlarla yanaşı, yeri gəldikcə, digər məxəzlərdən, xüsusilə arxeoloji, yazılı mənbə, terminoloji, sənətşünaslıq məlumatlarından da istifadə olunmuşdur.

Bu uğurların əldə edilməsində ETL-in fəaliyyətə başladığı ilk gündən son illərədək ona rəhbərlik edən, görkəmli alim Arif Nadir oğlu Mustafayevin əvəzedilməz rolu olmuşdur. Buna görə də unudulmaz elmi rəhbərim Arif müəllimin Azərbaycanın maddi mədəniyyət tarixinin tipoloji baxımdan tədqiq olunması, xalqımızın tarixi etnoqrafiyasının öyrənilməsi sahəsindəki xidmətlərini minnətdarlıqla xatırlamağı özümə borc bilirəm.

Azərbaycanın görkəmli etnoqrafı və tarixçi-alimi Arif Mustafayevin Azərbaycan etnoqrafiyasının öyrənilməsi və ənənələrinin yaşadılması

istiqamətində cəfakeşliyi, xalqımızın məişət və mədəniyyət məsələlərinin araşdırılması istiqamətində bitib tükənməyən sevgisi, daim yenilik əldə etmək şövqü ilə alışıb yanan axtarışları illər keçdikcə öz səmərəsini verməyə başlamışdır. O, şəhərbəşəhər, kəndbəkənd, elbəel gəzib adət-ənənələrimizi qələmə alıb əbədiləşdirir, yaşlı nəsildən eşitdiklərini qələmə alıb tarixiləşdirir, əldə etdiyi qiymətli məlumatları müqayisə edir və empirik bilik süzgəcindən keçirərək tarixi irsimizin zənginləşdirilməsində yaxından iştirak etmişdir.

A.Mustafayev 1970-ci ildə "Şirvanın maddi mədəniyyəti" mövzusunda namizədlik, 1993-cü ildə "Azərbaycanda sənətkarlıq" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdi, Azərbaycanın tarixi etnoqrafiyasının iki fundamental problemi – maddi mədəniyyət tarixi və sənət istehsalı üzrə 50 ilə yaxın elmi tədqiqat işi aparmışdır. Bu illər ərzində həmin problemlərə dair külli miqdarda etnoqrafik çöl materialı, ədəbiyyat faktları və arxiv materialları aşkar edib elmi dövriyyəyə daxil etmişdir. Həmin faktik materialların araşdırılması nəticəsində müəllif Azərbaycan xalqının maddi mədəni irsinə və zəngin sənət istehsalına dair tarixşünaslığımız üçün olduqca önəmli əhəmiyyət kəsb edən mühüm elmi qənaətlərə gəlmişdir. A.Mustafayev Etnoqrafiyanın ayrı-ayrı problemlərinə həsr olunmuş 250-dən çox elmi əsərin müəllifidir. Bunların arasında "Şirvanın maddi mədəniyyəti" (Bakı, 1977); "Şirvanda daşişləmə sənəti" (Bakı, 1987); "Şəki sənətkarlar diyarıdır" (Bakı, 1987); "Azərbaycanda şərbaflıq sənəti" (Bakı, 1991); "Azərbaycanda sənətkarlıq" (Bakı, 1999 və 2001-ci il nəşrləri); "İngiloyların maddi mədəniyyəti" (Bakı, 2005) və "Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat).(Bakı, 2009) xüsusi yer tutur.

Bizə nadir bir elmi irs əmanət etmiş professor Arif Mustafayevin Bakı Dövlət Universiteti ilə bağlılığı 1989-cu ildə Tarix fakültəsi nəzdində Azərbaycanın Maddi-Mədəniyyət tarixi Elmi Tədqiqat Laboratoriyasının qurucu müdiri olması ilə başlamışdır. 1990-cı ildən etibarən BDU-nun Tarix fakültəsində və onun Şəki filialında Azərbaycan etnoqrafiyası fənnindən mühazirə və məşğələlər aparmış, bir sıra ixtisas kurslarını tədris etmişdir.

1989-cu ildən başlayaraq o, Bakı Dövlət Universitetində arxeoloji və etnoqrafik çöl-tədqiqat işləri aparmaq və tələbələri ekspedisiyalara cəlb etmək üçün ETL-in maddi-texniki bazasını yaratmaqdan əlavə, həm də elmi-texniki kadr heyətini formalaşdırmışdır. Laboratoriyada A.Mustafayev bütün səylərini "Azərbaycanın maddi mədəniyyət tarixi" monoqrafiyasının yazılıb çapa hazırlanmasına, Azərbaycanın maddi mədəniyyətinin tarixi-etnoqrafik aspektdən öyrənən aspirant və doktorantların yetişdirilməsinə yönəltmiş, bir çox magistr və namizədlik dissertasiyalarına elmi rəhbərlik etmişdir. Arif müəllimin ETL-də ilk aspiarıntı olmağımla, belə bir istedadlı tədqiqatçının məktəbində yetişməyimlə fəxr edirəm.

***Ədəbiyyat siyahısı:***

*1. Arxeologiya və Etnoqrafiya kafedrası nəzdində Azərbaycanın Maddi Mədəniyyət Tarixi ETL-in 2009-cu il üçün elmi-tədqiqat işlərinin Hesabatı, 10 s.*
*2. Mustafayev A. Azərbaycanda sənətkarlıq (tarixi-etnoqrafik tədqiqat). Bakı, Nurlan, 2001*
*3. Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2009, 420 s.*
*4. Hacıyev S.T. və Süleymanov R.C. Tarix fakültəsinin tarixi (1919-2009). Bakı, 2009.*

**UOT 94 (479.24); 930:314**

# DÜNYA AZƏRBAYCANLILARI ELMİ TƏDQİQAT LABORATORİYASINDA AZƏRBAYCAN DİASPORUNA DAİR TƏDQİQATLAR VƏ NƏTİCƏLƏR

***Səidə Quliyeva***
***BDU, Tarix fakültəsi, böyük elmi işçi, dosent***
***saidaquliyeva@bsu.edu.az***

*Məqalədə Bakı Dövlət Universitetinin Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyasında aparılan tədqiqatlar və Azərbaycan diasporunun tədqiqində əldə edilən nəticələr araşdırılır. Bu məqsədlə ETL əməkdaşları tərəfindən yazılmış respublikada və xaricdə dərc edilmiş 30-a yaxın məqalə və 2 monoqrafiya tədqiqata cəlb edilmişdir. Araşdırma nəticəsində məlum olur ki, bu tədqiqatlar əhali siyahıyaalma materialları və diasporanın fəaliyyətinə dair məlumatlar əsasında aparılmışdır. Tədqiqatlarda əsasən Rusiya Federasiyası, Özbəkistan Respublikası və Qazaxstanda yaşayan azərbaycanlıların təşkilatlanması və fəaliyyəti barədə, həmçinin onlar haqqında tarix-demoqrafik vəziyyəti barədə bir sıra vacib mövzuları əhatə etmişdir. Bu vaxta qədər aparılan tədqiqatların müəyyən bir dövrü əhatə etməsi yeni tədqiqatları zəruri edir.*

***Açar sözlər:*** *Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyası, Azərbaycan diasporu, xaricdə yaşayan azərbaycanlıların tarixi demoqrafiyası, Gülzar Novruzova*

## *RESEARCH AND RESULTS ON THE DIASPORA OF AZERBAIJAN IN THE SCIENTIFIC RESEARCH LABORATORY OF WORLD AZERBAIJANS*

*The article examines the research conducted by Baku State University's World Azerbaijanis: historical demography scientific research laboratory and the results obtained in the study of the Azerbaijani Diaspora. For this purpose, about 30 articles and 2 monographs written by SRL employees and published in the country and abroad were included in the study. As a result of the research, it is clear that the study is based on the census of the population and the activities of the diaspora. The study covers a series of important issues, including the organization, activities and historical and demographic situation of Azerbaijanis living in the Russian Federation, Uzbekistan and Kazakhstan. The research, which was conducted for a certain period, makes an indispensable new research.*

***Keywords:*** *World Azerbaijanis: historical demography research laboratory, Azerbaijani Diaspora, historical demography of Azerbaijanis living abroad, Gulzar Novruzova*

### *РЕЗУЛЬТАТЫ И ИССЛЕДОВАНИЯ ПО ДИАСПОРЕ АЗЕРБАЙДЖАНА В НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКОЙ ЛАБОРАТОРИИ АЗЕРБАЙДЖАНЦЫ МИРА*

*В статье рассматриваются исследования по теме азербайджанской диаспоры, проведенные в научно-исследовательской лаборатории Азербайджанцы мира: историческая демография Бакинского Государственного Университета. Для этого в исследование было вовлечены около 30 статей и 2 монографии, написанные сотрудниками НИЦ и опубликованные в стране и за рубежом. В результате исследований становится ясно, что иследование основано на переписи населения и материалах деятельности диаспоры. Исследование охватывает ряд важных тем, включая организацию, деятельность и историко-демографическое положение азербайджанцев, проживающих в Российской Федерации, Узбекистане и Казахстане. Исследования, которые были проведены определенного периода, делает необходимым новое исследование.*

***Ключевые слова:*** *азербайджанцы мира: историческая демография научно-исследовательская лаборатория, азербайджанская диаспора, историческая демография азербайджанцев проживающих за рубежом, Гульзар Новрузова*

**Giriş.** XX əsrin sonlarında Azərbaycanda milli hərəkat bütün dünyanın diqqətini cəlb etmiş və müxtəlif dövlətlərdə yaşayan azərbaycanlılar bu prosesə maraq göstərmiş, yaşadıqları ölkədə müxtəlif tədbirlər keçirtməyə və birliklər yaratmağa səy göstərmişdilər. SSRİ-nin dağılması ilə Azərbaycan dünya azərbaycanlılarının siyasi mərkəzinə çevrilmişdi.

Bu proseslər nəticəsində tarix elmində bir sıra yeni istiqamətlər və yeni mövzular tədqiqata cəlb edilməyə başladı. Dünya azərbaycanlıları və xaricdə yaşayan azərbaycanlılar anlayışı yaranır, onların problemləri, miqrasiya səbəbləri, yaşadıqları dövlətlərin həyatında tutduqları mövqe, Azərbaycanla əlaqələri və digər məsələlər diaspora mövzusunu azərbaycanlıların tarixi-demoqrafik tədqiqat istiqamətlərindən biri kimi aktual edir [1, s.7-11; 11; 23, s.17]. Diaspora fəaliyyəti müasir dövrdə ölkələr arası əlaqələrin inkişafında mühüm əhəmiyyətə malikdir. Bir sıra dövlətlərdə azərbaycanlıların ictimai-siyasi həyatda iştirakı, onların sayı və yerli qanunvericilik diaspora təşkilatları yaratmaqlarına imkan verir.

Xaricdə yaşayan azərbaycanlıların diaspora fəaliyyətinin formalaşmasında görkəmli dövlət xadimi və siyasətçi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin (1993-2003) mühüm rolu olmuşdur. Tədqiqatlarda bu mövzu hərtərəfli araşdırılmış, Heydər Əliyevin xarici ölkələrə səfərləri və Dünya azərbaycanlılarının I konqresində diaspora nümayəndələri ilə görüşləri, tövsiyələri, diaspora üçün müəyyən etdiyi vəzifələr,

müxtəlif məsələlərin həlli üçün təklifləri təhlil edilmişdi [6; 27-52; 7; 20].

Müstəqillik illərində Azərbaycanda bir sıra elm və təhsil qurumlarında diaspora mövzusunda tədqiqatlar aparılır. Bakı Dövlət Universitetinin Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyasında aparılan tədqiqatlar həmin tədqiqatlardan əsasən demoqrafik xüsusiyyətlərin tədqiqinə görə fərqlənir. Çünki diaspora fəaliyyətindən bəhs edərkən bu prosesdə iştirak edən və təşkilatların təmsil etdiyi əhalinin də tədqiqata cəlb edilməsi zəruridir.

Tarix fakültəsində 1989-cu ildə yaradılan Azərbaycanlıların tarixi-demoqrafiyası elmi tədqiqat laboratoriyasının fəaliyyəti 1994-cü ildə Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyası adı bərpa edilmişdir. Laboratoriyanın adındakı dəyişiklik məhz müstəqillik illərinin tələbi olaraq, bu istiqamətdə mövzuların tədqiq edilməsini də nəzərdə tuturdu. Yarandığı dövrdən başlayaraq ETL-in təsdiq edilən elmi planlarına uyğun olaraq, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və fəaliyyəti barədə, həmçinin onlar haqqında tarix-demoqrafik tədqiqatlar aparılır [2, 178-186].

ETL-in 30 illik fəaliyyətini təhlil edərkən, Azərbaycan diasporu barədə tədqiqatların təhlilinə ehtiyac vardır. Məqalədə məhz diaspora barədə tədqiqatlar təhlil edilir. Aparılan təhlil yekunlaşan tədqiqatları və gələcək üçün araşdırılmalı mövzuları aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. ETL-də yerinə yetirilən tədqiqatlar məqalədə ölkələr üzrə yarımbaşlıqlarda ümumiləşdirilmişdir.

**1. Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-də Azərbaycan diasporaları barədə tədqiqatlar.** Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyasında Rusiya Federasiyası, Özbəkistan, Qazaxstan, Ukrayna və digər ölkələrdə fəaliyyət göstərən diaspora təşkilatları barədə mövzular tədqiq edilmişdir. Azərbaycanlıların ən çox diaspora təşkilatları yaratdıqları və fəal olduqları ölkə Rusiya Federasiyasıdır. Bu səbəbdən də əsas tədqiqatların bu ölkə ilə əlaqədar olması təbiidir. Qeyd edək ki, tədqiqatlarda əsasən keçmiş SSRİ ərazisində azərbaycanlıların müxtəlif mədəni və siyasi birliklər yaratması və diaspora fəaliyyəti zamanın tələbi kimi qiymətləndirilmişdir. Tədqiqatlar əsasən bu dövlətlərdə müstəqillik dövründə baş verən prosesləri əhatə etmişdir.

Azərbaycan diasporuna aid mövzuların tədqiqi ETL-in aparıcı elmi işçisi dos.Gülzar Novruzovanın (1959-2017) adı ilə bağlıdır. Müəllifin bu mövzuda ilk tədqiqatı 2002-ci ildə Bakı Universitetinin Xəbərləri jurnalında dərc edilmişdir [28, 141-150]. G.T.Novzurova Rusiya Federasiyasında yaşayan azərbaycanlıların tarixi-demoqrafiyası barədə tədqiqatlar ilə kifayətlənməmiş, eyni zamanda xaricdə və respublikada dərc etdirdiyi Azərbaycan diasporuna aid ümumiləşdirici tədqiqatların, MDB, Avropa və Amerika, Yaxın Şərq ölkələrindəki diaspora fəaliyyətinə, həmçinin tarixi-demoqrafik proseslərə aid tədqiqatların da müəllifi olmuş, diaspor anlayışının izahını

verməklə yanaşı Azərbaycanda bu sahədə tədqiqatların vacibliyi və vəzifələrini müəyyən etmişdi [2, 265-286; 9; 11; 15, 184-189].

**1.1.Rusiya.** "Rusiya Federasiyasında Azərbaycan diasporu (tarixi-demoqrafik tədqiqat)" mövzusu aparıcı elmi işçi dos.Gülzar Novruzova (1959-2017) tərəfindən yerinə yetirilmişdir. Onun mövzu ilə əlaqədar topladığı materiallar və əldə etdiyi nəticələri "Rusiya Federasiyasında Azərbaycan diasporu (tarixi-demoqrafik tədqiqat)" mövzusunda dissertasiyasının əsasını təşkil etmişdir. Dissertasiya tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün müdafiə edilmiş və alimlik dərəcəsi alınmışdır. G.T.Novruzova bu sahədə ilk tədqiqatların və ilk müdafiə olunmuş dissertasiyanın müəllifidir [10]. Müəllifin bu mövzuda nəşr edilmiş 2 monoqrafiyası və 26 məqaləsi (6 məqalə və tezis xaricdə) mövzunun geniş auditoriyaya təqdim edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müəllifin "Кто есть кто в азербайджанской диаспоре России" ("Rusiya diasporasında kim kimdir") adlı ilk monoqrafiyasında məhz diasporanın formalaşması, fəaliyyət istiqamətləri, diaspora nümayəndələrinin sosial strukturu araşdırılmış, diaspora nümayəndələri barədə məlumat verilmişdir [23]. Monoqrafiya Rusiyadakı diaspora nümayəndələrinə aid ilk sorğu kitabı kimi xüsusilə əhəmiyyətlidir. Bu mövzu Azərbaycan tarixşünaslığında ilk tədqiqatdır. Tədqiqat Dünya azərbaycanlılarının həmrəylik gününün elan edilməsinin 25 illiyinə və xaricdə yaşayan azərbaycanlılara ithaf edilmişdir. Monoqrafiyanın maraqlı xüsusiyyətlərindən biri vaxtı ilə Azərbaycan SSR-in vətəndaşı olan nəslin övladlarının yeni Rusiyanın vətəndaşı kimi cəmiyyətə inteqrasiyası və qazandıqları mövqeni göstərməkdir. Müəllif bu məsələni hərtərəfli aça bilmiş, onların yaşadıqları dövlətin ictimai-siyasi həyatında iştiraklarını və eyni zamanda azərbaycançılıq ideologiyasını yaşatdıqlarını göstərə bilmişdir.

Monoqrafiyada Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinə təkliflər də yer almışdır [23, 58-60].

"Азербайджанская диаспора в Российской федерации: проблемы исторической демографии" ("rusiya federasiyasında Azərbaycan diasporu: tarixi demoqrafiya problemləri") adlı digər monoqrafiyada isə post-sovet Rusiyasında azərbaycanlıların diaspora fəaliyyəti və tarixi-demoqrafik prosesləri tədqiq edilmişdir. Bu tədqiqat tədqiq edilən mövzulara görə Azərbaycan və Rusiya tarixşünaslığında ilk tədqiqat hesab edilir. Mövzunun tədqiqi üçün əsas mənbə kimi 1989-cu il Ümumittifaq, 2002 və 2010-cu il Rusiya əhali siyahıyaalma materiallarından istifadə edilmiş, tarixi-demoqrafik proseslər Rusiya Federasiyasının subyektləri üzrə araşdırılmışdır. Monoqrafiyanın müsbət cəhətlərindən biri mənbələr əsasında hazırlanmış 50 səhifə həcmində əlavələrdir. Müəllif tərəfindən tərtib edilmiş cədvəllər, diaqram və qrafiklər mövzu ilə maraqlanan tədqiqatçılar üçün dəyərli materialdır və daha sonra aparılacaq tədqiqatlara imkan yaradır [12].

Rusiyadakı Azərbaycan diasporunun təşkilatlanması, onların daxilin-

dəki problemlər tədqiqatlarda diqqət mərkəzində olmuşdur. Azərbaycanlıların Rusiya Federasiyasında diaspora fəaliyyəti hərtərəfli araşdırılmış, problemləri təhlil edilmiş, mövcud potensiala uyğun görəcəkləri işlər üçün təkliflər verilmişdi. Diaspora təşkilatlarının müstəqillik illərində keçirdikləri bütün tədbirlər tarixinə, məzmununa və təşkil olunduqları regiona uyğun olaraq hərtərəfli təhlil edilmişdi. Bu tədbirlərdə Rusiya və Azərbaycan əlaqələrinin inkişafı, Qarabağ problemi, problemin həllində Rusiyanın rolu, diasporanın problemin həllinə təsiri və informasiya müharibəsi, müxtəlif elmi-mədəni məsələlər müzakirə edilmiş, milli bayramlar, tarixi əhəmiyyətli günlər qeyd olunmuşdur [13,91-100; 14,132-139; 19,184-191; 29,70-90].

Rusiya Federasiyasında yaşayan azərbaycanlıların diaspora fəaliyyəti barədə tədqiqatların təhlilində belə qənaətə gəlinir ki, azərbaycanlılar burada ictimai-siyasi həyatın bir hissəsinə çevrilmiş, hər iki dövlət arasında əlaqələrin inkişafına öz töhfələrini verməyə çalışırlar. Azərbaycanlıların seçkilərdə öz namizədlərini irəli sürməsi, müxtəlif elmi, mədəni və digər kütləvi tədbirlərdə iştirak və özlərinin belə tədbirlər təşkil etmələri barədə faktlar tədqiqata cəlb edilmişdir. "Кто есть кто в азербайджанской диаспоре России" monoqrafiyasında Rusiya elitası haqqında verilən məlumatlar bu fikri faktlarla təsdiq edir. Monoqrafiyada Rusiyanın ictimai-siyasi həyatında fəal iştirak edən intellektual elita nümayəndələri – dövlət məmurları, elm və incəsənət xadimləri, həkimlər, neftçilər, mühəndislər və digər sahələrdə çalışan 600 nəfər diaspora nümayəndəsi haqqında məlumat verilir [23, 109-211].

Rusiya Federasiyasında yaşayan azərbaycanlılara aid mətbuat və internet resursları G.T.Novruzova tərəfindən xüsusi diqqətlə təhlil edilmiş, hər bir diaspora təşkilatına aid KİV, onların maliyyə imkanlari, KİV-də əks olunan məsələlərin təhlil edilməsi müsbət qiymətləndirilməlidir [19; 184-191; 22, 65-75; 27, 220-226].

Mövzu ilə əlaqəli mənbələr və tədqiqatlar da ayrıca araşdırılmış və monoqrafiyada bu mövzu xüsusi olaraq təhlil edilmişdi [12].

Dos.G.T.Novruzovanın tədqiqatlarında Rusiyada yaşayan azərbaycanlıların say dinamikası, yerləşmələri (məskunlaşma), ümumi demoqrafik xüsusiyyətləri, məşğulluq vəziyyəti, çalışdıqları sahələr, yerli qanunlara əməl etmələri, Azərbaycanla əlaqədar məsələlərdə mövqeləri müxtəlif dövrlər üzrə hərtərəfli tədqiq edilmişdir. Ayrı-ayrı məqalələrdə siyahıyaalma materialları təhlil və müqayisə edilmiş, Rusiyada yaşayan azərbaycanlılarının siyahıyaalma zamanı milli mənsubiyyət göstəricilərinin və ailə tərkibinin dəyişməsi, müstəqillik illərində Rusiyaya miqrasiyalar ideoloji və sosial-iqtisadi tərəfdən tədqiq edilmişdir [16, 78-82; 12; 21, 230-235; 24, 41-46; 25, 110-122]. Tədqiqatçı müəyyənləşdirmiş ki, sosial-iqtisadi dayanaqlı və siyasi fəal yaş qrupu 30-39 yaş arası olan azərbaycanlılardır. Eyni zamanda, azərbaycanlıların daha çox məskunlaşdıqları federal dairələr müəyyənləşdirilmiş, həmin dairələrinin etnik tərkibi müqayisə edilmişdir.

SSRİ dağıldıqdan sonra Rusiyada yaşayan müttəfiq respublikaların

vətəndaşlarına münasibət, onların hüquqlarının müdafiəsi, əmək, təhsil və yaşayış problemləri aktual məsələyə çevrilmişdi. Qafqazdan və Mərkəzi Asiyadan olan miqrantlara münasibətdə fərqli yanaşmalar formalaşırdı. Tədqiqatlarda azərbaycanlıların bu prosesdə qarşılaşdıqları problemlər və onların həlli məsələləri də araşdırılmışdır [12; 17, 124-131; 26, 132-139].

**1.2. Ukrayna.** Ukraynada yaşayan azərbaycanlılara aid tədqiqatlar dos.G.T.Novzuzova tərəfindən aparılmışdır. Müəllifin bu mövzuda hazırladığı məqalələr Dünya azərbaycanlıları: tarix və müasirlik toplusunun III buraxılışında və Ukraynada keçirilən "Пути и проблемы развития человеческого общества" ("İnsan cəmiyyətinin inkişaf yolları və problemləri) mövzusunda beynəlxalq konfransda ictimaiyyətə təqdim edilmişdir [2, 277-280; 18, 195-198].

Tədqiqatlarda göstərilir ki, MDB dövlətləri arasında azərbaycanlıların ilk milli birliyi 1999-cu il martın 21-də yaradılmış Ukrayna Azərbaycanlıları Konqresidir. Ukraynada fəaliyyət göstərən diaspora təşkilatları konqres vasitəsilə mərkəzləşmiş fəaliyyət göstərirdilər.

Ukraynada yaşayan azərbaycanlılara aid tədqiqatlarda azərbaycanlıların bu ölkədə məskunlaşması, onların say dinamikası, şəhər və kəndlərdə yerləşməsi mövzuları da tədqiq edilmiş, yerləşdikləri inzibati vahidlər müəyyən edilmişdir. Tədqiqat nəticəsində məlum olur ki, azərbaycanlılar əsasən Donetsk, Xarkov və Dnepropetrovk vilayətlərində məskunlaşmışlar. Ukraynada keçirilən 2001-ci il əhali siyahıyaalma materiallarında azərbaycanlılara aid verilən məlumatlar digər illərə aid məlumatlarla müqayisə edilmişdir. Məsələn, 1989-cu il Ümumittifaq siyahıyaalma materialları ilə müqayisə nəticəsində məlum olur ki, keçən müddətdə azərbaycanlılarının sayı artmışdır. Ukraynada yaşayan azərbaycanlıların 53%-i siyahiyaalma zamanı ana dili olaraq Azərbaycan dilini, 7,1%-i Ukrayna dilini, 37,6%-i rus dilini göstərmişdir.

Siyahiyaalma materiallarını tam əldə etmək imkan olmadığından digər məsələləri aydınlaşdırmaq mümkün olmamışdır [18, 195-198].

**1.3.Qazaxstan.** Qazaxstanda yaşayan azərbaycanların diaspora fəaliyyəti dos.G.T.Novruzovanın "Формирование азербайджанской диаспоры в республике Казахстан" və "Azərbaycan diasporu" məqalələrində əks edilmişdir. Bu məqalələrdə azərbaycanlılarının Qazaxstana köçlərinin mərhələləri və səbəbləri, diaspora təşkilatlarının yaranması, formalaşmasına təsir edən amillər, mövcud təşkilatların fəaliyyəti, mətbuat orqanları, azərbaycanlıların yaratdıqları yaradıcılıq kollektivləri və onların iştirak etdikləri tədbirlər hərtərəfli araşdırılmışdır. Demək olar ki, azərbaycanlıların kompakt yaşadıqları əsas vilayətlərdə diaspora təşkilatları yaradılmışdır. Diaspora təşkilatlarının qarşısında duran vəzifələr təklif kimi göstərilmişdir. Məqalədə, eyni zamanda Qazaxstanın ictimai-siyasi həyatında fərqləndikləri üçün mükafatlandırılan azərbaycanlılar barədə də məlumat verilmişdir [2, 265-286; 30, 169-177].

Həmçinin tədqiqatlarda azərbaycanlıların tarixi-demoqrafik tərkibi araşdırılmış, sovet dövrü və müstəqillik illərində say dinamikası, təbii artım göstəriciləri, doğum əmsalı, yaş tərkibi, təhsil vəziyyəti göstərilmişdir. Göstəricilər respublika üzrə göstəricilərlə müqayisə edilmiş, azərbaycanlıların demoqrafik vəziyyətinin ümumi mənzərəsi yaradılmışdır.

**1.4.Özbəkistan.** Özbəkistanda yaşayan azərbaycanlılar barədə tədqiqatlar 2018-2020-ci illərə aid plan işinə uyğun olaraq araşdırılmışdır. Mövzu böyük elmi işçi dos.Səidə Quliyeva tərəfindən tədqiq edilmişdir.

Müstəqillik dövrünə aid əldə edilən materiallar azərbaycanlıların diaspora fəaliyyətini aydınlaşdırmağa kömək etmişdir. Tədqiqat zamanı azərbaycanlıların Özbəkistanda yaratdıqları təşkilatlar və onların fəaliyyəti hər tərəfli tədqiq edilmiş, keçirilən tədbirlər qruplaşdırılmış, Özbəkistan ictimaiyyəti ilə görüşlər, bu fəaliyyətin dövlətlərarası və xalqlararası əlaqələrin inkişafında rolu təhlil edilmişdir [6, 27-52; 7].

Tədqiqat zamanı Özbəkistanda yaşayan azərbaycanlıların miqrasiya səbəbləri, sovet dövrü və müstəqillik illərində say dinamikası əhali siyahıyaalma materialları əsasında və azərbaycanlıların məskunlaşdıqları vilayətlər üzrə aparılmışdır. Özbəkistanda yaşayan azərbaycanlıların tarixi-demoqrafik tədqiqi və diaspora fəaliyyətinin təşkili göstərir ki, tarixin müxtəlif dövrlərində Özbəkistana köçən azərbaycanlılar Özbəkistanın siyasi, iqtisadi, mədəni həyatında fəal iştirak edirlər. Özbəkistanda yaşayan azərbaycanlılar tarixi, milli, dini və mənəvi bağlı olduqları toplumda yad hesab edilmirlər. Hazırda azərbaycanlılar müxtəlif dövlət müəssisələrində, təhsil, sənaye və digər sahələrdə çalışırlar, həmçinin şəxsi müəssisələrə rəhbərlik edirlər. Azərbaycanla əlaqələrin inkişafında iştirak edir, əlamətdar tarixi günləri, milli bayramları, xüsusilə Novruz və digər milli bayramları, matəm günlərini, Xocalı soyqırımını anma tədbirlərini və Dünya azərbaycanlılarının həmrəylik gününü Özbəkistan ictimaiyyəti ilə birlikdə qeyd edirlər. Bundan əlavə, Azərbaycan dövləti ilə birliklə mədəniyyət günləri və Azərbaycan məhsullarının satış sərgisini təşkil edirlər. Azərbaycan filmlərini, tarixi və bədii əsərləri özbək dilində çap edib yayırlar [6, 27-52].

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Özbəkistan azərbaycanlıların Mərkəzi Asiyada əsas məskunlaşdığı və fəal diaspora fəaliyyəti göstərdiyi əsas dövlətdir.

**1.5. Baltik respublikaları, Avropa, Amerika və Yaxın Şərq ölkələrində Azərbaycanın diaspora təşkilatları.** Bu regionlardakı fəaliyyət barədə tədqiqat aparıldığı dövrə aid material çox azdır. O səbəbdən, tədqiqat zamanı yığcam məlumat verilmiş, təşkilatların yaranması və əsas fəaliyyət istiqamətləri göstərilmişdir. Bu mövzuda tədqiqatlar ETL-in aparıcı elmi işçisi dos.G.T.Novruzovanın "Azərbaycan diasporu" məqaləsində əks olunmuşdur.

Məqalədə Baltik dövlətlərində (Latviya, Litva və Estoniya), Avropa, Amerika (ABŞ və Kanada) və İsraildə yaradılan Azərbaycan diaspora təşkilatları və konqreslərin fəaliyyəti, Azərbaycanla əlaqələri, ictimai-siyasi

proseslərdə iştirakı təhlil edilmişdir.

Yaxın Şərqdə diaspora fəaliyyəti İsraildə yaradılan təşkilatlar vasitəsilə həyata keçirilir. Bu təşkilatların əsas məqsədi ermənilərin işğalçılıq siyasəti və Dağlıq Qarabağ həqiqətlərinin yayılması, Azərbaycanla əlaqələrin qorunması və digər proseslərə yönəlmişdir.

Müəllif göstərir ki, ABŞ-da 1957-ci ilə yaranan "Azəri" adlı ilk diaspora təşkilatı AXC varisləri tərəfindən yaradılmışdır. Bu təşkilat uzun müddət yeganə əsas diaspora təşkilatı olmuşdur [2, 265-286].

**2. Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-in təşkil etdiyi konfranslarda təqdim edilən tədqiqatlar.** ETL tərəfindən ənənəvi təşkil edilən "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda elmi konfransların əsas bölmələrindən biri Azərbaycan diasporu və onun fəaliyyəti, Azərbaycan mühacirəti mövzularına həsr edilir.

I konfransa diaspora ilə əlaqədar 8 (Azərbaycan diasporu və onun Pakistandakı fəaliyyəti; Azərbaycan diasporu və onun Fransa fəaliyyəti; Azərbaycan diasporu və onun ABŞ-da fəaliyyəti; Rusiyada Azərbaycan diasporu və fəaliyyət istiqamətləri; Azərbaycan diasporu və Dağlıq Qarabağ həqiqətləri; Dünya azərbaycanlılarının qurultayları barədə 3 məruzə), II konfransa 4 (Azərbaycan diasporunun təşəkkülü; Türkiyədə və dünyada Azərbaycan və türk diasporalarının birgə fəaliyyəti; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində erməni diaspora təşkilatlarının pozuculuq fəaliyyəti; Türkiyədə Azərbaycan diasporunun fəaliyyətində Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi), III konfransa 6 (Azərbaycan diasporasının Ukrayna təhsil və elminin inkişafında göstərdikləri fəaliyyətlər; Из истории азербайджанцев в Казахстане; К истории Азербайджанской диаспоры в Киеве в начале XX века; Müasir dövrdə Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti; Azərbaycan və Türkiyə diaspor təşkilatlarının əməkdaşlıq istiqamətləri; Dünya azerbaycanlıları medya, iletişim ve haberleşme ağı) məruzə daxil olmuşdur [3, 201-243; 4, 191-210; 5, 39-40; 57-58; 86-87; 119-121; 124-125].

Qeyd etmək lazımdır ki, konfransa daxil olan məqalələr arasında xaricdə yaşayan azərbaycanlılar barədə də məruzələr müzakirə edilmiş, xüsusilə mühacirlər mövzusu daim diqqət cəlb etmişdir [3, 136-200; 4, 56-78, 233-269; 5, 27-28; 34-35; 52-53; 60-61; 96-97 v.s.].

Konfranslara müxtəlif illərdə diaspora və mühacirlərlə əlaqədar mövzulara maraq bu mövzularda tədqiqatlara və onların müzakirəsi üçün platformaların təşkilinə ehtiyacı göstərir.

**Nəticə.** Azərbaycan diasporu barədə tədqiqatların təhlili göstərir ki, azərbaycanlıların təşkilatlanması Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra başlanmışdır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin (1993-2003) müxtəlif dövlətlərə səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşməsi təşkilatlanma prosesinə və onların vəzifələrinin müəyyən edilməsinə mühüm təsir etmişdir.

Dos.G.Novruzova tədqiqatlarında göstərir ki, azərbaycanıların müasir cəmiyyətə layiqli inteqrasiyası onların diaspora kimi təşkilatlanmalarına mühüm təsir etmişdir [2, 284].

Tədqiqatın nəticələrini aşağıdakı kimi ümumiləşdirə bilərik:

- Rusiya Federasiyası, Qazaxstan və Özbəkistanda fəaliyyət göstərən əsas diaspora təşkilatları barədə geniş tədqiqat aparılmışdır.
- Diaspora təşkilatlarının əsas məqsədləri Azərbaycanın mədəni və tarixi irsi qorumaq, yaşadıqları ölkədə Azərbaycanı təbliğ etməkdir.
- Diaspora təşkilatları səfirliklərlə əlaqədə fəaliyyət göstərməyə çalışırlar (Rusiya, Özbəkistan və Qazaxstanla əlaqədar mövzularda göstərilir).
- Diaspora təşkilatları Azərbaycanın müxtəlif dövlət qurumları və Heydər Əliyev Fondu ilə mütəmadi əlaqə saxlayır və birgə tədbirlər təşkil edirlər (Rusiya, Özbəkistan və Qazaxstanla əlaqədar mövzularda göstərilir.).
- Diaspora nümayəndələri Azərbaycanda keçirilən müxtəlif elmi, ictimai-siyasi tədbirlərdə iştirak edir və Vətənlə əlaqələrini qoruyurlar.
- Azərbaycanlılar yaşadıqları dövlətlərin ictimai-siyasi-həyatında fəal iştirak edir, həmin dövlətlərin tam hüquqlu vətəndaşı kimi yaşayırlar.
- Diaspora təşkilatları dövlətlərarası əlaqələrin inkişafına vasitəçi olmağa çalışırlar.
- Diaspora təşkilatları azərbaycanlıların kompakt yaşadıqları qəsəbə və şəhərlərdə bazar günü məktəbləri, uşaq bağçaları yaratmışlar (Rusiya, Özbəkistan, Estoniya, Litva v.d.).
- Tədqiqatlar aparılan dövrlərdə bir sıra ölkələrdə müxtəlif diaspora təşkilatları olsa da, təşkilatlanma prosesi tam başa çatmayıb.
- Demək olar ki, bütün diaspora təşkilatlarının mətbuat orqanı vardır.
- Rusiya Federasiyası, Qazaxstan, Özbəkistan və Ukraynada yaşayan azərbaycanlılara tarixi-demoqrafik tədqiqatlar aparılmışdır.
- Dünyanın digər regionlarında yaradılan diaspora təşkilatlarının, Rusiya, Qazaxstan və Ukraynada yaradılan diaspora təşkilatlarının 2016-cı ildən sonrakı fəaliyyətləri araşdırılmalıdır.

Digər ölkələrlə müqayisədə Rusiyadakı azərbaycanlılar daha əhatəli tarixi-demoqrafik tədqiqata cəlb edilmişdir: Rusiya Federasiyasında həyata keçirilən əhali siyahıyaalma materialları, Azərbaycan diasporunun formalaşması və fəaliyyəti geniş tədqiq edilmişdir. Bu mövzuda çap materiallarının sayı onların əhatəsini və geniş ictimaiyyətə təqdim edildiyini göstərir.

Özbəkistanda yaşayan azərbaycanlılar barədə tədqiqatlarda diaspora fəaliyyəti və azərbaycanlıların sayı barədə təhlillər aparılmışdır. Bu mövzuda tədqiqatlar cəmi 2 məqalədə əhatə edilsə də, müsbət haldır ki, hər iki məqalə xaricdə - Türkiyə Cümhuriyyətinin nüfuzlu elmi jurnallarına çapa təqdim edilmişdir.

Azərbaycan diasporu daim hərəkətdədir. Hər il təşkilatlanma və görülən işlərin əhatə dairəsində yeniliklər üzə çıxır. Bu proseslər diaspora barədə

elmi tədqiqatların aktuallığını artırır. Bu vaxta qədər aparılan tədqiqatların müəyyən bir dövrü əhatə etməsi yeni tədqiqatları zəruri edir.

Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-də aparılan bu tədqiqatların nəticələri həm Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi, həm də Azərbaycan Respublikasının Xarici işlər nazirliyi tərəfindən istifadə edilə bilər.

***Ədəbiyyat siyahısı:***

1. *Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). I buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.*
2. *Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). III buraxılış. Bakı, "MBM" nəşriyyatı, 2009.*
3. *Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). V buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2017.*
4. *Dünya azərbaycanlıları: tarix və müasirlik. II respublika elmi konfransının materialları. 21-22 dekabr 2017-ci il. Bakı, "Turxan" NPB, 2018.*
5. *Dünya azərbaycanlıları: tarix və müasirlik. III Beynəlxalq elmi konfransının xülasələrı. Bakı, "Turxan" NPB, 2018, 128 s.*
6. *Kuliyeva S.. Özbekistan`da Yaşayan Azerbaycanlı Toplumu: Tarihsel-Demografik Araştırma. S.27-52 // Oğuz-Türkmen Araştırmaları Dergisi. Türkiye Cümhuriyyeti. Bilecik Universitesi. №II, 1, 2018, Haziran. https://dergipark.org.tr/tr/download/article-file/518793*
7. *Quliyeva S. Azərbaycan-Özbəkistan əlaqələrində diaspora təşkilatlarının rolu.// Akademik Tarih ve Düşünce Dergisi. Türkiye, 2020.*
8. *Novruzova G.. Azərbaycan diasporu. S. 265-286 // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM" nəşriyyatı, 2009.*
9. *Novruzova G.T. 31 December is World Azerbaijanis Solidarity Day. P. 31-34 // Visions of Azerbaijan-journal, London-Baku, 2010.*
10. *Novruzova G.T. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг.). Tarix elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010. 29 s.*
11. *Paritet qəzeti. N56(1638). 24-25 may 2011-ci il*
12. *Новрузова Г.Т. Азербайджанская диаспора в Российской федерации: проблемы исторической демографии. Баку, ИПО Турхан, 2018. – 316 с.*
13. *Новрузова Г.Т. Азербайджанская диаспора России в интернете. С. 91-100 // Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). II buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004.*
14. *Новрузова Г.Т. Азербайджанская диаспора России и пути решения Нагорно-Карабахской проблемы. С.132-139 // «Азербайджан и Азербайджанцы». Azərbaycan Milli Elmlər Akademiyası RH-n*

*beynəlxalq jurnalı. №1-4, 2008.*

15. *Новрузова Г.Т. Азербайджанство – как мобилизующая сила азербайджанской диаспоры. С.184-189 // «Азербайджан и Азербайджанцы». Azərbaycan Milli Elmlər Akademiyası RH-n beynəlxalq jurnalı. Vol.103-104.№3- 4, Bakı, 2010.*
16. *Новрузова Г.Т. Азербайджанцы – численность, динамика, размещение в Российской федерации (по материалам всесоюзной переписи населения 1989 года и первой Всероссийской переписи населения 2002 года). С. 78-82 // «Кавказ и Мир». Международный научный журнал. Международный Университет «Иберия». № 10. Тбилиси, 2011.*
17. *Новрузова Г.Т. Азербайджанцы в России. С.124-131 // Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). I buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.*
18. *Новрузова Г.Т. Азербайджанцы Украины: проблемы исторической демографии. С.195-198 // X Международная научно-практическая конференция "Пути и проблемы развития человеческого общества". International Bologna center Ukrayna, Odessa. 28.09-04.10.2011. http://gisap.eu/ru/node/936 (Müraciət tarixi: 25.06.2020)*
19. *Новрузова Г.Т. Всероссийский Азербайджанский Конгресс – структура и деятельность региональных отделений. С. 184-191 // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. №3 Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.*
20. *Новрузова Г.Т. Гейдар Алиев и формирование азербайджанской диаспоры России. С.147-153// Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. Bakı, 2008.*
21. *Новрузова Г.Т. Демографические показатели азербайджанцев, проживающих в Российской федерации (по материалам всероссийской переписи населения 2002 года с. 230-235 // Вопросы гуманитарных наук. № 5. Москва, издательство «Спутник+», 2009.*
22. *Новрузова Г.Т. Информационные ресурсы азербайджанской диаспоры России. С. 65-75 // Материалы Международной конференции «Российско-азербайджанские отношения: история и современность». Журнал «Евроазия». № 5. Москва, ООО «Ол Би Принт», 2009.*
23. *Новрузова Г.Т. Кто есть кто в азербайджанской диаспоре России. Баку, изд. «Аврора», 2017, 211 стр.*
24. *Новрузова Г.Т. Общие демографические показатели азербайджанцев по итогам Всероссийской переписи населения 2010 года. С.41-46 // "Geostrategiya" jurnal, 01(31). Yanvar-fevral 2016.*
25. *Новрузова Г.Т. Правовое регулирование образования национальных меньшинств, общин и миграции в Российской Федерации. С. 110-*

*122 // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. № 4. Bakı, Bakı Universiteti nəşriyyatı, 2005.*

26. *Новрузова Г.Т. Профессиональная занятость азербайджанцев в России. С.132-139 // Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). I buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.*
27. *Новрузова Г.Т. Средства массовой информации и культурно-образовательные центры азербайджанской диаспоры в России. С. 220-226 // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. №4. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003.*
28. *Новрузова Г.Т. Становление и организационная структура азербайджанской диаспоры в России. С. 141-150 // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. №3. Bakı, Bakı Universiteti nəşriyyatı, 2002.*
29. *Новрузова Г.Т. Участие азербайджанской диаспоры в общественно-политической и культурной жизни России. С. 70-90 // Dünya azərbaycanlıları: tarix və müasirlik (elmi-nəzəri toplu). II buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004.*
30. *Новрузова Г.Т. Формирование азербайджанской диаспоры в республике Казахстан. С. 169-177 // «Азербайджан и Азербайджанцы». Azərbaycan Milli Elmlər Akademiyası RH-n beynəlxalq jurnalı. Vol.103-104.№ 1-2, 2009.*

**UOT 94 (479.24); 314.001.89**

# AZƏRBAYCANIN TARİXİ DEMOQRAFİYASI ELMİ-TƏDQİQAT LABORATORİYASININ ELMİ FƏALİYYƏTİ

***Şəfayət Fərəcov***
***BDU, Tarix fakültəsi, aparıcı elmi işçi, t.f.d.***
***shefayetnuvedi@list.ru***

***Hikmət Əhmədov***
***BDU, Tarix fakültəsi, böyük elmi işçi, t.f.d.***

*Müstəqilliyimizin ilk günlərində digər elmlərlə yanaşı Azərbaycan tarixinin tədqiqinə maraq artdı. Bu maraq zərurətdən yarandı. Çünki tarixi torpaqlarımıza və orada yaşayan etnik azərbaycanlılara qarşı ermənilər tərəfindən aparılan genosid siyasəti bizi məcbur etdi ki, tariximizi daha da dərindən tədqiq edək. Azərbaycan ərazisində və dünyada yaşayan azərbaycanlıların demoqrafik vəziyyətini öyrənmək günümüzün ən aktual məsələlərindən biri oldu. Bu aktual məsələlərin dərindən öyrənilməsində, ciddi elmi araşdırmaların aparılmasında yeni yaradılan «Dünya azərbaycanlıları:tarixi-demoqrafiya» ETL-də ciddi işlər görmüş, soydaşlarımız haqda faktiki materiallar toplanaraq davamlı olaraq çap etdirmişdir. ETL-in əməkdaşları bu gün də öz vəzifələrini uğurla yerinə yetirirlər.*

***Açar sözlər**: müstəqillik, təbliğat, laboratoriya, əhali, tarixi-demoqrafiya*

## *НАУЧНАЯ ДЕЯТЕЛЬНОСТЬ ИССЛЕДОВАТЕЛЬСКОЙ ЛАБОРАТОРИИ «ИСТОРИЧЕСКАЯ ДЕМОГРАФИЯ АЗЕРБАЙДЖАНА»*

*В первые дни нашей независимости наряду с другими науками возрос интерес к изучению истории Азербайджана. Этот интерес возник, потому что политика геноцида, проводимая армянами против наших исторических земель и проживающих там этнических азербайджанцев заставила нас более глубоко изучить нашу историю. Изучение демографического положения азербайджанцев, проживающих в Азербайджане и во всем мире, стало сегодня одной из самых актуальных проблем. Серьезную работу по глубокому изучению этих актуальных вопросов, по проведению серьезных научных исследований по сбору и опубликованию фактического материала о наших соотечественниках проделала недавно созданная Научно-исследовательская лаборатория «Азербайджанцы мира: историческая демография» Сегодня сотрудники НИЛ успешно выполняют свои обязанности.*

***Ключевые слова**: независимость, пропаганда, лаборатория, население, историческая демография*

***SCIENTIFIC ACTIVITY OF THE RESEARCH LABORATORY "HISTORICAL DEMOGRAPHY OF AZERBAIJAN"***

*In the first days of our independence, along with other sciences, interest in the study of the history of Azerbaijan increased. This interest arose out of necessity. Because the genocidal policy pursued by the Armenians against our historical lands, and the ethnic Azerbaijanis living there, forced us to study our history more deeply. Studying the demographic situation of Azerbaijanis living in Azerbaijan and around the world has become one of the most pressing issues today. The newly established ETL "World Azerbaijanis: History and Demography" has done serious work in the deep study of these topical issues, in conducting serious scientific research, has collected and published factual materials about our compatriots. ETL employees are successfully performing their duties today.*
***Keywords**: laboratory, population, historical demography, independence, propaganda*

**Giriş.** XX əsrin son onilliyində Şimali Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra respublikanın sosial-iqtisadi inkişafına yönəldilmiş qərar və qanunlar, ilk növbədə azərbaycanlıların həyat səviyyəsinin yüksəlməsi məqsədi güdürdü. Bu qanun-qərarlar bütün əhalinin, o, cümlədən də hər bir ailənin həyat səviyyəsini yüksəltmək məqsədini nəzərdə tuturdu. Yeni dövrdə Azərbaycan əhalisinin müasir problemlərini öyrənmək və gələcək perespektivlərini proqnozlaşdırmaq üçün əhalimizin tarixi inkişaf yolunu və müasir vəziyyətini tədqiq etmək kimi məsuliyyətli bir vəzifəni "Azərbaycanın tarixi demoqrafiyası"öz üzərinə götürür. 30 illik fəaliyyəti dövründə laboratoriya qarşısına qoyduğu məqsədi, "Azərbaycan əhalisi", "Azərbaycanın tarixi demoqrafiyası", "Diaspora" və s. kimi kitablar, məqalələr toplusu hazırlayıb tələbələrə, tarixçilərə və geniş oxucu kütləsinə çatdırmışdır.

"Azərbaycanın tarixi demoqrafiyası" Elmi-Tədqiqat Laboratoriyası 1989-cu ildə yaranmışdı. Laboratoriyaya rəhbərlik ilk gündən 1991-ci ilin fevral ayınadək aparıcı elmi işçi t.e.n. Elbəy Cəmil oğlu Əlibəyova həvalə olunmuşdur. 1991-ci ilin fevral ayından laboratoriyaya rəhbərlik t.e.n. Kərim Şükürova tapşırılmışdır. Bu dövrdə "Azərbaycanın tarixi demoqrafiyası" Elmi-Tədqiqat Laboratoriyası aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir:

1. Laboratoriyanın rəhbəri – t.e.d. Kərim Şükürov
2. Aparıcı elmi işçi - t.e.n. Elbəy Əlibəyov
3. Elmi işçi - Əlihüseyin Əsgərov
4. Elmi işçi - Gülzar Novruzova
5. Baş laborant - Azər Paşayev

6. Baş laborant - Rafael Qurbanov
7. Baş laborant - Şəfayət Fərəcov
8. Laborant - Nigar Məmmədova [2,səh.2]

İlk olaraq yeni yaranmış "Azərbaycanın tarixi demoqrafiyası" elmi-tədqiqat laboratoriyasının məqsədi və planı hazırlanır. Müstəqilliyə gedən yolda, müstəqilliyimizin ilk aylarında, Vətənimizin ən ağır günlərində müasir cəmiyyətimizdə baş verən hadisələr, xalqımızın özünəqayıdış hissələrinin gücləndiyi bir zamanda Respublikamızda və dünyanın bütün ölkələrində yaşayan soydaşlarımızın demoqrafiyasının öyrənilməsi ən aktual mövzulardan biridir. İtirilmiş torpaqlarımızda yaşayan azərbaycanlıların demoqrafik vəziyyətinin öyrənilməsi, yer adlarımızın dəyişdirilməsinin tədqiqatı "Azərbaycanın tarixi demoqrafiyası" elmi-tədqiqat laboratoryyasının əsas məqsədidir. Bu məqsədləri həyata keçirmək üçün elmi-tədqiqat laboratoriyası aşağıdakı elmi planı həyata keçirməyi mühüm vəzifəsi hesab edirdi. Bu məqsədlə laboratoriyanın iş planı hazırlamışdır.

1. İrəvan, Naxçıvan, Qarabağ, Borçalı xanlıqları ərazilərində yaşayan azərbaycanlıların demoqrafik vəziyyətinin öyrənilməsi. Bu ərazilərdə əzəli yer adlarının dəyişdirilməsinin tədqiqi.
2. Dağıstan və Orta Asiya Respublikalarında yaşayan soydaşlarımızın demoqrafik vəziyyətinin öyrənilməsi.
3. Türkiyə və İran ərazisində yaşayan soydaşlarımızın demoqrafik vəziyyətinin tədqiqi.
4. Dünyanın digər ölkələrində yaşayan azərbaycanlıların demoqrafiyası və həyat tərzləri haqda məlumatlar toplamaq.
5. Keçmiş SSRİ respublikaları ərazilərində yaşayan azərbaycanlıların demoqrafik vəziyyətinin öyrənilməsi.

Bu planı həyata keçirmək üçün elmi araşdırmaların əsas mənbələri aşağıdakı kimi müəyyən edilmişdir:

1. Respublikamızın bütün arxivlərindən geniş istifadə etmək. Elmi-kütləvi kitabxanalardan əsas mənbələri toplamaq.
2. Türkiyə, İran eləcə də digər dünya ölkələri arxiv və elmi kitabxanalarından istifadə etmək.
3. Keçmiş SSRİ respublikaları arxiv sənədləri əsasında elmi araşdırmalar aparmaq.
4. Son hadisələrlə əlaqədar öz doğma yurdlarını tərk etmiş soydaşlarımız arasında sorğu keçirmək.
5. Yaxın və uzaq ölkələrdə yaşayan soydaşlarımızla əlaqə saxlamaq və onların Vətənimizin gələcək inkişafında yaxından iştirak etmələrinə elmi və mədəni təsir etmək [1,səh.2].

Yarandığı ilk gündən laboratoriyanın əməkdaşları plan işi üzrə qarşıya qoyulmuş məqsədə çatmaq üçün elmi araşdırmalarda aktiv iştirak etməyə başlamışlar. Belə ki, 1990-1991-ci tədris ilinin ilk günlərində xalqımızın başına gətirilən "20 yanvar" qətliamının sənədləşməsində yaxından iştirak

edərək mətbuat orqanlarında işləyən jurnalistlərlə birlikdə əhali arasında sorğular aparmış, maqnitafon lentinə yazılan yazıların, müsahibələrin stenoqrafik hesabatının yazılmasında və çap olunmasında yaxından iştirak etmişlər. Bunlarla yanaşı azərbaycanlıların II Dünya müharibəsində iştirakını hərtərəfli tədqiq olunmasında, onların saylarının dəqiqləşdirilməsində, arxa cəbhədə vətəndaşlarımızın fəaliyyəti barədə ciddi araşdırmalar aparmışlar. Laboratoriyanın əməkdaşları Ensiklopediyanın xatirə kitabının hazırlanmasında yaxından iştirak etmişlər [3,səh.1].

Bu dövrdə Azərbaycan Nazirlər Sovetinin Dövlət Plan Komitəsi nəzdində İqtisadiyyat insititunun kitabxanası və arxivində Azərbaycan SSR əhalisinin inkişafına aid olan coxcilidli elmi əsərlərdə və digər sənədlərdə göstərilən məqalələri, faktları, xüsusi nəşrləri laboratoyada elmi araşdırmaq üçün toplanmışdır. Bu sənədlərin toplanması elmi işçi Gülzar Novruzovaya, baş laborantlar Azər Paşayevə və Şəfayət Fərəcova tapşırılmışdır. Bununla yanaşı 1990-cı ilin noyabr ayından 1991-ci ilin fevral ayına qədərki müddətdə Azərbaycan KP MK yanında Partiya tarixi institunun kitabxanasında Azərbaycanın və ZSFSR-nin Mərkəzi İcraiyyə komitələrinin və Ümümazərbaycan Sovetlər qurultaylarının stenoqrafik hesabatlarında 20-30-cu illərdə Zaqafqaziya Respublikalarında demoqrafik vəziyyətə aid olan bütün məlumatlar seçilib araşdırılmış, təhlil edilmiş elmi hesabat şəklində Azər Paşayev tərəfindən məruzə edilmişdir. Məruzənin tam mətnini laborant Nigar Məmmədova çap etmişdir. Çap olunan materiallara laboratoriyanın əməkdaşları tərəfindən dəfələrlə müraciət olunmuş, hərə öz probleminə uyğun tarixi faktlardan istifadə edilmişdir.

Dahi Nizaminin 850 illik yubeliyinə həsr edilmiş gənc tədqiqatçıların I Respublika elmi konfransında iştirak etmək üçün bütün əməkdaşlar elmi məqalələr hazırlamışlar. 1991-ci ilin fevral ayının sonu, mart ayında keçirilən elmi konfransda laboratoriyanın bütün əməkdaşları yüksək səviyyədə təmsil olunmuş, elmi problemlərlə konfrans iştirakçıları qarşısında çıxış etmişlər. Məruzə olunan məqalələr, laboratoriyanın rəhbəri t.e.n. Kərim Şükürov "Cənubi Azərbaycan əhalisi XIX-XX əsrin əvvəllərində", aparıcı elmi işçi t.e.n. Elbəy Əlibəyov "Birinci beşillikdə Azərbaycan SSR şəhər əhalisinin demoqrafik inkişafı", elmi işçi Əlihüseyin Əsgərov "Ümumazərbaycan sovetlər qurultayları tarixinə dair mənbələrin öyrənilməsinin müasir üsulları", elmi işçi Gülzar Novruzova "1960-70-ci illərdə Azərbaycan SSR əhalisi üzrə məlumatların mənbələri haqqında", baş laborant Rafael Qurbanov "Azərbaycan SSR əhalisi Böyük Vətən münaribəsi illərində", baş laborant Azər Paşayev "XX əsr Çarizmin Şimali Azərbaycanda əhali siyasəti", baş laborant Şəfayət Fərəcov "1920-ci illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların demoqrafik vəziyyəti haqqında" 1991-ci ildə toplu şəklində çap olunmuşdur [1.səh.2].

Laboratoriyanın ən diqqət çəkən işlərindən biri də 1991-ci ilin aprel-may aylarından başlayaraq bütün heyətlə Mərkəzi Dövlət Arxivində

"Azərbaycanın əhalisi XIX əsrdə" mövzusunda arxiv sənədlərini toplamağa başlamışdır. Həmin ilin may ayının ikinci yarısında laboratoriya üzvləri Azərbaycan Demokratik Respublikasının yaranmasının 73-cü ildönümünə həsr edilmiş gənc tarixçi tədqiqatçıların elmi konfransına hazırlıq işi aparmışlar. 1991-ci ilin may ayının 30-da onlar aşağıdakı məruzələrlə çıxış etmişlər: laboratoriyanın rəhbəri, t.e.n. Kərim Şükürov "Azərbaycanın tarixi demoqrafiyası /öyrənilməsi vəziyyəti/", aparıcı elmi işçi t.e.n. Elbəy Əlibəyov "1930-cu illərin tarixi-demoqrafik tədqiqi: ilk mənbələrin bərpası təcrübəsi", elmi işçi Gülzar Novruzova "1946-88-ci illərdə Azərbaycan SSR-də demoqrafik siyasət /tarixşünaslıq məsələləri/", elmi işçi Ə.Əsgərov "Ümumazərbaycan Sovetlər qurultaylarının tarixindən", baş laborant Şəfayət Fərəcov "1950-80-ci illərdə azərbaycanlıların demoqrafik vəziyyəti haqqında / Ermənistan SSR üzrə/", baş laborant Azər Paşayev "Azərbaycan mühacirətinin tarixinə dair", laborant Nigar Məmmədova "1937-ci il Ümumittifaq siyahıyaalması Azərbaycan əhalisi haqda".

Tədris ili müddətində "Azərbaycanın tarixi demoqrafiyası" laboratoriyasının 8 iclası olmuşdur. Bu iclaslarda hər bir əməkdaşın gördüyü iş və qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, elmi konfranslara hazırlıqların gedişi, hər bir laboratoriya üzvünün çıxışı müzakirə edilmiş və ona qiymət verilmiş, məruzələrin zəif və müsbət tərəfləri göstərilmişdir.

1991-ci il hesabatında elmi işçi Gülzar Novruzova, baş laborantlar Azər Paşayev, Rafael Qurbanov və Şəfayət Fərəcovun dissertasiya mövzuları müzakirə edilmiş və Elmi şuraya təsdiq olunmaq üçün məsləhət görülmüşdür.

1989-cu ildən başlayaraq bu günə qədər laboratoriyada mütəmadi olaraq təsdiqlənmiş plan üzrə işlənmiş mövzular əsasında elmi seminarlar təşkil edilmiş, əməkdaşların hamısı öz tədqiqat problemləri barədə çıxış etmişlər. Məqalələr üzrə edilən çıxışlar əməkdaşlar və dəvət edilən mütəxəssislər tərəfindən müzakirə edilmiş, məruzəçilərə suallar və məsləhətlər verilmişdir.

ETL-də 30 ildə aparılan tədqiqatların əsas nəticələri 2003-cü ildən nəşr olunmağa başlayan "Dünya azərbaycanlıları: tarix və müasirlik" jurnalında dərc olunaraq ictimaiyyətə təqdim edilir [4; 5; 6; 7; 8; 9]. Eyni zamanda, tədqiqatların tədris prosesinə tətbiqi, dərslik və monoqrafiyalarda istifadəsi üçün təqdim edilir.

Laboratoriyanın əməkdaşları tərəfindən sanballı tədqiqat əsərləri yazılıb çap edilmişdir. Bunlardan:

K.K.Şükürov – «Azərbaycan əhalisi: öyrənilməsi və qaynaqları»; «Demoqrafiya» Ensiklopedik lüğət; «Türkmənçay-1828»; H.Y.Verdiyeva - «Rusiya imperiyasının Şimali Azərbaycanda köçürmə siyasəti»; Z.Ə.Cavadova - «Şimal-Qərbi Azərbaycan (tarixi-demoqrafik araşdırma)»; «Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi-demoqrafiyası (XIX əsrin əvvəlləri – 70-ci illəri)»; S.Ə.İbişov - «Quba xanlığının əhalisi (tarixi-demoqrafik

tədqiqat)»; «Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi»; N.Ə.Quliyev - «Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat)»; İ.F.Kazımov - "Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)"; A.Ə.Məmmədova -«Car-Balakən camaatlığı (XVII əsrin sonu – XIX əsrin 30-cu illəri)»; H.O.Əhmədov – «Azərbaycan Demokratik Respublikası hökumətinin milli ziyalı kadrlarının hazırlanması sahəsində fəaliyyəti (1918-1920-ci illərdə)»; G.T.Novruzova – «Кто есть кто в Азербайджанской диаспоре России»; «Азербайджанская диаспора в Российской Федерации: проблемы исторической демографии»; S.O.Mustafayeva – «Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.)»; G.Ə.Rizayeva - «Национальное-освободительное движение в Азербайджане (конец 1917-1918 г.)»; Asəf Hacıyev – «Dərbənd XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat)»; V.İ.İsayev – «Yevlax sənədlərdə və yaddaşlarda» [6].

Təbii ki, illər ötdükcə laboratoriyanın tərkibi dəyişirdi. Kollektivə yeni-yeni gənc tədqiqatçılar cəlb olunurdular. Yeni işçilərin cəlb olunması laboratoriyanın fəaliyyətini artırırdı. Hal-hazırda laboratoriyanın əməkdaşları aşağıdakı tərkibdədiri:

1. Fərəcov Şəfayət Fərəc o. - aparıcı elmi işçi, t.f.d.
2. Hacıyev Asəf Adil o.-aparıcı elmi işçi (0,5 şt.v.), t.f.d.
3. Quliyeva Səidə Zakir q.- böyük elmi işçi, t.f.d., dos.
4. Əhmədov Hikmət Oqtay o. - böyük elmi isçi, t.f.d
5. Paşayeva Ulduz Miri q. - böyük elmi işçi
6. Leyla Vaqif qızı - kiçik elmi işçi, t.f.d.
7. Sədrəddinova Gülnarə Eldar q.- elmi işçi ( 0,5 şt.v.)
8. Aşurova Günay Rauf q. - elmi isçi (0,5 şt.v.)
9. Əsədov Murad Elçin o. - böyük laborant
10. Cəfərli Aytən Şiraz q. - böyük laborant
11. Əliyeva İlahə Yaşar q. - böyük laborant
12. Mehrəliyeva Səidə Vahid q. - laborant

Ümummilli Lider Heydər Əliyevin Azərbaycaçılıq ideyasını əsas elmi istiqamət kimi götürən laboratoriyanın əməkdaşları dünya azərbaycanlılarının demoqrafik problemlərini, tarixi ərazilərimizdə və onun hüdudlarından kənarda məskunlaşan azərbaycanlıların say dinamkasını, diaspor təşkilatlarının fəaliyyətini, işğal olunmuş Azərbaycan torpaqlarında baş vermiş etno-demoqrafik prosesləri dərindən araşdırmışlar. Bu araşdırmalarda Azərbaycan Respublikasının Prezidentinin və digər rəsmi qurumların diaspora, əhali problemləri ilə əlaqədar imzaladığı sənədlər, xüsusilə Dünya azərbaycanlılarının konfrans materialları, Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası və s. materiallar əsas götürülmüşdür.

ETL əməkdaşları qarşıya qoyulmuş problemə və plana uyğun olaraq elmi fəaliyyətlərini davam etdirərək elmi araşdırmalar aparır, əldə olunan nəticələri tədrisə tətbiq edirlər.

ETL elmi konfransların təşkilində də fəal iştirak edir. Belə ki, 1997-ci il dekabrın 30-da Azərbaycan Respublikası Prezidentinin İcra aparatı ilə birlikdə "Dünya azərbaycanlıları: demoqrafik proseslər, müasirlik" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. 2016-cı ildən başlayaraq əməkdaşların gərgin fəaliyyəti nəticəsndə Dünya azərbaycanlılarının həmrəyliyi gününə həsr olunmuş "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda ənənəvi konfranslar keçirilir. "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda I elmi konfrans 2016-cı ildə, II respublika elmi konfransı 2017-ci ildə; III Beynəlxalq elmi konfrans 2018-ci ildə keçirilmişdir.

Uzun illər boyu tarixi-demoqrafiya sahəsində gərgin elmi araşdırmalar aparan ETL-in nəzdində yüksək ixtisaslı mütəxəssislər fəaliyyət göstərmişdir. Yüksək səviyyədə kadr hazırlığının nəticəsində gərgin əməyləri sayəsində ETL-də ölkədə yeganə olan tarixi-demoqrafiya məktəbi akad. Yaqub Mahmudovun və prof. Kərim Şükürovun sayəsində formalaşmışdır. Bunun nəticəsində də tarixi-demoqrafiya sahəsində uğurlu tədqiqatlar aparılmış, yüksək nəticələr əldə edilmişdir. ETL əməkdaşları tərəfindən Azərbaycanşünaslıq elminə verilən töhfələr aşağıdakılardı:

t.f.d.Z.Ə.Cavadova - Şimal-Qərbi Azərbaycan: tarixi-demoqrafik tədqiqat (XIX əsrin əvvəllərində - 70-ci illəri); t.f.d.İ.F.Kazımov - Naxçıvan bölgəsinin tarixi (1828-1920-ci il); t.f.d.S.Ə.İbişov - Quba xanlığının əhalısı (tarixi-demoqrafik tədqiqat) t.f.d.N.Ə.Quliyev - Naxçıvan xanlığının əhalisi (tarixi-demoqrafik tədqiqat); t.f.d., dos.A.Ə.Məmmədova - Car-Balakən camaatlığı XVII əsrin sonları-XIX əsrin 30-cu illərində (tarixi-demoqrafik tədqiqat); t.f.d., dos. S.O. Mustafayeva - Cənubi Qafqazda ərazi və sərhəd dəyişiklikləri (1917-1922-ci illər); t.f.d.A.A.Hacıyev - Dərbəndin əhalisi: XIX-XX əsrin əvvəllərində (tarixi-demoqrafik tədqiqat); t.f.d., dos.S.Z.Quliyeva - Heydər Əliyevin əsərləri Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə qarşılıqlı əlaqələrini öyrənmək üçün mənbə kimi; t.f.d.Ş. F. Fərəcov-Ermənistan SSR-də azərbaycanlıların demoqrafik vəziyyəti (1920-1980-ci illər), t.f.d.Leyla Vaqif qızı "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlıq (1991-2008-ci illər)" və digər əsərlər.

Hazırda "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" adı ilə fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyasının əməkdaşları əsasən ETL-in elmi istiqaməti, məqsəd və plan işlərini, qarşıya qoyulan vəzifələri vicdanla və şərəflə yerinə yetirirlər.

### *Ədəbiyyat siyahısı:*

1. *1990-1991-ci tədris ili üçün "Azərbaycanın tarixi demoqrafiyası" elmi-tədqiqat laborotoriyasının hesabatı.*
2. *"Azərbaycan tarixi demoqrafiyası" laborotoriyasının əməkdaşları haqda məlumatlar. ETL-in cari sənədləri*
3. *Bakı Dövlət Universitetinin Rektorunun 08.04.1993-cü il əmri*
4. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. I buraxı-*

*lış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003, 156 s.*

5. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. II buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 177 s.*
6. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. III buraxılış. Bakı, "MBM" nəşriyyatı, 2009, 298 s.*
7. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. IV buraxılış. Bakı: "Avropa" nəşriyyatı, 2015, 210 s.*
8. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. V buraxılış. Bakı, Bakı Universiteti nəşriyyatı, 2017, 353 s.*
9. *Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. VI buraxılış. Bakı, "Turxan" NPB, 2018, 200 səh.*

## II BÖLMƏ
## AZƏRBAYCANIN ƏRAZİSİ VƏ ƏHALİSİ

**UOT 94 (479.24); 314**

# STATİSTİK MƏLUMATLAR ƏRAZİ VƏ ƏHALİ MƏSƏLƏLƏRİNİ ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏ KİMİ

***Səidə Əli qızı***
***BDU, Tarix fakültəsi, dosent***
***star.miri@mail.ru***

*Məqalədə XIX-XX əsrin əvvəllərində Azərbaycan ərazisinin, əhalisinin yerləşməsini, sayını və digər demoqrafik göstəricilərini öyrənmək üçün statistik mənbələrin tarixi mənbə kimi əhəmiyyətindən bəhs olunur. XIX əsrin sonunda keçirilmiş I Ümumrusiya əhali siyahıyaalınmasının, 1903-1913-cü illər Bakı şəhər əhali siyahıyaalmalarının məlumatlarına əsasən ərazi və əhali problemləri araşdırılır. Həmçinin ümumiyyətlə elmi ədəbiyyatda ərazi və əhali problemləri ilə bağlı olan mülahizələr və fikirlər təhlil edilir.*

***Açar sözlər:*** *statistika, əhali, ərazi, demoqrafiya¸ siyahıyaalma, cari statistika, tədqiqat, say, kəmiyyət, keyfiyyət*

## *СТАТИСТИЧЕСКИЕ ДАННЫЕ КАК ИСТОЧНИК ИЗУЧЕНИЯ ВОПРОСОВ О ТЕРРИТОРИИ И НАСЕЛЕНИЯ*

*В статье рассматривается значение статистических источников как исторического источника для изучения местоположения, населения и других демографических показателей территории и населения Азербайджана в начале XIX-XX вв.. Территориальные и демографические проблемы изучаются на основе данных Первой Всероссийской переписи населения конца XIX века и Бакинской городской переписи 1903-1913 годов. Также в целом анализируются взгляды и мнения в научной литературе, касающиеся проблем территории и населения.*

***Ключевые слова:*** *статистика, население, территория, демография, перепись, текущая статистика, исследование, численность, количество, качество*

### *STATISTICAL DATA ON TERRITORY AND POPULATION AS A SOURCE FOR STUDYING THE ISSUE*

*The article discusses the importance of statistical sources as a historical source for studying the location, population and other demographic data of the territory of Azerbaijan, population in the early 19th and 20th centuries. According to the first Russian census at the end of the 19th century, the census of 1903-1913. investigates the problems of territorial and demographic problems. In general, the scientific literature analyzes ideas and opinions concerning regional and demographic problems.*
***Keywords:*** *statistics, population, territory, demography, census, research, number, quantity, quality*

Tarix elmində və mənbəşünaslıq elmində mənbələrin təsnifatı məsələsi xüsusi yer tutur və yazılı mənbələrin növünə görə təsnifatı həyata keçirilərkən mühüm mənbə növlərindən biri kimi statistik mənbələrin tarixi tədqiqatlar üçün əhəmiyyəti ön plana çəkilir. Yazılı mənbələr təsnif olunarkən onların, başqa təsnifat sistemləri ilə yanaşı, unikal və kütləvi mənbələr kimi təsnifatı da həyata keçirilir. Ən tipik kütləvi mənbələr statistik mənbələrdir və materiallardır. Statistik mənbələr ümumiyyətlə cəmiyyət həyatında baş verən kütləvi hadisələr haqqında kütləvi məlumatlar verir və buna görə də onların vasitəsilə ictimai inkişaf qanunauyğunluqlarını başa düşmək, qanunauyğunluqları və təsadüfləri müəyyənləşdirmək və dərk etmək mümkün olur. Statistikanı **cəmiyyətin anatomiyası** və **ictimai idrakın qüdrətli vasitələrindən biri** hesab edirlər. Hazırkı dövrdə statistika bütün ölkələrin, o cümlədən də Azərbaycanın həyatının bütün sahələrini əhatə edir və milyonlarla insanların həyatını və fəaliyyətini xarakterizə edir.

Məqalədə başlıca məqsəd statistik materialların ərazı və əhali problemlərini öyrənmək üçün əhəmiyyətini müəyyən etməkdir.

Ümumiyyətlə elmi ədəbiyyatda əhali və ərazi anlayışlarına tərif verilərkən, bu, hər hansı bir konkret ərazi və orada yaşayan insanların məcmusu kimi başa düşülür [8]. Bu baxımdan Azərbaycan əhalisi onun ərazısində yaşayan insanların məcmusunu ifadə edir. Burada iki əsas göstərici – kəmiyyət və ərazi ayrılır. Lakin tədqiqat prosesində hər bir göstərici ciddi elmi məzmun kəsb edir və əhali mürəkkəb bir orqanizm kimi ortaya çıxır. Ona görə ərazı və əhali məsələlərinin öyrənilməsi səviyyəsi müasir elmi tərəqqinin əsas göstəricilərindən birinə çevrilir və onun yüksəldilməsi son dərəcə vacibdir.

XX əsrin 90-cı illərindən etibarən Ermənistanın Azərbaycanın tarixi torpaqlarının 20 %-dən çoxunu işğal etməsi və ölkəmizin tarixi-demoqrafik göstəricilərində baş verən dəyişikliklər də əhali və ərazi problemlərinin elmi cəhətdən araşdırılmasının aktuallığını artırmışdır.

Məlumdur ki, müasir mərhələdə dünyada qloballaşma prosesləri gedir.

Belə bir şəraitdə əhali içərisində baş verən demoqrafık proseslərin və miqrasiyanın kortəbii şəkil alması böyük problemlərlə (aclıq, "demoqrafık partlayış" və s.) müşayiət olunur. Bunların idarə olunması, demoqrafik proseslərin tənzimlənməsi, müvafiq əhali və ərazi siyasətinin işlənib hazırlanması zərurəti də bu mövzuların öyrənilməsinin əhəmiyyətini gündən-günə artırır. Və, təsadüfi deyil ki, bütün bunları nəzərə alan Azərbaycan Respublikası öz tarixində ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 290 №-li sərəncamı ilə Azərbaycan Respublikası Demoqrafik İnkişaf Konsepsiyasını qəbul etmişdir [3]. Həmin Konsepsiyada da "tarixi səpgiyə" xüsusi diqqət yetirilir və qeyd olunur ki, "Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur. Ailə-nigah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır" [3].

Ümumiyyətlə Azərbaycan tarixində demoqrafik amilin rolu nədən ibarətdir? Təəssüf ki, Azərbaycan tarixşünaslığında uzun illər ərzində bu məsələyə lazımi səviyyədə diqqət yetirilməmişdir. SSRİ-nin dağılması və milli respublikalar arasında ərazi iddialarının gündəmə gəlməsi də mövzunun aktuallığını xeyli artırmışdır.

Məlumdur ki, əhalinin və ərazinin ətraflı və elmi cəhətdən öyrənilməsi üçün müxtəlif mənbələrdən istifadə olunur. Lakin onların içərisində birinci dərəcəli əhəmiyyət kəsb edən mənbələr, sözsüz ki, statistik mənbələrdir, çünki onlar bizə cəmiyyət haqqında konkret məlumatlar və rəqəmlər verir. Tanınmış iqtisadçı-demoqraflar D.İ.Valentey və A.Y.Kvaşa qeyd edirlər ki, əhalinin sayı və tərkibindəki bütün dəyişikliklər iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişafına əhəmiyyətli təsir göstərir [6]. Ona görə də əhalinin öyrənilməsi səviyyəsi tərəqqinin əsas göstəricilərindən birinə çevrilir.

Tarixçilər öz tarixi tədqiqatlarında tez-tez statistik mənbələrə müraciət edirlər. Bu mənbələrlə və materiallarla iş ilk baxışda göründüyü qədər asan deyil. Statistik məlumatlar üzərində işlərkən, hər şeydən öncə, kəmiyyət və keyfiyyətin dialektik vəhdəti nəzərə alınmalıdır. Yəni, hər hansı bir kəmiyyət artımı mahiyyət etibarilə yeni keyfiyyətlərin yaranmasına gətirib çıxarır və bu da öz növbəsində yenidən kəmiyyət dəyişmələrinə səbəb olur.

Statistik mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar: vaxtaşırı və ya məqsədli şəkildə keçirilən siyahıyaalmalar; cari statistik qeydiyyat (doğum, ölüm, nigah, boşanma və s.), cari reqistrlər (siyahılar, kartotekalar), seçmə

üsulu ilə həyata keçirilən tədqiqatlar və müşahidələr.

Ərazi və əhali haqqında məlumat verən mənbələr içərisində birinci yerdə əhali siyahıyaalmalarının materialları durur. Bu materiallar əhali tarixinin öyrənilməsində əvəzsiz mənbələrdir.

Qeyd edək ki, ümumiyyətlə əhali siyahıyaalmalarının nəzəri-metodiki məsələlərinin meydana çıxması ilk belə siyahıyaalmalarla bağlı olmuşdur. İlk dəfə bu problemi gündəmə gətirən 1846-cı ildə Belçika əhali siyahıyaalmasının rəhbəri A.Ketle (1796-1874) olmuşdur. Ketlenin xidməti ondan ibarət olub ki, o, əhali siyahıyaalmasının keçirilməsi prinsiplərini, faktiki olaraq, ilkin proqramını hazırlamışdır. Sonralar Beynəlxalq Statistika konqresləri, Beynəlxalq Statistika İnstitutu və Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyası əhali siyahıyaalmalarının nəzəri-metodoloji prinsiplərini daha da inkişaf etdirmiş və təkmilləşdirmişlər [11]. Bu xüsusi ədəbiyyatın içərisində BMT-nin sənədləri mühüm yer tutur [11]. Məlumdur ki, Azərbaycan uzun bir dövr ərzində Rusiya imperiyasının müstəmləkə ucqarlarından biri, onun iqtisadiyyatı isə imperiya iqtisadiyyatının tərkib hissəsi olmuşdur. Odur ki, 1917-ci il oktyabr çevrilişinə qədərki dövrdə Azərbaycanda statistika işi haqqında danışarkən bunu Rusiya ilə bağlı şəkildə şərh etmək lazım gəlir.

Rusiyada Azərbaycan əhalisinin öyrənilməsinə hələ XIX əsrin əvvəllərindən başlanmışdı. 12 oktyabr 1813-cü ildə imzalanmış Gülüstran sülhü ilə Rusiyanın 1804-1813-cü illər ərzində işğal etdiyi Azərbaycan torpaqları – 8 xanlığın ərazisi Rusiyanın tərkibinə qatıldı və əyalət statusu aldı. Rusiya dərhal işğal olunmuş xanlıqların ərazisinin maddi və insan ehtiyatlarını öyrənmək məqsədilə kameral təsvirlər həyata keçirməyə başladı.

Azərbaycanın əhalisinin öyrənilməsinin təşkilatlanmasında XIX yüzilin əvvəlləri – 1917-ci illər xüsusi dövr kimi ayrıla bilər. Azərbaycan əhalisinin öyrənilməsində təşkilati baxımdan iki istiqamət ayırmaq olar:

**I.Ümumrusiya orqanlarının Qafqaz təşkilatları və ya bilavasitə Qafqaz üçün yaradılmış təşkilat və cəmiyyətləri.** Bunların içərisində statistika orqanları əsas yer tuturdu. Rusiyada statistika orqanları 1811-ci ildən yaranmağa başlamışdı [10].

Qafqazda statistika orqanları 1835-ci ildə təşkil olunmuşdur. Bu orqanlar əhalinin statistikası ilə də məşğul olurdu. Daha sonrakı dövrdə quberniya statistika komitələri yaradılmağa başladı. Bakı quberniya statistika komitəsi 1862-1867, 1899-1917, 1918-1920-ci illərdə, Yelizavetpol quberniya statistika komitəsi isə 1899-1917, 1918-1920-ci illərdə fəaliyyət göstərmişdir. Bundan başqa Tiflis və İrəvan statistika komitələri də yaradılmışdı və onların fəaliyyətində əhali statistikası xüsusi əhəmiyyət kəsb edirdi [9].

**II. Azərbaycanın özündə fəaliyyət göstərən təşkilatlar.** Statistika işi ilə bir çox təşkilatlar və cəmiyyətlər məşğul olurdu. Bunların içərisində Bakı şəhər Upravasının Statistika bürosu əhali statistikası ilə daha çox məşğul olurdu.

Rusiyada olduğu kimi, Azərbaycanda da XIX əsrin 60-cı illərinə qədər

statistikada təsvir metoduna əsaslanan iqtisadi-coğrafi təsvirlər üstünlük təşkil edirdi. Bəhs olunan dövrdən sonra ölkədə kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq say metodu, miqdar metodu birinci dərəcəli əhəmiyyət kəsb etməyə başladı və bu, həm də birbaşa Rusiyada statistika elminin inkişafı ilə bağlı idi.

XIX əsrin ikinci yarısına qədər Azərbaycan əhalisinin sayını və yerləşməsini öyrənmək üçün ayrı-ayrı yerlərdə həyata keçirilən kameral sayımların məlumatlarından, həmin əsrin II yarısından sonrakı dövrü öyrənməkdə isə Tiflisdəki Qafqaz Canişini Baş İdarəsi yanında Qafqaz Statistika Komitəsi tərəfindən tərtib olunmuş "Qafqaz ölkəsi üzrə Rusiya imperiyası yaşayış yerlərinin siyahıları" adlanan nəşrdən istifadə olunur. Bakı quberniyası üzrə siyahılar 1870-ci ildə tərtib olunmuşdur. Bu külliyyatın materialları konkret yaşayış məntəqələri üzrə əhalinin yerləşməsini öyrənməyə imkan verir. Seriya nəşri 47 quberniyanı əhatə edir. Külliyyatda Qafqazın bütün quberniya və əyalətləri üzrə statistik məlumatlar verilmişdir. Azərbaycandan isə yalnız Bakı quberniyasına dair məlumatlar var. Bu siyahılar üçün əsas mənbə 1859-cu və 1864-cü illərin kameral sayımları və Qafqaz hərbi dairəsi hərbi-topoqrafiya şöbəsinin materialları və xəritələri olmuşdur.

Məlumdur ki, Rusiya imperiyasında I Ümumrusiya əhali siyahıyaalınması 1897-ci ilin yanvar ayında keçirilmişdir. Ona qədər bütün Rusiya əhalisinin hesablanmasında 1857-ci ildə həyata keçirilən və ümumiyyətlə Rusiyanın tarixində 10-cu əhali təftişi olan təftişin materiallarından, qubernator hesabatlarından, kameral sayımlardan və yerli rəislərin məlumatlarından istifadə olunurdu. 1897-ci il əhali siyahıyaalınmasının təşəbbüsçüsü 1864-cü ildən Rusiya Statistika Komitəsinin başında duran görkəmli alim Semyonov Tyan-Şanski olmuşdu. Siyahıyaalmanın keçirilməsinin strukturuna senator N.A.Troynitski rəhbərlik etmişdi. Siyahıyaalma yaxşı təşkil olunmuş və Rusiyada ilk dəfə olaraq hakimiyyətin və ictimaiyyətin nəzarəti altında həyata keçirilən, elmi cəhətdən əsaslandırılmış siyahıyaalma idi.

20 il müddətində hazırlıq getdikdən sonra həyata keçirilən siyahıyaalma Bakı və Yelizavetpol quberniyalarını da əhatə etmişdi. 1895-ci il 5 iyun Qanununa görə siyahıyaalma Rusiyanın bütün quberniyalarını əhatə etməli idi, yəni cinsindən, yaşından, vəziyyətindən, dini və milli mənsubiyyətindən, habelə təbəəliyindən asılı olmayaraq bütün əhali siyahıya alınmalı idi. Siyahıyaalma ayrı-ayrı təsərrüfatlar üzrə həyata keçirilirdi. Fabriklərdə və zavodlarda siyahıyaalma vərəqələrinə məlumatlar müəssisənin müdiriyyəti tərəfindən daxil edilirdi. Sorğu vərəqələrində aşağıdakı suallar qoyulmuşdu: adı, atasının adı, soyadı (və ya təxəllüsü), ailə vəziyyəti (evli, subay, dul, boşanmış olması), təsərrüfat müdirinə münasibəti (qohum, qəyyumluğa götürülmüş və ya sakin, xidmətçi, qulluqçu və s.), cinsi, yaşı, silki, vəziyyəti, dini etiqadı, doğulduğu yer, qeydiyyatda olduğu yer, daimi yaşayış yeri, ana dili, savadlılıq, məşğuliyyəti (əsas və əlavə).

1897-ci il siyahıyaalmasının materialları Ümumrusiya külliyyatı şək-

lində, həmçinin ayrı-ayrı quberniyalar, vilayətlər, dörd şəhər və Saxalin adası üzrə 89 buraxılışda nəşr olunmuşdu. Bakı quberniyasının materialları (LXI cild) 1905-ci ildə; Yelizavetpol quberniyasının materialları isə (LXIII cild ) 1904-cü ildə çapdan çıxmışdı.

Qeyd edək ki, bəzi tarixçilərin əsərlərində XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan əhalisinin sayı haqqında təxmini məlumatlar yer almışdır. Məs., M.Vəlinin (Baharlının) 1921-ci ildə Bakıda nəşr olunan "Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat" adlı əsərində bütövlükdə Azərbaycan əhalisinin sayı, həmçinin əhalinin milli-etnik sayı göstərilir və müəllif Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan ünvan-təqvimə və 1917-ci il Qafqaz ünvan-təqviminə istinad edir. O yazır: "Azərbaycan əhalisi 1917-ci ilin Qafqaz Kalendarı və Azərbaycan Cümhuriyyətinin adres-kalendarı mövcibincə 2 milyon 861 min 862 candır. Bu statistik məlumatın əsasına 1897-ci ildə vaqe olan ümumi Rusiya siyahısı daxil edilmiş və üzərinə hər ildə artan miqdar da əlavə edilmişdir". Müəllif təkcə əhalinin statistik göstəricilərini verməklə kifayətlənməmiş, həmçinin Azərbaycan əhalisinin demoqrafik göstəricilərinin daha real olmasını əngəlləyən səbəbləri də müəyyən etməyə çalışaraq, siyahıyaalmanın nəticələrini şübhə altına almış və onunla razılaşmadığını dilə gətirmişdir. O yazır: "Fəqət 1897-ci ilin siyahıyi-ümumiyyəsi ətraflı deyildi, zəif idi. Çünki islam əhalisi mədəniyyət cəhətdən ən geridə qaldıqları və həmçinin əsgər alınacaqlarından (aparılacaqlarından–S.Ə.), torpaq mükəlləfiyyətlərin dən və vergi artırılacağından ehtiyat etdikləri üçün siyahı tutulan zaman yazılmaqdan imtina edirdilər... Köçəri əhalinin miqdarı da düz deyildi. Çünki siyahı tutulan vaxt bunların çoxu oturaq məhəllələrdən uzaq qışlaqlarda bulunurdular (yəni yaylaqlarda olurdular – S.Ə.), o səbəbə siyahıya düşməmişlər, binaəlineyn bu siyahıda nüfuzun göstərdiyi rəqəmlərə ehtiyatla yanaşılmalıdır. Eyni zamanda hər il artmaqda olanları da bu haldadır" [7].

Məlumdur ki, XIX əsrin sonlarından etibarən sənayenin, xüsusilə də neft sənayesinin və onunla bağlı olan sənaye sahələrinin inkişafı ilə əlaqədar olaraq Bakı şəhərinin hüdudları genişlənmiş, şəhər şimal və cənub istiqamətlərində xeyli böyümüşdü. Əgər 1851-ci ildə şəhərin türkdilli müsəlman əhalisinin sayı 7.431 nəfər, 1863-cü ildə 14.500 nəfər idisə, artıq 1897-ci ildə onların sayı 111.904 nəfərə çatmışdı.

XX əsrin əvvəllərində - 1903 və 1913-cü illərdə hər ikisi də oktyabr ayının 22-də Bakı şəhərində əhalinin iki siyahıyaalınması həyata keçirilmişdi. Bu siyahıyaalmaların proqramı Rusiyanın mərkəzi şəhərlərində - Moskvada və digər şəhərlərdə keçirilmiş siyahıyaalma proqramları ilə eyni idi. Bu siyahıyaalmaların keçirilməsi Bakı-Şollar su kəmərinin çəkilməsi üçün Şəhər Upravası tərəfindən 1902-ci ildə İngiltərədən dəvət olunmuş Vilyams Lindleyin təşəbbüsü idi. Kəmərin özünün çəkilməsi isə, məlum olduğu kimi, neft sənayeçisi H.Z.Tağıyevin təşəbbüsü olmuşdu.1903-cü il siyahıyaalınması bir sıra əlamətlər üzrə keçirilmişdi: buraya cins, yaş, ailə

vəziyyəti, savadlılıq, milliyyət, anadan olduğu yer və şəhərdə yaşadığı müddət daxil idi. Bütün bu məlumatlar 4 cədvəldə əks olunmuşdu. Daha iki cədvəl Bakı şəhər əhalisinin ümumi demoqrafik göstəricilərini əks etdirirdi. Digər məlumatları əks etdirən və işlənməmiş materialın böyük bir hissəsi 1905-ci ildə itmişdi. İkinci 1913-cü il siyahıyaalınması proqram etibarilə birincidən geniş idi. Siyahıyaalmanın proqramı müxtəlif sahələri əhatə edən məlumatların toplanmasını əhatə edirdi. Nəticədə müxtəlif tipli cədvəllər tutulmuşdu. Burada əhali haqqında hərtərəfli məlumat verən və 31 sualdan ibarət olan şəxsi vərəqə, ayrı-ayrı şəxslərin mülklərinin təsvirini əks etdirən, Bakının 25 mədən-zavod rayonu ərazisində yaşayan əhali haqqında verilmiş müxtəlif tipli cədvəllər yer almışdır. Cədvəllərdə verilmiş statistik məlumatlar əhalinin sosial-siyasi strukturu, milli etnik tərkibi, əhalinin ictimai vəziyyəti, savadlılığı, təhsil sistemi, sosial vəziyyəti, işlə təmin olunması səviyyəsi, mədən-zavod rayonlarında iş prosesi və əhalinin vəziyyəti, müəssisələrin tərkibi və s. haqqında hərtərəfli məlumat verir. Hər iki siyahıyaalmanın proqramının hazırlanmasında Bakı şəhər Upravasının statistika bürosu yaxından iştirak edirdi. Bu siyahıyaalmaların materialları ayrıca şəkildə nəşr olunmuşdur [5]. Sovet hakimiyyəti illərində - 1922-ci ildə həmin materiallar təkrar işlənmiş və B.B.Alışevskinin izahları və qeydləri ilə 2 buraxılışda yenidən nəşr olunmuşdur [1].

Yuxarıdakı siyahıyaalmaların verdiyi statistik məlumatlar əsasında məlum olur ki, 1897-ci ildən I Dünya müharibəsinin başlanmasına qədər – yəni, təxminən 17 il ərzində şəhər əhalisinin sayı 2 dəfə artmışdır. 1903-cü ildə Bakıda və şəhərətrafı ərazilərdə 143.398 sakin yaşayırdısa, artıq 1913-cü ildə onların sayı 214.672 nəfərə çatmışdı. Şəhərin etnik tərkibinə gəlincə bu digər vilayətlərdən köçüb gələnlərin hesabına şəhərin etnik tərkibi dəyişmişdi.

XX əsrin əvvəllərində Bakıda 214,7 min sakin yaşayırdı ki, bunlardan, ruslar, ukraynalılar və beloruslar 76,3 min (35,5%), azərbaycanlılar (o zamankı terminologiyaya görə "Zaqafqaziya tatarları") 46 min (21,4%), ermənilər 42 min (19,4%), farslar 25 min (11,7%), yəhudilər 9,7 min (4,5%), gürcülər 4 min (1,9%), almanlar 3,3 min (1,5%), Kazan tatarları 2,3 min (1,1%) təşkil edirdilər. Müsəlmanlar Xan qalasını əhatə edən şəhərin tarixi mərkəzində və şəhərin qərbində yaşayırdılar. Ruslar sənaye müəssisələri yerləşən ərazidə, ermənilər isə şəhərin şimal hissəsində məskunlaşmışdılar [9].

Beləliklə, əhalinin siyahıyaalınması materialları bütövlükdə Azərbaycanda və Bakı şəhərində XIX əsrin sonu – XX əsrin əvvəllərində əhalinin sayı, demoqrafik yerləşməsi, milli tərkibi və digər səciyyəvi göstəriciləri haqqında qiymətli statistik məlumatlar verir.

### *Ədəbiyyat siyahısı:*

1. *Алышевский В.В. Город Баку и промыслово-заводской район по данным переписи 1913 года, в двух выпусках. Издание АЗЦСУ. Баку, 1922*
2. *Алияров С.С. Методы исследования массовых источников по*

*истории Азербайджана (конец X1X – начало XX века). Тематический сборник научных трудов. Изд-во БГУ, Баку, 1981*
*3. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. Bakı, 2001, № 8, s.2921-2927.*
*4. Yenə orada.*
*5. Баку по переписи 22 октября 1903 года. Баку, 1905 год; Перепись Баку 1913 года. Баку, 1916*
*6. Валентей Д.И., Кваша А.Я. Основы демографии. Москва, 1989, стр. 62.*
*7. Vəlili M. Azərbaycan. Bakı, Azərnəşr, 1993, 204 səh.*
*8. Медков В.М.Демография.Ростов-на Дону,2002,стр. 13*
*9. Население Баку- https://ru.wikipedia.org/wiki/*
*10. Плошко Б.Г., Елисеева И.И. История статистики. М., 1990, стр.86.*
*11. Принципы и рекомендации в отношении проведения переписей населения и жилого фонда. Н-Й, ООН, 1981.*
*12. Система знаний о народонаселении. Москва, 1991, стр. 26-27*
*13. Сборник сведений о Елизаветпольской губернии. Изд. Елизаветпольского губернского статистического комитета. Тифлис, 1902, səh. 93.*
*14. Список литературы и материалов по теории организации, технике и итогам переписей населения. Москва, 1969.*

**UOT 94 (479.24); 930:314**

# QARABAĞ XANLIĞINDA ALI ZÜMRƏNIN TƏRKİBİ VƏ STATUSU

***Mehman Abdullayev***
***BDU, Tarix fakültəsi, dosent***
***dos.mehman.abdullayev@gmail.com***

*Məqalə Azərbaycanın əzəli torpağı olan Qarabağ xanlığında ali zümrənin tərkibi və statusu məsələlərinin mövcud ədəbiyyat və ilkin mənbələr əsasında araşdırılmasına həsr olunmuşdur.Bu zaman ali zümrənin əsas hüquq və imtiyazlarının müəyyən edilməsinə, din xadimlərinin bu zümrənin tərkibindəki yeri və roluna xüsusi diqqət yetirilmişdir. Xanlıqda xristian dininə mənsub olan əyanların və din xadimlərinin bu zümrənin tərkibində cüzi yer tutması mötəbər statistik sənədlər əsasında müəyyən edilmişdir.*

***Açar sözlər:*** *Qarabağ xanlığı, ali zümrə, say tərkibi, status*

## *СОСТАВ И ПОЛОЖЕНИЕ ВЫСШЕГО СОСЛОВИЯ В КАРАБАХСКОМ ХАНСТВЕ*

*Статья посвящена исследованию состава и положения высшего сословия в Карабахском ханстве, древней земле Азербайджана, на основе существующей литературы и первоисточников. При этом особое внимание было уделено определению основных прав и привилегий высшего сословия, места и роли религиозных деятелей в этой группе. То, что христианская знать и священнослужители в ханстве занимали в этой группе небольшое место, было установлено на основании достоверных статистических документов.*

***Ключевые слова:*** *Карабахское ханство, высшего сословия, численность, статус*

## *COMPOSITION AND POSITION OF THE HIGHER DOMAIN IN THE KARABAKH KHANSTA*

*The article is devoted to the study of the composition and position of the upper class in the Karabakh Khanate, the ancient land of Azerbaijan, on the basis of existing literature and primary sources. At the same time, special attention was paid to the definition of the basic rights and privileges of the upper class, the place and role of religious leaders in this group. The fact that the Christian nobility and priests in the khanate occupied a small place in this group was established on the basis of reliable statistical documents.*

***Keywords:*** *Karabakh khansta, upper class, number, status*

İlkin mənbələrin, xüsusilə ali zümrənin nümayəndələri olan A.Bakıxanovun və Mirzə Camal Cavanşirin əsərlərindəki məlumatların müqayisəli təhlili xanlıqlar dövründə ali zümrənin tərkibi və statusu ilə bağlı bir sıra mühüm məsələlərə aydınlıq gətirməyə imkan verir. Azərbaycan xanlıqlarında ali zümrənin tərkibinə hakim xan və onun nəslinin nümayəndələri, sultanlar, məliklər, ağalar, bəylər və iri ruhanilər daxil idi. Bəzi xanlıqlarda daha qədim kökə malik olub, daha iri torpaq mülklərindən və daha böyük hüquqlardan istifadə edən əyanlar sultan titulu daşıyırdılar. A.Bakıxanov yazırdı ki, hakim xanlar sultan titulunu çox zaman daha qədim əsil-nəcabətə malik olan və idarəetmədə daha mühüm vəzifə tutan köklü bəylərə verirdilər. Sultan titulu daşıyanlar ali zümrənin tərkibində xandan sonra birinci pillədə dayanırdılar. Məsələn, Salyanı idarə edən hakimlər həmişə sultan titulu daşımışdılar [7, s.137].

A.Bakıxanov məlik titulu daşıyanları böyük və yaxud kiçik ərazilərin nəsli hakimləri kimi qiymətləndirirdi. Ona görə Hacı Çələbiyə qədər Şəkinin nəsli hakimləri məlik adlandırılırdı. Qarabağ məlikləri isə əvvəlcə Gəncə xanlarından asılı vəziyyətdə idilər. Nadir şah Gəncə xanlarından narazı qaldığından Qarabağ məliklərini onların asılılığından çıxarıb, bütün Azərbaycanın hakiminə (qardaşı İbrahim xan tərəfindən idarə olunurdu) tapşırmışdı. Nadir şahın ölümündən sonra (1747) Qarabağ məlikləri on beş ilə yaxın sərbəst qalsalar da, Qarabağlı Pənahəli xan onları öz hakimiyyətinə tabe etmişdi [7, s.137].

Xanlıqlar dövründə Azərbaycanda ali zümrənin böyük əksəriyyətini təşkil edən bəylər üç əsas dərəcəyə bölünürdü.1. Köklü-əsilli bəylər. 2.Nəsli bəylər. 3.Şəxsi bəylər. Xanlıqda köklü bəylərin əksəriyyəti bu adı Səfəvi şahlarından aldıqlarından onların şəcərəsi daha qədim tarixə malik idi. Nəsli bəylərin isə əksəriyyəti bu titula hakim xanlar tərəfindən layiq görülmüşdülər. Bu tarixi gerçəklik xanlıqlar dövrünə aid bütün etibarlı mənbələrdə öz təsdiqini tapmışdır. Qarabağ xanlığında ali zümrənin tərkibi haqqında Mirzə Camal Cavanşir yazırdı: "Xanın qardaşları, qardaşı uşaqları, öz övladları və əmisi uşaqları məruf bəylər olub, mal, dövlət, nökər və cəlal sahibi idilər. Onların hər biri başqa vilayətlərin xanlarına bərabər idi. Xanın övladları və yaxın qohumları ilə yanaşı, doqquz elin və beş mahalın başçıları da dövlət, əzəmət, cəlal və bünövrə sahibi olub, köklü bəylərin Mirzə Camalın yazdığı kimi "məruf bəylərin" sırasına daxil idilər. Xanın "özü tərbiyə edib, rəşadət, çalışqanlıq və səmimiyyətlərinə görə dövlət və rəiyyət sahibi etdiyi başqa bəyləri Mirzə Camal "məşhur bəylər" kimi qələmə vermişdir [6, s.146].

Heç şübhəsiz həmin məşhur bəylər Qarabağ xanlığının nəsli bəylərini təmsil edirdilər. Bu adı onlar Qarabağ xanından almışdılar və xanın təliqəsi ilə (fərmanı) həmin adı nəsildən-nəslə ötürmək hüququna malik idilər. Tanınmış tarixçi T.Mustafazadə Qarabağ xanlığına həsr etdiyi əsərində bəyləri üç əsas kateqoriyaya ayırmışdır. 1. Bu adı Səfəvi şahlarından və

Osmanlı sultanlarından alan və bu haqda müvafiq fərmanı olan irsi bəylər və məliklər. Elatların başçıları və məliklər də bu qrupa daxil idi. Həmin irsi bəylər xan tərəfindən öz mülkündən məhrum edildikdə, hətta xanlığın ərazisindən qovulduqda da belə, bəy titulunu itirmirdilər. 2.Qarabağ xanlarının təliqəsi ilə kənd, mahal və sair bağışlanması ilə birlikdə bu adı almış bəylər. 3.Hər hansı inzibati-təsərrüfat vahidini xan təliqəsi olmadan müvəqqəti, yaxud irsi idarə edən bəylər. Kənd və el idarəçiliyi (elat) olmadan xanın yanında xidmətə görə bəy adı alan şəxsi bəylər də bu kateqoriyaya aid idilər. Onlar xana xidmət etdikləri müddətdə öz hüquq və adlarını saxlayır, vəzifədən kənarlaşdırıldıqda isə bu adı itirirdilər [1, s. 66].

Qeyd etmək lazımdır ki, Qarabağ xanlığında xanın övladları ağa titulu daşıyırdılar. Məsələn, Qarabağ hakimi İbrahim xanın böyük oğlu Məhəmmədhəsən ağa titulu daşıyırdı və xanın varisi hesab olunurdu. Ancaq, o atası sağ ikən öldüyündən varislik və vəliəhdlik hüququ xanın yerdə qalan oğlanları içərisində ən böyüyü olan Mehdiqulu ağaya keçmişdi [6, s.147].

Azərbaycan xanlıqlarında cəmiyyətin sosial strukturunda yuxarı pillədə dayanan ali zümrənin əsas imtiyazı, yəni digər təbəqələrdən üstünlüyü vergi immunitetinə (toxunulmazlığına) malik olması idi. Tarixşünaslığımızda ali zümrənin əsas imtiyazı kimi onun vergi və mükəlləfiyyətlərdən azad olması göstərilsə də, əslində bu zümrə xan qarşısında hərbi mükəlləfiyyətdən azad deyildi. Bütün vergilərdən azad bəy zümrəsinin digər hüquq və imtiyazları da var idi. Bəy adını daşıyanların tabelikdə olanlar üzərində az və ya çox dərəcədə inzibati-idarə və müəyyən məhkəmə hakimiyyəti, xan sarayında, qoşunda və idarəetmə sistemində müəyyən mövqe və vəzifələr tutmaq və sair kimi hüquqları var idi. Ayrı-ayrı xanlıqların sosial, iqtisadi və siyasi həyatında mühüm rol oynayan ali zümrənin nümayəndələri xanın sarayında həmişə yüksək vəzifələr tutur və xan xəzinəsindən müəyyən miqdarda məvacib alırdılar. Ali zümrənin tərkibinə daxil olan bəy və ağalar sərbəst şəkildə torpaq və digər əmlaklar alıb sataraq öz mülkiyyətlərinə çevirə bilər, xan xəzinəsinə heç bir vergi ödəmədən istənilən peşə fəaliyyəti, hətta ticarətlə də sərbəst şəkildə məşğul ola bilərdilər [1, s. 66-67].

Araşdırılan faktlar belə bir ümumi nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan xanlıqlarında o cümlədən, Qarabağ xanlığında ali zümrənin torpaq üzərində sahiblik hüququ həm də onların sosial-silki hüquq və imtiyazlarının əsas şərtini təşkil edirdi. Xanlıqlarda öz sosial statusunu sərbəst şəkildə varislərinə irsən ötürmək hüququ olan əsilli-köklü bəylər, ağalar, sultan və məliklərin əhali yaşayan və yaşamayan kəndləri və torpaqları daha çox şərtsiz və irsi səciyyə daşıyırdı. Xanlıqlar üzrə mülk və mülki-xalisə torpaqlarının böyük hissəsi də onların əlində cəmləşmişdi. Əsilli-köklü bəylər hakim xanlar tərəfindən öz mülklərindən, kəndlər üzərində sahiblik hüququndan məhrum edildikdə, hətta xanlığın ərazisindən qovulduqda belə, bəy titulunu itirmirdilər [1, s.66].

Nəsli və şəxsi bəylərin sosial statusu və torpaq hüququnun təminat-

lılığı isə daha çox hakim xanın iradəsindən və mərhəmətindən asılı idi. Heç də təsadüfi deyil ki, xan sülaləsi ilə bağlı olan bəy və ağalarla birlikdə ali zümrənin orta və aşağı təbəqəsini təşkil edən nəsli və şəxsi bəylərin böyük hissəsi xan hakimiyyətinin əsas sosial bazasını təşkil edirdi. Eyni zamanda xan sülaləsinə mənsub olan iri əyanların bəziləri və əsilli-köklü bəylərin bir hissəsi ayrı-ayrı xanlıqlarda gedən daxili siyasi çəkişmə və mübarizələrin əsas təşkilatçılarına çevrilmişdilər [8, s.5-37].

1822-ci ildə ləğv edilərək əyalətə çevrilən Qarabağ xanlığının ərazisində Rusiya hököməti tərəfindən 1823-cü ildə kameral siyahıyaalma keçirilərək keçmiş xanlığın mahallar üzrə bütün əhalisi, torpaqları və digər əmlakları qeydiyyata alındı. Həmin siyahıyaalma materialları Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivinin 24-cü fondunda saxlanılır və bu materiallar 1866-cı ildə Tiflisdə bir toplu şəklində çap olunmuşdur**.** Qarabağ xanlığının ləğv edildiyi vəziyyəti statistik baxımdan əks etdirən bu qiymətli mənbələrdəki məlumatlara görə XIX əsrin 20-ci illərin əvvəllərində Qarabağ xanlığında 18563 ailə qeydə alınmışdı. Tədqiqatçılar bir qayda olaraq həmin dövrdə bir ailəni (və ya həyəti) orta hesabla 5 nəfər hesab edirlər. Deməli, xanlığın əhalisi təxminən 90 min nəfərdən çox idi.

Qarabağda yaşıyan ailələrin 9073-ü vergi ödəyənlərin, 9490-ı isə vergi ödəməyənlərin siyahısına salınmışdı**.** Şuşa şəhərində yaşayan 1462 ailənin 192-si vergi ödəyən, 1270-i isə ödəməyən hesab edilmişdi [3].

1823-cü il siyahıyaalma materiallarının belə bir xüsusiyyətini qeyd etmək lazımdır ki, vergi qoymaq məqsədi, yəni fiksal səciyyə daşıdığından bəzi hallarda bir çox kəndlərdə əhalinin ümumi sayı verilsə də, tərkibi tam şəkildə göstərilməmişdir. Bu da əhalinin sosial tərkibi və demoqrafik vəziyyəti ilə bağlı araşdırmalar aparılarkən böyük çətinliklər yaradır.

**Cədvəl**

**1823-cü il kameral təsvirinə görə Qarabağda dövlət xəzinəsinə və ali zümrə nümayəndələrinə məxsus torpaqlar, kəndli ailələri və gəlirlər haqqında [2; 3]**

<table>
<tr><th rowspan="3">Şuşa şəhəri, mahallar və sahibkarlara məxsus mülklərdə</th><th colspan="2">Ailələr</th><th rowspan="3">Odun (yük)</th><th colspan="6">Xan xəzinəsinin gəlirləri</th></tr>
<tr><th rowspan="2">Vergi verən</th><th rowspan="2">Vergi verm əyən</th><th colspan="2">Çervonla</th><th colspan="2">Xan pulu</th><th colspan="2">Rus pulu ( gümüş ) ilə</th></tr>
<tr><th>bac</th><th>Otaq xərci</th><th>Manat</th><th>Qə pik</th><th>Man at</th><th>Qəp ik</th></tr>
<tr><td>Şuşa şəhəri</td><td>192</td><td>1270</td><td>260</td><td>560</td><td>230</td><td>1204</td><td>_</td><td>191</td><td>14</td></tr>
<tr><td>Xan ailəsinə məxsus kəndlərdən</td><td>914</td><td>1550</td><td>234</td><td>564</td><td>4</td><td>487</td><td>90</td><td>77</td><td>48</td></tr>
</table>

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Poruçik Gülməmməd bəyin mülkündən | 133 | 115 | 105 | 147 | 35 | 988 | 25 | 156 | 89 |
| Sisian mahalı | 87 | 116 | 20 | 29 | 7 | 5221 | 98 | 828 | 97 |
| Domurçasalin mahalı | 335 | 132 | 220 | 388,5 | 114,5 | 5113 | 80 | 811 | 73 |
| Kapitan Uğurlu bəyin mülkü | 304 | 116 | _ | 104 | _ | 107 | 10 | 17 | 1/2 |
| Künar mahalı | 34 | 22 | _ | 22 | 3 | 1950 | 64 | 309 | 66 |
| General-mayor kn. Mədətovun mülkü | 1245 | _ | _ | 338 | _ | _ | _ | _ | _ |
| Kapitan İsmayıl bəyin mülkü | 95 | 97 | _ | 35 | _ | _ | _ | _ | _ |
| Kapitan Hacı Ağalar bəyin mülkü | 155 | 427 | _ | 50 | _ | _ | _ | - | _ |
| Poruçik Səttar Əli bəyin mülkü | 183 | 50 | _ | _ | _ | _ | _ | _ | _ |
| Bərgüşad mahalı | _ | 146 | _ | 5 | _ | _ | _ | _ | 80 |
| Bababört mahalı | _ | 243 | | _ | _ | _ | _ | _ | _ |
| Polkovnik Xanlar ağanın mülkü | 378 | 370 | 465 | 650 | _ | _ | _ | 104 | _ |
| Kapitan Rüstəm bəyin mülkü | 218 | 219 | _ | 50 | _ | _ | _ | _ | _ |
| Kəbirli mahalı kapitan Məmmədəli bəy idarə edir | 248 | 284 | 194 | 276 | 90 | 3055 | 83 | 485 | 2 |
| Təkin mahalı | 508 | 190 | 589 | 737,5 | 221 | 46531 | 70 | 7385 | 99 |
| Ast bəyin mülkü | 237 | 153 | _ | 45 | 20 | 984 | _ | 156 | 21 |
| Kəbirli mahalı kapitan Mirzəli bəy idarə edir | 164 | 214 | 49 | 110 | 25 | 666 | 97 | 105 | 91 |
| Cavanşir mahalı | 370 | 326 | 250 | 443 | 129 | 5017 | 83 | 796 | 50 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Talış mahalı | 143 | 102 | 100 | 85 | 29 | 3546 | 40 | 1472 | 98 |
| Xaçın mahalı | 99 | 131 | 176 | 175 | 47 | 3506 | 78 | 556 | 65,5 |
| Kolanılar adlandırılan mahal | 203 | 259 | 140 | 198 | 45 | 1429 | _ | 226 | 91 |
| Çiləbört mahalı | 127 | 74 | 120 | 130 | 55 | 2205 | _ | 350 | 5 |
| Dizax Xurdanar mahalı | 129 | 89 | 241 | 197,5 | 56,5 | 10351 | 74 | 1642 | 95,5 |
| Püsiyan mahalı | 55 | 832 | 20 | 25 | 15 | 1470 | 50 | 233 | 45 |
| Dizax Cavanşir mahalı | 283 | 332 | 202 | 253 | 73 | 2852 | 31 | 452 | 78,5 |
| Otuz iki mahalı | 381 | 241 | 274 | 437 | 102 | 3571 | 85 | 566 | 99,5 |
| İyirmi dörd mahalı | 85 | 70 | 135 | 133 | 38 | 2711 | 75 | 430 | 46 |
| Qaraçorlu mahalı | 294 | 244 | 400 | 372 | 128 | 8712 | 80 | 1382 | 73,5 |
| Varadin mahalı | 297 | 328 | 230 | 369,5 | 40,5 | 17429 | 82 | 2766 | 72 |
| Dizax mahalı | 110 | 178 | 143 | 187 | 27 | 6360 | 2 | 982 | 57 |
| Polkovnik Cəfərqulu ağanın mülkü | 792 | 430 | 392 | 766,5 | _ | 25237 | 12 | 3922 | 56 |
| Mehdiqulu xana məxsus malikanə | 231 | 315 | 28 | 43 | 5 | 21533 | 30 | 3418 | 4,5 |
| Acanat Türk mahalı | 42 | 25 | _ | 30 | 11,5 | 3344 | 49 | 530 | 93 |
| Birlikdə cəmi | 9073 | 9490 | 4987 | 7955,5 | 1551 | 185592 | 88 | 30364 | 10,5 |

1823-cü il kameral siyahıyaalmasına görə, bölgədə qeydə alınmış 18953 ailədən 1559-u və yaxud 8.4%-i daha çox xristian əhalinin yaşadığı Gülüstan, Çiləbörd, Vərəndə, Dizaq və Xaçın məlikliklərinin payına düşürdü [5].

1823-cü ildə Qarabağ xanlığında məscid, mədrəsə və digər dini idarələrin nəzarətində olan torpaq və digər əmlakların siyahıya alınmasına xüsusi diqqət yetirilməsə də, həmin əmlakların gəlirlərindən istifadə edən, onlar üzərində sərəncam vermək hüququ olan din xadimlərinin sayı haqqında bir sıra statistik materiallara rast gəlinir. Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında indiyədək Qarabağ xanlığının əhalisinin tərkibində din xadimlərinin xüsusi çəkisinin müəyyən edilməsinə lazımınca diqqət yetirilməmişdir.

1823-cü il siyahıyaalmasına görə Qarabağ xanlığının mahallarında vergi ödəməyən zümrəyə aid edilən 191 müsəlman din xadimi ailəsi

yaşayırdı. Bunlardan 182-si molla, beşi seyid, ikisi əfəndi, biri axund, biri isə dərviş idi. Şuşa şəhərində yaşayan 44 din xadimi ailəsinin sayını da bura əlavə etdikdə, xanlıqda 233 müsəlman din xadimi ailəsi (1165 nəfər) var idi. Şuşa şəhərində yaşayan 42 din xadimi ailəsinin 20-si molla, 19-u seyid, 2-si axund, 1-i qazı, 2-si xəlifə idi. Şuşa şəhərində ümumilikdə cəmi 44 din xadimi ailəsi yaşayırdı ki, bunun cəmi 2-si xristian idi [2, s.412].

Qarabağ xanlığında yaşayan 18563 ailənin 302-si din xadimi idi. 302 din xadimi ailəsindən 69-u xristian idi. Qarabağ xanlığında yaşayan və 1823-cü il siyahıyaalınmasında erməni kimi qeydə alınan 69 din xadimi ailəsinin 67-si mahallarda yaşayırdı [2, s.412].

Qarabağ xanlığında müsəlman din xadimlərinin sayı 1823-cü il siyahıyaalınmasında göstəriləndən xeyli çox olmalı idi. Nəzərə almaq lazımdır ki, xanlıq 1805-ci ildə Rusiyanın tabeliyinə keçəndən sonra, I Rusiya-Qacar müharibəsi dövründə (1804-1813) hərbi əməliyyatlar nəticəsində Qarabağın xeyli sakini qaçqına çevrildiyindən əhalinin sayı azalmışdı. 1822-ci ildə Qarabağ hakimi Mehdiqulu xan Qacar sarayına sığınarkən özü ilə Arazın o tayına – Cənubi Azərbaycana 3000 ailə (15 min nəfərdən çox) aparmışdı. Digər tərəfdən Qarabağın əhalisinin bir hissəsini elatlar təşkil edirdi. Elatlar maldarlıq təsərrüfatı ilə bağlı tez-tez yerini (qışlaq-yaylaq) dəyişirdi, müsəlman olsalar da, oturaq əhaliyə nisbətən dini ayinlərin və mərasimlərin icrasına tam ciddiyəti ilə əməl edə bilmirdilər. Baharlının «Əhvalati Qarabağ» əsərində Pənahəli xanın (1748-1763) Şuşanın «avam müsəlman» tayfasının dini ayinlərin şəriətə uyğun qaydada icra edilməsinə yönələn tədbiri haqqında çox maraqlı məlumat vardır. Baharlı yazırdı: «Pənah xan əmr edərmiş ki, camaat gedib məsciddə namaz qılsınlar. O camaat getməz imiş. Axırda hökm edərmiş yasavul ilə xalqı məsciddə aparıb allah əmrin və namaz təlim etsinlər… O məscidin iki qapısı var imiş. Bu qapıdan yasavul xalqı məscidə doldururmuş, o biri qapıdan çıxıb qaçarmışlar [4, s.275]. Daha çox etnoqrafik səciyyə daşıyan bu məlumatda müəyyən tarixi həqiqət əks olunmuşdur. Qarabağ xanlığında din xadimləri xan xəzinəsinə heç bir vergi ödəməyən zümrəyə daxil idilər. Apardığımız hesablamalara görə din xadimləri ümumilikdə vergi verməyən zümrənin 3,2 %-ni təşkil edirdi. Müsəlman din xadimlərinin xanlığın vergi verməyən əhali içərisində xüsusi çəkisi 2,45 %-ə, xristian din xadimləri isə 0,75 %-ə bərabər idi.

### *Ədəbiyyat siyahısı:*

*1.Mustafazadə T. Qarabağ xanlığı. Bakı, "Sabah" nəşriyyatı, 2010, 333 s.*
*2.Описание Карабахской провинции составленное в 1823 г. по распоряжению Главноуправляющаго в Грузии Ермолова.Тифлис, 1866, Второе издание, подгот. З.А. Гаджиева, редактор Т.Т.Мустафазаде. Bakı, "Nurlan" nəşriyyatı, 2004, 415 s.*
*3. Qarabağnamələr. İkinci kitab, Tərtib edəni və çapa hazırlayanı H.Axundov. Bakı, «Yazıçı», 1991, 450 s.*
*4.Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi.f.24.siy.1.iş,141.v.1-326*

*5. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ Tarixi. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. Bakı,1959,* s.172
*6.Бакиханов А. Сочинения. Записки. Письма. Б.,1983, стр.269*
*7.Петрушевский И.П. Система русского колониального управления в Азербайджане а первой половине XIX века - Колониальная политика Российского царизма а Азербайджане в 20-60-- гг. XIX веа. ч.1, М-Л., Из-во АН СССР, с.16*

**UOT 94 (479.24); 930:314**

# QARABAĞ XANLIĞININ ƏHALİSİNİN SAY DİNAMİKASI VƏ ETNİK TƏRKİBİ (XVIII ƏSRİN II YARISI-XIX ƏSRİN I RÜBÜNDƏ)

***Arzu Məmmədova***
***BDU, Tarix fakültəsi,dosent***
***arzumammadova2@bsu.edu.az***

*1747-1822-ci illərdə mövcud olmuş Qarabağ xanlığı öz siyasi,strateji əhəmiyyətinə görə Azərbaycan xanlıqları arasında xüsusi yer tutmuşdur. Rusiya işğalınadək dağlıq və aran hissələrə bölünmədən vahid şəkildə mövcud olmuş Qarabağ xanlığının əhalisi haqqında məlumatlar arzu olunan səviyyədə olmasa da, ümumilikdə xanlığın əhalisinin say dinamikasını və tərkibini müəyyənləşdirməyə imkan verir. Araşdırma zamanı əsas istinad olunan qaynaq Qarabağda xanlıq idarə üsulunun Rusiya tərəfindən ləğvindən bir il sonra, yəni 1823-cü ildə keçirilmiş "Qarabağ əyalətinin təsviri" adlı kameral təsvir olmuşdur.*

*1795-1822-ci illərdə xanlığın əhalisinin say tərkibinə dair qaynaqlardakı məlumatlar təhlil edilmiş, dəyişikliklərin səbəbləri müəyyən edilmişdir. Eyni zamanda Qarabağ əhalisinin etnik tərkibi və Rusiyanın keçmiş xanlığın ərazisində etnik tərkibi ermənilərin köçürülməsi hesabına dəyişdirmə siyasəti faktlar əsasında izlənilmişdir.*

***Açar sözlər:*** *Qarabağ, Qarabağ xanlığı, Azərbaycan xanlıqları, Rusiya*

## *NUMERICAL DYNAMICS AND ETHNIC COMPOSITION* OF *THE POPULATION OF THE KARABAKH KHANATE (SECOND HALF OF THE XVIII CENTURY - FIRST QUARTER OF THE XIX CENTURY)*

*The Karabakh khanate, which existed in 1747-1822, had a special place among the Azerbaijani khanates due to its political and strategic importance. Although the data on the population of the Karabakh khanate, which existed as a whole without any division into mountainous and lowland parts until the Russian occupation, is not at the desired level, it allows to determine the dynamics and composition of the population of the khanate as a whole. The main source cited in the study was a cameral description entitled "Description of the Karabakh Province" held in 1823, a year after the abolition of the khanate by Russia. Source data on the composition of the population of the khanate in 1795-1822 were analyzed, the reasons for the decline were identified. At the same time, the ethnic*

*composition of the population of Karabakh and the policy of Russia, changing the ethnic composition of the territory of the former khanate through the resettlement of Armenians were tracked on the basis of facts.*

***Keywords:*** *Karabakh, the Karabakh khanate, the Azerbaijani khanates, Russian*

Qarabağli Pənahəli xan Cavanşir tərəfindən əsası qoyulmuş və 1747-1822-ci illərdə mövcud olmuş Qarabağ xanlığı Azərbaycan xanlıqları arasında öz siyasi-iqtisadi əhəmiyyətinə, strateji mövqeyinə görə xüsusi yer tuturdu. Rusiya imperiyasının Qafqazdakı qoşunlarının baş komandanı general P.D.Sisianov 22 may 1805-ci il tarixli 19 saylı məlumatında Qarabağı özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı adlandırır və buna görə də onu əldə saxlamağın və möhkəmləndirilməsinə daha çox səy göstərməyin vacibliyini qeyd edirdi [1 ,s.703-705].

Qarabağ xanının vəziri olmuş, sonra isə Rusiyanın xidmətində olan Mirzə Camal Cavanşir özünün 1847-ci ildə yazdığı "Qarabağ tarixi" əsərində xanlığın sərhədləri haqqında dəqiq məlumat vermişdi: "Qarabağ vilayətinin sərhədləri belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər –Araz çayıdır. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın sərhədi Kür çayına qədər – Goran çayıdır və Kür çayı çox yerdən keçib Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır [2, s.107-108].

Rusiya işğalı və müstəmləkəçiliyinin ilk dövründə imperiyanın yeni işğal etdiyi ərazidəki sərhədləri dəqiqləşdirməsində həmin dövrdə Rusiya xidmətində olan dövlət məmurunun rəsmi sənədlərə əsaslanan bu məlumatı əsas və təkzibedilməz fakt idi.

Rusiya işğalınadək dağlıq və aran hissələrə bölünmədən göstərilən sərhədlər daxilində vahid şəkildə mövcud olmuş Qarabağ xanlığının əhalisi haqqında məlumatlar arzu olunan səviyyədə olmasa da, ümumilikdə xanlığın əhalisinin say dinamikası və tərkibi haqqında mühüm faktları özündə ehtiva edir. Xanlığın əhalisinin ümumi sayı haqqında ilk məlumat 1795-ci ilə aiddir. Əhməd bəy Cavanşirin verdiyi məlumata görə, həmin ildə xanlıqda 60.000 ailə [3, s.160] yaşamışdır. Lakin 10 il sonraya aid olan növbəti məlumatda xanlıqda yaşayan ailələrin sayı 83 faiz azalaraq 10.000 olmuşdur.

**Cədvəl 1**

**Qarabağ xanlığının əhalisinin sayı**

| İllər | Ailələrin sayı | Artım və ya azalma (%-lə) |
|---|---|---|
| 1795 | 60.000 | - |
| 1805 | 10.000 | - 83 |

| | | |
|---|---|---|
| 1808 | 7.474 | - 25 |
| 1812 | 5.000 | - 34 |
| 1815 | 24.000 | 480 |
| 1817 | 7.872 | - 67,2 |
| 1823 | 20.019 | 254 |

**Qaynaq:** Акты, собранные Кавказской Археографической Комиссий, Изданы под ред.А.П.Берте,Тифлис,1866-1904,т.т.1-12 . АКАК, т.II, s.579; Абдуллаев Г. Азербайджан в XVIII век и взаимоотношения с Россией. Баку,1965,s.239; Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.Т. I-VI, Т.VI,СПб., 1871-1888 гг.,230; АКАК, т.V, ч.I, док. № 1265, s.836; Описание Карабахской провинции, составленное в 1823 г. действительным статским советником и полковником Ермоловым 2-м, Тифлис, 1866

Qarabağ xanlığının siyasi tarixindəki dinamik dəyişikliklər, Ağa Məhəmməd şah Qacarın yürüşləri (1795 və 1797-ci illər), xanlığın ərazisinin Rusiya – Qacarlar İranı (1804-1813) arasındakı müharibənin əsas ağırlıq mərkəzi olması, bu fonda gərginləşən sosial-iqtisadi vəziyyət əhalinin sayına və tərkibinə ciddi təsir göstərmişdir.

Mirzə Camal qeyd edirdi ki, bu yürüşlərdən (Ağa Məhəmməd Şah Qacarın yürüşləri) sonra vilayətin əhalisi pərişan halda idi. Ellərin çoxu Gürcüstan, Gəncə, İrəvan, Şirvan və hətta, Rum vilayətlərinə dağılıb getmişdi [2, s.129].

Həmin hadisələrdən qısa zaman sonra başlayan I Rusiya- Qacarlar İranı müharibəsinin qızğın gedişində əhalinin öz yaşayış yerini tərk etməsinə dair qaynaqda diqqəti cəlb edən məlumatlar yer almışdır: 1805-ci il iyunun 28-i Əsgəran çayı yaxınlığında polkovnik Qaryaginin dəstəsi ilə İran qoşunları arasında bütün gün ərzində baş verən döyüşdən sonra, gecə daha 20.000 nəfər iranlılar tərəfə keçmişdir [1, s.579]. Deməli,həmin hadisədən əvvəl də əhali kütləvi şəkildə öz yaşayış yerini tərk etmiş və bu 1795-ci illə müqayisədə 1805-ci ildə Qarabağda yaşayan ailələrin sayının 83% azalmasına gətirib çıxarmışdır.

XIX əsrin başlanğıcına aid məlumatlardan birində Qarabağ xanlığının əhalisinin sayı 84.000 nəfər göstərilir [4, s.426]. Orta hesabla hər ailəni 5 nəfərdən götürsək, bu təxminən 16.800 ailə demək idi. Polkovnik Kotlyarevskinin general Rtişevə 1812-ci il 30 sentyabr tarixli raportunda Qarabağ 1805-ci ildə Rusiyanın təbəəliyinə daxil olarkən burada 10.000 ailə yaşadığı qeyd olunmuşdu. Polkovnik Aseyevin general-feldmarşal qraf Qudoviçə 1808-ci il tarixli məlumatında isə ailələrin sayının azalaraq 7.474-ə endiyi məlum olur [5, s.239]. 4 il sonra bu rəqəm yenidən dəyişir və 1812-ci ildə artıq burada yaşayan ailələrin sayı 5.000-ə enmişdi [1, s.579].

1808-1812-ci illərdə ailələrin sayında 2.474 azalmanın [1, s.579] əsas səbəbi yuxarıda qeyd etdiyimiz kimi xanlığın ərazisinin aktiv hərbi əməliyyatlar meydanına çevrilməsi idi. Nəticədə isə əhali yaşayış yerini tərk

etmək məcburiyyətində qalırdı. Bu məsələ ilə əlaqədar N.Dubrovin qeyd edirdi ki, nəzarət dəstələrinin olmaması və Mehdiqulu xanın fəaliyyətsizliyi ucbatından bizim hüdudlarımıza soxulan iranlılar qarətlər edirlər. Hətta, onların o qədər də böyük olmayan dəstəsi Şahbulağa qədər gələrək, Tərtər çayı ilə Kür çayı arasındakı kəndləri boşaltmışdır [6, s.342]. Yenə də bu məsələyə toxunan müəllif qeyd edirdi ki, 1810-cu il hərbi kompaniyasının başlanğıcında bura tez-tez hücum edən İran qoşunları əhalini özləri ilə aparırdılar [6, s.360]. Mirzə Camal 1806-cı ildə Əbülfət xanın Qarabağın başqa qaçqın xan və bəyləri ilə birlikdə bütün elləri və neçə para kəndi köçürüb,Naxçıvan və Ordubad tərəfə aparması haqqında məlumat verir [2, s.139].

Əhalinin öz yaşayış yerini tərk etməsinin əsas səbəblərindən biri də ruslara güvənsizlik, inamsızlıqla bağlı idi. N.Dubrovin qeyd edirdi ki, Qarabağın sərhədlərinə qədər gələn Kotlyarevski əhalinin onlara mənfi münasibət bəslədiyinin şahidi olmuşdur. Əhali iranlılar tərəfə keçmək üçün fürsət gözləyirdi [6, s.448].

Rusiyanın rəsmi dairələrinin məlumatlarının öz əksini tapdığı cədvəl real vəziyyəti dəyərləndirməyə imkan verir.

**Cədvəl 2**

**1806-1812-ci illərdə Qacarlar İranına keçən və zorla aparılmış qarabağlıların sayı**

| İllər | Iranlılar tərəfindən aparılmışlar | Qaçmışlar |
|---|---|---|
| 1806 | 367 | 84 |
| 1809 | 323 | 412 |
| 1810 | 276 | 248 |
| 1811 | 274 | 707 |
| 1812 | 977 | 1177 |
| Cəmi | 2217 | 2628 |

**Qaynaq:** Акты, собранные Кавказской Археографической Комиссий, Изданы под ред.А.П.Берте,Тифлис,1866-1904,т.т.1-12 . AKAK, т.II, s.579

Beləliklə, 1806-1812-ci illərdə İran tərəfinə keçmiş 4.845 ailədən 2.217-si zorla aparılmış, 2.628-i isə özü qaçmaq məcburiyyətində qalmışdı [1, s.579]. Qarabağın Cicyan, Vahabyurd, Passian kimi mahalları tamamilə boşalaraq əhalisiz qalmışdı [7]. Təkcə Passian mahalında yaşayan ailələrin sayının 890 olması faktı əhali miqrasiyasının səviyyəsini göstərir [7].

Qarabağın əhalisinin köç etdiyi ərazilər arasında Azərbaycanın cənubu ilə yanaşı, şimalı da var idi. Məsələn: XIX əsrin əvvəllərində Şirvan əyalətinə Qarabağdan 1.500 ailə köçmüş və onlar təkcə Qoşun mahalında səkkiz kənd salmışdılar [8, s.39]. Bunu başqa mənbələrdə verilən məlumatlar da təsdiqləyir. “Qarabağ əyalətinin təsviri”ndə Hacılı kəndinin əhalisinin bütünlüklə Şirvana qaçması haqqında məlumat verilir [7].

Müxtəlif vaxtlarda Qarabağdan Nuxa ərazisinə köçmiş ailələrin sayı 2000-ə yaxın idi [9, s.132]. İrəvan, Şəmşəddil, Qazax və b. yerlərə köçən ailələrin sayı da az deyildi. Məsələn: Cəmilli eli bütünlüklə Qazağa, Xanıxlar kəndinin əhalisi İrəvana, Yengic kəndinin sakinləri isə Şəmsəddilə qaçmışdılar [7].

Əhalinin bu şəkildə miqrasiyası nəticəsində artıq 1812-ci ildə Qarabağ xanlığında yaşayan ailələrin sayı 5000-ə enmişdi. Kotlyarevskinin general Rtişevə 1812-ci il 30 sentyabr tarixli raportunda isə burada yaşayan ailələrin sayının polkovnik Aseyevin siyahıyaalmasına əsasən hətta 3.080 olduğu qeyd edilirdi [1, s.579]. A.P.Yermolovun 1817-ci il 4 mart tarixli raportunda da bu fakt təsdiqlənir, 1812-ci ildə Qarabağ əhalisinin siyahıyaalınması zamanı burada ailələrin sayının 3.080-dən çox olmadığı göstərilirdi [10, s.836].

Xanlığın əhalisinin kəskin azalmasının ən mühüm səbəbi müharibə olsa da, yenicə yaranmağa başlamış çar üsul-idarəsi, çar məmurlarının yerli əhaliyə qarşı həyata keçirdiyi sərt cəza tədbirləri də miqrasiya prosesinə ciddi təsir göstərmişdir. XIX əsrin əvvəllərində bu o qədər yüksək sürət almışdı ki, çar məmurları özləri bundan narahat olmağa başlamışdılar. Kotlyarevski 12 mart 1812-ci ildə Payliqçiya yazırdı ki, iranlılar tərəfə keçən Əbülfət xana və Cəfərqulu ağaya daha çox itaət edən xalq meşələrdə gizlənir və İran qoşunlarının gəlişini gözləyirlər [11, s.133]. 1812-ci ildə Cəfərqulu ağa İran tərəfinə keçərkən, Tuğ kəndi və başqa kəndlərin sakinləri, ümumilikdə 200 ailə onunla Arazı keçmişdi. Bundan narahat olan Kotlyarevski xandan tələb etmişdi ki, Araz yaxınlığında yerləşən bütün kəndləri Şuşa qalasının yaxınlığına köçürsün. Köçürülməsi mümkün olmayanları isə daha etibarlı yerlərə yerləşdirərək, ən yaxşı ailələrdən girov götürsün [12, s.132-133]. Lakin bu tədbirlər əhalinin öz yaşayış yerlərini kütləvi şəkildə tərk etməsinin qarşısını ala bilmirdi. Çar məmurları əhalinin xanın yeritdiyi siyasətdən narazı qaldıqlarından öz yaşayış yerlərini tərk etdikləri fikrini səsləndirirdilər. N.Dubrovin qeyd edirdi ki, Mehdiqulu xana nifrət edən əhali bütöv kəndlərlə xanlığı tərk edir və İrana gedirdilər [6, s.341]. Yenə də həmin müəllifin qeyd etdiyinə görə, hələ 1805-ci ildə Qarabağ xanı ona qarşı çıxan qala sakinlərinin qaçmalarının qarşısını almaq üçün Lusaneviçin tezliklə qalaya qayıtmasını xahiş etmişdi [4, s.421]. Lusaneviç isə vəziyyətlə bağlı qeyd edirdi ki, Şuşanın özündə xandan başqa hamı iranlıların tərəfindədir və onların açıq şəkildə iranlılara qoşulmasına orada mənum dəstəmin yerləşməsi mane olur [4, s.421].

Beləliklə, I Rusiya- Qacarlar İranı müharibəsi başa çatana qədər əhalinin miqrasiyası əvvəlki templə davam etməkdə idi. 1813-ci ildə müharibə Gülüstan sülhü ilə başa çatdıqdan sonra, A.P.Yermolovun ifadəsi ilə fikrimizi davam etdirsək, əyalətin əhalisi bərpa olunmağa başlamışdı. Əhali öz yaşayış yerlərinə qayıdırdı. 1813-cü ildə artıq Qarabağa 811 ailə

geri qayıtmışdı [13, s.580]. 1815-ci ildə isə Cəfərqulu ağa geri qayıdarkən daha 300 ailə onunla birlikdə geri dönmüşdü [14, s.586].

Sülh müqaviləsinin imzalanmasından keçən sonrakı iki il ərzində İrana qaçmış 4000 qarabağlı ailə geri dönmüşdü. 1815-ci ildə Qarabağ xanlığında ailələrin sayının 24 minə çatması haqqında məlumat mövcud idi [6 ,s.230]. Amma 1817-ci il məlumatına görə, Qarabağda yaşayan ailələrin sayı yenidən azalaraq 7.872 olmuşdur [10, s.836]. Bu, əlbəttə ki, 1812-ci illə müqayisədə əhalinin artımını göstərsə də, 1815-ci illə müqayisədə 67,2 % azalmanı göstərirdi. Görünür, 1816-cı ildə A.P.Yermolovun Qafqaz qoşunlarının baş komandanı təyinatından sonra, yerli əhaliyə qarşı sərt cəza tədbirlərinin görülməsi, xanın bütün hüquqlarının məhdudlaşdırılması, fəaliyyətinin general tərəfindən tənzimlənməsi və s. azalmaya səbəb olmuşdur. A.P.Yermolovun müsəlmanlara qarşı düşmən mövqeyi, rus qoşunlarının kəndləri viranə qoyan talanları əhalini yenidən öz yaşayış yerlərini tərk etmək məcburiyyətində qoymuşdu [7, s.26-27].

Xanlıq ləğv olunandan bir il sonra, yəni 1823-cü ildə Qafqazdakı rus qoşunlarının baş komandanı A.Yermolovun (1816-1827) göstərişi ilə tərtib edilmiş “Qarabağ əyalətinin təsviri”nə əsasən apardığımız hesablamalarda həmin ildə burada yaşayan ailələrin sayı 20.019 idi [7]. 1817-ci illə müqayisədə əhalinin sayında müşahidə olunan artım öz doğma yurdlarına geri dönmələri ilə əlaqəli idi: 1822-ci ildə Vahabyurd mahalının, 1823-cü ildə isə Passian mahalının əhalisi öz yaşayış yerlərinə dönmüşdü [7]. Sonralar isə ermənilərin hesabına əyalətin əhalisinin sayı artırılmış, etnik tərkibi dəyişdirilmişdi.

“Qarabağ əyalətinin təsviri”nə qədər Qarabağda erməniləşdirmə siyasətinin aparılmasına baxmayaraq, statistik müqayisələr göstərir ki, bu halda belə burada əksəriyyət azərbaycanlılardan ibarət idi. Təsvirə əsasən, 1823-cü ildə Qarabağda yaşayan 20.019 ailədən 13.835 ailə türk (azərbaycanlı), 6.184-ü erməni ailəsi idi [7]. 6.184 erməni ailəsinin bir qismi qriqoryanlaşdırılmış və erməniləşdirilmiş albanlar idilər. Qarabağa köçürülmüş erməni ailələrinin sayı birbaşa siyahıya alındığından birləşməyə qədər buradakı xristian əhalinin dəqiq sayını müəyyən etmək mümkün olmamışdır [15, s.42].

1823-cü ildə Qarabağda 661 yaşayış məntəqəsi var idi. Onlardan 488-i isə azərbaycanlı,173-ü erməni kimi qeydə alınmışdı [7]. 1727-ci ildə Osmanlı məmurlarının tərtib etdiyi “Dəftəri-müfəssəl əyaləti Gəncə” adlı mənbənin məlumatı ilə müqayisə göstərir ki, 173 erməni kəndinin 96 il əvvəl yalnız 48-nin adı bu siyahıda vardır [16, s.149-150]. Bu onu deməyə əsas verir ki, qalan kəndlərin erməni əhalisi köçürmələr nəticəsində buraya gəlmə idilər. Q.Qeybullayev qeyd edirdi ki, 1823-cü ildə qeyd olunan erməni kəndlərindən yalnız 14-nün adı ermənicədir. Ermənilərin o vaxt yaşadıqları əksər kəndlərin adları isə təmiz azərbaycancadır [16, s.151].

1822-ci ildə Qarabağda xanlıq idarə sisteminin tamamilə ləğvindən sonra, burada erməni əhalinin sayının köçürmələr hesabına artırılması siyasəti daha intensiv şəkil alır. Hətta, bu məqsədlə 1822-ci ildə arxierey Nerses erməni əhalisinin sayını öyrənmək məqsədilə Tiflisdən Qarabağa gəlmişdi. Bundan narahat olan Mehdiqulu xan general-leytenant Velyaminova yazırdı ki, "əgər hökumət Qarabağdakı təbəələrinin sayını bilmək istəyirsə, onda erməniləri tatarlardan (azərbaycanlılar-A.M.) ayırmağa nə lüzum var? Onlar hamısı eyni əyalətin sakinləridir... Əgər hər il biri başqa yerdən gəlib Qarabağ ermənilərini saymağa başlayacağsa, onda bu Qarabağın adət və qanunlarına ziddir" [17, s.846].

Lakin təsadüfi deyildir ki, Rusiya hakim dairələri bu narahatçılıqlara məhəl qoymur və öz siyasətlərini davam etdirirdilər. Məhz bunun nəticəsidir ki, 1828-ci ildə Türkmənçay sülh müqaviləsi imzalanan kimi 3000 erməni ailəsi Qarabağda yerləşdirilmişdi.

Beləliklə, Rusiyanın Azərbaycanı və onun bir parçası olan Qarabağı işğalı bölgə əhalisinin sayı və etnik tərkibində dəyişikliklərə səbəb oldu. Məhz bu dəyişikliklər Qarabağın münaqişə ocağına çevrilməsinin əsasını qoydu.

***Ədəbiyyat siyahısı:***

*1. Акты, собранные Кавказской Археографической Комиссий, Изданы под ред.А.П.Берте,Тифлис,1866-1904,т.т.1-12 . АКАК, т.II*
*2.Mirzə Camal Cavanşir. Qarabağ tarixi/ Qarabağnamə, I cild, Bakı, 1989*
*3.Əhməd bəy Cavanşir. Qarabağ xanlığının siyasi vəziyyətinə dair (1747-ci ildən 1805-ci ilə qədər).// Qarabağnamələr, I cild, Bakı, 1989*
*4. Дубровин Н.Закавказье от 1803-1806 гг.СПб.,1866*
*5. Абдуллаев Г. Азербайджан в XVIII век и взаимоотношения с Россией. Баку,1965*
*6. Дубровин Н.История войны и владычества русских на Кавказе. Т.Т. I-VI, Т.VI,СПб., 1871-1888 гг.*
*7. Описание Карабахской провинции, составленное в 1823 г. действительным статским советником Могилевским и полковником Ермоловым 2-м, Тифлис, 1866*
*8. Verdiyeva H.Y.XIX əsrin I yarısında Şimali Azərbaycanın əhalisi.Bakı,1993*
*9. АКАК, т.V, ч.I,док. № 197*
*10. АКАК, т.V, ч.I, док. № 1265*
*11. АКАК, т.V, ч.I, док. № 199*
*12. АКАК. Т.V, ч. I,док.№ 198*
*13. АКАК, т.V, ч.II, док. № 697*
*14. АКАК, т.V, ч.II, док. № 704*
*15. Xəlilov X.D. Qarabağın etnik tarixindən.// Azərb.SSR EA-nın Xəbərləri. Tarix, Fəlsəfə, Hüquq seriyası, 1988, № 3*

*16. Qeybullayev Q. Qarabağ (Etnik və siyasi tarixinə dair).Bakı, 1990*
*17. АКАК, T.V, ч. I, док.1288*
*18.АКАК,T.V,ч. II, стр.676,док.1366*
*19.АКАК, T.VI, Ч. I , стр. 840-841-842, док. № 1275,1276,1277,1278*
*20.АКАК, т.VIII. Тифлис,18...док.354,стр.469*
*21.АКАК, т. VII , Тифлис, 1878, док. 373, стр.428*
*22.АКАК, т.VII, док.372,стр.426,430; т.VIII, док.39,стр.63,док.50,стр.74, док.354, стр.470. 472, 473, 475*
*23.Mirzə Adıgözəlbəy.Qarabağnamə.//Qarabağnamələr. I cild, Bakı, 1989*
*24.Mirzə Yusif Nersesov Tarixi-Safi.// Qarabağnamələr, II cild, Bakı, 1991*
*25.Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х г.г. XIX век.,ч.I,II, М.-Л.,1937*
*26.Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, монографическом и финансовом отношениях, СПб, 1836 г.*
*27.Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Ч.II,III, СПб, 1869*
*28.Потто В.Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях (Генерал-адъютант Лазарев).Тифлис, 1900*
*29. Сумбатзаде А.С. Прогрессивное влияние присоединения Азербайджана к России на рост народонаселения страны в XIX веке - Азерб.ССР. ЕА-nın Xəbərləri. 1953, № 3*
*30.Аракелян А. Карабах до завоевания российским царизмом //Исторический журнал,1939, № 10*
*31.Кавказский календарь 1917 г.*

**UOT 94 (479.24); 930:314**

## XVIII ƏSRDƏ AZƏRBAYCANIN ƏHALİSİ VƏ SAYI HAQQINDA

***Zəhra İslamova***
***BDU,Tarix fakültəsi, t.f.d.***
***zehra.islamova.80@mail.ru***

*Məqalədə Azərbaycan tarixşünaslığının mühüm problemlərindən birinə Azərbaycan əhalisinin sayına həsr edilmişdir. İlkin mənbələr əsasında Azərbaycan tarixşünaslığının ən az öyrənilmiş məsələsinin tədqiqi mühüm əhəmiyyət kəsb edir. XVIII əsrdə xarici dövlətlərin diplomatik nümayəndələrinin qeydlərində Azərbaycanın əhali sayı, etnik tərkibi, sosial tərkibi və digər məsələlər haqqında fraqmental şəkildə rast gəlmək mümkündür. Məqalədə həmin qeydlər əsasında XVIII əsrdə Azərbaycanın şimal-şərq bölgələrinin, əsasən də Şamaxı, Bakı, Quba, Dərbənd əhalisinin say tərkibi araşdırılmış və yeni faktlar əsasında mühüm elmi nəticələr əldə edilmişdir. Əhalinin sayı haqqında ilkin qaynaqlarda olan yeni faktlar və nəticələr ilk dəfə bu məqalədə dərc edilir. Araşdırma zamanı əldə edilən yeni məlumatların Azərbaycan tarixşünaslığına daxil edilməsi vacibdir.*

***Açar sözlər:*** *XVIII əsr, əhalinin sayı, Şamaxı, Bakı, Quba, Dərbənd*

## *О НАСЕЛЕНИИ И ЕГО ЧИСЛЕННОСТИ АЗЕРБАЙДЖАНА В XVIII ВЕКЕ*

*Статья посвящена одной из важнейших проблем азербайджанской историографии о населении Азербайджана. Исследование наименее изученного вопроса азербайджанской историографии на основе первоисточников имеет большое значение. Иностранные дипломаты в восемнадцатом веке сообщают в своих отчетах и дневниках о населении, этническом составе, социальном составе и других проблемах Азербайджана. На основании этих данных было исследовано количество населения северо-восточных районов Азербайджана в XVIII веке, главным образом, Шемахи, Баку, Губы и Дербента, и на основе новых фактов были получены важные научные результаты. Новые факты и результаты из первоисточников о численности населения впервые публикуются в этой статье.*

***Ключевые слова:*** *XVIII век, население, Шамахи, Баку, Губа, Дербент*

## *ABOUT THE POPULATION OF AZERBAIJAN IN THE 18$^{TH}$ CENTURY*

*The article deals with one of the most important problems of Azerbaijani historiography about the population of Azerbaijan. The study of the least studied issue of Azerbaijani historiography based on primary sources is great importance. In the 18$^{th}$ century, foreign diplomats gave information in their reports and diaries about population, ethnic-social composition and other problems of Azerbaijan. Based on these data, the population of the northeastern regions of Azerbaijan in the 18$^{th}$ century, mainly Shamakhi, Baku, Guba and Derbent, was studied, and important scientific results were obtained based on new facts. New facts and results from primary sources on population were first published in this article.*

***Keywords:*** *XVIII century, population, Shamakhi, Baku, Guba, Derbent*

Azərbaycanın XVIII əsr tarixi beynəlxalq, siyasi və iqtisadi cəhətdən mürəkkəb proseslər ilə zəngindir. XVIII əsrdə Azərbaycan müstəmləkə planları olan Rusiya, Osmanlı, Qacarların, o cümlədən Avropa imperialistlərinin siyasi və iqtisadi cəhətdən təzyiqləri ilə üzləşir. Bu siyasi proseslər zəminində hər bir işğalçı imperiya ələ keçirəcəyi ərazi haqqında daha dərin biliyə malik olmaq istəyirdi. Bu səbəbdən müstəmləkçilər öz nümayəndələrini – diplomat, səfir, səyyah, tacir, elm adamlarını Azərbaycana göndərirdilər. Gələn əcnəbilərin hər biri gündəlik, raport şəklində müəyyən qeydlər etmişdilər ki, burada Azərbaycan haqqında müxtəlif səpkili məlumatlar tapmaq mümkündür. Qeyd edək ki, Azərbaycan tarixşünaslığında ən az tədqiq olunmuş məsələlərdən biri məhz Azərbaycan əhalisi, onun sayı, etnik tərkibi, sosial vəziyyəti və s. Bu səbəbdən XVIII əsr Azərbaycan əhalisinin sayı ilə bağlı tədqiqatın aparılması mühüm əhəmiyyət kəsb edir. Tədqiqat zamanı ilkin qaynaqlara müraciət edilmiş, xüsusilə Rusiyadan Azərbaycana göndərilən dövlət nümayəndələrinin qeydlərinə diqqət yetirilmiş və müqayisəli təhlillər aparılmışdır. Gələn dövlət nümayəndələrinə verilən təlimatlara əsasən bütün gördüklərini və eşitdiklərini qeyd etmək tələb olunurdu. XVIII əsrdə Azərbaycanda olmuş diplomatik missiyaların demək olar ki, hamısının qeydlərində əhalinin vəziyyəti, sayı və etnik tərkibi haqqında qısa da olsa müxtəlif məlumatlar vardı. Ayrı-ayrı şəhər və bölgələrin təsviri zamanı əhali, sayı, sosial zümrələrin vəziyyəti və onun etnik tərkibi barədə qısa qeydlər aparılmışdı. Tədqiqat zamanı əsas etibarilə Azərbaycanın şimal-şərq bölgələrini əhalisinin say tərkibi tədqiq edilmişdir.

İlk olaraq, Azərbaycanın XVIII əsrdə ən iri şəhəri olan Şamaxının əhalisi və onun sayı haqqında ilkin qaynaqlarda olan məlumatlara baxaq. Onu qeyd edək ki, Şamaxı karvan yolları üzərində yerləşən ticarət mərkəzi olduğundan bu şəhər ən qədim dövrlərdən əhalisinin sayı ilə seçilmişdi.

Lakin XVIII əsrdə baş vermiş siyasi hadisələr, bölgənin müharibə, üsyan və hərbi əməliyyatlar meydanına çevrilməsi, təbii fəlakətlər və zəlzələlər əhalinin sayının azalmasına səbəb olmuşdu. XVIII əsr Şamaxı əhalisi haqqında məlumat verən şəxslərdən biri Con Bel (1691-1780) olmuşdur. O, 1715-1717-ci illərdə A.Volınskinin rəhbərliyi ilə təşkil edilmiş Rusiya diplomatik missiya heyətinin əsas üzvlərindən biri olmuşdur. Şotland mənşəli, ixtisasca həkim və cərrah olan Con Bel qeyd edir ki, 1717-ci ildə yoluxucu xəstəlik olan taunun yayılması nəticəsində "səkkiz ay ərzində Şamaxı və onun ətraflarında yetmiş min insan ölmüşdü [3, 124]. XVIII əsrin I rübündə vəba xəstəliyi bütün Azərbaycanı bürümüş, kütləvi insan təlafatına səbəb olmuşdu. Əhalinin epidemiya nəticəsində kütləvi surətdə qırılması hökumət nümayəndələrini narahat etsə də, bunun qarşısını almaq üçün hər hansı bir addımın atılması barədə məlumata mənbələrdə rast gəlinmir. Əksinə A.Volınski "Şahın fərmanı gələndə Şirvan bəylərbəyi Key Xosrovun Qəbələdə" olmasını yazır [5, 59]. Çox güman ki, xəstəliyə tutulmaqdan qorxan vilayət hakimi Qəbələyə qaçmışdı. Bu az imiş kimi Şamaxı şəhəri 1721-ci ildə Hacı Davud üsyanı zamanı böyük dağıntıya məruz qalmışdı. Britaniya ticarət şirkətinin nümayəndəsi, ingilis səyyahı Conas Hanvey 1747-ci ildə Köhnə Şamaxıda olarkən belə yazmışdır: "Tarixçilərin haqqında bəhs etdikləri Şamaxıda, deyilənə görə, 12 min ailə yaşayırmış, şəhərin çoxlu, gözəl ictimai binaları vardı, şübhəsiz, Nadir şahın dağın o tərəfində yaratdığı Yeni Şamaxıdan fərqlənirdi. C.Kuk Yeni Şamaxının əhalisinin Bakı və Dərbənd şəhərlərinin əhalisinin birlikdə sayından çox olduğunu bildirir [6, 151]. Bu faktı təsdiq edən V.Leviatov qeyd edir ki, "XVIII əsrin sonuna yaxın iri şəhər hesab edilən Şamaxının on min, digər şəhərlər – Ərdəbil, Gəncə, Şuşa, Şəki, Şabran, Bakının üç - səkkiz min əhalisi vardı" [10, 59]. "Yeni Şamaxı şəhərində dörd - beş min sakin vardı. Onlar ticarət və sənətkarlıqla məşğul olurlar" [4, 432]. Mənbələrə istinad edən C.Mustafayevin qeyd etdiyinə görə, ticarət və sənətkarlığa himayədarlıq edən Məhəmmədsəid xan iqtisadiyyatın inkişafına xüsusi qayğı göstərirdi. Onun dövründə şəhərdə doqquz məhəllə və min ev var idi" [2, 33]. Hər evdə 5-6 adam olması nəzərə alınarsa, XVIII əsrin II yarısında Şamaxıda 5-6 min sakinin olmasını təxmin etmək mümkündür. Şirvanın həm müdafiə, həm də strateji baxımdan böyük əhəmiyyətə malik olan digər siyasi mərkəzi olan Fitdağda Mustafa xanın dövründə (1792-1820) on min nəfər adam yaşadığı məlumdur. Ağa Məhəmməd xanın yürüşü zamanı tabe olmaq istəməyən Mustafa xan bütün Şamaxı əhalisi ilə Fitdağa çəkilmişdi [8, 134]. Mənbə və tədqiqatlarda verilən məlumatlardakı müxtəliflikləri Şamaxının siyasi durumu və strateji vəziyyəti ilə izah etmək olar.

XVIII əsrdə Azərbaycana gəlmiş səyyahların gündəliklərində Bakı şəhərinin əhalisi haqqında qeydlər vardır. Bir çox səyyahlar Bakını öz gündəliklərində Badkubə kimi qeyd etmişlər. Abşeron bölgəsində hələ eradan

əvvəl məskunlaşma olmuşdu. Ümumilikdə, Bakının təbii coğrafiyası burada əhalinin sayının artımına imkan vermirdi. Xanlıqlar dövründə Bakı xanlığı 39 kənddən ibarət idi və cəmi beş yüz nəfərlik qoşunu vardı. İ.Gerber Bakı haqqında yazır: "Çay, təmiz su və meşənin olmaması Bakının az məskunlaşmasına səbəb olub. Qiyamçılar tərəfindən dağıdılsa da, hələ indi qayıdıb, yaşamağa başlayırlar [9, 97-98]. Dərbənd və Bakıda əhalinin yarıdan çoxu başqa yerlərə köçməyə məcbur olmuşdu, çünki çoxlarının evi dağılmışdı. V.Zubov Bakıda "mindən çox ev vardı ki, burada müxtəlif xalqların nümayəndələrinin... sayı 4000-ə qədərdi" [11, 26]. Coğrafi mövqeyi və təbiəti baxımından Bakı Azərbaycanın zəif məskunlaşdığı ərazilərdən hesab edilir. Onsuz da əhalisi az olan Bakı XVIII əsrboyu izlənilən qiyam və qarətlərdən tamamilə boşalmışdır. Bakının mərkəzində əhalinin kəndlərə nisbətən çox olmasına əsas səbəblərdən biri isə hücumlar zamanı əhalinin qalada gizlənməsi imkanı ilə izah oluna bilər. Bildiyimiz kimi, Bakı ikiqat müdafiə divarları ilə əhatə olunmuşdu. Xarici düşmənlərin hücumu zamanı əhali qalaya sığınırdı. Ümumiyyətlə, düşmən hücumu zamanı əhalinin qalada gizlənərək müdafiə olunması praktikasının geniş tətbiqini XVIII əsrdə görürük. A.Araratski ləzgilərin hücumları barədə danışarkən "... kəndin əhalisi iki ay İrəvan qalasına sığındı" - deyə yazırdı [14, 31].

Quba hakimi Hüseynəli xan 1735-ci ildə Quba şəhərini mərkəz seçir və paytaxtı Xudatdan buraya köçürür. XVIII əsrin 40-cı illərində Quba xanlığın mərkəzi olduqdan sonra şəhər özünün yüksəliş dövrünə qədəm qoyur. A.Lopuxin 1717-ci ildə Qubada olarkən qeyd etmişdi ki, "Şəhərdə 600 ev, kəndlərdə isə on beş-otuz ev vardı" [9, 7]. Digər rus hərbiçisi A.Q.Serebrov Qubada altı yüz evin, ətrafda isə 6820 həyətin olduğu 288 kəndin olmasını söyləyir [9, 179]. F.Simonoviç bunu təsdiqləyərək "Quba şəhərində altı yüz, Quba ətrafında iki min iki yüz, Müşkürdə dörd yüz yetmiş, Şabranda min yüz doxsan evin" olduğunu yazır [9, 145-146]. P.Q.Butkovun məlumatına əsasən, Qubada 6364 həyəti olan 245 kənd mövcuddur. Bütün Quba əyalətində isə 23147 adam yaşayır [9, 203]. M.Biberşteyn Quba "əhalisi çox olan dövlətdir" - məlumatını verir [4, 13]. S.Qmelin Quba əhalisi haqqında "bu şəhərdə ən çox sünni və şiə təriqətli türklər yaşayırlar, Fətəli xan özünü şiə hesab etsə də, ləzgi və digər təriqətli türklərlə əlaqələri olduğundan onlara da hörmətlə yanaşır" [7, 49].

Qədim Azərbaycan şəhəri Dərbənd əhalisi haqqında səyyah gündəliklərində daha çox məlumata rast gəlirik. Bunun səbəbi Dərbəndin Azərbaycanın giriş qapısı rolunu oynaması və diplomatlara verilmiş gizli təlimatlarda Dərbənd haqqında ətraflı məlumatın toplanılması olmuşdur. F.Beneveninin məlumatına görə "1720-ci ildə Dərbənddə qızılbaşlara qarşı qalxmış üsyan nəticəsində Niyazabada qədər bir neçə kənd yandırılaraq məhv edilmiş, əhalisi isə əsir edilmişdi" [12, 47]. Dərbənd əhalisi haqqında A.Q.Serebrov yazır ki, Dərbənddə 2180-ə yaxın həyət, Dərbənd ətrafında isə min əlliyə yaxın həyəti olan iyirmi bir kənd vardı [9, 176]. P.Q.Butkov

Dərbənd ətrafında on beş kənd və burada on min kişi olduğunu bildirir [9, 202]. F.Simonoviç "Dərbənd şəhərində iki min doxsan ev" olmasını qeyd edir [9, 144]. Mənbələrdən də görürük ki, qədim türk torpağı olan Dərbənddə digər xalqların nümayəndələri yaşasalar da, Azərbaycan türkləri üstün mövqedə idilər. XVIII əsrin əvvəllərinə nisbətən sonlarına doğru əhalinin azalmasına səbəb Dərbəndin ruslar tərəfindən işğalı və bundan sonra türk müsəlmanların sıxışdırılması idi. A.Bakıxanov qeyd edir ki, "...yüksək və daha kiçik olan Narınqaladır. Ruslar əvvəlcə buranı aldılar və əhalisini tamamilə çıxarıb kənara göndərdilər" [1, 98]. 1796-cı ildə V.Bakunina yazır ki, "biz kölgəlik olan, böyük bağa malik, tərk edilmiş "pers" (Azərbaycan türkləri nəzərdə tutulur-Z.İ.) kəndi tapdıq" [13, 445]. Yaşayış şəraitinin əlverişli olmasına baxmayaraq kəndin tərk edilməsi birbaşa siyasi münaqişələrlə bağlı idi. Rusların gəlişi xəbərini eşidən əhali daha təhlükəsiz ərazilərə köçmüşdülər. "Şəhərin Dübari adlanan hissəsində əvvəllər, nə vaxtsa, yunanlar və digər xristianlar yaşamışdır. Görünür, sonralar iqtisadi tənəzzül səbəbilə oranı tərk etmişdilər" [13, 445]. P.Q.Butkovun bu məlumatı XVIII əsrin sonlarında Dərbənd əhalisinin sayının azalmasına nəinki, siyasi, eləcə də iqtisadi təsirlərin olduğunu göstərir.

XVIII əsrdə Avropalıların kütləvi şəkildə Azərbaycanda yaşaması haqqında məlumatlara rast gəlinmir. Bəzən müəyyən səbəblərdən Azərbaycanda Avropa xalqlarından nümayəndələr yaşayırdı. C.Bel Şamaxıda olarkən Dansiqdən olan, Polşa elçiliyinin tərkibində gələn, alman dilli zadəganla görüşmüşdü. İsfahanda Polşa səfiri öldükdən sonra həmin şəxsin öz yerliləri ilə mübahisəsi düşmüş, müsəlmanlığı qəbul edərək, burada qalmış, dili öyrənmiş və hazırda Şamaxıda ailəsi olduğunu bildirmişdir [13, 394]. XVIII əsrdə Azərbaycan ərazisində müxtəlif səbəblərdən məskunlaşmış və yerli əhali ilə qaynayıb-qarışmış əcnəbilərlə rastlaşmaq olardı. Bu tipli faktlara sənədlərdə çox az hallarda təsadüf olunur.

Beləliklə, məqalədə XVIII əsr diplomatik missiya sənədlərində fraqmental şəkildə olan kiçik materialların bir yerə toplanmasına cəhd edilmişdir. Bu məlumatlar əsasında Azərbaycanın şimal-şərq bölgələrinin əhalisi, onun sayı və etnik tərkibi araşdırılmış, ölkəmizin etnik durumuna bir daha nəzər salınmışdır.

***Ədəbiyyat siyahısı:***

1. *Bakıxanov A. Gülüstan-i İrəm. Bakı: Elm,1991, 256 s.*
2. *Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.*
3. *Бель Д. Белевы путешествие через Россия в разных Азиатские земли, а именно: Пекин, Дербенд и Константинополь. (Перевод с французского М.Попов) кн. I-III, СПб, 1776 г.*
4. *Биберштейн М. Описание провинций, расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура. НАИИ НАН*

*Аз., 466, л. 56.*

5. *Бушев П.П. Посольства Артемия Волынского в Иран в 1715-1718 гг. (по русским архивам).Москва,Наука, 1978, 288 с.*
6. *Гезалова Н.Р. Вопросы истории Азербайджана XVIII в. (на основе сведений англоязычных источников и историографии). Баку-Москва, ИРИСГРУП, 2010, 244 с.*
7. *Гмелин С.Г. Путешествие по России для исследования всех трех царствь в природе, ч.III. СПб., Иждивением Императорской Академии Наукъ, 1785, 737 с.*
8. *Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722). Баку: "Элм", 1989, 48 с.*
9. *История, география и этнография XVI-XIX вв. Архивные материалы. Москва: Издательство восточной литературы, 1958, 367 с.*
10. *Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: изд-во АН Азерб.ССР, 1948, 228 с.*
11. *Мамедова Г.Н. О походе В.Зубова в Азербайджан в 1796 г. Баку: Элм, 2003, 94 с .*
12. *Посланник Петра I на Востоке. Посольство Флорио Беневени в Персию и Бухару в 1718 - 1725 годах. Москва: Главная редакция восточной литературы издательства "Наука", 1986, 158 с.*
13. *Путешественники об Азербайджане. Под редакцией Э.М.Шахмалиева. т. I, Составиль З.И.Ямпольский. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1961, 425 с.*
14. *Жизнь Артемия Араратского. Издание подготовиль К.Н.Григорьян при участии Р.Р.Орбели. Ленинград: Наука, 1981, 224 с.*

**UOT 94 (479.24); 930:314**

# "QARABAĞNAMƏLƏR"DƏ QARABAĞ XANLIĞININ ƏRAZİ VƏ ƏHALİ MƏSƏLƏLƏRİ

***Elşən Aslanov***
***BDU, Tarix fakültəsi, t.ü.f.d.***
***tarixmenbe@mail.ru***

*Tarixi inkişafda məkanla bağlı təsəvvürlərimizi konkretləşdirən, onları müəyyən ərazilərlə birləşdirən tarixi coğrafiya eyni zamanda dövlətlərin daxili və xarici sərhədlərinin, şəhərlərin, kəndlərin və digər yaşayış məntəqələrinin topoqrafiyasını, tarixi əhəmiyyətli döyüş yerlərini, hərbi yürüşlərin marşrutlarını və digər tarixi hadisələri müəyyən edir. Əlverişli təbii-coğrafi şəraiti, geostrateji mövqeyi, təbii sərvətləri, əməksevər insanları ilə Azərbaycanın ən qədim vilayətlərindən və ən dilbər guşələrindən olan Qarabağdan bəhs edərkən qarşıya çıxan suallardan biri də onun ölkəmizin hansı ərazilərini əhatə etməsi və orada yaşayan əhalinin milli kimlik məsələsidir. Bu baxımdan həmin sualların cavabı üçün məqalədə tədqiqat obyekti kimi seçilmiş Qarabağ xanlığının ərazi və əhali məsələlərinin öyrənilməsində "Qarabağnamələr"nin mənbə olaraq seçilməsi təsadüfü deyil. Məqalədə Azərbaycanın, o cümlədən Qarabağ xanlığının XVIII-XIX əsrlərdə sosial-iqtisadi və siyasi problemləri ilə bağlı tarixinin araşdırılmasında faktiki materiallar və qiymətli məlumatlarla zəngin "Qarabağnamə" müəlliflərindən Mirzə Adığözəl bəy, Mirzə Camal Cavanşir, Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani və Əhməd bəy Cavanşirin əsərlərinə istinad edilərək, xanlığın ərazi və əhalisi, Xəmsə məliklikləri və onların mənşəyi və s. bağlı məsələlər araşdırılır.*

***Açar sözlər***: *Qarabağnamələr, Qarabağ xanlığı, sərhəd, coğrafi ərazi, məliklik, əhali*

## *ТЕРРИТОРИЯ И ВОПРОСЫ НАСЕЛЕНИЯ КАРАБАХСКОГО ХАНСТВА В «КАРАБАХНАМЕ» («КАРАБАХСКИХ ПИСЬМАХ»)*

*Историческая география, конкретизирует наше восприятие пространства в историческом развитии и связывает их с определенными территориями, а также определяет топографию внутренних и внешних границ государств, городов, деревень и других поселений, исторических полей сражений, маршрутов военных кампаний и других исторических событий. Говоря о Карабахе - одном из древнейших регионов и самых очаровательных уголков Азербайджана, с его благоприятными природно-географическими условиями, геостратегическим положением, природными ресурсами, трудолюбивыми*

*людьми – обосновываются важнейшие вопросы - какие территории нашей страны он охватывает и национальная принадлежность проживающих там людей. С этой целью объектом исследования статьи был выбран «Карабахнаме» («Карабахских письмах») как источник для изучении территориальных и демографических проблем Карабахского ханства. Статья богата фактическим материалом и ценной информацией по изучению истории Азербайджана, включая социально-экономические и политические проблемы Карабахского ханства XVIII-XIX веков. Ссылаясь на работы таких авторов «Карабахнаме» как Мирзы Адыгёзель бека, Мирзы Джамал Джаваншира, Мирзы Юсиф Карабахи, Мир Мехди Хазани и Ахмед бек Джаваншира исследуются вопросы связанные с территорией и населением ханства, меликств Хамси и их происхождения и тп.*

***Ключевые слова:*** *Карабахнаме, Карабахское ханство, граница, географическая область, меликство, население*

## *TERRITORY AND POPULATION ISSUES OF KARABAKH KHANATE IN "KARABAKHNAMES"*

*Historical geography specifies imaginations related historical place in historical development and unifies it with certain territories, simultaneously it defines topography of internal and external borders of states, cities, villages and other settlements; historically important fighting place; routes of military marches and other historical events. While mentioning about Karabakh where is one of the most ancient and most beautiful provinces of Azerbaijan with its advantageous natural-geographical condition, geostrategic position, natural resources and hardworking people, the question arises in which territories of our country Karabakh is included and national identity of its population. İn this regard, selection of "Karabakhnames" which is a research object in the article as a source in learning of the territory and population issues of Karabakh Khanate is not a coincidence for answering these questions. İn the article, territory and population of the khanate, Khamsa melikdoms and their origins and other issues are investigated referring to "Karabakhnames" which are rich with real materials and valuable information in exploring of socio-economic and political problems of XVlll-XlX centuries of Azerbaijan and Karabakh Khanate and to authors of "Karabakhnames" such as Mirza Adigozel beg, Mirza Jamal Javanshir, Mirza Yusuf Karabakhi, Mir Mahdi Khazani and Ahmed beg Javanshir.*

***Keywords:*** *"Karabakhnames", Karabakh khanate, border, geographical territory, melikdoms, population.*

Tarix elmində tarixi inkişafda məkanla bağlı təsəvvürlərimizi konkret-

ləşdirən və onları müəyyən ərazilərlə birləşdirən tarixi coğrafiyadır. Tarixi coğrafiya eyni zamanda dövlətlərin daxili və xarici sərhədlərinin, onların inzibati ərazi vahidlərinin dinamikasını, şəhərlərin, kəndlərin və digər yaşayış məntəqələrinin topoqrafiyasını, tarixi keçmişdə nəqliyyat kommunikasiyalarının və ticarət yollarının lokallaşdırılmasını, tarixi əhəmiyyətli döyüş yerlərini, hərbi yürüşlərin marşrutlarını və digər tarixi hadisələri müəyyən edir. Əlverişli təbii-coğrafi şəraiti, geostrateji mövqeyi, təbii sərvətləri, əməksevər insanları ilə Azərbaycanın ən qədim vilayətlərindən və ən dilbər guşələrindən olan Qarabağdan bəhs edərkən qarşıya çıxan suallardan biri də onun ölkəmizin hansı ərazilərini əhatə etməsidir. Çünki erməni separatçıları tərəfindən törədilmiş "Dağlıq Qarabağ" probleminin dərk edilməsi üçün bu suallın cavabı önəmli olduğu qədər, həm də aktualdır.

Hər hansı bir ölkənin və ya hər hansı bir bölgənin tarixi coğrafiyasının öyrənilməsində tarixi-arxeoloji tədqiqatlar və yazılı mənbələr mühüm əhəmiyyət daşıyır. Maddi mədəniyyət qalıqları əsasında əhalinin ayrı-ayrı təsərrüfat sahələri, iqtisadiyyatı, ticarəti araşdırıldığı kimi, yazılı mənbələrdə adları çəkilmiş yaşayış yerlərinin lokallaşdırılması nəticəsində həmin yaşayış məntəqələrində yaşayan xalqların yerləşdiyi vilayətlərin hüdudları müəyyən edilir, ölkənin sərhədləri dəqiqləşdirilir. Bu baxımdam "Qarabağnamələr" Azərbaycanın, o cümlədən Qarabağ xanlığının XVIII-XIX əsrlərdə sosial-iqtisadi və siyasi problemləri ilə bağlı tarixinin araşdırılmasında faktiki materiallar və qiymətli məlumatlarla zəngin olub, eyni zamanda xanlığın ərazi və əhali məsələlərinin öyrənilməsində əvəzolunmaz əsərlərdir.

Bəhs edilən dövrdə Şimali Azərbaycan xanlıqları içərisində Qarabağ xanlığı istər siyasi, istər iqtisadi, istərsə də mədəni inkişafının xüsusiyyətlərinə görə digər xanlıqlardan seçilildiyi üçün xanlığın ərazi və əhali məsələlərinin öyrənilməsində yerli mənbə kimi "Qarabağnamələr»in tədqiqat obyekti kimi seçilməsi təsadüfi deyildir.

Adı ilk mənbələrdə VII əsrdən işlənilmiş "Qarabağ əvvəllər tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir" [6,11]. Azərbaycan ərazisinin ən mühüm, məhsuldar torpaq sahələrinin xeyli hissəsini əhatə edən Qarabağ xanlığı Kiçik Qafqazın cənub-şərqində, əsasən Kür və Araz çayları arasında, Səfəvilər dövləti dövründə Gəncə-Qarabağ bəylərbəyliyinin bir hissəsində meydana gəlmişdi.

Mirzə Adıgözəl bəy böyük səy və gərgin əmək sərf edərək, Qarabağın və qismən də Cənubi Qafqazın tarixinə aid sanballı materiallar toplamış və tarixi faktlarla zəngin əsər ortaya qoymuşdur. Gəncə-Qarabağ əyalətinin sərhədləri ilə bağlı müəllif yazır ki, sərhəd "şimalda Kür çayı boyunca davam etmiş, Kürün Araz çayı ilə birləşdiyi yerdən Araz çayı boyunca qərbə doğru Bərgüşad livasına və buradan şimal istiqamətində, Göyçə gölünün şərq hissəsindən keçərək yenə də şimala doğru, Tiflis əyalətinə daxil olmuş Borçalının cənub hissəsi və Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qəzasına

qədər" [2, 7] uzanmış, ərazisi XVI əsrin sonundan XVIII əsrin əvvəllərinədək əsasən dəyişməz qalmışdır. Qarabağ bəylərbəyliyinin tərkibinə XVII əsrdən XVIII əsrin əvvəlinə qədər Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil daxil idi [1, 33].

Kürəkçay və Qaraçay çayları boyunca şimal-qərbdə Gəncə, cənub-qərbdə Naxçıvan, qərbdə İrəvan, şimal-qərbdə Şəki, həmçinin Kür çayı boyunca Şirvan xanlıqları, cənub-şərqində Təbriz və Ərdəbil xanlıqları ilə sərhədlənən Qarabağ xanlığının təbii-coğrafi mövqeyi və coğrafi-siyasi sərhədləri ilə bağlı fikirlər "Qarabağnamələr»də qısa şəkildə, pərakəndə halda və əksər hallarda müəlliflərin bir-birini təkrarlaması ilə qeyd olunduğu üçün ərazinin sərhədləri ilə bağlı müəyyənləşdirmə aparmaq çətinlik yaradır.

Mirzə Adıgözəl bəyin Qarabağın 1736-cı ildən 1828-ci ilə kimi siyasi tarixindən bəhs edən "Qarabağnamə" əsərində .qeyd edilir ki, Pənah xan Şuşanı xanlığın mərkəzinə çevirdikdən sonra "Meqri, Güney mahallarını Bərgüşada qədər Qaradağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatef və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngəzur və Qapan mahallarını Təbriz bəylərbəyisindən aldı. Kolanıların məskəni olub, Uşacıq kəndindən Göyçə sərhədinə qədər uzanan Tərtər çayı sahilindəki yerləri İrəvan hakimindən aldı. Gəncə hakimlərinə aid və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də öz əlinə keçirdi.

Bundan başqa, Naxçıvan elindən olub bir minbaşıya tabe Kəngərli eli, Gürcüstandakı Dəmirçi Həsənlilərdən olub, bayraq sahibi və bir minbaşıya tabe Dəmirçi Həsənli eli, yenə bir minbaşıdan asılı olan və Gürcüstanın məşhur elatından sayılan Cinni tayfası mərhum Pənah xanın ədalət, şövkət və təntənəsinin sədasını eşidərək öz xahişlərilə onun möhkəm bünövrəli, Allah vergisi olan dövlətinə pənah gətirdilər [4, 42].

Pənah xanın ölümündən sonra Qarabağ vilayətinə hakim olan İbrahimxəlil xanın hökmranlıq etdiyi ərazilərdən bəhs edərkən isə müəllif yazır: "İbrahimxəlil xan "İran, Rum (Türkiyə) padşahlarına və sair ölkələrin hökmranlarına boyun əyməyərək, Qaradağ, Şəki, Şirvan, Gəncə, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və hətta İraqla Azərbaycan hüdudunda olan Qaplankuya qədər hökmran oldu" [4, 57].

Mirzə Adıgözəl bəyin məlumatları Qarabağ xanlığının tarixi-coğrafi mövqeyi haqqında təsəvvür yaratsa da, lakin bu məlumatlara əsasən xanlığın bütün istiqamətlərdən sərhədlərini dəqiq təyin etmək mümkün deyil. Mirzə Adıgözəl bəydən fərqli olaraq, İbrahimxəlil xanın vaxtından Qarabağ xanının vəziri olmuş, xanlığın daxili və xarici həyatında yaxından iştirak etmiş Mirzə Camal Cavanşir "Qarabağ tarixi"ndə xanlığın ərazisi və siyasi sərhədlərinin coğrafi hüdudlarını daha dəqiq təsvir edir və yazır: "Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar.

Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür.

Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər - Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır.

Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır.

Nəhayət, keçmiş əsrlərdə (burada) iğtişaşlar və dəyişikliklər üz vermiş, bəzən İran, Rum (Türkiyə) və Türküstan padşahları bu vilayətləri fəth edib ayrı-ayrı sərhədlər qoymuş, qalalar tikmiş və onlara başqa adlar vermişlər.

Qarabağ vilayəti Aran məmləkətinin bir hissəsidir.

… Qarabağ vilayətində salınan birinci şəhər Tərtər çayının üstündə və Kür çayının üç ağaclığında olan Bərdə şəhəri və qalasıdır [4, 122].

"Qarabağnamə" müəlliflərindən Mirzə Camalın və Rzaqulu bəy Mirzə Camal oğlunun əsərlərinin təhlilindən məlum olur ki, Qarabağ xanlığının coğrafi sərhədləri ilə bağlı məlumatlar hər iki əsərdə demək olar təkrarlanır.

Gəncə və Qarabağ bəylərbəyliyinin coğrafi ərazilərindən bəhs edən "Tarixi safi" müəllifi yazır: "Tiflis və Gəncə sərhədi olan Sığnaqdan Xudafərin - Araz körpüsünə kimi bütün ərazi həmin xanların ixtiyarında idi. Onlar bəzi vaxtlar hətta Tiflisdə də hökmdarlıq etmişlər" [5, 15 ]. 1736-cı ildə Muğan səhrasında çağırılmış böyük qurultayda Nadirin şah seçilməsinə qarşı çıxan Gəncə xanlarından Nadirin taxta çıxandan sonra intiqam alması ilə əlaqədar müəllif yazır: "qəzəbli və kinli Nadir şah səltənətə keçdikdən və müstəqil şah olduqdan sonra dərhal Gəncə xanlarını məhv etmək qərarına gəldi və get-gedə onların səlahiyyətlərini əlindən aldı, sonra Qazax və Borçalı ellərinin ixtiyarını da onlardan alıb Gürcüstan valisinə verdi. Nadir şah Qarabağ ellərindən ibarət olan Cavanşirlilər, Otuzikililər və Kəbirlilərin Xorasana köçürülməsi haqqında əmr verdi. Qarabağın Xəmsə mahalındakı Çiləbörd, Xaçın, Talış, Vərəndə, Dizaq mahallarına ermənilərdən məliklər təyin etdi və onlara əmr verdi ki, heç vaxt heç kəsin əmrinə tabe olmasınlar, özlərinin lazımi şikayətlərini birbaşa padşaha yetirsinlər. Buna görə də Gəncə xanlarının səlahiyyətləri əllərindən alındı və get-gedə onlar zəifləşdilər [5, 15].

"Qarabağnamələrdə" eyni zamanda Qarabağ ərazisindəki Xəmsə məlikləri ilə bağlı maraqlı materiallar əldə etmək olar. Mirzə Camal Cavanşir Qarabaği "Qarabağ tarixi" və Mirzə Yusif Qarabaği "Tarixi Safi" əsərlərində məliklərin ermənilərdən təyin edildiyini qeyd edirlər. Milliyyətcə erməni olan Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərini digər "Qarabağnamə"lərdən fərqləndirən ən mühüm cəhəd müəllifin Qarabağın və Azərbaycanın bütün Aran ərazisinin vaxtilə «Böyük Ermənistana» məxsus olduğunu iddia etməsi ilə bağlıdır. O, əsərinin "Qarabağın Xəmsə mahalları və Xəmsə məliklərinin əsilləri" adlı fəslində Mirzə Adıgözəl bəydən fərqli olaraq həm mahalların çoğrafi ərazisi ilə bağlı, həm də Xəmsə məlikləri ilə bağlı daha dolğun məlumatlar verir, lakin elə fəslin ilk cümləsində yazır: "Qarabağ Taxtaqa-

pısının beş mahalının əhalisi tamamilə xaçpərəst olub, Xəmsə adı ilə məşhurdur. Birinci, Dizaq mahalıdır ki, uzunu Əkərə çayı və Kültəpədən başlayaraq, Maltəpəyə kimi, eni isə Araz çayından Xurat dağına kimidir…. Onların melikləri keçmişdə Rumdan gəlmişdir. Bunlardan Məlik Yegan adlı bir şəxs Nadir şahın yanında böyük hörmətə və ehtirama malik olmuşdur.

İkinci, Vərəndə mahalıdır ki, o, Kirs dağından başlayaraq Əli-baba düzənliyinə qədər uzanır. Eni Kirs dağından Şuşakənd çayına və Xəlifəliyə qədərdir…. Adları qeyd olan yerlərin məlikləri Göycə və Zivə kəndlərindən gəlib Çanaqçı kəndində məskən salmışlar və get-gedə oranın adlı-sanlı adamları olmuşlar… Onlar Məlik Şahnəzərlilər adı ilə məşhurdurlar.

Üçüncü, Xaçın mahalıdır, eni Qarqar çayından başlayıb Qabartıda qurtarır. Uzunu Qırxqız və Mıxtökən dağından Bayat meşəsinə qədərdir. ... Bu kəndin məlikləri qədimdə Həsən Cəlalovların övladlarından olmuşlar.

Dördüncü, Çiləbörd mahalıdır. Bu mahalın uzunluğu Qırxqızdan başlayıb Bərdə və Bayat meşəsinin kənarında qurtarır. Eni isə Xaçın və Qabartı çayından Tərtər çayına qədərdir... Bunların məlikləri vaxtilə Məğavizdən gəlmişlər və burada məliklik etməyə başlamışlar.... Öz qəhrəmanlığı ilə məşhur olan həmin məliklərdən biri Məlik Allahqulu idi.

Beşinci, Talış mahalıdr. Bu mahalın uzunluğu Murov və Gülüstani-İrəm dağından, Kürün kənarına qədər, eni isə Tərtər çayından Gorana qədərdir... Bunların məlikləri əslən şirvanlı olub, Talış kəndində məskən salmışlar. Bunlar Bəylərovlar adı ilə məşhurdurlar.... Nəhayət, böyük məlik Usub Gülüstan qalasını zəbt edərək orada yerləşmişdir!” [5, 17-18].

Qeyd etmək lazımdır ki, “Qarabağnamə” müəlliflərinin hamısı, Xaçın məlikliyi istisna olmaqla, digər məlikliklərin Qarabağa gəlmə olduğunu qeyd edirlər.

Pənah xanın hakimiyyəti altında olan ərazilərdən bəhs edən Mirzə Yusif Qarabağinin məlumatları Mirzə Adıgözəl bəyin məlumatları ilə demək olar ki, eyniyyət təşkil edir: “o, Qaradağ hakimlərindən Mehri, Güney mahallarını, Bərgüşada kimi Naxçıvan hakimindən Tatef və Sisyan mahallarını, Təbriz bəylərbəyisindən Uşacıq kəndinin yuxarısınadək, Tərtər çayı sahilində Kolanıların məskəni olan Göyçə sərhədinə kimi İrəvan hakimindən aldı. Vaxtilə Xudafərin körpüsündən Kürək çayına kimi ərazi Gəncə bəylərbəyilərinə tabe idi. İki-üç ilin müddətində, yəni 1755-1757-ci illərdə bu qeyd olunan yerləri onların əllərindən alıb öz ixtiyarlarına keçirdi.

Bundan başqa Kəngərliləri Naxçıvandan olan bir minbaşıya, Gürcüstan elindən olan Dəmirçi Həsənli, Çinli tayfalarını da başqa minbaşıya tabe etdi” [5, 21-22].

Çarizmin ideologiyasına xidmət edən və onun idarəçiliyi dövründə yazılan «Qarabağnamələr»də Qarabağ xanlığında demoqrafik proseslər, xüsusilə əhalinin milli və sosial tərkibi, sayı öz əksini tapmamış, ancaq əhalinin etnik tərkibi ilə bağlı fraqmentar xarakterli məlumatlar verilmişdir. Bunların təhlili əsasında isə əhalinin etnik tərkibi və etnik tərkibdə müəyyən

hərbi-siyasi tarixi hadisələrlə bağlı baş vermiş dəyişiklikləri qismən də olsa izləmək mümkündür.

Mirzə Adıgözəl bəyin əsərində Qarabağda lap qədim dövrlərdən yaşayan yerli əhali haqqında məlumatlar əksini tapır: "Qarabağ vilayətinin əsil elatı, kənd əhalisindən başqa, Cavanşir, Otuziki və Kəbirlilərdir. Kəbirlilər də tam bir səmimiyyət və tərifəgəlməz bir sədaqətlə behiştlik xana xidmət etmişlər [4, 43]. Burada o, «kənd əhalisi» adlandırdığı türk müsəlmanların oturaq əkinçilər olmasını nəzərdə tutur. Lakin Nadir şahın dövründə bu əhalinin Qarabağ əyalətindən sürgün edilməsi və bununla əlaqədar əyalətdə əhalinin etnik tərkibində baş vermiş dəyişikliklərlə bağlı Mirzə Adıgözəl bəy yazır: "Cavanşir, Kəbirli, Otuziki və Gürcüstan ellərini Nadir şah Xorasana sürgün etmişdi." [4, 43]. Nadir şahın əmrinə əsasən həyata keçirilmiş məcburi köçürmələr Qarabağ bölgəsi əhalisinin etnik tərkibinə qısa müddətə və qismən də olsa, öz təsirini göstərdi. Nadirin ölümündən sonra onlar vətən və yurdlarının eşq və arzusu ilə Xorasandan qayıdıb gəldilər.

Qarabağ xanlığı meydana gəldikdən və onun qonşu dövlət qurumları ilə apardığı uğurlu savaşlardan sonra xanlığın əhalisinin etnik tərkibi, bura köçən yeni ellərin hesabına tam dəyişir. Belə ki, Naxçıvandan Kəngərli, Gürcüstandan Dəmirçi həsənli və Cinlilərinin ellərinin köçüb [4, 42] Qarabağda yerləşməsi etnik strukturun güclü şəkildə türk-müsəlman əhalisinin xeyrinə dəyişməsinə səbəb olur. Adları qeyd olunan ellərlə yanaşı, müəllif eyni zamanda Qarabağda məskunlaşan Qaraqoyunlu obasının da adını çəkir.

Mirzə Adıgözəl bəy əsərdə albanlardan ibarət olan qeyri-müsəlmanlar haqqında – Xəmsə məliklərindən və Xəmsə mahallarından ayrıca bəhs edir [4, 42-43].

Əhməd bəy Cavanşir "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" əsərində Ağa Məhəmməd şahın Qarabağa hücumunun təsvirinə böyük yer verir, işğalçıların talançı hücumlarını böyük qəzəb hissi ilə təsvir edərək yazır ki, hücumlar nəticəsində əhali dözülməz aclıq çəkmiş, ölkə xarabazarlığa çevrilmişdi [4, 176].

Rzaqulu bəy Mirzə Camal oğlu "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" əsərində Qarabağın ərazisindən bəhs edərkən onun qədim dövrdəki sərhədi ilə yanaşı, eyni zamanda yaşadığı dövrdəki - XIX əsrdəki sərhədlərini qeyd edərək yazır: "Qarabağın müəyyən edilmiş sərhədi cənub tərəfdən Araz çayı və şimal tərəfdən Gəncə sərhədində olan Kür çayıdır. Qarabağ vilayətinin eni bu iki çay arasındakı məsafədən ibarətdir. Xanlar dövründə ölçülüb hesablandığı üzrə 26 mildir (1 mil 7 verstdir). Şərq tərəfdən Cavad kəndi və qərb tərəfdən Güşbək, Salvartı və Ərikli adlanan Qarabağ dağlarıdır. Qarabağ vilayətinin uzununu təşkil edən bu dağların boyu 39 mildir.

Qarabağ vilayəti Aran məmləkəti vilayətlərindən biridir.

Qarabağda ilk əvvəl bina olunmuş şəhər Bərdə şəhəri və qalasıdır" [5, 240].

Rzaqulu bəy Mirzə Camal oğlunun əsərində Qarabağın təbii-coğrafi şəraiti haqqında da müfəssəl məlumatlarara təsadüf edilir. Rzaqulu bəy Mirzə Camal oğlu yazır: "Qarabağ səhralarına gəldikdə demək olar ki, dağın ətəyindən, Arazın Xudafərin körpüsündən başlayaraq, Gəncə sərhədi və Cavad kəndinə qədər olan yerlərin hamısı Arazdan çəkilən arxların suyu ilə suvarılırdı" [5, 286].

Qarabağın təbii-coğrafi şəraiti ilə bağlı məlumatlarını ümumiləşdirərkən belə qənaətə gəlmək olur ki, ərazinin dağlıq və aran hissəsinin iqlim şəraiti əhalinin taxılçılıq əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq, üzümçülük, baramaçılıq və digər təsərrüfat sahələri ilə məşğul olmasına imkan yaradırdı.

"Qarabağnamə"lərdə və dövrün digər mənbələrində əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında məlumatların olmaması Qarabağ xanlığında həmin dövrdə əhalinin sayi ilə müqayisəli təhlillərin aparılmasına imkan verməsə də, ərazinin iqtisadi coğrafiyası və demoqrafik vəziyyəti xanlığın Rusiya tərəfindən işğalından sonra tədqiqata cəlb edildi. Vergi mükəlləfiyyəti daşıyanlar üçün tərtib edilən "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə əyalətin demoqrafik vəziyyəti və əhalinin etnik tərkibi barədə qismən də olsa dolğun məlumatlar verilir. Lakin qeyd etmək lazımdır ki, bu siyahıya hərbçilər, ruhanilər və onların ailə üzvləri daxil edilmirdilər.

Əhalinin məşğuliyyətinə gəldikdə qeyd etmək lazımdır ki, "Qarabağnamə" müəlliflərinin Qarabağın təbii-coğrafi şəraiti ilə bağlı məlumatlarını ümumiləşdirərkən belə qənaətə gəlmək olur ki, ərazinin dağlıq və aran hissəsinin iqlim şəraiti əhalinin taxılçılıq əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq, üzümçülük, baramaçılıq və digər təsərrüfat sahələri ilə məşğul olmasına imkan yaradırdı.

XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində qısa zaman kəsiyində hərbi-siyasi hadisələr nəticəsində meydana çıxan miqrasiyalar əhalinin sayına da təsir göstərdi.

Hələ XVIII əsrdə Qafqazı təsir dairəsinə keçirməklə öz siyasi və iqtisadi maraqlarını təmin etmək məqsədi güdən və Cənubi Qafqazı ələ keçirmək üçün geniş hərbi əməliyyatlara başlayan Rusiya XIX yüzilin birinci yarısında buna nail oldu. 1805-ci ildə Qarabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay və 1828-ci il ildə Rusiya ilə Qacarlar dövləti arasında bağlanan Türkmənçay müqavilələrindən sonra bu bölgə də Şimali Azərbaycanın digər bölgələri kimi Rusiya imperiyasının tərkibinə qatıldı [3, 109].

XIX əsr Şimali Azərbaycan çar Rusiyası imperiyası tərəfindən işğal edildikdən sonra ərazidə imperiyanın siyasətinə uyğun inzibati-ərazi idarəetmə sistemi yaradılmağa başladı.

***Ədəbiyyat siyahısı:***

*1. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, s.33.*
*2. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər. H.Məmmədovundur. Bakı, «Şuşa» nəşriyyatı, 2000, 576 s.*

*3. Hacıyev Q.Ə. Qarabağ tarixi. Bakı: Təknur nəşriyyatı, 2014, 228 s.*
*4. Qarabağnamələr. I kitab, Mirzə Adıgözəl bəy. Qarabağnamə; Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi; Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. Bakı, Şərq-Qərb, 2006, 216 s.*
*5. Qarabağnamələr.II kitab, Mirzə Yusif Qarabaği .Tarixi Safi; Mir Mehdi Xəzani. Kitabi- Tarixi-Qarabağ; Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. Bakı, Şərq-Qərb, 2006,*
*6. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, Təhsil nəşriyyatı, 2005, 380 s.*

**UOT 94 (479.24)**

# RUSİYANIN İŞĞALINDAN SONRA DƏRBƏNDİN İDARƏ EDİLMƏSİ

***Asəf Hacıyev***
***BDU, Tarix fakültəsi, a.e.i.,t.f.d.***
***asafhajiyev@rambler.ru***

*Dərbənd şəhəri Rusiya tərəfindən işğal edildikdən sonra imperiya tərkibində (1806-1860) Azərbaycanın ərazi vahidi kimi mövcud olmuşdur. 1806-1840-cı illərdə Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi Dərbənddə də komendant (hərbi-xalq sistemi) idarə üsulu tətbiq edilmişdir. 10 aprel 1840-cı il qanunu ilə yaradılmış Dərbənd qəzası Xəzər vilayətinin tərkibinə qatılmışdır. 14 dekabr 1846-cı il islahatı nəticəsində isə Dərbənd qəzası Dərbənd quberniyasının inzibati-ərazi vahidinə çevrilmişdir. Yalnız 1860-cı ildə Dərbənd şəhəri yeni yaradılmış Dağıstan vilayətinə daxil edilməklə tarixi Azərbaycan torpaqlarından qopardılır. Bu isə Rusiyanın bütövlükdə Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yeritdiyi ayrı-seçkilik, müstəmləkə siyasətinin növbəti mürtəce təzahürlərindən biri idi.*

***Açar sözlər:*** *Azərbaycan, Rusiya, Dərbənd,vilayət, quberniya.*

## *УПРАВЛЕНИЕ ДЕРБЕНТОМ ПОСЛЕ РОССИЙСКОЙ ОККУПАЦИИ*

*Город Дербент после оккупации со стороны России в составе империи существовал как территориальное устройство Азербайджана (1806-1860). В 1806-1840 годы в Дербенте, как и в других областях Северного Азербайджана, была введена комендантская (западно-народная система) форма правления. Созданный законом от 10 апреля 1840 года Дербентский уезд был присоединен к составу Каспийской области. В результате же реформ от 14 декабря 1846 года, Дербентский уезд был переформирован в административно-территориальное деление Дербентской губернии. Только в 1860 году город Дербент войдя, в новосозданную Дагестанскую область был, вытянут из азербайджанских земель. Тем самым это стало одним из очередных проявлений дискриминации, колониальной политики, проводимой Россией в целом на Южном Кавказе, в частности в Азербайджане.*

***Ключевые слова:*** *Азербайджан, Россия, Дербент, область, губерния*

### *DERBENT ADMINISTRATION AFTER RUSSIAN OCCUPATION*

*After the occupation by Russia, the city of Derbent existed as a territorial unit of Azerbaijan (1806-1860) within the empire. In 1806-1840 in Derbent, as well as in other regions of Northern Azerbaijan, a commandant (Western-national system) form of government was introduced. Derbent district, created by the law of April 10, 1840, was annexed to the Caspian region. As a Only in 1860, the city of Derbent, having entered the newly created Dagestan region, was pulled out of the Azerbaijani lands. Result of the reforms of December 14, 1846, the Derbent district was reorganized into the administrative-territorial division of the Derbent province. Thus, it became one of the next manifestations of discrimination, colonial policy pursued by Russia in general in the South Caucasus, in particular in Azerbaijan.*
***Keywords:*** *Azerbaijan, Russia, Derbent, region, province.*

1806-cı il iyunun 22-də Dərbənd şəhəri Rusiya İmperiyası tərəfindən işğal edilir və 1813-cü il oktyabrın 12-də Rusiya-Qacarlar arasında bağlanmış Gülüstan sülh müqaviləsinə (on bir maddədən ibarət) əsasən Dərbənd şəhərinin Rusiya tərəfindən işğalı rəsmi olaraq təsdiq edilir [4, 27]. Bundan sonra Dərbəndin idarə edilməsində yeni mərhələ başlanır. Dərbəndin idarə olunması işinin təşkilinə Qlazenap başlasa da, bu missiyanı həyata keçirmək ona nəsib olmadı. Belə ki, 1806-cı il iyulun 2-də Qafqazın baş komandanı təyin edilən general Qudoviçin əmri ilə avqustun 16-da Qlazenap öz vəzifəsini general Bulqakova təhvil verdi [5, 134]. Rusiyaya göstərdiyi sədaqət və xidmətin müqabilində Qlazenap Tarku şamxalı Mehdinin Dərbənd xanı təyin edilməsi təklifi ilə çıxış etdi [5, səh. 408-410]. I Aleksandrın 23 avqust 1806-cı il tarixli fərmanı ilə Tarku şamxalı Mehdi Dərbənd xanı vəzifəsinə təyin edildi [7, 91]. Fərmana əsasən, Dərbənd şəhəri istisna olmaqla Mehdi xana Dərbənd xanlığının bütün gəlirlərindən və xanın əvvəlki səlahiyyətlərindən istifadə hüquqları verilirdi. Dərbənd şəhərinə aid edilən Sabnovadan başqa Ulus mahalının digər kəndləri (Ərəblər, Azadoğlu, Bilici, Calqan, Qullar, Mollakənd, Molla Xəlil, Selik, Nügədi) Dərbənd xanının idarəçiliyinə verilirdi [5, 139; 6, 197]. 1830-cu ildə Mehdi xanın ölümündən sonra baron Rozenin etirazı nəticəsində onun varisi Süleyman paşaya Dərbənd xanı titulu verilmədi.

Rus işğalından Dərbənd quberniyasının yaranmasına qədər Dərbənd şəhərində “hərbi-xalq” idarə üsulu təşkil edilmişdi. Dərbənd qalasının müdafiəsini təşkil etmək üçün daimi hərbi qarnizon yaradıldı və 1806-cı ilin avqustunda komendant vəzifəsi təsis edildi [4, 24]. Çar hakimiyyətinin təmsilçisi olan komendant şəhərdə qayda-qanuna nəzarət etməli, qalada yerləşən qarnizonu idarə etməli, şəhəri düşmənlərdən qorumalı, həmçinin inzibati, təsərrüfat, maliyyə və polis nəzarəti funksiyalarını həyata keçirməli

idi [4, 24]. Dərbənd əhalisinin xahişini, əhali arasında nüfuzunu və Rusiyaya sədaqətini nəzərə alan Qlazenap şəhər rəisi və yaxud naibi vəzifəsinin icrasını Əlipənah bəyə tapşırdı. Əlipənah bəyin naib vəzifəsinə təyin edilməsi haqqında sərəncam 1807-ci il martın 9-da imzalandı [5, 141; 6, 192]. Şəhər rəisi və ya naib vergilərin toplanması, xırda məhkəmə işlərinə baxılması, qalanın komendantı mayor Lukyanovun nəzarəti altında və digər bəylərin iştirakı ilə şəhərin idarə edilməsi səlahiyyətlərinə malik idi [5, 141].

Şəhərin hər bir məhəlləsinə təyin edilən kəndxudalar həmin məhəllədə yerləşən qoşun hissəsini mənzillə təmin etməli, qayda-qanunun icrasına və təmizliyə nəzarət etməli idi. Kəndxudalar qalabəyinə, o isə öz növbəsində qalanın komendantına tabe idi [4, 24]. Beləliklə, faktiki olaraq şəhərdə bütün hakimiyyət komendantın əlində cəmlənmişdi. Dərbəndin yuxarıda göstərilən idarə sistemi 1812-ci ilə qədər dəyişməz qaldı. Komendantların vəzifə səlahiyyətlərindən sui-istifadə hallarının qarşısını almaq məqsədi ilə 1812-ci ildə Dərbənd qalasının komendantı Dağıstan hərbi-dairə rəisinə tabe edildi. Komendantın sədrliyi, iki bəy və mülki əhalinin iki nümayəndəsindən təşkil edilmiş yeni şəhər məhkəməsi mahiyyət etibari ilə heç bir dəyişikliyə səbəb olmadı [9, 37; 4, 27]. 1812-ci ilin fevralında yaradılmış Dərbənd əyaləti 1840-cı il 10 aprel qanunu qüvvəyə minənə qədər fəaliyyət göstərdi [8, 34]. Cənubi Qafqazda mülki idarə sisteminin tətbiqi haqqında hələ 1830-cu ildə Qafqazın baş komandanı İ.F.Paskeviç layihə hazırlasa da, 1831-ci ildə onu əvəz etmiş baron Rozen həmin layihəni təkmilləşdirmək üçün qəbul etməmişdi. 1837-ci ilin martında senator Qanın rəhbərliyi ilə yaradılmış komissiyanın hazırladığı yeni layihə 1840-cı il aprelin 10-da I Nikolay tərəfindən təsdiq edildi [5, 197; 9, 37].

1840-cı ilin 10 aprel "Əsasnamə"sinə görə, Cənubi Qafqaz Gürcü-İmeret quberniyası və xüsusi hərbi-dairə idarəsinə malik olan Xəzər vilayətinə bölündü [5, 197]. Xəzər vilayətinin tərkibinə Şirvan, Qarabağ, Şəki, Talış, Bakı, Dərbənd və Quba qəzaları daxil edildi [5, 197]. Mərkəzi Dərbənd şəhəri olan Dərbənd qəzası- Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətlərindən təşkil edilmişdi [5,197; 9,37]. Bölgədə hərbi əməliyyatların getməsi ilə bağlı olaraq Dərbənd qəzası Dərbənd hərbi-dairə rəisinə tabe edilmişdi [9,33]. Cənubi Qafqazda tətbiq edilmiş yeni idarə sistemi 1846-cı ilə qədər dəyişməz qalmışdı. Yeni idarə üsulunun yararsızlığı 10 aprel 1840-cı il qanunu qüvvəyə mindikdən az sonra ortaya çıxdı. Belə ki, 1842-ci ildə Qafqaza ezam edilmiş knyaz Çernışev və Rozen idarə sisteminin dəyişdirilməsi təklifi ilə çıxış etdilər [5,199]. Qafqazın idarə edilməsində yeni dəyişikliklər Qafqaza canişin təyin edilmiş qraf M.S.Vorontsovun dövründə baş verdi. 14 dekabr 1846-cı il tarixli "Əsasnamə"yə görə, Xəzər vilayəti ləğv edilərək onun ərazisində Şamaxı və Dərbənd quberniyaları yaradıldı [5, 200; 9,37]. Dərbənd quberniyasının tərkibinə Dərbənd və Quba qəzaları, Samur və Dargin dairələri, Kürə və Qazıqumıq xanlıqları, başqa sözlə Avar Koysu çayından cənuba doğru bütün Dağıstan əraziləri daxil

edildi [5,200;9, 33].

Quberniyanın başçısı təyin edilən hərbi qubernator inzibati-polis, təsərrüfat, maliyyə və məhkəmə funksiyasını icra etməklə yanaşı, Cənubi Dağıstandakı rus qoşunlarının komandiri sılahiyyətlərinə də malik idi [4, 33]. Dərbəndin qubernatoru vəzifəsinə knyaz Arqutinski-Dolqorukov təyin edilsə də, 1847-ci ilin noyabrın 8-də onun Xəzərsahili vilayətlərdə rus qoşunlarının komandanı vəzifəsinə keçirilməsindən sonra 1850-ci ilə qədər Dərbənd qubernatoru A.İ.Qaqarin olmuşdu [5, 200-201]. 1850-1856-cı illərdə bu vəzifəni Y.F.Minkviç, 1857-1858-ci illərdə Z.S.Manyukin, 1858-1860-cı illərdə isə D.K.Aseev icra etmişdi [5, 201].

Dərbəndin idarə edilməsində növbəti dəyişiklik 1860-cı ilə təsadüf edir. Şimali Qafqaz xalqlarının milli-azadlıq hərəkatını boğduqdan sonra çar hökuməti Dağıstanın və Azərbaycanın idarə sistemini yenidən dəyişdirmək qərarına gəldi. 5 aprel 1860-cı ildə knyaz A.İ.Baryatinski tərəfindən qəbul edilən və 10 iyun 1860-cı ildə imperator fərmanı ilə təsdiq edilən "Əsasnamə"yə görə, Dağıstan vilayəti yaradıldı [5,246]. Yeni qanunla Dərbənd quberniyası ləğv edilərək onun tərkibindəki Quba qəzası yeni yaradılmış Bakı quberniyasına, Dərbənd isə Dağıstan vilayətinə daxil edildi. Şimali, Cənubi və Yuxarı Dağstan hərbi bölgələrindən ibarət olan Dağstan vilayətinin tərkibində daha iki mülki idarə-Dərbənd şəhəri və Ulus mahalından ibarət olan Dərbənd şəhər rəisliyi və Petrovsk şəhər idarəsi yaradıldı [3,119-120]. Dərbənd şəhərinin rəisi vəzifəsini 1860-1863-cü illərdə M.T. Loris-Melikov, 1863-1868-ci illərdə M.Q. Cemarcidze, 1868-1878-ci illərdə A.V.Komarov, 1878-1883-cü illərdə isə A.P.Madatov icra etmişdilər [5,246]. Qeyd etmək lazımdır ki, ərazisi təqribən 216 kv.verst (keçmiş rus uzunluq ölçü vahidi. 1 verst=1066,781 metr) olan Ulus mahalının idarəsi də şəhər rəisinə tabe olan pristavın ixtiyarına verilmişdi. 23 avqust 1866-cı il tarixli kənd icmaları haqqında "Əsasnamə"yə uyğun olaraq 1876-cı ildə Ulus mahalı 4 kənd icmasına bölündü (1-ci icma-Qullar, Selik, Azadoğlu, Nügədi; 2-ci icma-Bilici, Molla Xəlil; 3-cü icma-Ərəblər, Bayat, Mollakənd, Xoşmənzil, Əqləbi; 4-cü icma-Calqan ) [5, 251]. Şəhər rəisliyi dövründə Dərbəndin genişləndirilməsi və abadlaşdırılması istiqamətində xeyli işlər görülmüş, həmçinin yeni zavodlar və dəyirmanlar istifadəyə verilmişdir [5, 256-270]. Rusiya hərbi nazirinin 31 oktyabr 1867-ci il tarixli 361 saylı əmrinə görə, Dərbənd qalasının ləğv edilməsi ilə şəhər özünün strateji-müdafiə əhəmiyyətini itirmiş oldu [5, 273].

Dövlət Şurasının təklifi əsasında Qafqazın hərbi-xalq idarə sistemində bəzi dəyişikliklər haqqında 12 iyun 1883-cü il tarixli fərmanla Dərbənd inzibati mərkəz statusunu itirdi və şəhər rəisi vəzifəsi ləğv edildi [8, 34]. Dərbənd rəisliyi dövründə şəhərə daxil olmayan ərazilər Kürə dairəsinə daxil edildi. 1883-cü ildən şəhər özünüidarəsi yaradılana qədər şəhər təsərrüfatının idarə olunması iqamətgahı Temir-Xan-Şura şəhəri olan Dağıstan vilayətinin hərbi qubernatorunun ali nəzarəti altında fəaliyyət

göstərən qalabəyinin ixtiyarına verildi [5, 286].

Dərbənd şəhərinin idarə olunmasında növbəti dəyişiklik 1895-ci ilə aiddir. 29 may 1895-ci il tarixli qanunla Zaqafqaziya diyarı və Stavropol quberniyasının şəhərlərində şəhər "Əsasnamə"sinin tətbiq edilməsi nəzərdə tutulurdu [5,314]. Qanuna əsasən şəhər ictimai idarəsinin iki formasının tam (şəhər duması və şəhər idarəsi) və sadə (şəhər nümayəndələri, şəhər ağsaqqalı və onun köməkçisi) yaradılmasına icazə verilirdi. Şəhər idarəsi formasının seçilməsi şəhərin vəsaiti, gəliri, istehsal gücü və s. kimi amillərdən asılı idi [2,161]. Marena istehsalının tənəzzülə uğraması və s. nəticəsində Dərbəndin iqtisadi potensialı nəzərə alınaraq şəhərdə sadə idarə forması tətbiq edildi. Şəhər nümayəndələrinin seçkisi dörd ildən bir seçicilərin xüsusi yığıncağında gizli səsvermə yolu ilə həyata keçirilməli, seçicilərin siyahısı isə seçkilərə üç ay qalmış müəyyənləşdirilməli idi. Qaydalara görə, Rusiya təbəəsi olan, şəhərdə beş ildən az olmayaraq yaşayan, il ərzində 100 rubldan artıq əmlaka malik 25 yaşından yuxarı kişilərə səsvermə hüququ verilirdi [5, 314; 2, 161]. Seçiləcək nümayəndələrin sayı Dağıstan vilayəti qubernatorunun istəyindən asılı olaraq 12 nəfərdən-15 nəfərə kimi ola bilərdi. Daxili işlər nazirinin təsdiq etdiyi 30 may 1893-cü il tarixli məlumatına əsasən, şəhər yığıncağına seçilən qeyri-xristian (müsəlman) nümayəndələrinin sayı ümumi tərkibin 20%-indən (1/5) artıq ola bilməzdi [5,314; 2,161]. Bu qayda şəhər əhalisinin etnik və dini tərkibinə tamamilə zidd olmaqla yanaşı, çarizmin müstəmləkəçilik siyasətinin bariz nümunəsi idi. Belə ki,1846-cı ildə Dərbənd şəhərində seçki hüququna malik olan xristian əhali 165 nəfər olduğu halda, müsəlman əhali 726 nəfərdən ibarət idi [5,315;2,162].

Dağıstan vilayəti qubernatorunun göstərişi ilə şəhər yığıncağına seçiləcək 15 nümayəndədən 12-si xristian, 2-si müsəlman, 1-i isə yəhudiləri təmsil etməli idi [ 2,162]. 26 yanvar 1896-cı ildə keçirilmiş seçkilər zamanı şəhər yığıncağına 6 erməni (Avakov M.İ., Büniyatov İ.A., Yerusalimyans İ.M., Papoev N.R., Saruxonov M.S., Şaxicanov K.İ.), 6 rus (Belovski V.F., Vasilyev İ.A., Juqenko S.A., Novomarevski N.İ., Rodionov F.Y., Xuqesov İ.N.), 2 azərbaycanlı (Hacı Mehdi Axundov, Hacı bəy Sadıqov) və 1 yəhudi (Dadaşov Rinxas) nümayəndə seçilmişdi [5,17-318; 2,162-164]. Nümayəndələrin ilk yığıncağında şəhərin səlahiyyətli nümayəndələrinin sədri Novomarevski N.İ. təyin olundu [ 2,164].

Dərbəndin müsəlman əhalisi şəhər nümayəndələrinin tərkibi ilə bağlı dəfələrlə hakimiyyət orqanlarına kəskin şəkildə öz etirazlarını bildirdikdən sonra daxili işlər nazirinin 31 iyul 1897-c il tarixli, 7072 saylı göstərişi ilə növbəti seçkilərdən başlayaraq şəhər yığıncağına seçiləcək müsəlman nümayəndələrinin sayı ümumi tərkibin yarısını təşkil etməli idi [5,315; 2,164]. 1900-cu il fevralın 28-də keçirilmiş ikinci seçkilər zamanı şəhər yığıncağının səlahiyyətli nümayəndələrinin yeddisi azərbaycanlıları (Mirzə bəy Əbdürrəhimov, Əhməd bəy Mirzəbəyov, Həmid bəy Vəkilov, Qasım

bəy Heydərov, Məşədi Əzim Həmzəyev, Məmməd bəy Xadırbəyov, Əlipənah bəy İlyas bəy oğlu), dördü ermənilәri (Simonyans A.İ., Mailov R.Q., Qazalov S.D., Orbelov K.A.), üçü rusları (Lammerman V.L., Neron N.P., Juqenko S.A.), biri isə yəhudiləri (Xanukayev İ.A.) təmsil edirdi [5,320-321]. Şəhər nümayəndələrinin sədri vəzifəsinə Juqenko S.A., şəhər starostası vəzifəsinə isə Qasım bəy Heydərov seçildi [5,321].

Çox maraqlıdır ki, 1904-cü ilin may-iyun aylarında keçirilmiş üçüncü seçkilər zamanı səlahiyyətli nümayəndələrin yarısını ermənilər təşkil etmişdilər. Belə ki, 15 nümayəndənin altısı azərbaycanlı (Abdullayev H.M., Əliquliyev Ə., Vəkilov H.M., Heydərov Q.M., Həmzəyev H., Mirzəbəyov Ə.), yeddisi erməni (Astvaqaturov M.İ., Ter-Qazaryans S.A., Məlik-Şahnazarov O.M., Poqosov M.Q., Simonyans A.İ., Saruxanov M.S., Şahicanov K.İ.), biri rus (Xuqesov İ.N.) və biri yəhudi (Xanukayev İ.A.) olmuşdu [5,324-326]. 1904-cü il seçkilərindən sonra şəhərin starostası Qasım bəy Heydərov, onun köməkçiləri isə Həmid bəy Vəkilov və Ter-Qazaryans S.A. təyin edilmişlər [2,169]. 1908, 1912 və 1916-cı illərdə keçirilmiş növbəti seçkilərdə şəhər yığıncağı nümayəndələrinin tərkibində elə də ciddi dəyişikliklər baş verməmişdi. 1908-ci ildə Dərbənd şəhərinin starostası Qasım bəy Heydərov, onun köməkçisi Həmid bəy Vəkilov, 1912-ci ildə starosta Xuqesov İ.N., onun köməkçisi Həmid bəy Vəkilov, 1916-cı ildə keçirilmiş sonuncu seçkilərdə isə şəhərin starostası Həmid bəy Vəkilov seçilmişdi [2,169].

1920-ci il martın 25-də Rusiya qoşunları Dərbəndi işğal edərək burada Sovet hakimiyyətini elan etdilər. Dərbənd şəhəri 1921-ci ildə yaradılmış Dağıstan Muxtar Sovet Sosialist Respublikasının tərkibinə daxil edildi. Bununla, Azərbaycanın tarixi şəhəri olan Dərbənd tam şəkildə Rusiya Sovet Federativ Sosialist Respublikasının tərkibinə qatıldı. 25 iyun 1952-ci ildən 24 aprel 1953-cü ilədək Dağıstan Muxtar Sovet Sosialist Respublikası inzibati cəhətdən 4 dairəyə bölünmüşdü, və bunlardan biri də Dərbənd dairəsi idi. Dərbənd dairəsi də öz ərazisində 10 rayonu (Ağul, Axtı, Dərbənd, Doqquzpara, Qasımkənd (indiki Süleyman-Stalski), Qürah, Məhərrəmkənd, Rutul, Tabasaran və 14 rayonlarını) və Dərbənd şəhərini birləşdirirdi. Dairənin inzibati mərkəzi isə Dərbənd şəhəri idi. 1991-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı dağıldıqdan sonra isə Dərbənd yenə də Dağıstan Muxtar Sovet Sosialist Respublikasının tərkibində-Rusiyanın tabeliyində qaldı.

Beləliklə, 1896-cı ildən 1917-ci il Oktyabr çevrilişinə qədər Dərbənddə şəhər "Əsasnamə"sinə uyğun olaraq şəhər özünüidarə orqanı fəaliyyət göstərmişdir. Dərbəndin XIX-XX əsrin əvvəllərində siyasi tarixinin şərhindən göründüyü kimi Rusiya işğalının ilk mərhələsində (1806-1860-cı illər) Dərbənd Rusiya imperiyası tərkibində Azərbaycanın ərazi vahidi kimi mövcud olmuşdur. 1806-1840-cı illərdə Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi Dərbənddə də komendant (hərbi-xalq sistemi) idarə üsulu tətbiq edilmiş, 10 aprel 1840-cı il qanununa görə yaradılmış Dərbənd qəzası

Xəzər vilayətinin tərkibinə qatılmış, 14 dekabr 1846-cı il islahatı nəticəsində isə Dərbənd qəzası Dərbənd quberniyasının inzibati-ərazi vahidi olmuşdur. Yalnız 1860-cı ildə Dərbənd şəhəri tarixi Azərbaycan torpaqlarından qopardılaraq yeni yaradılmış Dağıstan vilayətinə daxil edilmişdir. Bu isə Rusiyanın bütövlükdə Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yeritdiyi ayrı-seçkilik, müstəmləkə siyasətinin növbəti mürtəce təzahürlərindən biri idi. Bütün tarixi dövrlərdə olduğu kimi, XIX-XX əsrin əvvəllərində də Dərbənd inzibati və etnik baxımdan Dağıstana məxsus olmamışdır.

***Ədəbiyyat siyahısı:***

1. *Акты, собранные Кавказской Археографической комиссией. Т. I-XII. Тифлис, 1866-1904.*
2. *Гусейнов Г.-Б.Я. Краткая энциклопедия города Дербента. Махачкала: Юпитер, 2005, 768 с.*
3. *История Дагестана. В 4-х тт., т.II. XIX- нач. XX в. Москва, Гл. ред. Вост. лит., 1968, 368 с.*
4. *Кажлаев А.Н. Возникновение и экономическое развитие Дербента. Махачкала, Даг. кн. изд., 1972, 164 с.*
5. *Козубский Е.И. История города Дербента. Темир-Хан-Шура, Изд. Русская типография, 1906, 648 с.*
6. *Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годах XIX в. Ч.2, М.-1: Изд. АН СССР, 1937, 478 с.*
7. *Материалы по истории управления Дагестана и Чечни т.III, ч.1 (1801-1839) Махачкала, 1940.*
8. *Султанов С.А. Дербент: История возникновения и развития. Дербент. Изд. Типография, №3, 2003, 178 с.*
9. *Хашаев Х.М. Общественный строй Дагестана в XIX веке. Москва, Изд. АН СССР, 1961, 261 с.*

**UOT 94 (479.24); 930:314**

## XIX ƏSRDƏ AZƏRBAYCANDA CƏRƏYAN EDƏN SİYASİ PROSESLƏRİN DEMOQRAFİK VƏZİYYƏTƏ TƏSİRİ

***Aydın Məmmədov***
***BDU, Tarix fakültəsi,dosent***
***aydin.mmmdov.67@ mail.ru***

*XIX əsrdə Şimali Azərbaycanı işğal edən Rusiya imperiyası bölgədə xarici etnik komponentlər: ermənilər, almanlar, ruslar və başqalarını yerləşdirərək köçürmə siyasəti yeritmişdir. İrandan Şimali Azərbaycana 40-50 min erməni köçürüldü. Bundan əlavə, 1828-1829-cu illərdə Rusiya-Osmanlı müharibəsində osmanlıların məğlub olması nəticəsində ermənilərin Kiçik Asiyadan köçürülməsi üçün əlverişli şərait yarandı. Müharibənin gedişində və müharibədən sonrakı dövrdə Osmanlı imperiyasından təxminən 90 min erməni köçürüldü. Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində XIX əsrdə və XX əsrin əvvəllərində Şimali Azərbaycan əhalisində etno-konfessional dəyişikliklər baş verdi.*

***Açar sözlər:*** *Şimali Azərbaycan, əhali, etnik tərkib, köçürülmə, statistik məlumat*

## *ВЛИЯНИЕ ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ НА ДЕМОГРАФИЧЕСКУЮ ПОЛОЖЕНИЮ ПРОИСХОДЯЩИХСЯ В АЗЕРБАЙДЖАНЕ В XIX В*

*Завоевав Северный Азербайджан в XIX века Российская империя проводила целенаправленную переселенческую политику, насаждая иноэтничные компоненты в регионе: армян, немцев, русскихи т. д. Из Ирана в Северный Азербайджан было переселено 40-50 тысяч армян. Помимо этого, в результате поражения османов в русско-османской войне 1828-1829 годов, также сложились благоприятные условия для переселения армян из Малой Азии. В ходе войны и послевоенный период из Османской империей было переселено около 90 тысяч армян. В результате переселенческой политики Российской империи произошли этно-конфессиональные изменения в народонаселении Северного Азербайджана в XIX -начале XX веков.*

***Ключевые слова:*** *Северный Азербайджан, население, этнический состав, переселение, статистика*

## *THE INFLUENCE OF POLITICAL PROCESSES ON THE DEMOGRAPHIC SITUATION OCCURRING IN AZERBAIJAN IN THE XIX CENTURY*

*Having conquered North Azerbaijan in the 19th century, the Russian Empire pursued a targeted resettlement policy, planting foreign components in the region: Armenians, Germans, Russians, etc. 40-50 thousand Armenians were relocated from Iran to North Azerbaijan. In addition, as a result of the defeat of the Ottomans in the Russian-Ottoman war of 1828-1829, favorable conditions also developed for the resettlement of Armenians from Asia Minor. During the war and the post-war period, about 90 thousand Armenians were resettled from the Ottoman Empire. As a result of the resettlement policy of the Russian Empire, ethno-confessional changes in the population of Northern Azerbaijan took place in the 19th and early 20th centuries.*

***Keywords:*** *North Azerbaijan, population, ethnic composition, resettlement, statistics*

Azərbaycanda XVIII əsrin ortalarında, Nadir şahın vəfatından sonra müstəqil və yarımmüstəqil feodal dövlətləri olan xanlıqların yaranması ölkədə feodal pərakəndəliyinin meydana gəlməsinə səbəb oldu. Bu dövrdə hər bir xanlığın, sultanlığın başçısı öz dövlətinə şəxsi mülkiyyəti kimi yanaşır, malik olduğu xanlığın sərhədlərini qonşu xanlıqların əraziləri hesabına genişləndirməyə cəhd edirdi. Belə bir hal vahid iqtisadi və siyasi mərkəzin mövcud olmadığı bir şəraitdə iqtisadi əlaqələrin daha da zəifləməsinə, ölkədə siyasi xaosun güclənməsinə, müdafiə qabiliyyətimizin aşağı düşməsinə səbəb olurdu: "Ayrı-ayrı xan, sultan, məlik və bəylər öz müstəqilliyini qorumağa çalışır və məhdud feodal mənafeyini güdərək ölkəni pərakəndə vəziyyətdə saxlamaq istəyirdilər. Belə feodallar eyni zamanda xanlıqları birləşdirərək vahid bir dövlət yaratmaq siyasətini yürüdənlərə qarşı çıxış edirdilər" [1, 547].

Təbii ki, belə bir vəziyyət Azərbaycanın iqtisadi inkişafında, əhalinin yeni ərazilərdə məskunlaşmasında, yeni şəhərlərin, kəndlərin yaranmasında, əvvəllər mövcud olan yaşayış məskənlərinin inkişaf etdirilməsində əsas maneə olaraq qalırdı.

Ümumiyyətlə, bu dövrdə ayrı-ayrı xanlıqlar arasında tez-tez baş verən müharibələr ölkə iqtisadiyyatının dağılması, siyasi sabitliyin pozulması ilə nəticələnirdi ki, bu da ilk növbədə doğum göstəricilərinin aşağı düşməsinə, demoqrafik vəziyyətin pisləşməsinə səbəb olurdu. Digər tərəfdən yeraltı və yerüstü sərvətləri, son dərəcə mühüm geostrateji mövqeyi ilə fərqlənən Azərbaycana qarşı xarici ölkələrin təcavüzü üçün əlverişli şərait yaradırdı: "XIX əsrin birinci yarısında Rusiyanın Qafqaza yiyələnmək uğrunda apardığı siyasətin fəallaşması İranla müharibələrə səbəb oldu" [4,181].

Artıq Rusiya-Qacarlar İranı (1804-1813, 1826-1828) və Rusiya-Osmanlı (1806-1812, 1828-1829) müharibələrinin baş verdiyi dövrdə Rusiya Cənubi Qafqazda öz sosial-siyasi dayaqları barədə düşünür və ciddi addımlar atmaq üçün xüsusi layihələrin həyata keçirilməsini planlaşdırırdılar: "Rusların

Azərbaycanda geniş işğalçılıq siyasəti əsasən ermənilərin sayəsində mümkün olmuşdur. Daha doğrusu, ruslar Qafqaza gəldikləri vaxt yalnız ermənilərə bel bağlamış, onların qüvvəsindən hərtərəfli istifadə etmişlər" [2, 88].

Təsadüfi deyildir ki, rus qoşunlarının Qafqazda hərbi nailiyyətləri yeni işğal olunan ərazilərdə xüsusi demoqrafik vəziyyətin yaradılmasına xidmət edən tədbirlərlə müşayiət olunurdu: "Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirirdi" [3, 31].

Belə şəraitdə Rusiya və Qacarlar İranının Qafqazı öz nüfuz dairələrinə bölmək uğrunda apardıqları gərgin, uzunmüddətli müharibələr Azərbaycan əhalisinin ətraf ərazilərə miqrasiyasına səbəb olmuş, o cümlədən digər ərazilərdən buraya başqa xalqların köçürülməsilə nəticələnmişdir. Lakin, 1828-ci il Türkmənçay müqaviləsindən sonra, xüsusən çarizmin Qafqazda yeritdiyi demoqrafik siyasət nəticəsində ermənilərin Osmanlı və Qacarlar İranından kütləvi şəkildə vətənimizə köçürülməsi əhalinin milli tərkibinin statistik baxımdan dəyişilməsinə səbəb oldu. Bu haqda İ.Kanadpev: "Ermənilər bizim ölkəyə müxtəlif vaxtlarda məlum olduğu kimi Türkiyə və İrandan kütləvi zorakılıqlardan və vəhşiliklərdən qurtularaq köçüb gəlmiş, məskunlaşmışlar" [8, 72]. Təbii ki, Rusiya hakim dairələrinin maraqlarından çıxış edən İ.Kanadpev erməniləri məzlum xalq kimi təsvir etsə də, bir qədər sonra özü-özünü inkar edərək onları riyakar və hiyləgər bir qövm kimi qələmə verir: "Erməninin əlinə bir neçə manat keçməsilə bu pulun heyrətamiz şəkildə artması baş verir... Artıq qəpiyi olan kimi erməni kəsbkarlıqla məşğul olmağa, dükan və ya piştaxta açaraq (kəsbkarlığını da əldən qoymayaraq) ticarətlə məşğul olmağa başlayır. Çəkidə, ölçüdə aldatmaq yolu ilə işini vicdansızcasına alçaqlıq edərək aldatmaları ilə ermənilər əsl kimliyini ortalığa qoydular" [8, 73].

İkinci Rusiya-Qacarlar İranı müharibəsindən sonra ölkəmizə köçürülən ermənilərin xislətini aydın şəkildə nümayiş etdirən bu iqtibas onların yeni məskunlaşdığı Azərbaycan torpaqlarında yerli əhalini necə aldatdıqlarını, soydaşlarımızın hesabına qısa zaman kəsiyində necə var-dövlət topladığını, sərvət sahiblərinə çevrildiklərini isbat edir.

V.Veliçko erməni xislətindən bəhs edərkən, A.Puşkindən belə bir iqtibas gətirir: "Sən qorxaqsan, sən qulsan, sən ermənisən" [6, 72]. Veliçkonun ermənilərlə bağlı alman səyyahı Alfred Körtedən gətirdiyi sitat da maraq doğurur. Belə ki, A.Körte Almaniyanın Türkiyədə fəaliyyət göstərən nümayəndəsi Kolmar fon-der Holtsa həsr etdiyi "Anadolu eskizləri"ndə yazır: "Bu əyalətdə xalqın özəyi ilə tanış olan hər bir kəs türkü sevməyə, ona hörmət etməyə, yunana nifrət, erməniyə isə həqarətlə, alçaq nəzərlərlə baxmağa başlayır. Hər yerdə, yunan iki yəhudini, erməni isə iki yunanı aldata bilir deyimi özünü doğruldur" [6, 73].

Erməni ziyalıları ermənilərin hörmətsiz olduqlarını bildiklərindən özlərini Qafqazla tanış olmayan adamların yanında "gürcü", bəzən də

"çərkəz" kimi qələmə verirlər, digər erməniləri də "erməni" sözünü "yerli", "qafqazlı" və yaxud "xristian" ifadəsi ilə əvəz edirlər [6, 73].

Bütün bu deyilənlər sözügedən dövrdə və bu gün ermənilərin milli-etnik xüsusiyyətlərini çox gözəl əks etdirir.

Ümumiyyətlə, V.Veliçkonun məlumatlarının çarizmin XIX əsrdə Azərbaycanda həyata keçirdiyi demoqrafik siyasətinin mahiyyətini dərk etmək üçün böyük əhəmiyyəti vardır. Belə ki, Vətənimizə köçürülən ermənilərin soydaşlarımızı hər cür sıxışdırmalarında erməni kilsəsinin də "xüsusi" rolu olmuşdur: "Türkmənçay traktatına görə, Eçmiədzin Rusiyanın tərkibinə daxil oldu və katolikos bütün ermənilərin patriarxı elan edildi. Avtokefal gürcü pravoslav kilsəsini isə, biz tədricən ləğv edərək torpaqlarını xəzinə torpaqlarına daxil etdik". Veliçko görülən tədbirlər nəticəsində erməni kilsəsini haqlı olaraq "üzərində heç bir faktik nəzarətin olmadığı dövlətin içərisində teokratik dövlət" – deyə adlandırır.

Müəllif yazır ki, Pakeviç zamanında Zaqafqaziyaya köçürüləcək 40.000 ermənini dəvət etmək üçün polkovnik Lazarevi İrana göndərdik. Ədirnə sülhünə görə 100.000 türkiyəli erməni də buraya köçürüldü. Ərzurumlu arxiyepiskop Karapet də daha 70.000 ermənini buraya gətirdi. Elə o vaxtdan üzü bəri ermənilərin müsəlman ölkələrindən Rusiyaya köçürülməsi müntəzəm surətdə, fasiləsiz olaraq həyata keçirilməyə başladı [6, 81] Təbii ki, V.Veliçko ermənilərin buraya və yaxud Rusiyaya köçürülməsi dedikdə, ilk növbədə onların Azərbaycan torpaqlarına, əsasən də Naxçıvan, Qarabağ və Zəngəzura köçürülməsi nəzərdə tutulur. Amma: "ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ ərazisi idi" [3, 31].

Qarabağ xanlığının Rusiya tərkibinə daxil olmasını təsdiq edən Kürəkçay (1805), Gülüstan (1813), Türkmənçay (1828) müqavilələrindən sonra Qarabağda ermənilərin sayı mühacirət hesabına artdı. Buna Zaqafqaziyada hakimlik edənlərin xristian dininə mənsub olmaları da şərait yaradırdı. Xaçatur Abovyan "Ermənistan yaraları"nın sağalmasının başlanğıcını məhz Zaqafqaziyada çar Rusiyasının hakimiyyəti ilə əlaqələndirirdi. Zaqafqaziyaya ermənilərin axını yazıçıya bu fikri söyləməyə imkan verirdi.

1804–1813 və 1826–1828-ci illər Rusiya-Qacarlar İranı müharibəsinin gedişində və onlardan sonra ermənilərin Zaqafqaziyaya, o cümlədən Qarabağa kütləvi surətdə köçməsi başlanır... "...Biz 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox fars, 84 min türk ermənisini köçürmüşük. Onları erməni əhalisinin az olduğu Yelizavetpol və İrəvan quberniyalarındakı ən yaxşı dövlət torpaqlarında yerləşdirmişik. Bu məqsədlə 200 min desyatin dövlət torpağı ayrılmış, müsəlmanlardan 2 milyon manatlıqdan çox torpaq satın alınmışdır. Bu ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsində və Göyçə gölünün sahillərində yerləşdirilmişlər. Köçənlərin sayı rəsmi məlumata görə 124 min olmasına baxmayaraq, əslində onların sayı 200 mini keçmişdir [9, 62-63].

Köçürülən ermənilərin Cənubi Qafqazda, xüsusilə Şimali Azərbaycan-

da məskunlaşdırılması qərara alınmışdı. Rus tədqiqatçısı N.Şavrov 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min nəfər erməninin 1 milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən buraya köçürülmüşdür" [9, 64].

Köçürmə prosesi nəticəsində Şimali Azərbaycanın qərb hissəsinin, xüsusən də Naxçıvan, İrəvan, Qarabağ bölgələri əhalisinin etnik tərkibi köklü surətdə dəyişdi. Belə ki, Qarabağ əyalətinin 1823-cü il üzrə "Təsviri"ndə burayada yaşayan 20 minədək ailənin 1,6 mini (cəmi 8,4%-i) erməni idisə, 1832-ci ildə artıq bu rəqəm artaraq 34,8%-ə çatmışdır.

Ümumiyyətlə, Şimali Azərbaycanda 1832-1833-cü illərdə 700 min nəfərdən çox adam yaşayırdı. 1850-ci ildə Şimali Azərbaycanda əhalinin sayı artaraq 1 milyon nəfərə çatmışdır. Sözügedən dövrdə, Şimali Azərbaycan əhalisinin çox hissəsi kəndlərdə yaşayırdı. Əhalinin 70 min nəfəri isə şəhərlərdə yaşayırdı. 1856-cı ildə artıq Şimali Azərbaycanda şəhər əhalisinin sayı 110 min nəfər təşkil edirdi. Bu dövrdə Şimali Azərbaycanın Şamaxı, Gəncə və Şuşa kimi iri şəhərlərinin hər birində 10 min nəfərdən çox adam yaşayırdı [4,184].

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda ermənilərin sayı kəskin şəkildə artdı. 1853-1856-cı illər Krım müharibəsi, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi bu prosesə ciddi surətdə təsir etdi. Belə ki, 1873-cü il göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 nəfər erməni qeydə alınmışdır. Halbuki, 40 il ərzində həmin ərazidə onların sayı cəmi 81.610 nəfər təşkil etmişdir. Belə çıxır ki, ermənilərin sayı 3 dəfədən artıq çoxalmışdır. Ermənilərin sayca artmasında, onların regiona köçürülməsinin davam etdirilməsi də ciddi şəkildə təsir göstərmişdir. Artıq 1886-cı ildə İrəvan quberniyasında ermənilərin sayı 375.700 nəfərə çatmışdır. Tədqiqatçı H.Verdiyeva haqlı olaraq hesab edir ki, regionda erməni əhalisinin sayca çoxalması təbii artımla deyil, miqrasiya ilə bağlı olmuşdur [7, 229].

Tədqiqatçı İrəvan quberniyasında ermənilərin artım dinamikasını arxiv sənədləri əsasında araşdıraraq 1897-ci ildə buradakı ermənilərin sayının 439.926 nəfərə, 1916-cı ildə isə, bu rəqəmin 669.871 nəfərə çatdığını göstərmişdir.

Şimali Azərbaycan ərazisinə ermənilərlə bərabər rus və almanlar da köçürülmüşdür. Burada ilk rus məskənləri XIX əsrin 30-cu illərinin əvvəllərində yaradıldı. 30-40-cı illərdə Cənubi Qafqazda salınmış 34 rus kəndindən 30-a qədəri Şimali Azərbaycan ərazisində yerləşirdi. Köçürülən 8600 nəfər təriqətçi və bidətçinin də 7000 nəfəri Şimali Azərbaycanda məskunlaşdırılmışdı.

Almanların isə, Rusiya imperiyası, o cümlədən Şimali Azərbaycan ərazisinə köçüb gəlmələri Napoleon Bonapartın Avropada apardığı müharibələrin Almaniyanın iqtisadi həyatına vurduğu ağır zərbə ilə bağlı idi. Təsərrüfatı pozulmuş alman kəndliləri öz yerlərini tərk edərək başqa ərazilərə üz tutmağa başlamışdılar. XIX əsrin əvvələrindən etibarən Azərbaycan

torpaqlarının işğalına başlamış Rusiya imperiyası 1804-cü ilin əvvələrində Gəncə xanlığını ləğv etmiş və yeni inzibati qurum - Yelizavetpol dairəsi yaratmışdı. 1817-ci ildə general Yermolov almanların ilk dəstələrinin Qafqaza gətirilməsinə icazə verdi. 1819-cu ilin yazında Yelizavetpol dairəsində iki alman koloniyası yaradılmışdı: Yelenendorf və Annenfeld. Arxivdə Gəncə dairəsində alman koloniyalarının yaradılması və inkişafı haqqında müxtəlif sənədlər saxlanılır. XIX əsrin ikinci yarısında Azərbaycanda alman koloniyalarının inkişafının ikinci mərhələsi başlayır: iqtisadi inkişaf və çiçəklənmə. Alman kolonistləri əsasən kənd təsərrufatı ilə məşğul olub. Koloniyalarda gedən iqtisadi inkişaf kolonistlərin say dinamikasını yüksələn xəttə aparır və yeni koloniyalar meydana gəlir. Nəticədə XX əsrin əvvəllərində Azərbaycanda alman koloniyalarının artması müşahidə olunur və onların sayı səkkizə çatır. Arxivdə alman koloniyalarını müxtəlif istiqamətlərdə inkişafı ilə yanaşı, kənd təsərrufatı sahəsində inkişafı haqqında da bir çox sənədlər mövcuddur [10].

M.Vəlinin (Baharlının) 1921-ci ildə Bakıda Azərbaycan Xalq Təsərrüfatı Şurasının nəşriyyatı tərəfindən nəşr edilən “Azərbaycan coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat” adlı kitabında da Azərbaycan əhalisinin istər sayı, istərsə də milli-etnik sayından bəhs olunarkən Azərbaycan Xalq Cümhuriyyətinin adres-kalendarındakı demoqrafik göstəricilərə istinad edilmişdir. M.Vəlinin (Baharlının) sözü gedən kitabında oxuyuruq: “Azərbaycan əhalisi 1917-ci ilin Qafqaz Kalendarı və Azərbaycan Cümhuriyətinin adres kalendarı mövcibincə, 2 milyon 861 min 862 candır. Bu statistik məlumatın əsasına 1897-ci ildə vaqe olan ümumi Rusiya siyahısı daxil edilmiş və üzərinə hər ildə artan miqdarda əlavə edilmişdir. M.Vəlili sözügedən kitabında təkcə Azərbaycan əhalisinin statistik göstəricilərini verməklə kifayətlənmir. Müəllif Azərbaycan əhalisinin demoqrafik göstəricilərinin reallığını əngəlləyən səbəbləri araşdıraraq, 1897-ci ilin siyahıyaalınmasının nəticələri ilə barışmadığını da dilə gətirir: “… Fəqət 1897-ci ilin siyahıyi-ümumiyyəsi ətraflı deyildi, zəif idi. Çünki islam əhalisi mədəniyyət cəhətdən ən geridə qaldıqları və həmçinin əsgər alınacaqlarından (aparılacaqlarından), torpaq mükəlləfiyyətlərindən və vergi artırılacağından ehtiyat etdikləri üçün siyahı tutulan zaman yazılmaqdan imtina edirdilər”. M.Vəlili Azərbaycan əhalisinin real demoqrafik mənzərəsini yaratmağı əngəlləyən səbəblər içərisində maldar təsərrüfatı ilə məşğul olan köçəri əhalinin siyahıyaalınma zamanı yaşadıqları kəndlərdən çox vaxt uzaqda - yaylaqlarda olmasını da qeyd edirdi. Məsələ ilə bağlı müəllif yazır: “… Köçəri əhalinin miqdarı da düz deyildi. Çünki siyahı tutulan vaxt bunların çoxu oturaq məhəllələrdən uzaq qışlaqlarda bulunurdular, o səbəbə siyahıya düşməmişlər, binaəlineyn bu siyahıda nüfusun göstərdiyi rəqəmlərə ehtiyatla yanaşılmalıdır. Eyni zamanda hər il artmaqda olanları da bu haldadır” [5,17].

Gətirilən nümunələrdən azərbaycanlı tarixçi və demoqrafların da

Azərbaycanda əhali problemi ilə bağlı demoqrafik tədqiqatlar aparması aydın surətdə görünür. Gətirilən nümunələrdən həmçinin XIX əsrin sonu – XX əsrin əvvəllərində çarizmin Azərbaycan əhalisinin sayını təhrif etmə cəhdləri də aydın şəkildə bəlli olur. Təbii ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində çarizmin köçürmə siyasəti Rusiyanın sözügedən dövrdə Cənubi Qafqazda yeritdiyi müstəmləkə siyasətinin tərkib hissələrindən biri idi.

***Ədəbiyyat siyahısı:***

1. *Azərbaycan tarixi. 1-ci cild. Z.Bünyadov və Y.Yusifovun red. ilə. Bakı, Çıraq, 2007. – 720 s.*
2. *Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. B., Gənclik, 1993. – 144 s.*
3. *Mahmudov Y., Şükürov K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2009. – 144 s.*
4. *Məmmədov A. Tarixi demoqrafiya. Dərslik. Bakı, ADMİU, 2017. – 231 s.*
5. *Vəlili M. Azərbaycan. Bakı, Azərnəşr, 1993. – 204 s.*
6. *Величко В. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, Элм, 1990. – 224 с.*
7. *Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, Алтай, 1999. – 330 с.*
8. *Канадпевь И. Очерки Закавказской жизни.СПб., 1902. – 128 с.*
9. *Шавров Н. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцам; Записка генерального консула России и Эрзеруме Маевского. Баку, Элм, 1990. – 156 с.*
10. *Azərbaycanda Alman Koloniyaları A+ A - Siyasi Sənədlər Arxivi http://presarxiv.gov.az/en-opennews/164.html#. Xi3C6DIzaUs*

**UOT 94 (479.24); 930:314**

# BAKI ŞƏHƏR ƏHALİSİNİN SAY DİNAMİKASI (1897-1917-Cİ İLLƏR)

***Ulduz Paşayeva***
***BDU, Tarix fakültəsi, böyük elmi işçi***
***star.miri@mail.ru***

*Məqalədə 1897-ci ildə Rusiya İmperiyasında keçirilmiş I Ümumrusiya əhali siyahıyaalınma materialları əsasında Bakı əhalisinin say tərkibi təhlil edilmişdir. Bununla yanaşı 1903, 1913, 1917-ci illərdə keçirilən siyahıyaalmalarda Bakı quberniyasında, Bakı qəzasının polis sahələrində yaşayan əhalinin, mədən-zavod rayonlarında işləyən kəsbkarların hesabına əhalinin say tərkibi, nikah, doğum və ölüm səviyyəsi təhlil edilmiş, daimi və faktiki əhalinin sayı barədə təhlillər aparılmışdı.*

***Açar sözlər:*** *Bakı, quberniya, qəza, şəhər, əhali, siyahıyaalma, polis sahəsi, nikah, doğum, ölüm*

## *ДИНАМИКА ЧИСЛЕННОСТИ НАСЕЛЕНИЯ ГОРОДА БАКУ (1897-1917 ГГ.)*

*В статье анализируется состав населения Баку за этот период на основе материалов I Всероссийской переписи населения, проведенной в Российской империи в 1897 г. Кроме того, на основе переписей 1903, 1913, 1917 годов были анализированы состав населения, проживающего в Бакинской губернии, полицейских участках Бакинского уезда, численность постоянного и фактического населения, уровень брачности, рождений и смертей за счет работающих в нефтепромышленных районах.*

***Ключевые слова***: *Баку, губерния, уезд, город, население, перепись населения, полицейский участок, брак, рождение, смерть*

## *NUMERICAL DEVELOPMENT OF THE POPULATION OF THE CITY OF BAKU (1897-1917)*

*The article analyses the composition of the population of Baku during this period on the basis of the materials of the All-russian Population Census, conducted in the Russian Empire in 1897. In addition, the 1903, 1913 and 1917 censuses analysed the population, marriages, births and deaths in the Baku region, the Baku district police stations and the mountainous districts, as well as the permanent and actual population.*

***Keywords:*** *Baku, province, district, city, population, census, police station, marriage, birth and death*

1840-cı il aprelin 10-da I Nikolay yeni islahatlar həyata keçirir. Bu islahat əsasında Zaqafqaziyanı idarə etmək üçün komendant sisteminin əvəzinə Rus çarizmi Cənubi Qafqazda inzibati-məhkəmə islahatını həyata keçirdir. Çar I Nikolay (1825-1855) tərəfindən imzalanmış "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" adlı fərmana əsasən Cənubi Qafqazın ərazisi inzibati cəhətdən quberniyalara və qəzalara bölünür. 1841-ci il yanvarın 1-dən Cənubi Qafqazın inzibati quruluşu Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırılır [7].

1859-cu ilin dekabrında baş vermiş güclü zəlzələ nəticəsində Şamaxı şəhəri tamamilə dağılmış və çar II Aleksandrın (1855-1881) 6 dekabr 1859-cu il tarixli fərmanı ilə Şamaxı quberniyasının mərkəzi Bakıya köçürülmüş və adı dəyişdirilərək Bakı quberniyası[*] adlandırılmışdı (bax, Əlavə). Həmin fərmana əsasən Bakı şəhərinə quberniya mərkəzi statusu verilmişdi. Quberniyanın tərkibinə Bakı, Cavad, Göyçay, Quba, Lənkəran və Şamaxı qəzaları[†] daxil edilmişdi [10]. Bu da Bakıda yaşayan əhalinin sayında müəyyən dəyişikliklərə səbəb olmuşdur.

Əhalinin sayını müəyyənləşdirmək və onu nəzarətdə saxlamaq məqsədilə yaradılmış Bakı qəzası polis sahələri Bakı, Maştağa, Saray, Balaxanı-Sabunçu, Keşlə və Bibiheybət sahələrindən ibarət idi. Bu polis sahələri (1897-ci ildən-1917-ci ilə kimi) ümumi Balaxanı - Sabunçu Polismeysterlik[‡] İdarəsində birləşdirilmiş və ərazisi 7 polis məntəqəsinə (Sabunçu, Ramana, Zabrat, Balaxanı, Suraxanı, Corat, Əhmədli) bölünmüşdü [1]. Siyahıyaalınmalar əsasən bu sahələrdə yaşayan əhali arasında keçirilirdi. Həmçinin mədən - zavod yerlərində çalışan yerli və gəlmə əhali arasında aparılırdı. 1897-ci ildə Bakı şəhərində yaşayan 111.904 nəfər əhalinin 40.307 nəfərini yerli əhali, 13.614 nəfərini Bakı quberniyasının qəzalarından gələnlər, 48.534 nəfərini Şimali Azərbaycanın digər quberniyalarından gələnlər, 9.449 nəfərini Rusiya imperiyasının Rusiya özü də daxil olmaqla digər ərazilərindən və xaricdən gələnlər təşkil edirdilər [3, s.2]. Məlumatdan aydın olur ki, diğər ölkə və quberniyalardan gələnlərin sayında artım müşahidə olunurdu. Buna səbəb XIX əsrin sonlarında Bakıda neft sənayesinin inkişafı, kəsbkarlıq, yəni çox qazanc əldə etmək məqsədi ilə gələnlərdən ibarət idi. 1897-ci il əhali siyahıyaalınmasına görə Bakı quberniyasına daxil olan qəzalar üzrə əhalinin cəmi 826.716 nəfər, şəhərdə yaşayanların cəmi isə 169.995 nəfər təşkil edirdi (Cədvəl 1).

1897-ci ildə Bakı quberniyası üzrə faktiki əhalidən fərqli olaraq daimi əhalinin sayı 789.659 nəfər idi. Ayrı-ayrı qəzalar üzrə daimi əhalinin say tərkibi cədvəl 2-də göstərilir. Bu say tərkibi arasında fərqin olması onunla

---

[*] *SSRİ-nin yaranması ilə əlaqədar 1920-ci ildə Azərbaycanda və digər ölkələrdə də quberniya inzibati ərazi vahidləri ləğv edilir.*

[†] *1929-cu ildə Azərbaycan SSR-nin rayonlaşdırılması zamanı qəzalar ləğv edilir.*

[‡] *Rusiya imperiyası dövründə Bakı Polisi «polismeysterlik» (Bakı şəhərində asayişi və qayda-qanunu qoruyan qurum) adlanırdı.*

izah edilir ki, faktiki əhali - daimi yaşayış yerindən asılı olmayaraq bu yaşayış sahəsində qeydiyyat zamanı olan əhalinin bir hissəsi olaraq hesablanırdı.

**Cədvəl 1**

**Bakı quberniyası və şəhər əhalisinin say tərkibi (1897-ci il siyahıyaalma materiallarına əsasən) [3,s.19]**

| Sıra sayı | Bakı quberniyası, o cümlədən şəhərlər daxil olmaqla | Faktiki əhali | | | Faktiki əhalinin tərkibində | |
|---|---|---|---|---|---|---|
| | | kişi | qadın | Hər iki cinsdən olanlar | Müvəqqəti məskunlaş-dırma yerlərində yaşayanlar | Xarici təbəələr |
| 1 | Bakı qəzası | 108.448 | 74.449 | 182.897 | 3.743 | 12.234 |
| | Bakı şəhəri | 66.893 | 45.011 | 111.904 | 3.392 | 10.554 |
| 2 | Göyçay qəzası | 64.133 | 53.572 | 117.705 | 704 | 682 |
| | Göyçay ərazisi | 1.348 | 833 | 2.201 | 118 | 150 |
| 3 | Cavad qəzası | 51.489 | 38.554 | 90.043 | 814 | 3.876 |
| | Səlyan ərazisi | 5.989 | 5.798 | 11.787 | 103 | 381 |
| 4 | Quba qəzası | 96.771 | 86.471 | 183.242 | 738 | 1.416 |
| | Quba şəhəri | 8.160 | 7.203 | 15.363 | 257 | 369 |
| 5 | Lənkəran qəzası | 72.492 | 58.495 | 130.987 | 645 | 6.344 |
| | Lənkəran şəhəri | 4.661 | 4.072 | 8.733 | 45 | 922 |
| 6 | Şamaxı qəzası | 64.732 | 57.110 | 121.842 | 137 | 782 |
| | Şamaxı şəhəri | 10.463 | 9.544 | 20.007 | 50 | 598 |
| | Bütün quberniya üzrə cəmi | 458.065 | 368.651 | 826.716 | 6.781 | 25.334 |
| | O cümlədən şəhərlərdə | 97.514 | 72.481 | 169.995 | 3.965 | 13.174 |

**Cədvəl 2**

**Bakı quberniyası və qəzaları üzrə daimi əhalinin say tərkibi (1897-ci il siyahıyaalma materiallarına əsasən) [3,s. 23,105]**

| Sıra sayı | Quberniya və qəzalar | Daimi əhali | | |
|---|---|---|---|---|
| | | Kişi | Qadın | Hər iki cinsdən olanlar |
| | Bakı quberniyası | 437.779 | 351.880 | 789.659 |
| 1. | Bakı qəzası | 104.420 | 73.186 | 177.606 |
| 2. | Göyçay qəzası | 59.507 | 50.156 | 109.663 |
| 3. | Cavad qəzası | 48.798 | 36.267 | 85.065 |
| 4. | Quba qəzası | 96.775 | 84.740 | 181.515 |
| 5. | Lənkəran qəzası | 61.732 | 50.468 | 112.200 |
| 6. | Şamaxı qəzası | 66.547 | 57.063 | 123.610 |

1902-ci il avqustun 20-də Bakı Şəhər Duması* Bakı şəhərində siyahıyaalınmanın keçirilməsi haqqında qərar qəbul edir və 1903-cü ildə Sabunçu, Balaxanı, Ramana, Zabrat, Bibiheybət – Neftli torpaqlar; Qara şəhər, Zığ, Əhmədli, Keşlə - Zavod rayonları adı ilə siyahıyaalmalar aparılır [3,s.19].

1913-cü ildə isə neftli ərazilər olan Sabunçu, Balaxanı, Ramana, Zabrat, Suraxanı, Bibiheybət, Əmircan, Bülbülə bir adda - "Mədən Rayonları" adı altında və Qara şəhər, Əhmədli, Zığ və Keşlə "Zavod rayonu" adı altında siyahıyaalmalar aparılmışdı. Lakin Qara şəhər 1903 və 1913 –cü illərdə şəhər üzrə qeydə alınmışdır [4, s.69].

XX əsrin əvvəllərində Bakı neft sənayesində və digər sahələrdə çalışan fəhlələrin ümumi sayı 58.239 nəfərə bərabər olmuşdur. Lakin 1907-1910-cu illərdə neftçıxarma sahəsində 31.556 fəhlə çalışırdısa, 1911-1913-cü illərdə onların sayı 27.769 nəfərə qədər azalmışdı. Bakı neft sənayesində çalışan fəhlələrin sayının azalması XX əsrin əvvəllərində Ümumrusiya və dünyada baş verən iqtisadi böhranla əlaqədar idi [5,s.67].

Bakı Şəhər İdarəsinin Statistika şöbəsinin siyahıyaalma məlumatlarında 1913-cü ilin iyun-sentyabr aylarında aparılan mülklərin qeydiyyatı siyahısı 22 oktyabrda yekunlaşmış və bu müddət ərzində əhalinin siyahıyaalınması da aparılmışdı. Mülklərin qeydiyyatı zamanı Bakı şəhər əhalisinin sayı 208.587 nəfər, siyahıyaalma zamanı isə 214.672 nəfər müəyyən edilmişdi. Bu iki göstərici arasındakı fərq onunla izah edilirdi ki, mülklərin siyahıyaalınması zamanı kazarma, həbsxana yerlərində olan insanlar nəzərə alınmamışdı. Mülklərin qeydiyyatını ilkin mərhələ hesab etməklə kifayətlənərək, tədqiqatda şəhər əhalisinə həsr edilmiş bu hissədə daha dəqiq olan 214.672 nəfər göstəricisinə istinad olunurdu [4].

1903 və 1913-cü illərin siyahıyaalmalarının nəticələri göstərir ki, bu iki siyahıyaalma arasındakı 10 illik müddət ərzində inzibati bir vahid kimi Bakı şəhəri haqqında təsəvvürlər əsaslı surətdə dəyişmişdi. Bir tərəfdən, 1903-cü ildə Bayıl şəhər çevrəsinə daxil olmayıb, şəhərətrafı ərazi sayılırdı, digər tərəfdən isə həm də Qara şəhər, Zığ, Əhmədli və Keşlə kəndləri şəhərətrafı ərazi hesab olunurdu. Lakin 1913-cü il üçün onlar artıq zavod rayonuna daxil edilmişdilər. Odur ki, 1903-cü ilə aid olan rəqəm materialını şəhərlə mədən rayonları arasındakı sərhədlərə müvafiq olaraq paylaşdıqda aşağıdakı rəqəmlər Bakı şəhəri və onu əhatə edən neft mədənlərinin əhalisinin sayının artdığını göstərir [4].

---

* *Rusiya senatının 1877-ci il 24 may tarixli qərarına əsasən 1878-ci ildə yaradılmış və 1918-ci il aprelin 10-da ləğv edilmişdir. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, İsa bəy Hacınski, Həsən bəy Zərdabi, Həbib bəy Mahmudbəyov, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və b. ayrı-ayrı vaxtlarda Bakı Şəhər Dumasına üzv seçilmişlər.*

**Cədvəl 3**

**1903 və 1913-cü illərdə Bakı şəhəri (Bayıl daxil olmaqla) və mədən rayonlarında yaşayan əhalinin say tərkibi [4]**

| Bakı şəhəri, Bayıl daxil olmaqla | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|
| 1903-cü il | 81964 | 61434 | 143398 |
| 1913-cü il | 120803 | 93869 | 214672 |
| Mədən rayonları | | | |
| 1903-cü ildə | 46123 | 17230 | 63353 |
| 1913-cü ildə | 82436 | 36850 | 119286 |

Bu məlumatlar göstərir ki, on il ərzində şəhərin əhalisinin sayı 1,5 dəfə (49,5%) artmışdır, mədən rayonlarının əhalisi isə, demək olar ki, 2 dəfə, 1903-cü illə müqayisədə isə 88,3% artmışdır. Bu illər ərzində xüsusən mədən rayonlarına kişilərin axını daha çox (113,9%) olmuşdur [2]. Həmçinin, Bakının su təchizatının daha da yaxşılaşdırılması məqsədi ilə tikintisi nəzərdə tutulan xətlərin çəkilişində digər yerlərdən qazanc məqsədi ilə gələn ailələrin də şəhər əhalisinin say tərkibinə təsiri olmuşdur.

Bakının su təchizatı məsələlərinin həllində yerli şəraitə yaxşı bələd olan və yerli əhali arasında böyük nüfuza malik neft milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin (1837-1924) xüsusi xidmətləri olmuşdur. Avropa ölkələrinə olan səfərlərində H.Z.Tağıyev texniki və mədəni aləmdə baş verən yeniliklərlə, Almaniyanın, Fransanın su və kanalizasiya qurğuları sistemi ilə yaxından tanış olmuşdu. Ona görə H.Z.Tağıyev Bakı Şəhər Dumasına Avropanın ən yaxşı hidravlik-mühəndisi sayılan Vilyams Lindleyin Bakiya dəvət olunmasını təklif edir.

Bu səbəbdən 1903-cü il əhali siyahıyaalınması Bakı-Şollar su kəmərinin çəkilişi ilə əlaqədar olmuşdu. Vilyams Lindleyinin layihəsi ilə əlaqədar şəhər əhalisinin siyahıyaalınması keçirilmiş və 143.398 nəfər əhali qeydə alınmışdı [6].

1903-cü il siyahıyaalınmasının materiallarından məlum olur ki, bu dövrdə Bakı şəhəri 6 polis sahəsinə (liman sahəsi daxil olmamaqla) bölünürdü. Siyahıyaalınma hər polis sahəsi üzrə əhalinin sayını aşağıdakı kimi müəyyən etmişdi.

**Cədvəl 4**

**1903-cü ildə Polis sahələri üzrə (liman sahəsi daxil olmamaqla) əhalinin sayı [4; 5]**

| | |
|---|---|
| I polis sahəsi | 28811 |
| II polis sahəsi | 41.482 |
| III polis sahəsi | 31.354 |
| IV polis sahəsi | 24.726 |
| V polis sahəsi | 8.438 |
| VI polis sahəsi | 8.587 |
| Cəmi: | 143.398 |

Layihə üzrə Bakı su kəməri şəbəkəsi yalnız şəhəri deyil, həmçinin onun ətraf rayonlarını və mədən rayonlarını da əhatə etməli idi. Bununla əlaqədar bu sahələrdə yaşayan əhalinin siyahıyaalınması labüd idi. Buna görə də aşağıda göstərilən məlumatlar həm şəhər əhalisinin, həm də göstərilən digər iki sahənin də əhalisinə aiddir. Bakı şəhəri, şəhərətrafı və mədən rayonlarının əhalisinin siyahıyaalınmasının 22 oktyabr 1903-cü il üçün göstəriciləri aşağıdakı kimi olmuşdur:

**Cədvəl 5**

**Bakı şəhəri, Şəhərətrafı və mədən rayonları əhalisinin say tərkibi (1903-1908-ci illər, min nəfərlə, hər iki cinsdən olanlar) [4]**

| İllər üzrə | Bakı şəhəri | Bakı şəhəri, Bayıl burnu ilə birlikdə | Şəhərətrafı və mədənlər | Bakı şəhəri, Şəhərətrafı və mədən rayonlarının cəmi |
|---|---|---|---|---|
| 1903 | 138.611 | 143.398 | 64.353 | 206.751 |
| 1904 | 146.677 | 150.686 | 68.098 | 218.784 |
| 1905 | 155.215 | 159.456 | 73.459 | 232.915 |
| 1906 | 164.248 | 168.138 | 78.333 | 246.471 |
| 1907 | 173.594 | 178.556 | 81.867 | 260.815 |
| 1908 | 183.696 | 188.948 | 87.046 | 275.994 |

Onu da qeyd etmək istərdik ki, bu siyahıyaalmanın keçirilməsinə baxmayaraq, Bakı-Şollar su kəmərinin çəkilişi 1916-cı ildə başa çatır və 1917-ci ilin yanvar ayında istismara buraxılır.

Siyahıyaalma materiallarından məlum olur ki, 10 il ərzində Bakı şəhər əhalisinin sayı 1903-cü ildə 143.398 nəfərdən 1913-cü ildə 71.274 nəfər artaraq, 214.672 nəfərə çatmışdı. Mədən-zavod rayonunda siyahıyaalınma işi daha çətin getmişdi. Burada əhali 1903-cü ildə 64.353 nəfərdən 1913-cü ildə 119.293 nəfərə qədər artmışdı. Siyahıyaalınma materiallarına görə Bakı şəhərində 1897-ci ildə hər 1000 kişiyə 673, 1903-cü ildə 752, 1913-cü ildə isə 777 nəfər qadın düşürdü. Siyahıyaalma şəhər və şəhərətrafı mədən və zavod rayonlarını da əhatə edirdi [4, s.69].

Çar II Nikolayın (1894-1917) 1906-cı il 28 oktyabr tarixli fərmanına əsasən Bakı qradonaçalnikliyi (*Bakı şəhər rəisliyi*) yaradıldı. Bakı və fabrik-mədən rayonları quberniyadan ayrılaraq, Bakı şəhər rəisliyinin ərazisinə daxil edildi və Bakı general-qubernatorluğu ləğv edildi. Bakı şəhər rəisliyinin ərazisində 405.829 nəfər əhali yaşayırdı. Onlardan 173.489 nəfəri daimi sakinlər, 232.340 nəfəri müvəqqəti yaşayanlar idi [7].

1906-cı ildə Bakı şəhər Polis idarəsinin məlumatına əsasən, Bakı şəhərinin əhalisi polis sahələri üzrə aşağıdakı kimi bölünmüşdü:

**Cədvəl 6**

**Bakı şəhəri əhalisinin polis sahələri üzrə liman sahəsi daxil olmaqla əhalinin sayı [4]**

| | |
|---|---|
| 1-ci polis sahəsi | 36.986 |
| 2-ci polis sahəsi | 41.868 |
| 3-cü polis sahəsi | 40.866 |
| 4-cü polis sahəsi | 38.899 |
| 5-ci polis sahəsi | 19.798 |
| 6-cı polis sahəsi | 17.898 |
| 7-ci порт sahəsi | 9.988 |
| Cəmi: | 206.303 |

Bakı polismeysterinin 24 aprel 1906-cı il tarixli təqdimatına əsasən, liman sahəsində əhalinin sayına yalnız gəmi qulluqçuları və fəhlələri daxil idi. Şəhər polis sahəsi onları əhalinin ümumi siyahısından çıxarmaq qərarı qəbul etmişdi. Beləliklə, polis məlumatlarına görə onların ümumi sayı 196.315 nəfər olmuşdur. Bununla belə, Dövlət İdarəsinin Statistika bürosunun məlumatlarına, həmçinin 22 oktyabr 1903-cü il tarixində keçirilmiş siyahıyaalınmanın nəticələrinə görə, şəhər əhalisinin 6 polis sahəsi üzrə (liman sahəsi daxil olmamaqla) ümumi sayı 143.398 nəfər idi. Lakin 1906-cı il Bakı şəhər polis idarəsinin məlumatına əsasən Bakı şəhəri əhalisi 7 polis sahələri üzrə (liman sahəsi daxil olmaqla) bölünmüş və əhalinin ümumi sayı 206.303 nəfər hesablanmışdı. Belə məlum olur ki, əhalinin say tərkibinə demoqrafik amillər və başqa ölkələrdən qazanc məqsədi ilə gələnlərin hesabına dəyişmişdir. Onu da qeyd edək ki, 1913-cü ildə rayonların sayı 25, polis sahələrinin sayı isə 10 olmuşdur [5].

Aşağıdakı 7 və 8-ci cədvəllərdə Bakı quberniyası, qəzaları, o cümlədən şəhər əhalisi üzrə nikah, doğum, ölüm səviyyəsinə dair statistik məlumatlar göstərilmişdir.

**Cədvəl 7**

**1908-1913-cü illərdə Bakı şəhərində doğum və ölümün mütləq sayı və faizi [4, s.31]**

| İllər üzrə | Hər iki cinsdən olanlar | Doğum | | Ölüm | |
|---|---|---|---|---|---|
| | | Mütləq say | %-lə | Mütləq say | %-lə |
| 1908 | 175.790 | 6.050 | 3,4 | 4.095 | 2,3 |
| 1909 | 182.997 | 5.663 | 3,1 | 4.249 | 2,3 |
| 1910 | 190.500 | 6.505 | 3,3 | 4.278 | 2,25 |
| 1911 | 198.311 | 6.754 | 3,4 | 4.511 | 2,3 |
| 1912 | 206.442 | 6.255 | 3,0 | 5.529 | 2,7 |
| 1913 | 214.679 | 6.031 | 2,8 | 4.452 | 2,0 |

**Cədvəl 8**

**1915-ci ildə Bakı quberniyasında nikahların, doğulanların və ölənlərin sayı [2, s.382]**

| Quberniya, şəhər, qəza | Nikahların sayı | Doğulanların sayı | | | Ölənlərin sayı | | | +Gələnlər -Gedənlər |
|---|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Hər iki cinsdən olanlar | Kişi | Qadın | Hər iki cinsdən olanlar | |
| Bakı quberniyası: | 6921 | 12062 | 10798 | 22860 | 8795 | 7539 | 16334 | +6526 |
| Lənkəran şəhəri | 118 | 225 | 117 | 342 | 108 | 65 | 173 | +169 |
| Şamaxı şəhəri | 187 | 184 | 138 | 352 | 200 | 191 | 391 | +39 |
| Qəzalar: | | | | | | | | |
| Bakı | 60 | 175 | 150 | 325 | 115 | 110 | 225 | +100 |
| Göyçay | 1380 | 1756 | 1532 | 3288 | 1572 | 1360 | 2932 | +356 |
| Cavad | 1144 | 1785 | 1568 | 3353 | 1211 | 1014 | 2225 | +1128 |
| Quba və Quba şəhəri daxil olmaqla | 1962 | 2636 | 2262 | 4898 | 1885 | 1643 | 3528 | +1370 |
| Lənkəran | 811 | 3640 | 3331 | 6971 | 2235 | 1908 | 4143 | +2828 |
| Şamaxı | 1259 | 1661 | 1670 | 3331 | 1469 | 1248 | 2717 | +614 |
| Bakı qradonaçalnikliyi (şəhər rəisliyi) | 1959 | 4100 | 3859 | 7959 | 2844 | 2225 | 5069 | +2890 |
| Bakı polis idarəsi Bakı şəhəri daxil olmaqla | 1053 | 2267 | 2190 | 4457 | 1745 | 1430 | 3175 | +1282 |
| Balaxanı-Sabunçu polis sahəsi | 906 | 1833 | 1669 | 3502 | 1099 | 795 | 1894 | +1608 |

Belə bir nəticəyə gəlirik ki, 1903-1915-ci illərdə əhalinin demoqrafik göstəricilərində nikah, doğum, ölüm və digər amillər əhalinin say tərkibinə təsir göstərmiş, həmçinin baş verən təbii fəlakət, qazanc məqsədi ilə başqa yerlərdən gələnlər vasitəsilə vəba xəstəliyinin yayılması səbəbindən insan tələfatına məruz qalan Bakı şəhər əhalisi olmuşdur. Digər tərəfdən planlı şəkildə, azərbaycanlıların milli və dini mənsubiyyətlərinə görə, etnik təmizləmə məqsədilə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar da say tərkibinə təsir göstərmişdir.

1917-ci il Qafqaz təqviminin məlumatına görə, Bakı quberniyasında 875.746 nəfər əhali yaşayırdı. Onlardan 465.711 nəfəri kişi, 310.035 nəfəri

qadın idi. Kişilərin sayca belə üstünlüyü (+155.676 nəfər) quberniyada gəlmə işçi qüvvəsinin çox olması ilə bağlı idi. Azərbaycanlıların (Cənubi Azərbaycandan olanlar da daxil olmaqla) sayı 692.574 nəfər (79, 08%), ruslar 72.635 nəfər (8,3%), ermənilər və digər millətlərin nümayəndələri 42.207 nəfər (4,8%) idi [8, s.55-56].

Statistik rəqəmlərdən görürük ki, Bakı quberniyasında, qəzalarda və şəhərlərdə yaşayan əhalinin say tərkibində ciddi dəyişikliklər baş vermişdi. Əhalinin sayı 1897-ci ildə 111.904 nəfər, 1903-cü ildə 143.398 nəfər, 1913-cü ildə 214.672 nəfər, 1917-ci ildə isə 875.746 nəfərə çatmışdır.

1897-1917-ci illər ərzində qəzalarda əhalinin siyahıyaalınması əsasən polis sahələrində yaşayan əhalinin, həmçinin mədən-zavod və sənaye rayonlarına qazanc məqsədi ilə gəlmə əhalinin hesabına həyata keçirilmiş və əhalinin say tərkibi müəyyənləşdirilmişdi. O cümlədən əhalinin artımı miqrasiya hesabına və çar Rusiyasının Azərbaycanda apardığı inzibati-ərazi dəyişiklikləri və xristianlaşdırma siyasəti ilə əlaqədar idi. Şəhərin etnik tərkibi digər bölgələrdən neft mədənlərində işləməyə gələnlər və köçkünlərin hesabına dəyişmişdi.

### *Ədəbiyyat siyahısı:*

1. *Алышевский В.В. г. Баку и промыслово-заводской район по данным переписи 1913 г. часть 2, выпуск 2-й. Издание АЗЦСУ. Г.Баку, 1922 г. 98 стр.*
2. *Кавказский календарь на 1917 год (L XXII г.), Типография Канцелярии наместника на Кавказе,1916,1609с.*
3. *Первая Всеобщая перепись населения Российской империи, 1897 г. Бакинская губерния, Центральная типография М.Я.Минкова, СПБ,1905 г., стр.188; Демоскоп № 847-848. http://www.demoscope.ru/weekly/ssp /emp_lan_97_ uezd.php?reg=319*
4. *Документы по истории Баку (1810-1917): Азербайджанское Государственное Издательство, Баку, 1978, 243 стр.*
5. *Sadıqova H.F. XIX-XX əsrin əvvəllərində Bakı şəhəri əhalisinin etnik və ictimai tərkibi. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 248 səh.*
6. *Исмаил-заде Д.И. Население городов Закавказского края в XIX-начале XX в. Москва, издательство «Наука», 1991, 256 с.*
7. *Azərbaycan Milli Ensiklopediyası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi nəşriyyatı, 2011, 604 səh.*
8. *Обзор Бакинской губернии по годам. Баку,1890-1915, 158 стр.Обзор Бакинской губернии за 1902 год (1),стр.32-33*
9. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyatı", Bakı, 2004, 440 səh.*
10. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, "Lider nəşriyyatı", 2005,472 səh.*
11. *Rusiya imperiyası dövrü - http://bakucity.preslib.az/ az/bibliobooks*

12. *Сегал И.Л. Сборник сведений о Бакинской губернии, 1911 г.*
13. *Muradov Ş., Baxış Ç. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı,2013, 135 səh.*
14. *Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıyaalmaları əsasında). Bakı, BDU, 2003, 302 səh.*
15. *Qılman İlkin (Musayev). Bakı və Bakılılar. Bakı, "Nurlar" NPM, 2006, 384 səh.*

***Əlavə***

***Bakı Quberniyasının yaradılması haqqında sənəd. № 19***

*Указ о переименовании Шемаханской губ. в Бакинскую и переводе губернских учреждений из г. Шемахи в Баку 6 декабря 1859 г.*

*Приняв во внимание, что губернский г. Шемаха подвергается частым землетрясениям, и признавая поэтому неудобным оставлять в этом городе находящееся ныне там губернское управление Шемахинской губ., мы, согласно представлению нашею наместника кавказского и положению Кавказского комитета, повелеваем:*

*1. Управление теперешней Шемахинской губ. и все находящиеся там губернские учреждения сей губернии перевесть из г. Шемахи в г. Баку.*

*2. г. Баку возвести на степень губернского города.*

*3.Затем Шемахинскую губ. именовать впредь Бакинской губ.; -и*

*4. г. Шемахи оставить уездным городом Шемахинского у. Правительствующий Сенат не оставит сделать к исполнению сего надлежащее распоряжение.*

*На подлинном собственною е. и. в. рукою подписано: «Александр». ПСЗРИ, т. XXXIV, 1859 г., отд. II, СПб, 1861, № 35191, стр. 313.*

***Məqalə BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti Səidə Əli qızının rəyi ilə çapa təqdim edilib.***

**UOT 94 (479.24)**

# ВОПРОС О ЗАКАТАЛЬСКОМ ОКРУГЕ ВО ВЗАИМООТНОШЕНИЯХ АЗЕРБАЙДЖАНА И ГРУЗИИИ (1917-1922 гг.)

***Ситара Мустафаева***
***БГУ, Исторический факультет, доцент***
***sitara.mustafaeva@gmail.com***

*На Южном Кавказе после распада Российской империи и образования независимых республик вопрос о принадлежности Закатальского округа привел к обострению отношений между Азербайджаном и Грузией. В 1918 году согласно волеизъявлению населения округа Закатальский вопрос был решен в пользу Азербайджана. Однако Грузия, получив поддержку Советской России, вновь предъявила свои претензии на округ. Это вызвало резкое недовольство, как руководства Советского Азербайджана, так и военно-политического руководства занявших республику частей Красной Армии и партийных представителей Москвы в регионе. По договору 12 мая 1920 года, подписанного в Москве между РСФСР и Грузинской Демократической Республикой, Закатальский округ и ряд других территорий, населенных азербайджанцами, попали в разряд «спорных территорий» между Грузией и Азербайджаном. Их судьбу должна была решить Особая смешанная комиссия. 28 июля 1921 года Грузия выступила с Декларацией, в которой говорилось, что она отказывается от всяких претензий на Закатальский округ. Особая смешанная комиссия к началу 1922 г. Установила государственную границу между Азербайджаном и Грузией. Закатальский округ остался в составе Азербайджана.*

***Ключевые слова:*** *Закатальский округ, Азербайджан, Грузия, спорные территории*

## *ZAQATALA DAİRƏSİ MƏSƏLƏSİ AZƏRBAYCAN VƏ GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNDƏ (1917-1922-ci illər)*

*Cənubi Qafqazda Rusiya imperiyasının süqutundan və müstəqil respublikaların yaranmasından sonra Zaqatala dairəsi məsələsi Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin kəskinləşməsinə səbəb oldu. 1918-ci ildə dairə əhalisinin iradəsinə əsasən Zaqatala məsələsi Azərbaycanın xeyrinə həll edildi. Lakin Gürcüstan Sovet Rusiyasının dəstəyini alaraq yenidən Zaqatala torpaqlarına öz iddialarını irəli sürdü. Bu, həm Sovet Azərbaycanı rəhbərliyinin, həm də respublikanı işğal edən Qırmızı Ordu birləşmələrinin hərbi-siyasi rəhbərliyinin və regiondakı Moskvanın partiya*

*nümayəndələrinin kəskin narazılığına səbəb oldu. Moskvada RSFSR ilə Gürcüstan Demokratik Respublikası arasında imzalanan 12 may 1920-ci il tarixli müqaviləyə əsasən, Zaqatala rayonu və azərbaycanlıların məskunlaşdığı bir sıra ərazilər Gürcüstan və Azərbaycan arasında "mübahisəli ərazilər" siyahısına düşdülər. Onların taleyini Xüsusi qarışıq komissiya həll etməli idi. 1921-ci ildə iyul ayının 28-də Gürcüstan, Zaqatala mahalına olan bütün iddialardan imtina etdiyini ifadə edən bir Bəyannamə ilə çıxış etdi. 1922-ci ilin əvvəlində Xüsusi qarışıq komissiya Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin müəyənləşdirilməsi məsələsi ilə bağlı işini yekunlaşdırdı. Zaqatala rayonu Azərbaycanın bir hissəsi olaraq qaldı.*

***Açar sözlər:*** *Zaqatala dairəsi, Azərbaycan, Gürcüstan, mübahisəli ərazilər*

## *THE ZAQATALA DISTRICT ISSUE IN THE RELATIONS BETWEEN AZERBAIJAN AND GEORGIA (1917-1922)*

*After the collapse of the Russian Empire and the formation of independent republics in the South Caucasus, the problem over the ownership of the Zaqatala district led to an escalation of relations between Azerbaijan and Georgia. In 1918, according to the will of the population of the district of Zaqatala, the problem was resolved in favor of Azerbaijan. However, Georgia, having received the support of Soviet Russia, again made its claim to the district. This caused sharp dissatisfaction, both with the leadership of Soviet Azerbaijan and with the military-political leadership of the Red Army units that occupied the republic and Moscow 's party representatives in the region. Under a treaty signed in Moscow on 12 May 1920 between the RSFSR and the Georgian Democratic Republic, the Zaqatala District and a number of other territories inhabited by Azerbaijani people fell into the category of "disputed territories" between Georgia and Azerbaijan. Their fate was to be decided by the Special Mixed Commission. On July 28, 1921, Georgia issued a Declaration stating that it was renouncing all claims to the Zaqatala District. A special mixed commission established the state border between Azerbaijan and Georgia by the beginning of 1922. The Zaqatala district remained part of Azerbaijan.*

***Keywords**: Zaqatala district, Azerbaijan, Georgia, disputed territories*

В современной грузинской историографии, также как и в 1918 году делается попытка представить Северо-Западный регион Азербайджана (исторический Закатальский округ или сегодняшние Балакенский, Закатальский и Гахский районы Азербайджанской Республики), называемый ими «Саингило», и территорию албанского монастыря, находящегося на горе «Кешикчи даг», который грузины называют церковью

Давида Гареджи, историческими грузинскими землями, якобы отошедшими к Азербайджану после советизации Южно-Кавказского региона. Официальный Тбилиси без всякого основания называет этот монастырь, являющийся наследием Азербайджанского государства Албании, одной из «историко-религиозных ценностей» Грузии. Архивные документы показывают всю несостоятельность возникших в 1918 г. Территориальных притязаний Грузии на Закатальский округ, образованный в XIX века на исторических территориях Джаро-Балакенских джамаатов и части Илисуйского султаната. Согласно данным Кавказского календаря на 1917 год Закатальский округ на 1 января 1916 года являлся отдельной административно-территориальной единицей в составе России [19, с. 310]. В 1917 году Российская империя распалась, было создано Временное правительство, которое не смогло удержать власть в своих руках. В октябре власть в Петрограде захватили большевики, что привело к началу гражданской войны. На осколках бывшей Российской империи стали создаваться независимые национальные государства. На Южном Кавказе была создана Закавказская Федеративная Демократическая Республика.

После распада в мае 1918 г. Закавказской Федеративной Демократической Республики на территории Южного Кавказа, занимающего площадь в 237.055 км$^2$, с численностью населения 7.667.370 человек (из них 3.306.000 мусульман, 1.786.000 армян и 1.641.000 грузин) [23, с. 14], были образованы три независимых государства: Азербайджанская Демократическая Республика (АДР) (на территории Бакинской и Елисаветпольской губерний и Закатальского округа); Грузинская Демократическая Республика (преимущественно на территории Тифлисской и Кутаисской губерний, Батумской области и Сухумского округа); Армянская Республика (преимущественно на территории Иреванской губернии). Между республиками сразу остро встал территориальный вопрос. Первоначально границы были установлены согласно административным границам, существующим в период Российской империи.

Летом 1918 года в Стамбуле планировалось проведение конференции Кавказских республик и стран Четверного союза. Согласно проекту, подготовленному в это время азербайджанской делегацией в Стамбуле и представленному представителям Германии и Османской империи, а впоследствии и представителям Антанты, в состав Азербайджанской Республики входили: Бакинская губерния, Елизаветпольская (Гянджинская) губерния, части Иреванской и Тифлисской губерний и Закатальский округ. В данном проекте все указанные территории рассматривались как составные части Азербайджана, и указывалось на то, что население этих земель в большинстве своем мусульмане открыто выражают желание войти в состав Азербайджанской Республики. Далее в документе сказано: «В целом указанная территория имеет площадь 85 000 квадратных верст, что эквивалентно 96 502 км$^2$» [23, с. 20-21]. При

рассмотрении данного проекта видно, что при определении своих государственных границ Азербайджан стремился в первую очередь использовать «принцип этнического расселения» как главный критерий, на котором основывалось вхождение большинства районов в состав республики. Однако и «конфессиональный принцип» играл немаловажную роль, то есть Азербайджанская Республика пыталась объединить не только территории с азербайджанским, но и с мусульманским населением.

В период подготовки к Стамбульской конференции грузинская делегация развернула активную пропагандистскую деятельность в печати. Грузия претендовала на ряд территорий, населенных тюрками, а именно: 1. Юго-восточную часть Сигнахского уезда. 2. Караязскую степь Тифлисского уезд 3. Среднюю зону (тюркская) Борчалы. 4. Закатальский округ. Закатальскую проблему удалось урегулировать мирным путем, и в этом решающую роль сыграл тот факт, что из 10 тыс. Населения округа 95% составляли мусульмане [8, л. 37-38]. Заседание Закатальского окружного национального совета 26 июня 1918 г. Единогласно постановило присоединить Закатальский округ к Азербайджану: «…принимая во внимание – говорится в постановлении, что население округа, состоящее в громадном большинстве (95%) из мусульман…, что по условиям культурно-экономическим, бытовым и религиозным по роду занятий, промышленности и языку Закатальский округ и Азербайджан являются однородными элементами и что сношения и товарообмен с крупными торгово-промышленными центрами для Закатальского округа возможен через Азербайджан и, находя, что присоединение к Азербайджанской Республике является наиболее отвечающим целям и интересам Закатальский округа, Закатальский окружной национальный совет с участием уполномоченных от обществ единогласно постановил: Присоединить Закатальский округ к Азербайджанской Республике в виде особой административной единицы /на праве губернии/…» [12, л. 27]. Постановлением правительства Азербайджана от 30 июня 1918 г. Закатальский округ был присоединен к Азербайджанской Республике «Согласно желанию населения Закатальского округа, выраженному в телеграмме местного национального комитета от 28 июня 1918 г ….» [5, с. 203]. Таким образом, благодаря усилиям азербайджанского правительства и желанию местного населения, вопрос о Закатальском округе был решен в пользу Азербайджана. Закатальский округ в составе Азербайджанской Республики получил статус губернии [5, с. 289] и первым губернатором стал А.Гашимбеков. После 30 июня 1918 г. Грузинское правительство пыталось любыми способами присоединить округ, используя при этом проживающих в округе ингилойцев.

Грузия вынуждена была согласиться с присоединением Закатальского округа к Азербайджану как со свершившимся фактом. На остальных спорных территориях (Борчалинский, Тифлисский и Сигнахский

уезды Тифлисской губернии) продолжали с начала июня 1918 г. находиться грузинские и немецкие воинские части, что обостряло обстановку в регионе. Для защиты мусульманского населения азербайджанское правительство вынуждено было ввести войска в Караязы. Грузинская сторона свои претензии на вышеуказанные уезды основывала на так называемом «историческом принципе» - часть этих земель якобы несколько столетий находилась в составе Грузии – и на «принципе обеспечения безопасности государственных границ» - эти уезды располагались очень близко к столице Грузии.

27 октября 1918 г. Грузинское правительство предложило созвать в Тифлисе конференцию всех Южно-Кавказских республик и Союза горцев Северного Кавказа для решения спорных территориальных вопросов между этими государствами. Председатель азербайджанской делегации на планируемой конференции в Тифлисе М.А.Векилов в своем донесении в министерство иностранных дел пишет о том, что по всем интересующим Азербайджан вопросам были проведены переговоры с представителями Грузии и Армении, но переговоры эти никаких реальных результатов не имели, и что в дальнейшем стремление Азербайджана решить спорные вопросы мирным путем окончатся тем же и, «что без реальной силы разговоры с нашими соседями, охваченными угаром легкого захвата чужой собственности ни к чему не приведут». Далее М.А.Векилов продолжает: «…наши уезды, населенные сплошь мусульманами, захватываются один за другим то армянами, то грузинами; нам необходимо без замедления найти и организовать эту силу, а это возможно при организации и вооружении самого населения; особенно это необходимо в некоторых пограничных с Грузией и Арменией уездах Азербайджана, например, Казахского уезда, Закатальского округа…» [4, с. 119-121].

28 мая 1919 г. Во время встречи с азербайджанской делегацией президент США В.Вильсон посоветовал передать свои требования в секретариат Парижской мирной конференции. В секретариат был представлен Меморандум в рукописной форме, состоящий из 14 глав, куда были включены материалы исторического, этнографического, экономического и политического характера. Важной частью этого Меморандума были главы о территории и населении Азербайджана. На Версальской мирной конференции армяне, грузины и иранцы предъявляли территориальные требования, которые непосредственно касались Азербайджана, и поэтому необходимо было указать границы республики. В данном документе указывалось, что находящаяся под контролем Азербайджанской Республики бесспорная территория составляет 837.866 кв. Верст или 94.137.38 км$^2$. Кроме того, в документе указано, что вместе с территориями, где еще не распространена власть Азербайджана, ее площадь составляет 150,2 тыс. км$^2$ [1, с. 220].

Аналогичный Меморандум был представлен Парижской конференции и грузинской делегацией во главе с Н.Чхеидзе. В Меморандуме указывалось, что рубежи Грузинского государства совпадают с этнографическими границами. В Меморандуме площадь Грузии была показана около 93 тыс. км$^2$, с населением 3,4 млн. человек (из них только 1,7 млн. составляли грузины). Включение в Меморандуме в число грузинских земель Закатальского округа, являющегося частью Азербайджанской Республики, говорит о том, что вышеуказанное мнение не соответствует действительности [2, с. 76-77].

В период Российской империи крестьяне западной части тогдашнего Закатальского округа имели право пользоваться некоторыми земельными участками и в Сигнахском уезде. После образования независимых республик на Южном Кавказе при проведении временной азербайджано-грузинской границы начался конфликт с пограничными постами [4, с. 522]. Азербайджанское правительство еще в 1918 г. на правом берегу реки Мазым-чай, то есть на территории Сигнахского уезда поставило свой пост. В первое время Грузинская Республика, занятая решением других внешнеполитических вопросов, не придавала этому факту значения. Однако в начале 1919 г. она решила захватить этот участок, что привело к противостоянию между Азербайджаном и Грузией [2, с. 116-118]. 23 октября азербайджанский пограничный пост, находящийся на правом берегу р.Мазымчай, незаконно был снят грузинами. Для ликвидации этих споров была созвана специальная Международная комиссия.

С 25 октября по 2 ноября 1919 г. в городе Закаталах проходили заседания Международной комиссии Азербайджанской и Грузинской Республик по установлению временной границы между Закатальской губернией Азербайджанской Республики и Сигнахским уездом Тифлисской губернии Грузинской Республики. Причиной возникновения вопроса об установлении временной границы и образования для этого Особой комиссии послужили недоразумения между населением Закатальской губернии и Сигнахского уезда из-за границ землепользования. Жителям селения Ковахчель Закатальской губернии Азербайджанской Республики, издавна пользовавшимися землями в Чиаурской даче Сигнахского уезда (северо-восточная часть уезда) и в Ширакской степи (правобережье реки Алазань, восточная и юго-восточная часть уезда), после образования в 1918 г. независимых государств, грузинское правительство и грузинское население стало препятствовать свободному пользованию» [4, с. 386-387]. Всего было проведено три заседания этой комиссии. В связи с тем, что в административном отношении правый берег относился к Грузии, комиссия по настоянию грузинских представителей пришла к заключению, «чтобы азербайджанский пост находился на левом берегу р.Мазымчай, служащий в том месте границею

между Азербайджаном и Грузией». Вопрос о пользовании на Шираке должен был быть решен по соглашению правительства Грузии и Азербайджана, а пока грузинское правительство согласилось не выдворять жителей Закатальской губернии с занятых ими участков, которыми они раньше пользовались. Если не считать вопрос о Ширакской степи, данная комиссия из-за неуступчивости грузинской стороны не решила ни одной поставленной перед ней задачи.

Таким образом, территория АДР согласно данным Адрес-календаря на 1920 г. Составляла 113.895.97 км$^2$. Из них 97.297.67 км$^2$ считались «бесспорными». В «бесспорную зону» входили следующие губернии: Бакинская (39.075.15 км$^2$), Гянджинская (44.371.29 км$^2$), Закатальская (3.992.54 км$^2$) и части Иреванской (9.858.69 км$^2$). «Спорная зона» Азербайджанской Республики составляла 16.598.30 км$^2$. Из них 8,7 тыс. Км$^2$ территории являлись спорными между Азербайджаном и Грузией [3, с. 50]. После советизации большая часть этих т.н. «спорных территорий» отошла к Армении и Грузии.

Весной 1920 года началась советизация Южно-Кавказского региона. В апреле Красная Армия оккупировала территорию Азербайджанской Республики. Россия с целью привлечь на свою сторону независимую еще к этому времени Грузию, весной 1920 г. идет на сближение с ней и принимает все предъявленные ею условия. В результате 7 мая 1920 г. в Москве между РСФСР и Грузинской Демократической Республикой был подписан мирный договор. По этому договору была установлена государственная граница между Грузией и Россией. По 1 пункту IV статьи Россия обязывалась признать «безусловно входящими в состав грузинского государства, кроме отходящих к Грузии в силу пункта 1 статьи III настоящего договора частей Черноморской губернии, нижеследующие губернии и области бывшей Российской империи: Тифлисскую, Кутаисскую и Батумскую со всеми уездами и округами, составляющими означенные губернии и области, а также округа Закатальский и Сухумский» [11, с. 563-564]. Азербайджанская ССР выступила против включения в договор этих статей, согласно которым территории заселенные азербайджанцами, отдавались Россией Грузии. Военно-политическое руководство занявших Азербайджанскую Республику частей Красной Армии и партийные представители Москвы в регионе неожиданно выступили в защиту принципа территориальной целостности Азербайджана. В поддержку азербайджанской принадлежности Закатальского округа выступил Г.Орджоникидзе, который сразу после подписания Московского договора призвал В.И.Ленина (председатель правительства РСФСР) и И.В.Сталина (нарком по делам национальностей РСФСР) восстановить суверенитет Азербайджана над ним: «Закатальский округ чуть ли не два года занимается Азербайджаном. Сейчас он занят Азербайджанскими войсками. Население

Закатальского округа 95% мусульман. Необходимо утвердить на этот округ право Советского Азербайджана и совершенно выбросить из договора этот пункт... . Это необходимо во что бы то ни стало в интересах нашей политики в Азербайджане проделать. На этой почве идет ужасная провокация. Мусаватисты ведут разговоры, что новая Советская власть в Азербайджане уже продала Закатальский округ и мы накануне резни. Прошу Вас сегодня же дать нам возможность заявить публично, что на Закатальский округ никакого покушения нет и быть не может» [20, с. 145]. 10 мая на имя Ленина была отправлена еще одна телеграмма с требованием пересмотреть решение об аннексии Закатальского округа за подписью членов Реввоенсовета XI Красной Армии и Кавказского бюро ЦК РКП(б) И.Смилги, Орджоникидзе и С.Кирова: «Переданный Грузии Закатальский округ является бесспорно Азербайджанской и мусульманской территорией, и до сих пор Грузия на него не претендовала. С Вашего благословения Грузия начала сегодня на этот округ наступление. Население восстало против грузинских завоевателей. Признание нами этого захвата является началом конца советской власти в Азербайджане. Объясните, чем вызвано такое отношение к Азербайджану, имеющему сто раз большее значение, чем Грузия. Впечатление от договора убийственное накануне резни и развала на Кавказе» [20, с. 145-146]. В письме чрезвычайного полномочного представителя АССР в Москве Б.Шахтахтинского на имя наркома иностранных дел РСФСР Г.Чичерина, написанном 4 августа 1920 г., было выражено разочарование руководства Азербайджана позицией большевистской России по вопросу обеспечения территориальной целостности Азербайджана: «…враги Советской власти с торжеством указывают, что Грузия и Армения, отказавшись от союза с Россией, при помощи Антанты не только сохранили свою полную самостоятельность и не только избегли тяжелых экономических затруднений, но и получают новые территории, которые до прихода Красных войск бесспорно принадлежали Азербайджану». Далее Шахтахтинский писал о необходимости сохранить за Азербайджаном территории, принадлежащие ему до переворота, то есть не отторгать от него Закатальский округ, Карабах и Нахчыванский край, так как эти территории при независимом азербайджанском правительстве бесспорно принадлежали Азербайджану и всегда составляли его органическую часть и были теснейшим образом с ним связаны исторически, этнографически и экономически [7, л. 35-36 об.]. Таким образом, реакция представителей Москвы в регионе, недовольство Советского Азербайджана, а также боязнь потерять пока еще единственного своего идеологического союзника в регионе, заставили Россию пересмотреть свое мнение относительно этих территорий. 12 мая 1920 г. подписывается дополнительное соглашение (из 3-х статей) к вышеуказанному договору между РСФСР и Грузией. I статья этого договора гласит: «Вопрос о спорных местностях

на границе между Грузией и Азербайджаном и в Закатальском округе передается на разрешение смешанной комиссии, образуемой из представителей правительств Азербайджана и Грузии в равном количестве под председательством представителя РСФСР» [11, с. 572].

10 июня 1920 г. член Реввоенсовета В.Тараскин во время разговора по прямому проводу с наркомом иностранных дел Азербайджанской ССР М.Гусейновым читает записку Орджоникидзе с предупреждением азербайджанского руководства о начале 9 июня восстания в Закаталах, руководимого грузинским правительством. В записке далее говорится о том, что грузинским правительством в этом регионе ведется агитация и разбрасываются листовки об изгнании из этого района азербайджанских войск и присоединении Закатальского округа к Грузии, а также дается информация о присутствие регулярных частей правительства Грузии в некоторых районах восстания [22, л. 1-2]. Надо отметить, что в период антисоветских выступлений в Закатальском округе, руководители восстания подписали с грузинскими властями соглашение из 8 пунктов. Соглашение, в котором красной нитью проходит желание изгнать советские войска из округа, подразумевало включение при определенных условиях и с предоставлением широкой автономии, Закатальского округа в состав Грузинской Республики [10, л. 1-3]. Политический выбор в июне 1920 года руководителей восстания, являвшимися влиятельными лицами округа, в пользу Грузии, по мнению историка Ш.Рахманзаде было вызвано сложившимися в регионе после советского переворота новыми революционными реалиями, которые в корне противоречили их интересам и статусу (2, с.118). Еще одной причиной, побудившей лидеров Закатальского округа объединиться с Грузией на автономных правах, было то, что в данный период в Грузии находились некоторые члены бывшего руководства АДР, покинувшие пределы Азербайджана после прихода к власти большевиков. Между ними и руководителями восстания, несомненно, могла быть налажена связь. Этот факт подтверждается словами Г.Орджоникидзе, сказанные им в беседе с С.Кировым по прямому проводу при обсуждении Закатальского восстания: «…но дело вот в чем: грузины из Закатальского округа хотят создать автономную единицу во главе с мусульманами-мусаватистами, кажется даже из бывших министров и превратить его в базу против Советского Азербайджана» [9, л. 3]. Однако, вероятнее всего, то, что грузинского правительство пыталось воспользоваться ситуацией и присоединить Закатальский округ к Грузии [10, л. 3].

При посредничестве Москвы 12 июня 1920 г. в Акстафе (станция на территории Азербайджана на границе с Грузией) между Азербайджанской ССР и Грузинской Демократической Республикой был заключен договор о мире и дружбе. Согласно II статье устанавливалась граница между этими республиками. VI статья касалась Закатальского округа:

«Вопрос о Закатальском округе передается на разрешение арбитражной комиссии, предусмотренной заключенным между РСФСР и Грузинской Демократической Республикой от 12-го мая 1920 года дополнительным соглашением. До разрешения указанного вопроса в арбитражной комиссии ни одна из договаривающихся сторон не в праве вводить в Закатальский округ согласно пункту второму московского дополнительного соглашения 12 мая 1920 года новые войсковые части» [13, л. 1-6]. После того, как Советский Азербайджан заставили подписать Акстафинский договор, по которому вопрос о Закатальском округе передавался на разрешение арбитражной комиссии, азербайджанское правительство продолжало считать округ частью республики, что подтверждается тем, что 28 июня 1920 г. Азревкомом был утвержден декрет об организации районных советов народного хозяйства, по которому Азербайджан был разделен на семь районов, одним из которых был Нухинский район, состоящий из Нухинского уезда и Закатальского округа [18, с. 87-88].

25 июня 1920 г. при обсуждении Акстафинского договора в грузинском парламенте лидер грузинских меньшевиков А.Чхенкели в своей речи заявил о том, что Закатальский округ или «Саингило» и с исторической и с экономической точки зрения являлся и продолжает являться неотделимой частью Грузии и не может существовать вне ее границ [2, с. 78]. После этого грузинское правительство, нарушив условия Акстафинского договора, ввело войска в нейтральную зону (у Красного моста). 12 января 1921 г. поступила телеграмма из Наркомата иностранных дел Грузинской ССР с заявлением, что Закатальский округ принадлежит Грузии. При обсуждении этого вопроса 14 января на заседании Полит и Оргбюро ЦК АКП(б) после предложения М.Гусейнова начать переговоры относительно созыва арбитражной комиссии для решения вопроса о Закатальском округе, было принято постановление следующего характера: «Считать необходимым дать Грузинскому правительству демонстративный ответ, не соглашаясь на арбитражную комиссию для решения Закатальского вопроса» [6, л. 16]. То есть вопрос о Закатальском уезде был для азербайджанской стороны настолько ясным, что считали его обсуждение лишним. Нарушив условия подписанного с Азербайджаном Акстафинского договора, накануне своего падения меньшевистское правительство Грузии 21 февраля 1921 года приняло Конституцию, где имеется статья о предоставлении автономного статуса Аджарии, Абхазии и т.н. «Саингило», т.е. Закатальскому округу [21, с. 171].

После советизации Грузии в феврале 1921 г. территориальные споры между Азербайджаном и Грузией в дальнейшем решались на конференциях и заседаниях комиссий. В постановлении конференции по урегулированию внутренних границ Закавказских республик относительно пограничной линии между Азербайджаном и Грузией, подпи-

санном Ф.Махарадзе (председатель Ревкома Грузинской ССР) и Н.Наримановым (председатель Совета народных комиссаров Азербайджанской ССР) в Тифлисе 5 июля 1921 г., говорится: «1. Политическая граница между АССР и ССР Грузии остается без изменений, поскольку это особо не оговорено в последующих статьях.

3. Что касается Эльдарской степи Конференция постановляет поручить Смешанной Комиссии, означенной в примечании ст.2 установить на месте фактическое состояние этой степи и закрепить ее на месте же.

4. По вопросу о Закатальском округе конференция постановляет:

Социалистическая Советская Республика Грузии отказывается от всяких претензий на Закатальский округ в пределах государственных границ, о чем Ревком Грузии издает соответствующую декларацию.

5. Крестьянам обеих сторон обеспечивается беспрепятственное пользование пастбищами, кочевьями и другими коими они фактически пользовались» [16, л. 4].

После вышеуказанного постановления этот вопрос был решен окончательно – Закатальский округ остался в составе Азербайджана. Декларация об отказе Грузии от претензий на Закатальский округ была принята 28 июля 1921 г.

Согласно решению конференции для определения границ на местах между Грузией и Азербайджаном была создана Особая смешанная комиссия под председательством А.Аббасова (Азербайджан) и В.Канделаки (Грузия). 27 июля 1921 г. В Акстафе начала свою работу Особая смешанная комиссия [14, л. 2-5].

15 ноября 1921 года в дни пребывания в Тифлисе председателя Исполнительного комитета Азербайджана М.Гаджиева после ознакомления с материалом, представленным Особой смешанной комиссией между ним и председателем Ревкома Грузии Б.Мдивани по вопросу об установлении внутренних границ между Азербайджаном и Грузией подписывается новое соглашение. Согласно этому соглашению: §2. По вопросу об Эльдарской степи предусмотренному §3-м постановления Конференции по урегулированию внутренних границ Закавказских республик от 5-го июля 1921 г. Вопрос остается открытым до получения протоколов Особой Смешанной Комиссии, предусмотренной тем же постановлением от 5 июля 1921 г. §3. По вопросу о Закатальском округе остается в силе §4-й постановления Конференции по урегулированию внутренних границ Закавказских республик от 5-го июля сего 1921 г.» [16, л. 11-11об.].

В январе 1922 года Особая смешанная комиссия закончила свою работу, установив государственную границу между республиками Азербайджан и Грузия. Комиссия разделила территорию Караязы, с древних пор бывшая в пользовании мусульман, на две части: верхняя ее

часть отошла к Грузии, южная к Азербайджану. Монастырский комплекс Давида-Гареджи, согласно установленной границе, оставался в составе Азербайджана. Чатминская степь также была разделена между Азербайджаном и Грузией. Не был решен вопрос об Эльдарской степи. Несмотря на то, что ряд территорий, населенных азербайджанцами, остались в составе Грузинской ССР, в результате работы этой комиссии Азербайджану были возвращены 79.600 десятин земли [15, л. 19-20].

Таким образом, Азербайджан отстоял свои права на Закатальский округ, опираясь на фактор культурной и религиозной близости местного населения к азербайджанцам. В период независимости азербайджанское правительство, решив мирным путем вопрос о Закатальском округе, не смогло по ряду причин решить вопрос о ряде других населенных азербайджанцами территорий, в частности вопрос о Сигнахском, Борчалинском и Тифлисском уездах Тифлисской губернии. Официальный Тифлис отверг эти притязания, считая административные границы Тифлисской губернии с Азербайджанской Республикой государственными границами. Решение осенью 1919 года на Закатальской конференции в пользу Грузии инцидента с пограничным постом, находящимся на берегу реки Мазымчай, создало для грузинской стороны прецедент для решения в будущем силовым методом вопроса о Чиаурской даче и Ширакской степи. Азербайджан, не имея достаточной военной силы, вынужден был отказаться от этих уездов. Необходимо отметить, что концепция, высказанная азербайджанскими представителями на заседаниях указанной комиссии являвшаяся, естественно, мнением азербайджанского правительства, была ошибочна. Зная о том, что столетиями земли в Сигнахском уезде находились в пользовании тюркских и лезгинских (авары и цахуры) народов, Азербайджан выбрал компромиссный путь решения территориальных вопросов с Грузинской Республикой. Единственно чем можно объяснить такую политику АДР, это – неимение достаточной военной силы для защиты своих интересов.

После установления советской власти в Азербайджане грузинская сторона попыталась при поддержке большевиков решить в свою пользу вопрос о Закатальском округе. 7 мая 1920 года в Москве был подписан договор между РСФСР и Грузией. Согласно этому договору Закатальский округ и ряд других территорий, населенных азербайджанцами, объявлялись частью Грузии. Недовольство руководства Советского Азербайджана и осознание Россией того, что можно потерять пока еще единственного идеологического партнера в регионе привело к подписанию 12 мая 1920 г. дополнительного соглашения, по которому для разрешения спорных территориальных вопросов и установления пограничной линии между Азербайджаном и Грузией предусматривалось создание Особой смешанной комиссии. Постановлением конференции по урегулированию внутренних границ от 5 июля 1921 г.

Эта комиссия была создана. Кроме того, решением этой конференции был решен вопрос относительно Закатальского округа. Грузинская ССР отказывалась от своих притязаний на этот округ.

В марте 1922 г. была образована ЗСФСР, в рамках которой и стали решаться территориальные вопросы. Однако пограничные споры между республиками региона не прекратились и после создания ЗСФСР и образования единого государства СССР. В результате во второй половине 20-х годов XX века ряд территорий в Сигнахском уезде, которыми издавна пользовались жители Закатальского округа и Казахского уезда, постепенно были переданы Грузинской ССР [17, л. 2-7]. Необходимо отметить, что Грузия и сегодня, если даже не на государственном уровне, но продолжает иметь определенные претензии на азербайджанские территории.

***Список литературы:***

1. *Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: Ay-Ulduz, 1996, 304 s.*
2. *Rəhmanzadə Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında,1917-1930-cu illərin əvvəlləri). Bakı: Aspoliqraf,2008,376 s.*
3. *Адрес-календарь Азербайджанской Республики, на 1920-й г. /Под ред. А.И.Ставровского. Баку: Правительственная типография газ. «Азербайджан», 1920, 335 с.*
4. *Азербайджанская Демократическая Республика. Внешняя политика (Документы и материалы). Баку: Азербайджан, 1998, 632 с.*
5. *Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сб. Документов). Баку: Азербайджан, 1998, 560 с.*
6. *Архив политических документов при управлении делами Президента Азербайджанской Республики (АПДУДПАР): Ф.1, оп. 2, д.18*
7. *АПДУДПАР: Ф. 276, оп. 5, д. 69*
8. *АПДУДПАР: Ф. 277, оп. 2, д. 7*
9. *АПДУДПАР: Копийный фонд, №325*
10. *АПДУДПАР: Копийный фонд, №329*
11. *Борьба за победу Советской власти в Грузии. Документы и материалы (1917-1921 гг.). Тбилиси: Сабчота Сакартвело, 1958, 786 с.*
12. *Государственный Архив Азербайджанской Республики (ГААР): Ф.970, оп.1, д.18*
13. *ГААР: Ф. 28, оп. 1, д. 56*
14. *ГААР: Ф. 28, оп. 1с, д. 78*
15. *ГААР: Ф. 28с, оп. 1с, д. 155*
16. *ГААР: Ф. 379, оп. 40с, д. 2*
17. *ГААР: Ф. 379, оп. 40с, д. 319*

18. *Декреты Азревкома (1920-1921 гг.). Сборник документов. Баку: Азернешр, 1988, 519 с.*
19. *Кавказский календарь на 1917 год. /Под ред. Н.П.Стельмащука. Тифлис: Типография канцелярии наместника Е.И.В. на Кавказе, 1916, 2076 с.*
20. *Мустафазаде Р. Две Республики. Азербайджано-российские отношения в 1918-1922гг. М.: МИК, 2006, 356 с.*
21. *Насибли Ю. Место северо-западного региона Азербайджанской республики в истории и в современной грузинской историографии //Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, Bakı, 2004, № 2, с. 167-173*
22. *Российский государственный архив социально-политической истории (РГАСПИ): Ф. 85 «Орджоникидзе Г.К.», оп. 13, д. 36*
23. *Топчибашев А.М. Меморандум, предъявленный находящимся в Константинополе почетным представителям держав Антанты, членом правительства Азербайджанской Республики, чрезвычайным министром-посланником при правительствах Блистательной Порты (т.е. Османской Турции – прим. Перев.), Армении и Грузии Али Мардан-беком Топчибашевым (ноябрь 1918 г.). Пер. С фр. Э.Керимова Баку: Азербайджан, 1993, 40с.*

**UOT 94 (479.24); 930:314**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ƏHALİ PROBLEMİ

***Kəmalə Nəcəfova***
***BDU, Tarix fakültəsi, dosent***
***kamalanacafova@bsu.edu.az***

*Məqalədə 1917-ci il "Qafqaz təqviminin", Azərbaycan Xalq Cümhuriyyətinin "Ünvan-təqvimi"nin və sovet dövrü statistik sənədlərinin müqayisəli təhlili əsasında Azərbaycan əhalisinin etnik tərkibi və sayında gedən dəyişikliklər nəzərdən keçirilir. Eyni zamanda, 1920-ci il aprel çevrilişindən sonra Azərbaycanda yaranmış sovet işğal rejiminin məqsədyönlü siyasəti nəticəsində türk əhalisinin sayında baş verən azalmanın səbəbləri elmi cəhətdən təhlil olunur, faktlar əsasında sübut olunur ki, bu proses Çar Rusiyasının müstəmləkə siyasətinin davamı kimi qırmızı bayraq altında yeni ideologiya və formada təzahür edən bir siyasətin qanunauyğun nəticəsi olmuşdur.*

***Açar sözlər**: Azərbaycan əhalisi, etnik tərkib, azərbaycanlıların sayı, Azərbaycan Xalq Cümhuriyyəti, 1920-ci il aprel işğalı*

## *НАСЕЛЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ*

*В научной статье на основе архивных документов и научных материалов рассматривается этнический состав населения Азербайджанской Демократической Республики. На основе данных «Кавказского календаря», «Адрес-календаря» АДР и статистических данных советского периода приводится причины уменьшения численности тюркского населения республики в начале 1920-х годов, дается характеристика анти-азербайджанской политики советского оккупационного режима в Азербайджане, установленного после апрельского оккупация 1920 года.*

***Ключевые слова:** Азербайджанское население, этнический состав, численность, Азербайджанская Демократическая Республика, апрельский оккупаций 1920 года*

## *DENSE OF POPULATION PROBLEM IN THE TIMES OF AZERBAIJAN DEMOCRATIC REPUBLIC*

*Present scientific article considers the changes in the ethnic composition and the numbers of the Azerbaijani population on the basis of a comparative analysis of the "Caucasian calendar" of 1917, the "Address-*

*calendar" of the Azerbaijan Democratic Republic and the statistical documents of the Soviet period. Meanwhile the main reasons for the declining of the Turkish population was result by the purposeful policy of the Soviet occupation regime in Azerbaijan after the April 1920 coup are scientifically analyzed was proved on the basis of the acts that this process was a legitimate result of a policy manifested in a new ideology and form under the red flag as a continuation of the colonial policy of Tsarist Russia.*

***Keywords:*** *Azerbaijani population, ethnic composition, number of Azerbaijanis, Azerbaijan Democratic Republic, April 1920*

Öz müqəddəratını təyin edən Azərbaycan xalqı ərazi bölgüsü məsələsində təbii olaraq hər şeydən əvvəl o nöqtəyi-nəzərdən çıxış edirdi ki, əhalisi əsasən bu xalqdan (türk) olan ərazilərə onun hüququ vardır. Azərbaycan Respublikası əhalisinin sayı yuxarıda göstərilən əraziyə müvafiqdir. 1920-ci il «Azərbaycan Demokratik Respublikasının təqvim-ünvan»da 1917-ci il "Qafqaz təqvimi"nin məlumatları əsasında verilmiş cədvəldə Azərbaycan Respublikası əhalisinin sayı 2.861.862 nəfər, o cümlədən azərbaycanlıların sayı 1.952.250 (68,2%) nəfər göstərilir. Qalan əhalinin 622.006 nəfəri (21,4%) erməni, 214.930 nəfəri (7,5%) rus, 14.794 nəfəri gürcü (0,6%), 57.882 nəfəri (2,3%) digər xalqların nümayəndələridir [14, s. 51].

Bu statistik materiallar illik artımlar da daxil olmaqla 1897-ci il Ümumrusiya siyahıya alınmasına əsaslanır. Lakin 1897-ci il siyahıya alması zəif və qeyri-tam idi. Belə ki, müsəlman xalqlarının savadsızlığı, hərbi və torpaq vergisini vermək qorxusu onları qeydiyyatdan yayınmağa vadar edirdi. Köçərilərin də siyahıya alınması dəqiq deyildi. Beləki, onların çoxu siyahıya alma günləri qışlaqlarda idilər. Qışlaqlar isə yaşayış məntəqəllərindən uzaq idi.

İllik artımlar da bu vəziyyətdə idi. Bu işi çar məmurları və polis həyata keçirirdi. Onlar da siyasi niyyətlərinə görə müsəlmanların sayını az göstərirdilər. Tədqiqatçıların qənaətinə görə məhz bu səbəbdən müsəlman xaqlarının sayının minimum 10% həqiqətdə olduğundan çox götürmək lazımdır, yəni 2.150 min nəfər [1,s.7]. bundan başqa rəsmi mənbələrə görə 1917-ci il yanvarın 1-nə olan məlumata görə Azərbaycanda 342 min müvəqqəti yaşayan var idi. Bu kateqoriyaya başlıca olaraq "digər xalqlar", rus qoşunu və məmurlar, yəhudilər, həmçinin ölkə daxilində daimi hərəkətdə olan yerli əhali daxil idi.

1917-ci il "Qafqaz təqvimi"ndə və 1920-ci il ADR "ünvan-təqvim"dəki məlumatları nəzərə alaraq göstərmək olar ki, Azərbaycan Respublikasının ümumi əhalisinin 76,8% və ya 2.193.000-ni kənd əhalisi, 23,2% və ya 663.000 nəfəri şəhər və şəhər ətrafı yerlərdə yaşayırdı [1,s.9].

Bir sıra sənədlərdə 1918-ci ildə Transqafqazda yaşayan 7.687.770 nəfər əhalinin 3.306.000 nəfərinin türk, 1.786.000 nəfərinin erməni və 1.641.000 nəfərinin gürcü olduğu göstərilir [2,s.116].

Azərbaycan kənd əhalisinin ümumi sayı 1921-ci il sayına görə 1.491.553 nəfər olmuşdur. 1917-ci illə müqayisədə bu sayın bir qədər

azalması (1.978.637 nəfər) müşahidə edilir [3, s.14].

1921-1917-ci il sayımının müqayisəsi zamanı məlum olur ki, Qazax və Zəngəzur qəzalarının əksər hissəsinin Ermənistana birləşdirilməsi ilə əlaqədar olaraq 1917-ci il müqayisədə 1921-ci ildə əhalinin sayı təxminin olaraq 8% azalmışdır. Müqayisənin dəqiqiliyini təmin etmək üçün 1917-ci ildə inzibati-polis hesablamasına görə Rusiya əhalisinin sayının Qafqaz üzrə aşağıdakı cədvəldə verilən məlumatlarına istinad edə bilərik (1917-ci il kənd təsərrüfatı və şəhər siyahıyaalınması materiallarına əsasən).

| Sıra sayı | Quberniya və vilayətlər | Quberniyaların əhalisi | | | |
|---|---|---|---|---|---|
| | | Mərkəzi statistika komitəsinin məlumatı (1917) | | Torpaq nazirliyi statistika işinin məlumatı | 1917 siyahısı |
| | | Əhali (qaçqınlar və orduya çağırışçılar istisna olmaqla) | | Daimi | |
| 1. | Bakı | 1.26.191 | 1.395.147 | 1.113.630 | 1.285.600 |
| 2. | Batum | 186.483 | 147.758 | 194.769 | 173.100 |
| 3. | Dağıstan | 732.725 | 712.299 | 769.390 | 709.400 |
| 4. | Yelizavetpol | 1.116.347 | 1.269.800 | 1.183.067 | 1243.500 |
| 5. | Qars | 397.074 | 428.319 | 390.957 | 389.850 |
| 6. | Kuban | 2.915.630 | 2.814.131 | 2.625.011 | 2.993.700 |
| 7. | Suxum dairəsi | 139.029 | 175.312 | 143.034 | 178.850 |
| 8. | Kutaisi | 1.002.691 | 923.084 | 1.087.715 | 1.057.500 |
| 9. | Stavropol | 1.270.808 | 1.276.260 | 1.170.627 | 1.250.050 |
| 10. | Terek | 1.296.751 | 1.331.235 | 1.280.705 | 1.366.175 |
| 11. | Tiflis | 1.333.155 | 1.545.100 | 1.302.338 | 1.503.300 |
| 12. | Zaqatala dairəsi | 103.668 | 92.182 | 113.433 | 92.200 |
| 13. | Qara dəniz | 201.417 | 160.219 | 77.032 | 215.100 |
| 14. | İrəvan | 1.012.957 | 1.175.600 | 1.117.481 | 1.032.150 |
| | Cəmi | 12.834.925 | 13.446.455 | 12.569.189 | 13.491.275 |
| | Faizlə | 95,96% | 100% | 93,16% | 100%- |

Bu azalma aşağıdakı səbəblərlə izah edilir. Beləki, Ermənistana birləşdirilmiş torpaqların əhalisi sayından kənarda qalmışdır: milli zəmində bu vaxtlarda baş vermiş hadisələr nəticəsində əhalinin azalmasına öz təsirini göstərmişdir; Salyan qəzasında çoxlu rus köçkünü, Göyçay və Şamaxı qəzalarından erməni köçmüşdür. 1917-ci ildə Muğanda 54 rus kəndi vardı. 1918-ci ildə ruslar bu kəndləri tədricən tərk edib, Şimali Qafqazda və Rusiyanın başqa regionlarında məskunlaşmaya meyl göstərirdilərsə, 1920-ci illərdən etibarən ruslar Muğana qayıtmağa başladılar.

Təxmin edilir ki, Salyandan 23% rus, Göyçay və Şamaxı qəzalarından 15% erməni köçmuşdür [4, s.14]. Bu azalma ümumilikdə 24-32% nisbə-

tində olduğundan, aydın olur ki, əhalinin azalmasının digər səbəbləri də var idi. Bu səbəbləri digər məlumatlar əsasında araşdırmağa çalışaq.

1920-30-cu illərin statistik məcmuələri 1917-ci ildə əhalinin sayını 2.353.7 min, 1921-1923-cü illərdə 1.863.0 min nəfər (kənd əhalisi 1921-ci il sayımına görə Naxçıvan SSR-siz, şəhər əhalisi isə 1923-cü il siyahıyaalmasına görə) göstərilir.

1917-2.149,0 min nəfər
1918-2.093,8 min nəfər
1919-2.027,3 min nəfər
1920-1.952,0 min nəfər [5, s. 18].

Dəqiq olmayan məlumatlara görə 1920-22-ci illərdə əhalinin sayının 1.833.6 min nəfər olduğu göstərilir [6, s.123]. Materialları müqayisə edərkən əhalinin azalması – "demoqrafik qəza" nəzərə çarpır. Statistik məlumatlara görə bu illərdə Azərbaycan əhalisinin 400 min nəfəri yəni 1/6 hissəsi və yaxud 15% azalıb. K.Məmmədovun hesablamasına görə bu 9% və yaxud 197 min nəfər edir.

Tənqidi analiz bizə dəqiqləşdirmələr aparmağa imkan verir.

I "Ünvan təqvim"in materiallarına aiddir. Burada ADR-in və Azərbaycan SSR-in sərhədləri üst-üstə düşmür. Əhalinin sayı ADR-in ərazisi üzrə verilir, hansı ki, 113.895.97 kv.km. bərabər idi (onların 97.297.67 kv.km-i mübahisəsiz ərazi idi). 1922-ci ildə isə Azərbaycan SSR-in ərazisi 86.6 kv.km. idi.

II dəqiqləşdirmə isə sovet rəsmi statistikasına aiddir. Totalitarizm rejimi əhalinin sayının az göstərməklə ADR-in antixalq xarakterini göstərmək istəyirdi. Amma biz belə hesab edirik ki, əhalinin azalması təbii artımın aşağı düşməsi ilə bağlı idi. Əhalinin yaş tərkibinin xüsusiyyətləri, gəlmələrin axını, təkrar istehsalın xarakteri ilə bağlı səbəblərdir. Eyni zamanda miqrasiyaların təsiri də maraq doğurur.

1917-20-ci illər dövrü hərbi siyasi, sosial-iqtisadi proseslərdə zəngin olduğu üçün demoqrafik gedişə də öz təsirini göstərmişdir.

İlk amillərdən biri 1918-ci il mart hadisələri idi. Sonralar bu hadisələr dəqiqləşdirildikdən sonra Bakıda erməni "bolşeviklərinin" və daşnaklarının fitnəkarlığı nəticəsində mart hadisələri zamanı 17 min türk əhalisinin qırıldığı qeydə alınmışdır [7, s.16]. Eyni zamanda Şamaxıda, Qubada, Lənkəranda, Salyanda, Kürdəmirdə daşnaklar Azərbaycanın əhalisini qırmışdılar.

1918-ci il 15 sentyabrda Bakı azad olduqdan və birləmiş Azərbaycan türk qoşunları daxil olduqdan sonra hərbi vəziyət elan olunur, ölüm hökmü tətbiq edilir. Şəhərə Nuru paşa əmr vermişdi ki, odlu silah tapılan adam güllənəcək. Bakıda isə türklər az qala hər gün bir adam asmaqla əmin-amanlığı bərpa edirdilər. Şəhər bağlarından birində qurulmuş dar ağacından asılan canilər bütün günü küləyin ixtiyarına verilir. Əhalinin tamaşasına qoyulurdu. Etiraf etmək lazımdır ki, bu üsul yaxşı nəticə verdi: az vaxtda oğurluq, soyğunçuluq və dava vaxtı bollaşmış başqa cinayətlər yoxa çıxdı.

Şəhərdə sakitlik, əminamanlıq bərpa olundu. [8, s.92].

30 oktyabr 1918-ci ildə Mudros barışığına görə Azərbaycanın müttəfiq və müdafiəçisi olan Türkiyə öz qüvvələrini bir həftə ərzində Azərbaycandan, bir ay ərzində isə Qafqazdan geri çəkməli oldu [9, s. 59].

17 noyabrda general Tomson başda olmaqla ingilislər Bakıya gəlir. Bütün faktlar demoqrafik vəziyyətə təsir göstərirdi. Bir tərəfdən dinc əhalinin itkisi, digər tərəfdən silahlı xalq birləşməsinin yaranması, sonra xəstəlik və aclıqla bağlı olaraq doğumun azalması və ölümün yüksəlməsi əhali sayının azalmasına gətirib çıxaran əsas amillərdən idi.

Bu dövrdə "demoqrafik qəza"nın əsas səbəblərindən biri də daşnak talanları və bunun nəticəsi olaraq qaçqınlar problemi, onlarla şəhər, yüzlərlə kəndin viran edilməsi, xeyli dərəcədə canlı itkinin verilməsi idi. Əslində bu dövrdə bütövlükdə Azərbaycan ya müharibə, ya da müharibə təhlükəsi şəraitində yaşamışdı. Ermənistan Respublikası yarandığı ilk gündən Azərbaycana qarşı heç bir əsası olmadan irticaçı siyasət yürütməyə başlayıb, Azərbaycanın qədim, tarixi torpaqları olan Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsini özünə ilhaq etmək xəyalına düşdü.

Artıq 1918-ci ilin yayından başlayaraq Andronikin quldur dəstələri qəflətən Zəngəzura hücum edib, Azərbaycan sərhədlərini pozub, silahsız Azərbaycan əhalisinə ya ermənilərin hakimiyyətinə tabe olmaq, ya da Zəngəzuru boşaltmaq haqda ultimatum verdi. 1918-ci ilin yay və payızında təkcə Zəngəzurda 115 kənd uçurdulub dağıdılmışdı (faktiki olaraq bütün azərbaycanlı kəndləri). Bu kəndlərdə tam dürüst olmayan məlumata görə 7729 azərbaycanlı öldürülmüşdü ki, bunların da 3257-si kişi, 2276-sı qadın və 2196-sı uşaqlar idi. 50 min azərbaycanlı öz doğma yurdunu əbədi olaraq tərk etməyə məcbur olmuşdu [10, s.50].

Təkcə 1919-cu ilin yanvar ayında 40 minə qədər azərbaycanlı Cavanşir, Cəbrayıl və Şuşa qəzasında, 21 mindən çox Gəncə qəzasında, 26, 8 min nəfər Şamaxıda, 5 mindən çox qaçqın ilə Nuxa (Şəki) qəzasında yerləşdirilmişdi. Ümumiyyətlə, qaçqınların sayı 100 mindən çox olmuşdur.

1919-cu ilin dekabrında Nəsib bəy Yusifbəyli deputatlar qarşısında çıxışında deyirdi: "Hörmətli deputatlar Avropa ölkələri nümayəndələrinin Zaqafqaziyada olmasına və qayda-qanun yaratmaq cəhdlərinə baxmayaraq, son aylarda İrəvan quberniyasında Azərbaycana 150 min qaçqın gəlmişdir. Onların çoxu əri öldürülmüş qadınlar və valideynlərini itirmiş uşaqlardır".

İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15.155 təsərrüfatı təmsil edən 199 kənd (1.00626 nəfər) göstərilmişdir. Bu rəqəmlər Qafqaz təqvimindən (1901-ci il) götürülmüşdür. 1908-ci ilə qədər əhali artımı da hesablanaraq dağıdılmış kəndlərin əhalisi 135.000 nəfər təşkil etmişdir [11, s. 238-239]. 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiəzdin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir [12, s.44].

1919-cu ilin yayının axırlarında Ermənistanın müsəlman əhalisinin böyük əksəriyyəti qaçqınlara çevrildi. Onlar öz kəndlərinə qayıtmaq istəyərkən dəfələrlə qovulmuş, onların evləri və torpaqları Türkiyə erməniləri tərəfindən tutulmuşdur. Ermənistanda belə qarət olunmuş müsəlmanların sayı ancaq Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarında 200 min nəfərə çatmışdır [12, s.42].

Dağlıq zolağın 5-ci sahəsinin müsəlman əhalisinin müvəkkili İsmayıl Sultanovun Gəncə qəzası naçalnikinin adına göndərdiyi məlumatdan çıxarış: “ Bu ilin (1919) 13 aprel tarixindən başlayaraq Ararat respublikasının qoşunları Göyçə rayonunun, Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişlər. Məqsəd Göyçə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir.

Həmin vaxt 60.000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhali isə qırılmışdır. Bədbəxt müsəlman əhalisi, Göyçə müsəlmanlarının qırmağı qarşısına məqsəd qoymuş və bunu yerinə yetirərək erməni qoşunlarının atəşləri ilə rəhmsizcəsinə məhv olur... Ararat Respublikasının məsələsi artıq həll olunub, artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hal-hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır.

Azərbaycan Xarici işlər nazirliyi göstərirdi ki, İrəvan quberniyasının yalnız cənub hissəsində yüzlərlə müsəlman kəndi dağıdılıb, Azərbaycana qovulmuş 150.000 müsəlman qaçqın evsiz və eşiksiz qalmışdır: (12,s.46)

Bu faktı da qeyd etmək maraqlı olardı ki, 1920-ci ildə bütün Ermənistanda cəmi 10 min azərbaycanlı yaşadığı halda 1922-ci ildə qaçqınların qayıtması hesabına onların sayı 77.767 nəfər, 1931-ci ildə 105.838 nəfər olmuşdur [12, s.46].

Hələ Gəncədə fəaliyyət göstərdiyi vaxt ADR qaçqınlara kömək etmək üçün ciddi fəaliyyətə başlamışdı. Ümumiyyətlə, Azərbaycandakı qaçqınlara kömək etmək üçün ilk dəfə Zaqafqaziya Seymi nəzdində olan müsəlman Milli Şurasının qaçqınlar şöbəsi təşkil edilmişdir.

Qaçqınların problemləri ilə yaxından məşğul olmaq üçün səhiyyə və himayəçilik nazirliyi yarandı. 1918-ci ilin oktyabrında isə səhiyyə və himayəçilik nazirliyi ayrılaraq iki müstəqil nazirliyə çevrildi. Qaçqınların problemləri ilə məşğul olacaq himayəçilik nazirliyinin qarşısında əsas iki məsələ qoyulmuşdu: 1. Qaçqınlar məsələsi. 2. Himayəçilik məsələsi.

Azərbaycan Cümhuriyyəti millətindən, irqindən asılı olmayaraq bütün didərginlərə kömək etmişdi. Belə ki, 1919-cu ildə qaçqınlara kömək etmək üçün 2.114.501 manat pul verilmişdir. 1920- ci il yanvarın 5-də Parlamentin iclasında qaçqınların 21 min manatlıq buğda ilə təchiz olunması haqqında qərar qəbul edilmişdir [13, s.87].

Bu faktları araşdıraraq belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının demokratik inkişafına qaçqınlar problemi ciddi təsir göstərən amillərdən olmuşdur.

Müasir ədəbiyyatda riyazı metodlarla 1926-cı il siyahıyaalınması

əsasında azərbaycanlıların sayı müəyyən edilmişdir:

Oktyabr 1917-1.833.6 min nəfər
1920-1.128,5 min nəfər
1921-1.193,7 min nəfər
1922-1.262,7 min nəfər
1923-1.335,8 min nəfər

Bu məlumatlara görə bütün Zaqafqaziyada azərbaycanlıların sayı 1917-1920-ci illərdə 705.1 min nəfər azalmış, 1920-1926-cı illərdə 547.8 min nəfər artmışdır. Uyğunsuzluq göz qabağındadır. Əgər 1913-cü ildə Azərbaycan əhalisinin 2.339.000, 1917-ci ildə isə 2.353.7000 nəfər olduğunu qəbul edildiyini nəzərə alsaq, 1920-ci ilə aid olan rəqəmin xeyli azaldığını görərik. Burada iki əsas məqsəd var: əvvəla, Azərbaycan Xalq Cümhuriyyəti dövründə əhalinin sayının azalmasını (1917-ci illə müqayisədə 401.7 min nəfər) şişirtmək, ikincisi isə Sovet hakimiyyətinin bərqərar olması uğrunda mübarizədəki əhali itkisini pərdələməkdir.

Bu rəqəmi bir kənara qoyaraq 1917-1920-ci illərə aid məlumatları və dövrün obyektiv vəziyyətini nəzərə alsaq bəzi hesablamalara görə 1920-ci ilin başlanğıcında Azərbaycan əhalisinin təxminən 2.130-2.150 min nəfər, Sovet hakimiyyətinin qurulması ərəfəsində isə 2.100-2.130 min nəfər olduğunu müəyyənləşdirmək mümkündür [15, s.11-13].

Beləliklə, 1920-ci ilin aprelinə qədər və 1922-ci ilə aid olan əhali sayımına aid göstəriciləri müqayisə edərkən aydın olur ki, Sovet hakimiyyətinin bərqərar edilməsi uğrunda mübarizənin ilk iki ilində Azərbaycan SSR təxminən 80-90 min nəfər əhali itirmişdir.

### *Ədəbiyyat siyahısı:*

1. *Велиев М.Г. Азербайджан (физико-географический, этнографический и экономический очерк). Баку: Аз. Совет Народного Хозяйства, 1921, 179 с.*
2. *Topçubaşov Y.M. Azərbaycanın təşəkkülü // Azərb. EA. Xəbərləri.Tarix, fəlsəfə, hüquq seriyası. 1990. № 3, səh.114-134.*
3. *Извести Азербайджанской ЦСУ.Баку,1924, вып. № 6,*
4. *Известия Азербайджанской ЦСУ. 1926, вып. № 36,*
5. *К.В.Мамедов. Население Азербайджанской ССР за 60 лет. Баку: Азернешр,1982, 111с. (с.18.)*
6. *Ю.А.Поляков.Советская страна после окончания гражданской войны: территория и населения. Москва,1986, 272 с.*
7. *Həsənli C.P.Azərbaycan beynəlxalq münasibətlər sistemində.1918-1920.Bakı, Azərnəşr, 1993, 363 s.*
8. *Ümbülbanu (Banin). Qafqaz günləri. Bakı: Qafqaz, 2006,239 s., s.92*
9. *N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı, Elm, 1990, 94 s.*
10. *Балаев А.Г. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку, Элм», 1993, 288 с.*

11. *История Азербайджана по документам и публикациям. Баку, Элм, 1990, 378 стр.*
12. *İ.Məmmədov, S. Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, Azərnəşr, 1992, 71 s.*
13. *K.Şükürov. Azərbaycanda demoqrafik vəziyyət (1920-1941). Kitablar aləmində. 1991,№ 1-2, səh. 85-97*
14. *Адрес-Календарь Азербайджанской Республики на 1920-й г. Баку: «Правительственное издательство «Азербайджан», 1920, ч. I, с. 101.*
15. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə, I cild, Bakı, Lider nəşriyyatı, 2004, 440 s.*

**UOT 94 (479.24); 930:314**

# II DÜNYA MÜHARİBƏSİNİN AZƏRBAYCAN ƏHALİSİNİN SAY VƏ TƏRKİBİNƏ TƏSİRİ

***Kəmalə Məmmədova***
***BDU,Tarix fakültəsi, dissertant***
***kamala-71@mail.ru***

*Əhalinin sayı və onun strukturu daim zamana görə dəyişir. Bu dəyişikliklər isə bütünlükdə iqtisadiyyatın və cəmiyyətin inkişafına öz təsirini göstərir. Məqalədə II dünya müharibəsində Azərbaycan xalqının ön və arxa cəbhədə iştirakı, müharibədə iştirak edənlərin sayı ilə bağlı tarixi ədəbiyyatlarda statistik fərliliklər, müharibənin Azərbaycan cəmiyyətinin bütün bölgələrində sosial-demoqrafik proseslərin vəziyyətinə və əhalinin sayına təsiri məsələləri nəzərdən keçirilir. Başqa yerə köçürülmüş minlərlə vətəndaşın, milli legionerlərin və əsirlikdən azad edilmiş on minlərlə insanın taleyi ilə bağlı faciələrindən bəhs edilir.*

*Eyni zamanda, məqalədə Avropa dövlətlərinin Bakı nefti kontekstində Azərbaycana və onun əhalisinə qarşı münasibəti məsələsinə diqqət yetirilir, müharibə dövründə əhali itkilərinin sonrakı illərdə demoqrafik inkişafa təsiri və demoqrafik quruluşda baş verən nəticələr araşdırılır.*

***Açar sözlər**: Azərbaycan əhalisi, II dünya müharibəsi, müharibə itkiləri, hərbi əsirlər, demoqrafik quruluş, nəticələr*

## *ВЛИЯНИЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ НА ЧИСЛЕННОСТЬ И СОСТАВ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА*

*Население и его структура постоянно меняются с течением времени. Эти изменения влияют на развитие экономики и общества в целом. В статье рассматривается участие азербайджанского народа на фронте и в тылу во время Второй мировой войны, статистические расхождения в исторической литературе по количеству участников войны, влияние войны на состояние социально-демографических процессов и численность населения во всех регионах азербайджанского общества. Обсуждаются трагедии тысяч вынужденных переселенцев, национальных легионеров и десятков тысяч освобожденных пленных.*

*В то же время в статье рассматривается отношение европейских стран к Азербайджану и его населению в контексте бакинской нефти, влияние потерь населения во время войны на демографическое развитие в последующие годы и последствия демографической структуры.*

***Ключевые слова:** население Азербайджана, Вторая мировая*

*война, военные потери, военнопленные, демографическая структура, результаты.*

***IMPACT OF THE SECOND WORLD WAR ON THE NUMBER AND COMPOSITION OF THE POPULATION OF AZERBAIJAN***

*The number and structure of the population is constantly changing over time. These changes affect the development of the economy and society as a whole. The article reviewed considers the paticipation of the Azerbaijan people in the front and rear of the second world war, statistical individuality in the historical literature on the number of participants in the war, the impact of the war on the state of social-demographic processes and population in all regions of Azerbaijan. The article deals with the tragedies of the fate of thousands of displaced citizens, national legionnaires and tens of thousands of people released from captivity.*

*At the same time, the article examines the attitudes of European countries to Azerbaijan and its population in the context of Baku oil, the impact of war losses on demographic development in the coming years and the consequences.*

***Keywords:*** *Population of Azerbaijan, second world war, war casualties, prisoners of war, demographic structure, results*

Müasir dövrdə bəşəriyyəti narahat edən problemlər arasında demoqrafik proseslərldə baş verən dəyişikliklərlə bağlı məsələlər mühüm yer tutur. Əhalinin sayı və onun strukturu daim zamana görə dəyişir ki, bu dəyişikliklər bütünlükdə iqtisadiyyatın və cəmiyyətin inkişafına da öz təsirini göstərir. II dünya müharibəsinin ağır nəticələri uzun illər keçməsinə baxmayaraq Azərbaycan xalqının taleyində özünü həm də böyük demoqrafik itkilərdə büruzə verdi.

14 fevral 2017-ci il tarixində Rusiya Federasiyasının Dövlət Dumasındakı dinləmələrdə SSRİ əhalisinin II dünya müharibəsində itkiləri ilə bağlı yeni faktlar meydana çıxdı. Məlum oldu ki, SSRİ Dövlət Plan Komitəsinin məxfi məlumatına görə, II dünya müharibəsində Sovet İttifaqının itkiləri əvvəllər düşünüldüyü kimi 27 milyon deyil, 41 milyon 979 min təşkil edir. 1941-1945-ci illərdə SSRİ əhalisinin ümumi azalması - 52 milyon 812 min nəfərdən çox idi. Bunlardan 19 milyondan çoxu hərbi qulluqçu və təxminən 23 milyona yaxın mülki əhali müharibə amillərinin təsiri nəticəsində geri qaytarılmayan itkilərdir[5]. II dünya müharibəsində Sovet İttifaqının qələbəsi yalnız cəbhədə deyil, arxa cəbhədə də dərin səylərin birliyi ilə qazanıldı.

Müharibə sovet ölkəsinin bütün təsərrüfatına çox ağır zərbə vurdu. 1941-1945-ci illərdə SSRİ öz milli sərvətinin üçdə bir hissəsini itirdi. Bu müharibədə Azərbaycan bilavasitə alman-faşist qəsbkarlarının hücumuna məruz qalmasa da, bununla belə, respublika zəhmətkeşləri müharibənin bü-

tün çətinliklərini və ağırlığını yaşadı, bu müharibədə qələbəyə öz layiqli töhfəsini verdi. Tədqiqatımızın məqsədi də məhz bu dövrdə baş verən demoqrafik proseslər fonunda istehsalın və sosial sahənin dəyişikliklərinin miqyasını göstərməklə, müharibənin Azərbaycan cəmiyyətinin demoqrafik quruluşuna necə təsir etdiyini qiymətləndirməkdir.

Tədqiqat zamanı araşdırmalarımızdan məlum oldu ki, Azərbaycanın II dünya müharibəsində iştirakı Vətən tarixşünaslığımızda sovet ideologiyası baxımından öyrənilmiş, tariximiz üçün ən önəmli məsələlərindən olan Azərbaycandakı demoqrafik proseslər ayrıca tədqiqat obyekti kimi işlənilməmişdir. Ümid edirik ki, tariximizdəki bu boşluq gənc tədqiqatçılarımız tərəfindən gələcəkdə aradan qaldırılacaq və Azərbaycanın II dünya müharibəsində iştirakı tarixi obyektiv işıqlandırılacaq. Azərbaycanın II dünya müharibəsində işrirakı mövzusunun geniş işlənməsi və təbliği isə əslində bir neçə səbəbə görə vacibdir:

**“Əvvəla:** Azərbaycan indi Dünya dövlətləri sistemində müstəqil dövlətdir və onun xalqının II dünya müharibəsində iştirakı müstəqil bir mövzu kimi işlənməlidir. Məlumdur ki, bu iştirak “Sovetlər İttifaqının Böyük Vətən Müharibəsi” mövzusu içərisində çox səthi şərh edilirdi və solğun görünürdü.

**İkincisi:** Azərbaycan xalqı öz nefti və yanacağı ilə faşizm üzərində qələbə üçün tarixi xidmətlər göstərmişdir və bu haqda böyük qürurla bütün dünyaya car çəkmək lazımdır.

II dünya müharibəsi tarixinin və xüsusilə 1941-45-ci illərin Böyük Vətən müharibəsi tarixinin araşdırılması sübut edir ki, “Əgər Bakının nefti olmasaydı Sovetlər İttifaqının qələbəsi bəlkə də mümkün deyildi...”(Heydər Əliyev). Bu nefti hasil edən isə qəhrəman Azərbaycan xalqı olmuşdur. Buna görə də Bakı şəhəri “Qəhrəman şəhər” adına layiq görülməli idi. Lakin bu da edilmədi.

**Üçüncüsü:** “Böyük Vətən Müharibəsi” adlı kitablarda və məqalələrdə Azərbaycanda yaradılmış və düşmənlə qəhrəmancasına döyüşmüş milli diviziyalarımız haqqında demək olar ki, çox az məlumat verilmişdir.

**Dördüncüsü:** II dünya müharibəsi mövzusu, “Böyük Vətən Müharibəsi” mövzusundan çox geniş mövzudur. Bununla əlaqədar olaraq indi azərbaycanlıların II dünya müharibəsi illərində xarici ölkələrdə müqavimət hərəkatında iştirakı da müstəqil mövzu kimi geniş öyrənilməli və təbliğ edilməlidir.

**Beşincisi:** Azərbaycan xalqının hərb tarixi Sovet hakimiyyəti dövründə öyrənilməmişdir və bunun səbəbləri məlumdur. İndi xalqımızın çoxəsrlik ümumi və mübarizə tarixi gerçəkliklə, olduğu kimi öyrənilərək, yüksək elmi tarixilik və dünya standartları səviyyəsində yazılmalıdır” [9, s.4-5].

**Altıncısı:** xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasına zəmin yaradan hərbi əsirlər və milli legionlarla bağlı tarixi həqiqətlər araşdırılmalıdır.

Müharibə başlandığı ilk gündən etibarən Azərbaycanın şəhərlərində, rayon mərkəzlərində, qəsəbələrdə və kəndlərdə çağırış səfərbərlik məntə-

qələri təşkil edilməyə başladı [11, s.20]. Orduya səfərbərlik ümumxalq hərəkatına çevrildi. Minlərlə oğlan və qız hərbi komissarlıqlara ərizə ilə müraciət edərək, cəbhəyə göndərilməsini xahiş etdilər. Müharibənin ilk günlərindən 40 mindən artıq adam könüllü olaraq cəbhəyə getmək üçün ərizə ilə hərbi komissarlıqlara müraciət etdi [6, s.379].

Respublikanın idarə və müəssisələrində zəhmətkeşlər öz üzərlərinə yüksək öhdəliklər götürür, könüllü surətdə ordu sıralarına, "Xalq qoşunu" dəstələrinə, "Qırıcı batalyon"lara daxil olurdular. Azərbaycanın minlərlə oğul və qızları könüllü surətdə ordu sıralarına daxil oldular, müharibənin gedişi zamanı ağır döyüşlərdə fəal iştirak etdilər. Döyüşən qoşun üçün ehtiyat qüvvələr hazırlanmasında görülən zəruri işlər nəticəsində 1941-ci il iyunun 22-dən avqustun 14-dək Azərbaycan SSR-də Xalq qoşunu dəstələrinə 186704 nəfər (onların 30563 nəfəri qadın idi) yazılmışdı.

Qeyd etmək istərdik ki, tarixi ədəbiyyatlarımızda II dünya müharibəsi dövründə istər respublika ərazisindəki əhalinin sayı, istər respublikamızdan orduya göndərilənlərin sayı, İstərsə də əhali ilə bağlı digər məlumatlarda müxtəlif rəqəmlər qeyd edilir və bu rəqəmlər bir-biri ilə ziddiyyət təşkil edir.

Nəsiman Yaqublunun "Azərbaycan legionerləri" kitabında qeyd edilir ki, müharibə başlamazdan öncə, 1939-cu ilin siyahıyaalınmasına görə Azərbaycanda yaşayan əhalinin ümumi sayı 3.205.150 nəfər, bunlardan da 1.870.471 nəfəri milliyyətcə azərbaycanlılar idi. [15, s.111]. Müəllif 1941-ci ilin iyunun 1-nə qədər respublikamızın əhalisinin sayından bəhs edərkən, Azərbaycan K(b)P MK-nın xüsusi bölməsindəki "olduqca məxfidir" şriftli sənədlərə istinadən Azərbaycan SSR-in əhalisinin hərbçilər daxil edilmədən 3 milyon 301 min 100 nəfər olduğunu qeyd edir [15, s.110]. Musa Qasımlının "Azərbaycan türklərinin milli mücadilə tarixi" kitabında da bu say eynilə təkrar olunsa da, lakin əhalinin ümumi sayı kimi təqdim edilir [10, s.643]. Lakin Nəsiman Yaqublunun elə həmin kitabının 111-ci səhifəsində göstərilir ki, "1941-ci ilin yanvarın 1-nə olan məlumata görə ümumilikdə Azərbaycan əhalisinin sayı 3 milyon 331 min 800 nəfər idi" [15, s.111]. Bu isə müəllifin əvvəlki məlumatı ilə ziddiyyət təşkil edir.

Orduya səfərbər olunanlarla bağlı da tarixi tədqiqatlarda müxtəlif rəqəmlər verilir, bu say 600 minlə 700 min arasında göstərilir. Məsələn, nəzərdən keçirdiyimiz ədəbiyyatlar içərisində N.Yaqublu "Azərbaycan legionerləri" kitabında səfərbərliklə bağlı ayrı-ayrı səhifələrdə müxtəlif məlumatlar təqdim edir. Kitabın 110-cu səhifəsində "Vətən müharibəsi zamanı 1941-ci ilin iyunundan 1944-cü ilin yanvarına qədər Azərbaycan SSR-dən 553 min 910 nəfər aparılmışdır" yazılsa da, elə həmin kitabın 111-ci səhifəsində qeyd edilir ki, "1941-ci ilin iyunun 22-dən 1944-cü ilin yanvarın 15-nə qədər Azərbaycan SSR-in ehtiyatlarından orduya 569 min 357 min nəfər göndərilmişdir ki, onlardan 368 min 276-sı azərbaycanlı idi" [15, s.111]. VII cildlik "Azərbaycan tarixi"nin VII cildində isə qeyd edilir ki, "1943-cü il yanvarın 1-nə qədər respublikada 464 min nəfər orduya çağırılmışdı",

"ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam səfərbər olunmuşdu. Onlar arasında 11 mindən çox qadın var idi" [3, s.9]. Bir digər tədqiqatda qeyd olunur, "ümumiyyətlə, müharibə illərində Azərbaycandan ordu sıralarına 678.950 nəfər kişi cinsindən olanlar səfərbərliyə alınmış, 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata gəlmişdi" [6, s.379].

1941-1943-cü illərdə 1920-1925-ci ildə doğulanların hamısı hərbi səfərbərliyə alınıb, döyüş bölgələrinə göndərilirdi.

1941-ci ilin iyunundan 1943-cü ilin noyabrın 1-nə qədər 107 min 578 nəfər vəfat etmişdir. Lakin bu vəfat edənlər müharibə zamanı ölkədən aparılanların ümumi siyahısına daxil deyildir [15, s.110-111].

Zaqafqaziya cəbhəsinin Hərbi Hissələrin Təşkili və Tamamlanması İdarəsi Azərbaycanda səfərbərlik işinin təşkilini yüksək qiymətləndirmişdi. Yalnız 1941-ci ilin iyul-oktyabr aylarında respublikada 30480 nəfər, o cümlədən, hərbi məktəblərə 2287 nəfər, qvardiya diviziyalarına 3165 nəfər, döyüşən hissələr ehtiyatına 22319 nəfər səfərbər olundu.

Azərbaycanda 1941-ci ilin avqustunda 402-ci, oktyabrında 223-cü, 1942-ci ilin mart-sentyabr aylarında 416-cı, avqust-sentyabr aylarında isə 271-ci diviziyalar təşkil olunmuşdu.

Hərbi rəşadətə görə Azərbaycandan olan 120 nəfərdən çox döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfər azərbaycanlı döyüşçü "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 170 mindən artıq əsgər və zabit ölkənin müxtəlif orden və medalları ilə təltif olunmuşdu [3, s.67].

Dövlət Müdafiə Komitəsinin qərarına əsasən sovet ordusu üçün ehtiyat qüvvələr yaratmaq məqsədilə ilə 1941-ci ilin iyulundan etibarən bütün ölkədə 16 yaşdan 50 yaşadək olan kişilərə ümumi icbari hərbi təlim keçilməyə başlanmış və 1941-ci il oktyabrın 1-dən 1942-ci il dekabrın 15-dək respublikada 172209 nəfər ümumi və xüsusi bölmələrdə hərbi təlim keçmişdi. Azərbaycanda 1941-1945-ci illərdə bütünlükdə ümumi icbari hərbi təlim xətti ilə 51.254 döyüşçü hazırlanmışdı. Həmin illərdə respublikada 291.421 çağırışçı 9 növ hərbi peşəyə yiyələnmişdi.

1941-ci ildə Azərbaycan rayonlarında təxribatçılara, casuslara və sərhədi pozanlara qarşı mübarizə aparmaq məqsədilə 12000 adam səfərbər edilmişdi. Qırıcı batalyonlar yaradılmışdı.

1941-ci il iyul ayının 10-na qədər bütün idarə və müəssisələrdə özünümüdafiə dəstələri yaradılmışdı. Yaşayış məntəqələrini qorumaq üçün 16 min nəfər yaşlı əhali, 12 min pioner və məktəbli səfərbər edilmişdi.

Azərbaycan xalqı müharibə dövründə ön və arxa cəbhəni yanacaq, silah, sursat, ərzaq, geyim, tibbi ləvazimat və s. strateji mallarla təmin etdi. Müharibə dövründə sənaye istehsalının əsas göstəricilərində kəskin azalma baş vermiş, sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22 faiz aşağı düşmüşdü. Neft hasilatı 1945-ci ildə 1940-cı ildəkinə nisbətən təqribən yarıbayarı azalmışdı.

Müharibə ölkənin əmək ehtiyatlarının istifadəsinə də mənfi təsir göstərmişdi. Azərbaycanın xalq təsərrüfatında fəhlə və qulluqçuları 1940-cı ilin oktyabrında 456 min nəfər olduğu halda, 1945-ci ilin sentyabrında 396 min nəfərə qədər azalmışdı [3, s.76].

Mövzumuzla bağlı məsələlərdən biri, II dünya müharibəsində ağrılı mövzularımızdan olan hərbi əsirlərimiz və Azərbaycan milli legionerlərinin sayı ilə bağlı da dəqiqləşdirilmələrin aparılması üçün tədqiqatlara ehtiyac var.

Ə.Düdənginski azərbaycanlı hərbi əsirlərin ümumi sayının 150 min olduğunu qeyd edirdi. Fikrimizcə, bu rəqəmin özü də dəqiq deyil və ciddi araşdırma tələb edir [4, s.33].

Əski legioncılara istinadən tədqiqatlarda Azərbaycan legionçularının sayı 30-80 min arası göstərilir [4, s.34-35]. Bu da hələ ki, dəqiq məlumat deyil.

Burda bəzi məqamlara diqqət çəkmək istərdik. **Birinci** məqam ondan ibarətdir ki, sovet İttifaının siyasətindən narazı qalan azərbaycanlıların çoxlu sayda almanların tərəfinə keçdiyi aydın olduqda, Azərbaycan K(b)P MK-nın və Xalq Komissarları Sovetinin "1926-cı ildə anadan olanların hərbi xidmətə çağırılması haqqında" qərarı ilə hətta 17 yaşı tamam olmayanları da döyüş bölgələrinə göndərirdilər [15, s.111].

**İkincisi,** müharibədən sonra Vətənə dönməkdən imtina edən hərbi əsirlər yeni mühacirət dalğası yaratdılar və bu da sonrakı dövrlərdə xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasına zəmin yaratdı.

**Üçüncüsü,** 1941-ci ilin payızında Almaniyanın "ildırımsürətli müharibə" planının uğursuzluqla nəticələnməsi müharibənin uzun müddət davam etdirilməsinə səbəb oldu ki, bu da Vermaxta yaradılan milli legionerlərdən cəbhədəki əsgər itkisinin zərərlərini qismən ödəmək və Şərq cəbhəsində canlı qüvvələrin çatışmazlığını tənzimləməyə kömək etdi.

Müharibənin qurtardığı ərəfədə Münhendə gizli şəraitdə yaşayan Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə yeni yaradılan Azərbaycan Demokratik Birliyi əsirlərin məskunlaşması ilə məşğul olurdu. Birliyin fəallarından olan M.Kəngərli göstərir ki, təkcə bu "birlik 3 mindən çox azərbaycanlının əsirlikdən xilas olub Türkiyədə yaşamasına kömək etdi. 500 nəfər isə Misir Kralının himayəsinə göndərildi [8, s.193]. Sadiq Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı Ə.Hüseynbəylinin "Mühacirlər" əsərində müharibədən sonra 30 min azərbaycanlının Vətənə qayıtmaqdan imtina edərək müxtəlif xarici ölkələrdə qaldığı bildirilir.

Beləliklə, faşizmlə bolşevizm arasında əzilən, məhv edilən bu insanların müharibə illərində və müharibədən sonrakı dövrdə saylarının müəyyənləşdirilməsi, talelərinin öyrənilməsi birtərəfli, təhriflərlə öyrənilən tariximizdə həqiqətlərin üzə çıxarılıb xalqa çatdırılmasına kömək etməklə yanaşı, əsir düşdükdə belə siyasi mühacirlərlə birləşərək Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparanların bir hissəsi qarşısında mənəvi borcumuzdur.

Mövzumuzla bağlı digər bir məsələ müharibə zamanı Azərbaycanda əhali yerdəyişmələrinin baş verməsinin say dinamikasına təsiridir. Belə ki,

müharibə illərində 22 min 534 nəfər SSRİ-i XDİK-nin müxtəlif düşərgələrinə göndərilmişdir. 25 min 851 nəfər isə cinayətkar ictimai-təhlükəli elementlər adı ilə müxtəlif respublika və vilayətlərə sürgün edilmişdir.

Müharibə başlayan kimi Azərbaycanda yaşayan almanlar Qazaxıstana və Sibirə sürgün edilmişdilər. Ancaq eyni zamanda on minlərlə əhali müharibə bölgələrindən Bakıya evakuasiya edilmişdir. Müharibə illərində Bakı hospitallarında 400 min nəfərə yaxın əsgər və zabit müalicə olunmuşdur.

Müharibə illərində Azərbaycanda əhali yerdəyişmələri ilə bağlı A.Məmmədovun "Tarixi demoqrafiya" dərsliyində maraqlı hesablamalar aparılmışdır. Müəllif yazır: "Azərbaycana gələn əhali gedənlərdən daha çox olmuşdur və bizim hesablamalarımıza görə süni əhali yerdəyişmələrinin təsirini aradan qaldırdıqdan sonra 1945-ci ilin sonunda Azərbaycan əhalisi 2,6 milyon nəfərdən bir qədər çox olmuşdur. Yəni, müharibə dövründə Azərbaycan əhalisinin sayı 780 min nəfər və ya 23,1% azalmışdır. Xatırladaq ki, Sovet ordusuna səfərbər edilənlərin sayı 600-650 min nəfər olmuşdur. Onların da 275 min nəfəri müharibədə həlak olmuşdur" [12, s.193-194].

Müharibə əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Əhali itkisinin daha çox kənd yerlərində baş verdiyini və onun baş vermə səbəblərini araşdıran müəllifin fikrincə: "əhali itkisinin böyük əksəriyyəti kənd əhalisinin payına düşürdü. Belə ki, kənd yerlərində əsgərlik yaşına çatmış bütün kişi əhalisi müharibəyə göndərilmişdi... Ən başlıcası isə o idi ki, şəhərlər kart sistemi ilə minimum səviyyədə də olsa ərzaqla təmin edilirdi. Kəndlərdə isə əhaliyə nəinki ərzaq kartları verilmirdi, üstəlik onlar demək olar ki, ərzaq əldə edə biləcəyi təsərrüfat mənbələrindən də məhrum edilərək Allahın ümidinə buraxılmışdılar. Ona görə də, kənd yerlərində əhali aclıqdan və xəstəliklərdən kütləvi şəkildə qırılırdı. Həmin dövrü yaşamış kənd sakinlərinin söylədiklərinə görə o illərdə, xüsusilə 1944-cü ildə ölənlərin sayı o qədər çox idi ki, onları dəfn etmək bir problemə çevrilmişdi. Belə ki, meyitləri qəbiristanlığa qədər daşımağa taqəti olan adam tapılmırdı və bu cür hallarda meyitlər öz həyətlərində və ya yaxın ərazilərdə dəfn edilirdi [12, s.194]. Müəllifə görə, ümumilikdə, 1940-1950-ci illəri əhatə edən dövrdə Sovet respublikaları ilə nisbi müqayisədə ən çox əhali itkisinə məruz qalan ikinci ölkə Azərbaycan olmuşdur. Demoqrafik statistikanın göstəricilərinə görə bu say 12,7% təşkil etmişdir.

1941-45-ci illərdə Azərbaycandan cəbhəyə 600 mindən çox (bəzi tədqiqatlarda bu say 700 minə qədər göstərilir) adam getmiş və onlardan yalnız 300 min nəfəri geri qayıtmışdır. Vətən müharibəsi illərində respublika əhalisinin sayı ən azı 568,4 min nəfər və ya 17,4% azalaraq 1940-cı ilin əvvəlindəki 3274,0 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüşdür [13, s.20]. VII cildlik "Azərbaycan tarixi"də isə qeyd edilir ki, "Azərbaycan əhalisi 1940-cı ildə 3304,1 min nəfər idi. 1945-ci ildə onun sayı 17,65 faiz azalmışdı" [3, 76]. Nəticədə Azərbaycan əhalisinin müharibədən əvvəlki səviyyəsi müharibə qurtarandan yalnız 10 il sonra, yəni

1955-ci ildə bərpa olunmuşdur.

Tədqiqatımızda digər bir məsələ dünyanın aparıcı Qərb dövlətlərinin Azərbaycana və Azərbaycan əhalisinə münasibəti məsələsidir. Bildiyimiz kimi II dünya müharibəsi ərəfəsində və gedişində Bakı nefti dövlətlərarası münasibətlər prizmasında mühüm rol oynamış, Bakı SSRİ-nin mühüm yanacaq bazası olmuşdur. SSRİ-də istehsal edilən 1940-cı ildə 30,8 milyon ton neftin 22,2 milyonunu (72 %), 1941-ci ildə 33 milyon ton neftin 28,7 milyonunu Qafqaz, onun da 23,5 milyon tonunu Bakı verirdi. Bu da SSRİ neftinin 71,2 %-i demək idi [1]. 1939-cu ilin avqustunda Almaniyanın SSRİ ilə imzaladığı Molotov-Ribbentrop paktının əsas müddəalarından biri Sovetlərin Almaniyanın yanacağa olan tələbatını ödəmək idi ki, məhz bu müqavilədən sonra sovetlərdən Almaniyaya müqavilənin qüvvədə olduğu 18 ay ərzində ümumilikdə 911 min ton neft ixrac olunur. Onun da əsas hissəsi Qafqazda istehsal edilirdi. Məhz bu neft hesabına Almaniya 1939-1941-ci illər kampaniyasını əhəmiyyətli surətdə təmin edə bilir.

Samanta Кarl "Alman müharibə iqtisadiyyatının qurulması: 1939-1940-cı illərdə Nasist - Sovet İqtisadi Sazişlərinin əhəmiyyəti" adlı məqaləsində qeyd edir ki, sovet idxal nefti olmadan alman hərb maşını uzun müddət müharibə apara bilməzdi. II dünya müharibəsi başlayanda Almaniya sovet neftinə daha artıq ehtiyac duyur. Çünki artıq ABŞ da Almaniyaya neft ixrac etmirdi. Hitler əmin idi ki, onun ehtiyat yanacağı qurtarana qədər sovetlərin əsas neft mədənlərini ələ keçirəcək. Müəllifə görə sovet nefti olmasaydı Hitler SSRİ-yə qarşı müdafiə taktikasına üstünlük verərdi [14, s.6].

1939-1940-cı illərdə sovetlərlə imzalanan bu müqavilə nəticəsində Almaniyanın yanacağa olan tələbatının təmin ediləcəyindən ehtiyatlanan İngiltərə və Fransa hökumətləri Sovet-Finlandiya müharibəsini bəhanə edib, İran və Türkiyə ərazisindən Bakını və Qafqazın digər neft mədənlərini havadan bombalamaq planı hazırlayırlar.

1939-cu ilin sentyabrında SSRİ-nin Polşanın bir hissəsini işğal etməsindən sonra əməliyyata ilkin hazırlıq prosesi başlanır və dekabrda Sovetlərin Finlandiyaya hücumundan sonra Britaniya hakim dairələrində Sovetlərin əsas yanacaq bazası olan Qafqazın neft mədənlərini bombalamaq fikri geniş müzakirə olunur. 1940-cı il martın 30-da Bakıdakı neft mədənləri üzərində hava kəşfiyyatı aparmaq məqsədi ilə Böyük Britaniyanın İraq ərazisindəki hərbi bazasından havaya qalxan təyyarə 7000 m yüksəklikdə 1 saata qədər Bakı üzərində kəşfiyyat apararaq Habbaniyyəyə qayıdır. Bakını müdafiə edən sovet hava hücumundan müdafiə qüvvələri bu uçuşu qeydə ala bilmirlər.

London və Parisin Bakını bombalamaq, eyni zamanda Böyük Britaniyanın 1939-1940-cı illərdə Qafqaza "Payk" adlı hücum planı Ribbentropun nəşr edilən "Ağ kitab"ındakı geniş materiallar əsasında "Pravda" qəzetində çap edilir.

Bakıda neft mədənlərinin şəhərə bitişik olması səbəbindən yüksəkdən uçan təyyarələr vasitəsilə endirilən avia zərbələr nəticəsində şəhərdə kütləvi

insan təlafatının mümkünlüyü belə müttəfiqləri bu addımdan saxlamırdı. Sadəcə, 1939-1940-cı illərdə SSRİ-Finlandiya müharibəsinin başa çatmasından sonra yaranan İngiltərə və Fransa hökumətindəki tərəddüd, eyni zamanda onlar arasında SSRİ və hərbi əməliyyatla bağlı məsələlərdəki müəyyən ziddiyyətlər Bakını dəhşətli dağıntılardan xilas etdi.

Daha sonrakı mərhələdə Almaniya 1942-ci ildə əsas diqqətini Qafqazın, xüsusilə də Bakının zəngin neft yataqlarını ələ keçirməyə yönəldir. 1942-ci ilin iyunundan başlanan hərbi əməliyyat növbəti aylarda daha təhlükəli xarakter alır. General Kleystin başçılığı ilə almanlar 1942-ci ilin sentyabrın 6-da Qroznı-Mahaçqala-Bakı istiqamətindən hücuma keçirlər. Almanların Qafqazla bağlı "Edelveys" planına əsasən sentyabrın 25-də Bakı tutulmalı idi. 1942-ci il sentyabrın 9-da Zaqafqaziya respublikalarında hərbi vəziyyətin elan edilməsindən sonra Dövlət Müdafiə Komitəsi 1942-ci ilin sentyabrın 16-da "Bakının müdafiəsi haqqında" qərar qəbul edir və Mahaçqala, Dərbənd və Bakı ətrafında möhkəmləndirilmiş müdafiə sədlərinin tikintisinə 8 min insan cəlb edilir [2]. Bakı müdafiə zonası yaradılır, istehkamlar quraşdırılır. Sovet komandanlığı da Qroznı və Bakı istiqamətində almanların cəbhəni yara bilmək ehtimalını yüksək qiymətləndirərək, avqust-sentyabr ayında 90 min mülki şəxsi əsas etibarilə Qroznı, Mahaçkala, "Dərbənd darvazası" və Bakının özündə gecə-gündüz istehkam işlərinə cəlb edir.

Bakı ətrafında müdafiə zonası yaradılmasında Xalq qoşunu dəstələrinin 12 min döyüşçüsü fəal iştirak etmişdi. 1942-ci il avqustun 17-də ərazinin xüsusiyyətləri nəzərə alınmaqla, Xalq qoşunu dəstələri yenidən təşkil olundu. Bakıda üç - 101, 102 və 103-cü Xalq qoşunu diviziyaları yaradıldı. Diviziyalarda 21.259 nəfər döyüşçü vardı.

Qafqazın neft mədənlərini tutmaq ümidini itirən Hitler 1942-ci il oktyabrın əvvəllərində Qroznı, Saratov, Kamışın, Həştərxan və Bakının neft və sənaye mədənlərini bombalamağa dair göstəriş verir. Almanlar ələ keçirdikləri Stavropol aerodromundan Qroznı və Bakını bombalamaq imkanına malik idilər. 1942-ci il oktyabrın 10-da Qroznı bombalanır. Sovet aviasıyası Stavropolu dağıtdığından almanlar Bakıya yaxınlaşa bilmirlər [22]. 1942–ci ilin noyabrında Gürcüstan hərbi yolunun üzərində olan Orcenikidzeyə 10 mil məsafəyə qədər yaxınlaşan almanlar Bakıya çatmaq üçün qüvvələrini 2 dəfə artırsalar da, sovet ordusunun əks hücumu nəticəsində bu plan baş tutmur. Lakin 1942-ci ilin noyabr ayında belə Bakının Almaniya təyyarələri tərəfindən bombalanma ehtimalı qalırdı. Belə ki, 1942-ci il noyabrın 10-da iclasda Azərbaycan KP MK-nın I katibi Mircəfər Bağırov bildirir ki, Hitler Bakını tutmaq ümidini itirdiyindən buranı bombalamağa cəhd edəcəyi ehtimalı böyükdür.

Burada bir məqama da toxunmadan keçmək istəmədik. Sadəcə Qərb dövlətləri deyil, rəsmi Moskva belə Hitlerin Bakıya hücumu baş tutardısa Bakının neft sənayesi obyektlərinin sıradan çıxmasını planlaşdırmışdı. Şəxsən SSRİ-nin rəhbəri İosif Stalin tərəfindən imzalanan "Tamamilə məxfi"

qrifli Dövlət Müdafiə Komitəsinin 14 avqust 1942-ci il tarixli "Bakı neft sənayesi üzrə xüsusi hazırlıq tədbirləri haqqında"kı qərarına əsasən SSRİ Daxili İşlər Komissarlığına bir vəzifə olaraq tapşırılırdı ki, SSRİ-i Neft Sənayesi Xalq Komissarlığı ilə birlikdə Bakı neft sənayesi obyektlərinin (quyuların, sisternlərin, rezervuarların, müəssisələrin və avadanlıqların) sıradan çıxarılmasına hazırlıq üzrə xüsusi tədbirlər həyata keçirsin. Bu tədbirləri həyata keçirmək üçün SSRİ Daxili İşlər Xalq Komissarının müavini yoldaş Merkulov və neft sənayesi xalq komissarının müavini Baybakov Bakıya ezam olunurlar.

Hələ 1942-ci il iyul ayının 1-də Stalin məşhur həmyerlimiz Nikolay Konstantinoviç Baybakovu yanına çağırıb ona demişdi: Siz Qafqaza gedirsiniz və yerli neft mədənlərini minalayırsız. Əgər Hitlerə bircə ton da olsa, neft saxlasanız, sizi mən özüm güllələyəcəyəm. Yox, əgər Hitler gedib Qafqaza çatmasa, siz neft mədənlərini vaxtından əvvəl partlatmış olsanız, onda biz yenə də sizi güllələyəcəyik [7].

Beləliklə, Qərb dövlətlərinin Azərbaycana münasibətini şərtləndirən əsas amillər Bakı neftinin dünya siyasətində oynadığı rol və Azərbaycanın mühüm coğrafi məkan kimi strateji əhəmiyyət kəsb etməsi idi. Azərbaycan əhalisinin təhlükəsizliyi, Bakıda neft mədənlərinin bombalanacağı təqdirdə şəhərdə kütləvi insan təlafatının mümkünlüyü isə bu dövlətlər üçün önəmli rol oynamırdı. Təsadüfi deyil ki, bugünün özündə də bu dövlətlərin azərbaycanlı əhaliyə qarşı mövqeyi dəyişməz olaraq qalır. Belə olmasaydı bu dövlətlər onilliklər boyu erməni separatçılarının yaratdığı "Dağlıq Qarabağ" probleminin həllində ədalətli mövqe nümayiş etdirər və xalqımıza qarşı həyata keçirilən erməni təcavüzünü dəstəkləməzdilər.

Nəticə olaraq qeyd edək ki, ümumiyyətlə, Azərbaycan XX əsrdə beş dəfə kəskin demoqrafik çətinliklərlə üzləşmişdir ki, bunlardan biri də 1941-1945-ci illəri əhatə edir. Müharibənin Azərbaycan cəmiyyətinin demoqrafik quruluşuna necə təsir etdiyini qiymətləndirməyə gəldikdə qeyd etmək istərdik ki, baş verənlər eyni zamanda ölkəmizin bütün bölgələrində sosial-demoqrafik proseslərin vəziyyətinə təsirsiz ötüşmədi. Müharibə təkcə əhalinin sayına təsir göstərmədi, eyni zamanda demoqrafik quruluşda əhəmiyyətli fərqlərə və nəticələrə də səbəb oldu. Milyonlarla adam doğmalarını, yaxınlarını itirmiş, sahibsiz uşaqların sayı kəskin surətdə artmışdı. Başqa yerə köçürülmüş milyonlarla insanın, əsirlikdən azad edilmiş yüz minlərlə vətəndaşın taleyi faciəli olmuşdu.

Müharibə illərində demoqrafik itkilərin aşkar nəticələrindən biri də kişi və qadın əhalisinin nisbətinin dəyişməsidir. Müharibə itkiləri əhali arasında cinsi balanssızlıqla yanaşı, kişilər arasında ölüm nisbətinin qadınların ölüm nisbətindən qat-qat yüksək olması ilə müşayət olundu. Nəticədə ortaya çıxan gender balanssızlığı subay qadınların nisbətinin kəskin artmasına səbəb oldu. Müharibə zamanı öldürülənlərin çoxunun normal ömürlərini yaşamaması səbəbindən sonrakı illərdə doğuş və ölüm nisbəti yarandı. Müha-

ribə, uzun illər davam edən illik doğuş sayında bir dalğalanma dövrü başlatdı. Eyni zamanda müharibə sonrası onilliklər ərzində ölümlərin sayı nisbitən azaldı. Nəticədə Azərbaycan əhalisinin müharibədən əvvəlki səviyyəsi müharibə qurtarandan yalnız 10 il sonra, yəni 1955-ci ildə bərpa olundu.

Müharibə nəticəsində nəsillərin sayında yaranmış dövri dalğalanmalar sonrakı illərdə əmək qabiliyyətli əhalinin dalğalı dinamikasına və demoqrafik yükə səbəb oldu, əmək bazarının işini və iqtisadi və sosial proqramların həyata keçirilməsini çətinləşdirdi.

***Ədəbiyyat siyahısı:***

*1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f 1, siy. 169, iş 110, v. 2*
*2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f. 1, siy. 27, iş 92, v. 3*
*3. Azərbaycan tarixi 1941-2002-ci illər, VII cild, Bakı, 2008, 570 səh.*
*4. Cəfərli M. Azərbaycanlılar Almaniyada (İkinci Cahan Savaşı illərində). Bakı, 2000, 52 səh.*
*5. Черепанов М. Они не вернулись из боя: рассекречено число погибших в Великой Отечественной войне // https://realnoevremya.ru/articles/58108-o-rassekrechennyh-arhivazh-sssr-i-realnyh-poteryah-v-voyne*
*6. Əmrahov M. İkinci dünya müharibəsi 1939-1945. Bakı, 2010, 552 səh.*
*7. Faşizm üzərində Qələbənin qazanılmasında xalqımızın tarixi xidmətləri: faktlar, rəqəmlər və reallıqlar //https://azertag.az/xeber/Azerbaycan_Ikinci_ Dunya_ muharibesi_ iillerinde-1516873*
*8. İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, 308 səh.*
*9. İsmayılov İ.Z. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. Bakı, 2000, 130 s.*
*10. Qasımlı M. Azerbaycan türklerinin milli mücadile tarihi 1920-1945.İstanbul, 2006, 704 səh.*
*11. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, 1965, 503 s.*
*12. Məmmədov A. Tarixi demoqrafiya (dərslik). Bakı, 2019, 232 səh.*
*13. Muradov Ş. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu: əsas demoqrafik və etno-demoqrafik dəyişikliklər (1897-2007). Bakı, 2008, 240 səh.*
*14.Samantha, Carl. The Buildup of the German War Economy: The Importance of the Nazi Soviet Economic Agreements of 1939 and 1940: [electron resurs]/-40p.-https://www.millersville.edu/ holocon/files/the-buildup-of - the- german-war-economy.pdf*
*15. Yaqublu N.. Azərbaycan legionerləri. Bakı, 2002, 341 səh.*

***Məqalə BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti Səidə Əli qızının rəyi ilə çapa təqdim edilib.***

UOT 94 (479.24); 930:314

# AZƏRBAYCAN XALQININ VƏTƏNİN MÜDAFİƏSİ VƏ ANANIN YENİLMƏZLİYİ İLƏ BAĞLI İNANCLAR SİSTEMİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

***Aydın Məmmədov***
***BDU, Tarix fakültəsi, dosent***
***aydin.mmmdov.67@ mail.ru***

*Azərbaycan torpağının sakinləri olan əcdadlarımız ən qədim zamanlardan üzü bəri vətənlərini qorumaq üçün döyüşlərdə şəhid olan soydaşlarımıza böyük ehtiramla yanaşmışlar. Vətən tarixində düşmənin ölkəmizin varlığına təhlükə yaratdığı vəziyyətlər çox olmuşdur. Belə çətin anlarda bütün soydaşlarımız doğma vətənlərini qorumaq üçün ayağa qalxmışlar. Bir çox hallarda Azərbaycan xalqının qədim inanclarında ana obrazı Vətənin yenilməzliyi ilə təcəssüm etdirilir. Azərbaycan xalqının qədim inanclar sistemində ana ailə ocağını heç vaxt sönməyə qoymayan, onu daima şöləlnədirən, dünyaya gətirdyi övladlarının qayğısına qalan müqəddəs bir varlıq kimi təsvir edilir. Qədim inanclarımızda ana demoqrafik proseslərin başlıca fiquru kimi çıxış edərək dünyaya gətirdiyi igid ərənləri südü ilə bəsləyən, Vətənin dar günündə onu qoruyan oğullarımıza mənəvi dayaq olan milli dəyərlərimizin daşıyıcısı rolunu oynayır.*

***Açar sözlər:*** *Vətənin müdafiəsi, əhali artımı, anaya ehtiram, demoqrafik baxışlar*

## *ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЕ ВОПРОСЫ В СИСТЕМЕ ВЕРОВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА СВЯЗАННЫЕ С ЗАЩИТОЙ ОТЕЧЕСТВА И НЕПОКОРЁННОСТЬЮ МАТЕРИ*

*Жители Азербайджанской земли – наши предки, с древнейших времен относились с большими почестями своим соотечественникам, павшим в боях защищая отчизны. В истории нашей страны было немало ситуаций, когда враг угрожал самому существованию нашей отчизны. В эти тяжелые времена весь народ вставал на защиту родины. Часто в древних верованиях Азербайджанского народа образ матери олицетворяется с непобедимостью Родины. Вот почему, образ матери, имеет огромное значение в верованиях каждого, в том числе Азербайджанского народа. В верованиях Азербайджанского народа исторически мать исполняет роль хранительницы домашнего очага. Она создаёт дома уют, тепло, заботится о детях. В древних текстах Азербайджанского народа женщина становится мамой, когда ребенок еще только растет и развивается внутри неё. Мать*

*также является надежным опорой непобедимых сыновей защищающих неприкосновенность отчизны.*

***Ключевые слова:*** *оборона Отечества, рост населения, уважение к матери, демографические взгляды*

## *HISTORICAL AND DEMOGRAPHIC ISSUES IN THE BELIEF SYSTEM OF THE AZERBAIJAN PEOPLE CONNECTED WITH THE PROTECTION OF THE FATHERLAND AND THE INTEGRITY OF THE MOTHER*

*The inhabitants of the land of Azerbaijan - our ancestors, from ancient times treated their compatriots with great honors, who fell in battles defending their homeland. There have been many situations in the history of our country when the enemy threatened the very existence of our country. In these difficult times, all the people stood up to defend their homeland. Often in the ancient beliefs of the Azerbaijani people, the image of the mother is personified with the invincibility of the Motherland. That is why the image of the mother is of great importance in the beliefs of everyone, including the Azerbaijani people. In the beliefs of the Azerbaijani people, historically, the mother plays the role of the keeper of the hearth. She creates comfort, warmth at home, takes care of children. In the ancient texts of the Azerbaijani people, a woman becomes a mother when the child is still growing and developing within her. The mother is also a reliable support for the invincible sons who defend the inviolability of their homeland.*

***Keywords****: defense of the Fatherland, population growth, respect for the mother, demographic views*

Hamımızın Azərbaycan adlı bir Vətəni var! Qoynunda dünyaya göz açdığımız, minbir nemətindən dadıb isti qucağında boya-başa çatdığımız bu müqəddəs torpaq hər bir soydaşımız üçün qürur və iftixar mənbəyidir. Xalqımız ən qədim zamanlardan ana və Vətən məfhumlarını böyük ehtiram bəsləmiş, onların uğrunda canlarından belə keçmişlər. İnsan nəslinin artımı, doğum və ölüm kimi mühüm demoqrafik proseslər ananı, analıq missiyasını hər zaman ictimai hadisələrin önünə keçirir, bu müqəddəs, əlçatmaz varlığa daima ehtiram göstərilməsini gündəmə gətirir. Azərbaycan xalqının qan yaddaşında, həyat anlamında, ailə fəlsəfəsində Vətənə və anaya yüksək etiqad, sevgi və sayğı milli-mənəvi dəyərlər sistemində özünə möhkəm yer tutmuşdur.

Azərbaycan xalqının qədim inanclarında artımla, doğumla bağlı bir çox dəyərli və maraqlı məlumatlara rast gəlmək mümkündür. Əcdadlarımızın ailəcanlılığı, uşaqlara hədsiz sevgisi və qayğısı inanclarımızda son dərəcə geniş əks olunub [2, 181]. Tarixən azərbaycanlılar oğlan uşağına daha çox meyilli idilər. Ən qədim dövrlərdən üzü bəri əcdadlarımız oglan

uşaqlarına düşmən çəpəri kimi baxmış, ailədə, eldə bu hadisəni şadyanalıqla qeyd etmişlər. Məhz buna görə də, əski dövrlərdə ulularımız ocağa, evə gələn gəlinə ailənin nəslini artıran doğma, əziz bir üzvü kimi yanaşılmış, onun dünyaya gətirəcəyi övladlarını şər qüvvələrdən, bəd ruhlardan, xəstəliklərdən və nəzərdən qorumaq üçün bir çox tədbirlərə əl atmışlar.

Keçmişdə insanlar hamilə qadının bətnindəki uşağın oğlan və yaxud qız olmasını bilmək üçün də müxtəlif ayinlər icra etmiş, fal və ovsunla məşğul olmuşlar. Bu tədbirlərdən ən sadəsi isə qarpızla icra edilərmiş. Belə ki qarpızın kəsilib atılan başını dörd yerə bölüb tullayardılar. İnanca görə, qarpız qabıqlarının ikisi bir tərəf, o biri ikisi də bir tərəf üstə düşərdisə, belə zənn edərdilər ki, doğulacaq uşaq oğlandır, yox əgər üçü bir tərəf, biri başqa tərəf üstə düşərdisə, deyərdilər ki, doğulacaq uşaq qızdır. Və yaxud kəsilən heyvanın cəhəngini ayırar, alt çənəsinin sümüyü lüt, çılpaq çıxardısa oğlan, saçaqlı çıxardısa qızdır deyərdilər.

Kitabi Dədə-Qorqud eposunda isə doğulacaq uşağın oğlan yaxud qız olmasından asılı olmayaraq, ümumiyyətlə övlad yiyəsi olmaq, atalıq sevincini yaşamaq şərəfli və fəxarətli bir hadisə kimi təsvir edilir.

Eposda deyilir ki, xanlar xanı Bayandır xan ildə bir dəfə oğuz bəylərini qonaq çağırardı. Belə günlərin birində o, əmr edir ki, oğlu olanı ağ otağa, qızı olanı qızıl otağa, övladı olmayanı isə qara otağa aparsınlar. Övladı olmayanlara ancaq qara qoyun qovurması versinlər. Deməli, oğul-qız atası olanlar əslində, oğuz nəslini artıranlar, onun iqtisadi-siyasi və hərbi yenilməzliyini, Vətənin təhlükəsizliyini təmin edən insanlardır. Ona görə də, onlar xanlar xanı Bayandır xan tərəfindən ehtiram və hörmətlə qarşılanır, ən böyük şərəfə layiq görülürlər. Əslində, eposda təsvir edilən bu səhnə oğuzlarda dövlət səviyyəsində əhalinin artımı istiqamətində yeridilən demoqrafik siyasət kimi də dəyərləndirilə bilər. Digər tərəfdən həm sözü gedən hadisə, həm də qədim inanclarımızda hamilə qadına, yeni doğulan uşağa göstərilən qayğı ilə bağlı himayədar ruhlara, müqəddəs qüvvələrə tapınma bir daha xalqımızn ən qədim zamanlardan üzü bəri ailəyə sıx bağlı olmasından, övladcanlılığından xəbər verir.

"Dədə Qorqud" eposunda oğuzun artıb törəməsi konsepsiyası vətənin düşmənlərdən etibarlı şəkildə qorunması ideyası ilə sıx vəhdət təşkil edir. Çünki düşmən həmişə ayıq-sayıqdır. O, oğuz elinə hücum etmək, onu parçalamaq üçün daima məqam, fürsət gözləyir. Məkrli düşmən hər dəfə oğuz elinə dağıdıcı yürüşlər edərkən yurdu viran qoyur, qırx incə bel gözəli əsir aparır, uşaq-qoca demədən hamını qılıncdan keçirərək, ölkənin ən böyük sərvəti olan əhalinin sayını sürətlə azaldır. Bu isə əslində ülkənin maddi nemətlərini istehsal edən işçi qüvvəsinin azalmasi, deməli həm də iqtisadi – hərbi qüdrətinin zəifləməsi deməkdir.

"Dədə Qorqud" eposunda düşmənlər iki yerə ayrılır: Daxili düşmənlər, xarici düşmənlər. Daxili düşmənlərə Qazan xanın dayısı Aruz, Dirsə xanın 40 nökəri və Təpəgöz daxildir. Eposda Dirsə xanın 40 nökəri onunla oğlu Buğa-

cın arasını vururlar. Ata oğlunu ovda oxla vurur. Lakin, Buğac yaradan ölmür. Çünki, boz atlı, yaşıl donlu Xızır-İlyas yaralı Buğacın yanına gəlib yarasını sarıyır. Ona deyir ki, dağ çiçəyi, ana südü sənin yaranın məlhəmidir:" Qarğa-quzğun qan görüb oğlanın üstünə qonmaq istərdi. Oğlanın iki köpəkciyi vardı. Qarğayı, quzğunu qovardı, qondurmazlardı. Oğlan onda, yıxıldıqda, boz atlı, yaşıl donlu Xızır (İlyas) oğlana hazır oldu. Üç qatla yarasın əli ilə sığadı. Bu yaradan qorxma oğlan, [sənə] ölüm yoxdur. – dedi. Dağ çiçəyi ana südü ilə sənin yarana məlhəmdir – dedi, qayıb oldu.." [7, 23].

Dədə-Qorqud eposundan gətirilən bu nümunədə Xızır-İlyasın oğuzun daxili düşmənlərinin niyyətini puç edərək, Buğacı ölümün ağuşundan qurtarması, ona yaşamaq, nəslini artırmaq səadətini bəxş etdirməsi əslində xalqımızın bir daha Xızır-İlyasın qoruyucu və xilaskaredici bir kult kimi müqəddəsliyini aşkar surətdə göstərən qədim inanclar sistemi ilə bağlıdır.

Xalqımızın qədim inanclar sistemində Xıdır Nəbi dünyaya ərən oğlanlar, xatunlar gətirən anaların himayəçisi kimi də təsvir edilir. O, doğumu himayə edir. Zahı qadınlara bütün vasitələrlə kömək edir.

Xıdırın-İlyasın yaşıllıqla, baharın gəlişi, təbiətin oyanışı ilə bağlı olması onu azərbaycanlıların qədim inanclarında gəncliyin, artımın hamisi pyedestalına yüksəltmişdir. Xalq arasında yayılan qədim inanclara görə, qadın uşağı çətin doğanda mama və zahının qohum-əqrəbası doğumun asan və uğurlu olması üçün belə deyərdilər:

*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bəndə bəndədən xilas,*
*Bolluq ucuzluq,*
*Gəl qurtar balamı.*

Gətirilən nümunədən insanların yaşıllıq məbudu Xıdırdan, su məbudu İlyasdan "bəndənin bəndədən xilas etməsini" diləməsi bir daha adları çəkilən obrazların doğumu və artımı himayə etmələrini aydın şəkildə göstərir. Təbii ki, burada "bəndənin bəndədən xilası" dedikdə ananın bətnindən övladın azad olması, xilası, başqa sözlə, dünyaya gəlişi nəzərdə tutulur.

Qədim skiflərdə də analar çox vaxt igid ərənlər kimi dəfn edilərdi. Belə ki, sıravi skif qəbirlərinin çoxunda tapılan qılınclar "işçi", yəni torpağa sancılmış vəziyyətdədir. Skiflər axirət dünyasına yaşadıqları həyatın davamı kimi baxdıqları üçün qəbirləri lazımi əşyalarla, ilk növbədə qılınclarla da təchiz etmişlər. Bir çox skif qadın məzarlarında da qılıncın olması faktı onlarda anaya da Vətənin yenilməzliyi rəmzi kimi münasibət bəsləmişlər [6, 88-90].

Xalqımızın qədim inanclar sistemində demək olar ki, bütün təbiət elementləri, o cümlədən yenilməzlik və müqəddəslik rəmzi sayılan dağlar, daşlar çox zaman hamilə qadınlara qahmar çıxır, onları çirkin niyyətli insanların məkrindən, düşmənlərin xətərindən, şər qüvvələrin zərərindən qoruyur. Məsələn, qədim inanclarla bağlı mətnlərdən birində yolu dağlardan düşən, burada böyük qoyun sürüsü ilə üzləşərək, göy otlardan yeyib oynaşan

əmlikləri görən hamilə qadının könlündən quzu əti yemək keçir. Üzünü çobanlara tutaraq istəyini onlara bildirdikdə, çobanlardan biri irəli yeriyib gəlinə acıqlı-acıqlı: "Ürəyin əmlik əti istəyir? Nə olar. Otur, bu saat qardaşın sənə əmlik əti verər" – deyə, söyləyir. İnsafsız çoban tez küçüklərdən birini xəlvətcə kəsərək bişirmək istədikdə bu haqsızlığa dözməyən yoldaşı ona yanaşır: "Sən sürüyə baş çək, əmliyi özüm bişirərəm" – deyə, söyləyir. İnsaflı çoban əmliyi bişirən kimi hörmətlə gəlinə verir. Gəlin əmlik ətini iştahla yeyərək alqış edir, sonra da yoluna düzəlir.

Çoban isə süfrəni yığışdırandan sonra, nə qədər gözləyirsə yoldaşı gəlib çıxmır: "Gedim, görüm nə olub" – deyə, yoldaşının dalınca yollandı. Gəlib gördü ki, yoldaşı çiynində çomaq daşa dönüb" [3, 118].

Mifoloji mətndə ana olmaq istəyən hamilə qadına qarşı nalayiq münasibət bəsləyən çobanın hərəkətini nəsil artımını, doğumu himayə edən hami qüvvələr xəyanət kimi qiymətləndirərək onu cəzalandıraraq daşa çevirirlər. Digər mifoloji mətndə düşmənlər ölkəmizə soxularaq dinc əhaliyə qarşı amansız qətliamlar törədirlər. ..."Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər. Bu qaçhaqaçda bir hamilə gəlin də gizlənməyə yer axtarır. Üz tutur ayaqyalın, başı aşıq dağlara sarı. Düşmənlər sən demə gəlini görübmüşlər. Düşürlər arxasınca. Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilərdiki?" [3, 116]. Sözügedən mətndə deyilir ki, düşmənlər çathaçatda gəlin arını, ismətini qoruyub saxlamaq üçün göylərə yalvarış edir. Düşmən atlıları özlərini gəlinə yetirincə heyrətdən yerlərindəcə donub qalırlar. Belə ki, onların qarşısında hamilə gəlin əvəzinə hamilə qadına oxşayan uca qaya peyda olur: "Gəlin qayaya dönübmüş. Elə o vaxtdan da bu qayaya "Gəlin qayası" deyilir" [3, 116].

Burada bir məqamı xüsusilə qeyd etmək istərdim. Belə ki, sözügedən mətndə yağı düşmənlərin at belində hamilə qadını təqib etmələri, əhaliyə divan tutmaları, qətliam törətmələri səhnələrinin təfərrüatı ilə təsvir edilməsi onu məzmun və mahiyyət baxımından tarixi mənbəyə də oxşadır.

Məsələn, XIII əsrin görkəmli tarixçisi İbn əl-Əsir "Əl-kamil fi-t-tarix" adlı əsərində monqolların 1221-ci ildə Beyləqan şəhərində törətdikləri qırğınlardan bəhs edərək yazırdı: "Qılıncı sıyırıb kiçik, böyük və arvad baxmadılar. Hamısını qırdılar. Hətta hamilə arvadların qarınlarını yarıb çağalarını çıxartdılar və öldürdülər [4, 114]. İndi isə mifoloji mətnə nəzər salaq: "...Adamlar özlərini itirir, hara qaçdıqlarını bilmirlər. El-obanın çox igidləri qırıldı. Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər [3, 116].

İbn əl-Əsir monqolların qadınların mənəviyyatına toxunmasından bəhs edərək: "...Özləri də (yəni, monqol əsgərləri – A.M.) arvadları zorlayıb sonra öldürdülər". – deyə, yazır. Yenə də, həmin mifoloji mətndə oxuyuruq: "...Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilərki. Ələ keçəndə də onun başına nə gətirəcəklər, kim bilir" [3,116].

Beləliklə, mifoloji mətnin tarixi mənbə ilə müqayisəsi əslində mifoloji

və ümumiyyətlə, folklor nümunələrinin tariximizi öyrənmək üçün son dərəcə etibarlı, ilkin mənbə rolunu oynamasını bir daha aydın surətdə sübut edir. Digər tərəfdən həm sözügedən mifoloji, həm də tarixi mənbənin mətnində ölkəmizə hücum edən düşmənlərin zaman-zaman xalqımıza qarşı yeritdikləri soyqırımlarının böyük siyasi məqsədlər güddüyünü göstərir.

Mühüm geostrateji mövqedə yerləşən, sərvətlərlə zəngin ölkəmizin əhalisini fiziki cəhətdən məhv etməklə torpaqlarımıza sahib olmaq istəyənlər təbii ki, burada öz maraqlarına uyğun demoqrafik siyasət yeritməyi də başlıca vəzifələrindən biri sayıblar. Bu isə əhali artımı ilə bağlı demoqrafik məsələlərin tarixin bütün anlarında aktual olduğunu, heç zaman gündəmdən düşmədiyini aşkar surətdə göstərir. Bu mənada "Gəlin qayası" ilə bağlı mifoloji mətndə hamilə qadının elə özünə oxşayan uca qayaya çevrilməsi əslində həmin qadının bətnindəki övladla bərabər vətəni qoruyan sipərə, qalaya, qayaya, müdafiə istehkamına çevrilməsi anlamına da uyğun gəlir. Bu folklor nümunəsində: "Qadın ucalıq, ülvilik, bakirəlik, gözəllik tacıdır... Ana vətəndi, vətən də ana. Nə vətənsiz ana, nə anasız vətən..." [1,125]. Yəni düşmən hamilə qadını fiziki cəhətdən hətta məhv edə bilsə belə, onun heysiyyatını, ailəyə, vətənə olan bağlılığını, namusunu nəinki alçalda bilmir, əksinə vətəninin möhtəşəm qayasına çevrilən ananın qüdrəti, yenilməzliyi önündə kiçilir, cılızlaşır, aciz vəziyyətə düşür.

Məhz bu səbəbdən də, Azərbaycan folklorunda azərbaycanlı anası, qadını çox zaman yenilməzliyi, bədii monumentallığı ilə diqqət çəkir. Bəlkə də xalqımızın əsrlər boyu yaratdığı, ərsəyə gətirdiyi folklor nümunələrində təsvir olunan analarımız Tomirislərin, Sara xatınların, Tutibikələrin, Həcərlərin obrazlarıdırlar. Yəni, bu folklor nümunəsində dünyaya insan gətirən, oğul-qız doğan ana nəhəng, yenilməz bir qalaya çevrilərək Vətən sərhədlərini yağılardan qoruyan sipər rolunda çıxış edir. Bəlkə də özünü yağı düşməndən qoruyan hamilə qadın atlı düşmənləri ardınca salaraq onları yaşadığı, sakini olduğu kənddən, yaxud şəhərdən məqsədyönlü şəkildə uzaq salır, beləcə bətnindəki körpəsinə, o cümlədən gələcək nəsillərə Vətəni qorumaq, onun uğrunda lazım gələrsə canından belə keçmək tərbiyəsini aşılayır.

Doğma yurdumuz zəngin yeraltı və yerüstü sərvətləri ilə hər zaman düşmənlərin nəzərini cəlb etmiş, onların Vətənimizə ayaq açmalarına səbəb olmuşdur. Vətənin igid ərənləri zaman-zaman qarı düşmənlə ölüm-dirim mübarizəsinə qalxmış, canlarından belə keçərək yurdumuzun ərazi bütövlüyünü qoruyub saxlaya bilmişdirlər. Sərhədlərimizin toxunulmazlığı uğrunda gedən bu qanlı qovğalarda şəhid olan el oğullarımızı xalqımız həmişə dərin ehtiram hissi ilə anmış, xatirələrini əbədiləşdirməkdən ötəri onlar üçün simvolik qəbirlər belə hazırlanmışdılar. İçərisi boş olan belə simvolik qəbirlərdə adətən kiçik ölçülü küplərdən istifadə edilirdi. Belə küplər, qəbirlərdə böyrü üstə müxtəlif istiqamətlərdə qoyulurdu. Tarixi ədəbiyyatda genotaf adlanan bu növ qəbir abidələrinə dünyanın bir çox ölkələrində təsadüf edilir. Lakin, genotaf qəbirlərdən ibarət bütöv bir qəbiristanlığa ancaq Qarabağda

rast gəlmək olur. Sözügedən bu cür qəbiristanlığın aşkar edilməsində iştirak edən mərhum arxeoloq R.Göyüşov yazır ki, ekspedisiyamızın Qarabağda genotaflardan ibarət açdığı qəbiristanlıq dünyada nadir hadisələrdəndir. Haqqında danışdığımız qəbiristanlıq indiki Xocavənd bölgəsinin Ağoğlan məbədi ərazisindədir [5, 27].

Bəs nə üçün döyüşlərdə şəhid olan yaxud bu və ya digər səbəblər üzündən yurduna, məmləkətinə dönməyən insanlar üçün belə məzarlıqlar düzəldilirdi. Bu, ilk növbədə ən qədim zamanlarda mövcud olan dini inanclar sistemi ilə bağlı idi. Belə ki, insanlar qəbiri olmayan yaxın mərhumlarının ruhlarının rahatlıq tapa bilməməsinə inanaraq narahat olur, onlar üçün simvolik boş qəbirlər düzəldərək yanlarına yastı daşlar qoyurdular. Qədim inanclara görə, ölən insanın ruhu məhz bu daşlara hoparaq rahatlıq tapırdılar. Zaman-zaman belə boş qəbirlər ziyarət edilir, onların ətrafında müəyyən ayin və mərasimlər icra olunurdu. Başqa sözlə desək, belə genotaf qəbirlərdə şəhid ruhlarının əbədi olaraq rahat uyuması üçün mümkün olan hər şey edilirdi. Bu isə, soydaşlarımızın bəşər tarixinin ən qədim çağlarından üzü bəri torpaq uğrunda canını fəda edən insanlara rəğbət, hörmət və sevgi hisslərindən xəbər verir. Ulu əcdadlarımızın bu cəhdləri təbii ki, hər şeydən öncə düşmən qüvvələrini ram etmək, işğalçı niyyətlərini dəf etmək, düşmən tapdağından azad olunmuş vətənlərində normal həyat və məişətlərini təmin etmək ehtiyacından, yaşamaq uğrunda apardıqları çox çətin, mürəkkəb mübarizədən irəli gəlirdi.

Təbii ki, insanların yaşamaq uğrunda apardıqları mübarizə çox çətin, mürəkkəb və çoxcəhətli bir prosesdir. Belə ki, burada söhbət insan həyatının, onun daxili mənəvi aləminin tükənməzliyindən, potensial imkanlarının nəhayətsizliyindən gedir. İnsan özü ilə ətraf mühit, xəyal və istəkləri və təbii reallıqlar arasında körpü yaratmağa çalışır, özünü sirli-sehrli dünyanın ayrılmaz varlığı kimi dərk edirdi.

Soydaşlarımız ən qədim zamanlardan üzü bəri dünyaya göz açdıqları, üzərində böyüyüb, yaşadıqları ana torpağa, Vətənə həmişə ulu əcdadlarımızın müqəddəs əmanəti, ərməğanı kimi yanaşmış, onun bütövlüyünü, yenilməzliyini ən böyük amalları saymışlar. Ona görə də, yağı düşmənin işğalı ilə heç zaman barışmamışdılar. Bunu, 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində əldə etdiyimiz parlaq qələbəmiz də sübut etdi. Müzəffər ordumuz bu müharibədə bir dəfə də olsun geri çəkilmədi, bütün dünyaya Azərbaycan xalqının yenilməzliyini bir daha nümayiş etdirdi. Çünki, bu torpaqlar bizə məxsusdur. Bəşər tarixinin ən qədim çağlarından üzü bəri bu torpaqlarda ulu əcdadlarımız yaşamış, törəmiş və bizlərə də sərhədlərimizi qorumağı, Vətənimizi daim düşmənlərdən müdafiə etməyi nəsihət etmişlər.

### *Ədəbiyyat siyahısı:*

1. *Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, Şərq-Qərb, 2007,568 s.*

2. *Azərbaycan folkloru antologiyası. Bakı, AzSSR EA, 1968, 288 s.*
3. *Azərbaycan mifoloji mətnləri. Bakı, Elm, 1988, 196 s.*
4. *Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Azərbaycan Universiteti nəş-tı, 1989, 328 s.*
5. *Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993, 83 s.*
6. *Məmmədov A. Skiflərin "qılınc kultu". Tarix onun öyrənilməsi problemləri, I buraxılış. Bakı, HAHA, 1994,130 s.*
7. *Книга моего деда Коркута. Огузский героический эпос. М. - Л.: Изд-во АН СССР, 1962, 298* с.

**UOT 94 (479.24)**

## AZƏRBAYCAN RESPUBLİKASININ ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ ƏHALİNİN TƏHSİL SƏVİYYƏSİ (1991-2017)

***Leyla Vaqif qızı***
***BDU, Tarix fakültəsi, k.e.i.,t.f.d.***

***Aida Ağayeva***
***BDU, Tarix fakültəsi, əməkdaş***
***s_heydarova@mail.ru***

*Tədqiqatda 1991-2017-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin göstəriciləri və bu göstəricilərdə baş verən dəyişikliklər araşdırılmışdır. Məlum olur ki, SSRİ-nin dağılmasından sonra keçid dövrünün yaratdığı sosial və iqtisadi problemlər, Ermənistanın Azərbaycana təcavüzü, ölkədəki qeyri-sabitlik təhsil müəssisələrinə mənfi təsir göstərmiş və şagirdlərin təhsil prosesindən uzaq düşməsinə səbəb olmuşdur. Lakin XXI əsrin əvvəllərindən başlayaraq təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.*

***Açar sözlər**: Şimal-Qərb, təhsil, tədris,statistik rəqəmlər,ümumtəhsil*

## *УРОВЕНЬ ОБРАЗОВАНИЯ В СЕВЕРО-ЗАПАДНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1991-2017)*

*В исследовании отображены показатели системы образования в Азербайджанской Республике в 1991-2017 годах и изменения, происходящие в этих показателях. Выяснилось, социальные и экономические проблемы, возникшие в переходный период после распада СССР, агрессия Армении против Азербайджана, нестабильность в стране негативно отразились на образовательных учреждениях и привели к отчислению студентов из учебного процесса. Однако с начала XXI века в развитии образования был достигнут значительный прогресс.*

***Ключевые слова:** Северо-Запад, образование, обучение, статистика, общее образование*

## *LEVEL OF EDUCATION IN THE NORTH-WESTERN REGION OF AZERBAIJAN REPUBLIC (1991-2017)*

*The article examines the indicators of the education system in the Republic of Azerbaijan from 1991 to 2017 and the changes that occur in these indicators. It was found that social and economic problems that arose*

*during the transition period after the collapse of the USSR, armenia's aggression against Azerbaijan, and instability in the country had a neqative impact on educational institutions and led to the expulsion of students from the educational process. However, since the beginning of the 21 st century, significant progress has been made in the development of education.*

***Keywords:*** *North-West, education, teaching, statistics, general education*

1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra yaranmış yeni şəraitdə elm və təhsil sahəsində inkişaf və ciddi dəyişikliklər baş verdi. Ümumölkə səviyyəsində baş verən bütün bu dəyişikliklər respublikanın şimal-qərb rayonlarından da yan keçmədi. Sovet təhsil sisteminin dağıdılması, yeni təhsil sisteminə keçid və Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış böhranlı vəziyyət təhsil prosesinə də ciddi mənfi təsir göstərməkdə idi.

Azərbaycanın şimal-qərb rayonlarının əhalisinin təhsil səviyyəsini statistik məlumatlara əsaslanaraq təhlil etdikdə belə bir nəticəyə gəlirik ki, region əhalisi müstəqillik illərində də təhsilə, maariflənməyə üstünlük vermişdir. Bölgə təhsil üzrə Azərbaycanda aparıcı yerlərdən birini tutmuşdur.

Müstəqillik dövründə Azərbaycan Respublikasının simal-qərb rayonları sırasında təhsil sahəsində xüsusilə seçilən rayonlardan biri Şəki olmuşdur. Həyata keçirilən islahatlar, təhsil sahəsində reallaşdırılmış məqsədyönlü işlər nəticəsində XX əsrin sonu XXI əsrin əvvəllərində Şəkidə 65 orta, 23 əsas, 7 ibtidai məktəb fəaliyyət göstərirdi. 2000-ci ildən sonrakı dövrdə olan statistik rəqəmlərin təhlili göstərir ki, bu dövrdə nəinki təhsil prosesinə cəlb olunanların sayında, hətta tədris müəssisələrinin sayında da artım baş vermiş, Azərbaycan dövləti yüksələn iqtisadi gəlirlər hesabına tədris müəssisələrinin şəbəkəsinin artması üçün məqsədyönlü işlər həyata keçirmişdir. Belə ki, 1999/2000-ci tədris ilində Şəkidə 95, 2000/2001-ci tədris ilində 96, 2001/2002-ci tədris ilində 97, 2002/2003-cü illərdə isə 100 məktəbdə tədris prosesi həyata keçirilməkdə idi. 2004-cü ildə Şəkidə fəaliyyət göstərən 100 məktəbdən 69-u orta, 25-i əsas, 6-sı ibtidai məktəb olmuşdur. Müqayisə üçün qeyd edək ki, 1999-cu ildə rayonda olan 95 məktəbdən 65-i orta məktəb statusu daşıyırdı. Bu isə təkcə məktəblərin sayında deyil, fəaliyyət miqyasında da dəyişikliklərin baş verdiyinin göstəricisi hesab edilə bilər.

Ümumilikdə, Şəki rayonunun tədris müəssisələrinin əksəriyyətində tədris prosesi Azərbaycan dilində aparılmış, yalnız dörd məktəbdə Azərbaycan dili ilə yanaşı, rus bölmələri də fəaliyyət göstərmişdir.

Məlum olduğu kimi müstəqilliyin ilk illərində yaranmış ağır sosial və iqtisadi durum şagirdlərin təhsil prosesindən uzaq düşməsinə səbəb olmuşdu və bu proses rayonlarda xüsusi ilə sürətlə gedirdi. XX əsrin sonu XXI əsrin əvvəllərində isə artıq bu proses mənfidən müsbətə doğru dəyişməyə başlamışdı. Bunu o dövrün təhsil statistikasından da aydın görmək olar.

Belə ki, əgər 1999/2000-ci tədris ilində Şəkidə 1876 sinifdə 32.185 şagird təhsilə cəlb edilmişdisə, 2000/2001-ci tədris ilində 1.913 sinifdə 33.105 şagird təhsilə cəlb edilmişdi. 2002/2003-cü tədris ilində Şəkidə 1.983 sinifdə 33.361 şagird təhsil almaqda idi [11,s.162-175].

Sosial dövlət prinsiplərinə uyğun olaraq sağlamlıq imkanları məhdud şagirdlərin də təhsilə cəlbi xüsusi diqqət mərkəzində saxlanılmışdı. Belə ki, 1999/2000-ci tədris ilində Şəki şəhər orta ümumtəhsil internat məktəbində bu kateqoriyaya aid olan 37 şagird, 2000/2001-ci tədris ilində 57 şagird, 2001/2002-ci illərdə 54 şagird təhsilə cəlb edilmişdi. 2002/2003-cü tədris ilində bu proses daha geniş miqyas almış, sağlamlıq imkanları məhdud olan şagirdlərin nəinki internat məktəbində, ayrı-ayrı məktəblər üzrə fərdi qaydada da təhsilə cəlb edilməsinə nail olunmuşdu. Məhz bəhs olunan tədris ilində sağlamlıq imkanları məhdud olan şagirdlərin təhsilə cəlbi məqsədilə qarışıq tipli internat məktəbində 81 nəfər, 12 şəhər və 21 kənd məktəbində 104 nəfər evdə fərdi qaydada təhsilə cəlb olunmuşdu [11,s. 173-175].

Şəki ilə yanaşı regionun əsas təhsil mərkəzlərindən biri də Zaqatala rayonu idi. 1998-ci ildə Zaqatala rayonunda iki ali məktəbin filialı, 2 texnikum və 1 texniki peşə məktəbi, 66 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.

Rayonda fəaliyyət göstərən ali məktəb filialları - 1995-ci ildə açılmış Azərbaycan Aqrar Ekologiya İnstitutunun Zaqatala fakültəsi və Bakı İslam Universitetinin Zaqatala filialı idi. 1922-ci ildən fəaliyyət göstərən Ə.Rəcəbli adına Zaqatala Kənd Təsərrüfatı Texnikumu bu dövrdə rayon üçün vacib olan kənd təsərrüfatı sahələrində mütəxəssislərin hazırlanması ilə məşğul idi. 1966-cı ildən etibarən Balakəndə fəaliyyətə başlamış, XX əsrin 70-ci illərinin əvvəllərində isə Zaqatalaya köçürülmüş Politexnik Texnikumu, 1980-ci ildə fəaliyyətə başlayan Aşağı Tala kəndində yerləşən Zaqatala peşə məktəbi də XX əsrin sonunda fəaliyyətini davam etdirməkdə idi.

Bu dövrdə rayondakı ümumtəhsil məktəblərindən 4-ü ibtidai, 15-i əsas, 47-si orta məktəb idi. 1 sentyabr 1998-ci il tarixi məlumatına görə Zaqatalada 3070 müəllim 13949 şagirdin təlim-tərbiyəsi ilə məşğul olurdu.

1998-ci il məlumatına görə Zaqatalada 39 məktəbəqədər tərbiyə müəssisəsi var idi. Bu müəssisələrdə 320 müəllim və tərbiyəçi fəaliyyət göstərmişdir. Rayonun qabaqcıl məktəbəqədər tərbiyə müəssisələrinə misal olaraq Zaqatala şəhər 11, 12, 13 nömrəli, Yuxarı Tala kəndindəki 1 və 2 nömrəli, Suvagil kəndindəki 1 və 2 nömrəli, Aşağı Tala 1 nömrəli, Göyəm kənd körpələr evi uşaq bağçalarını misal göstərmək olar.

Zaqatala şəhərində şəhər 1, 2, 3, 4, 5 nömrəli məktəblər, Zaqatala şəhər internat məktəbi, Avropa dilləri təmayüllü gimnaziya, Efir yağları sovxoz zavodu orta məktəbi fəaliyyət göstərirdi. Rayonun ən böyük qəsəbələrindən olan Əliabadda 4, Danaçıda 6, Yuxarı Tala kəndində 2, Aşağı Tala kəndində 3, Muxax kəndində 3, Suvagil kəndində 2, Qıbizadə kəndində 2, Carda 2 və s. kəndlərinin hər birində müvafiq olaraq bir məktəb var idi. Daha bir məktəb 1 nömrəli Fındıqlıq sovxozu ərazisində yerləşirdi [12,s.18-65].

Bölgədə təhsilin inkişaf səviyyəsinin öyrənilməsi üçün əsas mənbələrdən biri əhali siyahıyaalmalarıdır. Müstəqil Azərbaycan Respublikasının əhalisinin ilk siyahıyaalınması 1999-cu ildə, ikinci dəfə 2009-cu ildə keçirilmişdir. Hər iki siyahıyaalma materiallarının təhlili və müqayisəsi nəticəsində Şimal-Qərb Azərbaycan əhalisinin təhsil vəziyyətini aydınlaşdırmaq mümkündür.

Təqdim etdiyimiz cədvəl 1 və 2-dən göründüyü kimi 1999-cu ildə Azərbaycanın şimal-qərb bölgəsinin 6 rayonu üzrə əhalinin 98,96%-nin təhsili olmuşdur. Şəhərlərdə yaşayan 116155 nəfərdən 115223 nəfərinin, kəndlərdə yaşayan 340651 nəfərdən 336827 nəfərinin təhsili var idi.

**Cədvəl 1**

**Əhalinin təhsil üzrə bölgüsü və yerləşməsi**
**(6 yaş və yuxarı seçmə, 1999-cu il) [1,s.17-35]**

| Ərazi | Cəmi | O cümlədən | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Təhsili olanlar | | | | | Təhsili olmayanlar | |
| | | Ali təhsilli | Orta ixtisas təhsilli | Ümumi orta təhsilli | Peşə təhsilli | İbtidai təhsilli | Oxuyub yaza bilənlər | Savadı olmayanlar |
| Azərbaycan Respublikası | 7068562 | 573574 | 680987 | 2811666 | 192189 | 903238 | 814099 | 128034 |
| Şəhər əhalisi | 3657949 | 439170 | 459309 | 1338333 | 103192 | 426470 | 390621 | 55520 |
| Kənd əhalisi | 3410613 | 134404 | 221678 | 1473333 | 88997 | 476768 | 423478 | 72514 |
| Balakən | 73792 | 3026 | 6925 | 28679 | 4708 | 9746 | 8690 | 1355 |
| Şəhər əhalisi | 8957 | 731 | 1334 | 3217 | 466 | 1096 | 906 | 137 |
| Kənd əhalisi | 64835 | 2295 | 5591 | 25462 | 4242 | 8650 | 7784 | 1218 |
| Qax | 45371 | 3402 | 5940 | 15866 | 3330 | 5730 | 5073 | 532 |
| Şəhər əhalisi | 10614 | 1310 | 1779 | 3086 | 970 | 1261 | 1074 | 97 |
| Kənd əhalisi | 34757 | 2092 | 4661 | 12780 | 2360 | 4469 | 3999 | 435 |
| Qəbələ | 71501 | 3402 | 5882 | 27360 | 3248 | 10145 | 8780 | 1483 |
| Şəhər əhalisi | 9941 | 925 | 1625 | 3291 | 525 | 1295 | 1026 | 135 |
| Kənd əhalisi | 61560 | 2477 | 4257 | 24069 | 2723 | 8850 | 7754 | 1348 |
| Oğuz | 31796 | 1918 | 3322 | 11419 | 1898 | 4139 | 4024 | 788 |
| Şəhər əhalisi | 5721 | 741 | 898 | 1745 | 229 | 713 | 710 | 79 |
| Kənd əhalisi | 26075 | 1177 | 2424 | 9674 | 1669 | 3426 | 3314 | 709 |
| Zaqatala | 95012 | 5286 | 11213 | 33561 | 5953 | 12654 | 11429 | 1212 |
| Şəhər əhalisi | 23996 | 2441 | 4156 | 6993 | 1753 | 2825 | 2897 | 316 |
| Kənd əhalisi | 71016 | 2845 | 7057 | 26568 | 4200 | 9829 | 8532 | 896 |
| Şəki | 139334 | 6506 | 13134 | 55362 | 4005 | 18142 | 15551 | 2879 |
| Şəhər əhalisi | 56926 | 3720 | 7016 | 23435 | 1253 | 6878 | 5731 | 998 |
| Kənd əhalisi | 82408 | 7286 | 6118 | 31927 | 2752 | 11264 | 9820 | 1881 |

**Cədvəl 2**

**Daimi əhalinin təhsil səviyyəsinə görə bölgüsü (10 yaş və yuxarı, seçmə, 2009-cu il) [2,s11-39]**

| Ərazi | Cəmi | O cümlədən | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Ali təhsilli | Orta ixtisas təhsilli | Orta ümumi təhsilli | Peşə təhsilli | İbtidai ümumi təhsilli | Təhsili olmayanlar | Təhsilini göstərməyənlər |
| Azərbaycan Respublikası | 7592721 | 831234 | 577309 | 3885560 | 269442 | 921993 | 17002 | 71495 |
| Şəhər əhalisi | 4078067 | 648556 | 397435 | 1897601 | 176088 | 423651 | 9810 | 27500 |
| Kənd əhalisi | 3514465 | 182678 | 179874 | 1987959 | 93354 | 498342 | 7192 | 43995 |
| Balakən | 78883 | 3940 | 5192 | 45358 | 2348 | 10181 | 64 | 733 |
| Şəhər əhalisi | 9165 | 1052 | 1042 | 4362 | 436 | 980 | 12 | 46 |
| Kənd əhalisi | 69718 | 2888 | 4150 | 40996 | 1912 | 9201 | 52 | 687 |
| Qax | 46236 | 5048 | 6083 | 18988 | 4028 | 5677 | 63 | 461 |
| Şəhər əhalisi | 10861 | 1936 | 1983 | 3547 | 1147 | 1056 | 42 | 66 |
| Kənd əhalisi | 35375 | 3112 | 4100 | 15441 | 2881 | 4621 | 21 | 395 |
| Qəbələ | 78800 | 4915 | 5199 | 42693 | 2337 | 11391 | 88 | 783 |
| Şəhər əhalisi | 27342 | 2372 | 2329 | 14476 | 959 | 3475 | 45 | 210 |
| Kənd əhalisi | 51458 | 2543 | 2870 | 28217 | 1378 | 7916 | 43 | 573 |
| Oğuz | 34238 | 2709 | 2978 | 17412 | 1752 | 4601 | 58 | 509 |
| Şəhər əhalisi | 6056 | 1043 | 914 | 2485 | 259 | 640 | 14 | 45 |
| Kənd əhalisi | 28182 | 1666 | 2064 | 14927 | 1493 | 3961 | 44 | 464 |
| Zaqatala | 102799 | 7172 | 8602 | 53179 | 5272 | 13422 | 45 | 621 |
| Şəhər əhalisi | 27087 | 3226 | 2982 | 2700 | 1826 | 3011 | 21 | 193 |
| Kənd əhalisi | 75713 | 3946 | 5620 | 40479 | 3446 | 10411 | 24 | 428 |
| Şəki | 145754 | 9933 | 15366 | 70819 | 4867 | 18702 | 146 | 1753 |
| Şəhər əhalisi | 57213 | 5818 | 8722 | 26986 | 1891 | 6145 | 71 | 517 |
| Kənd əhalisi | 88541 | 4115 | 6644 | 43833 | 2976 | 12557 | 75 | 1236 |

2009-cu il əhalinin siyahıyaalma materiallarına əsasən, region əhalisinin ümumi savadlılıq vəziyyətinə nəzər salmaq mümkündür. Bu materiallara əsasən deyə bilərik ki, 10 və yuxarı yaşda olan əhalinin Şəki rayonunda 99%-i, Zaqatala rayonunda 99,96%-i, Qəbələ rayonunda 99,89%-i, Qax rayonunda 99,87%-i, Balakən rayonunda 99,92%-i, Oğuz rayonunda 99,84%-i təhsil almışdır. Ümumilikdə 6 rayon üzrə əhalinin 99%-i təhsil almışdır.

Əhalinin təhsil vəziyyəti şəhər və kənd üzrə fərqlidir. Region üzrə 1999-cu ildə əhalinin 25,4%-i şəhərlərdə, 74,5%-i kəndlərdə, 2009-cu ildə 28,2%-i şəhərlərdə, 71,7%-i kəndlərdə məskunlaşmışdır [1,s.17-123; 2, s.56-121]. Təhsil alanların əsas hissəsini orta ümumi təhsil alanlar təşkil etmişdir.

Məlumdur ki, adətən, kənd əhalisi, əsasən, orta ümumi təhsil kifayət edən kənd təsərrüfatı sahələrində çalışır. Bu baxımdan kənd təsərrüfatı sahəsində çalışanlar arasında ali təhsilli olanlar azlıq təşkil etmişdir. Ali təhsil ixtisaslarına daha çox şəhərlərdə ehtiyac vardır. Azərbaycan Respublikası üzrə göstəricilər də bunu təsdiq edir. Məsələn, 2009-cu ildə respublika üzrə 831 min 234 nəfər ali təhsilli əhalinin 648 min 556 nəfəri şəhərdə, 182 min 678 nəfəri kənddə yaşamışdır. Amma maraqlıdır ki, ümumilikdə götürdükdə şimal-qərb regionunda əhalinin əsas hissəsi kəndlərdə məskunlaşdığı üçün şəhərlərdə vəziyyət fərqli olmuşdur. Məsələn, 1999-cu il materiallarına əsasən region üzrə ali təhsilli olanların 46%-ni şəhər əhalisi, 54%-ni kənd əhalisi təşkil edirdi. 2009-cu il materiallarına əsasən, ali təhsil alanlar Şəkidə şəhərdə, Zaqatala, Qəbələ, Qax, Balakən və Oğuzun kəndlərində məskunlaşmışdılar. Ali təhsili olanlar region üzrə 1999-cu ildə 456 min 806 nəfərin 5,15%-ni, 2009-cu ildə 486 min 710 nəfərin 6,9%-ni, şəhər əhalisinin 11,2%-ni, kənd əhalisinin 5,2%-ni təşkil etmişdir. Buna baxmayaraq, 1999-cu il materialları əsasında belə qənaətə gəlirik ki, kənd əhalisi arasında Şəkidə 82 min 408 nəfərdən 1223 nəfərin-1,48%, Qəbələdə 61 min 560 nəfərdən 700 nəfərin-1,37%, Balakəndə 64 min 835 nəfərdən 744 nəfərin-1,14%, Oğuzda 26 min 75 nəfərdən 445 nəfərin-1,7% savadı olmamışdır. Şəhər əhalisi arasında savadı olmayanlar daha az olmuşdur. Məsələn, 1999-cu ildə Şəkidə 56 min 926 nəfərdən 559 nəfərinin, Zaqatalada 23 min 996 nəfərdən 186 nəfərinin təhsili olmamışdır. Ümumiyyətlə, təhsili olmayanlar 1999-cu ildə əhalinin 1,04%-i, 2009-cu ildə 0,09%-ni təşkil edirdi. 2009-cu il siyahıyaalma materiallarına əsasən kənd əhalisi arasında təhsili olmayanlara aid göstəricilər aşağıdakı kimi idi:

- Şəkidə 88541 nəfərin 75 nəfəri (0,08%; 32 kişi, 52 qadın);
- Qəbələdə 51458 nəfərin 43 nəfəri (0,08%; 20 kişi, 23 qadın);
- Balakəndə 69718 nəfərin 52 nəfəri (0,07%; 23 kişi, 29 qadın);
- Oğuzda 28182 nəfərin 44 nəfəri (0,15%; 14 kişi, 30 qadın).

Şəhər əhalisi arasında təhsilli olmayanlar əsasən Qəbələdə (45 nəfər -17 kişi, 28 qadın) və Qaxda (4 nəfər -19 kişi, 23 qadın) olmuşdur [13, s.171]. Region üzrə təhsili olmayan əhalini cinslər üzrə də təhlil etmək mümkündür.

2009-cu il əhalini siyahıyaalma materiallarına əsasən təhsili olmayan kişilər yaşı 10-dan yuxarı olan əhalinin ümumi sayına nisbətdə Qəbələdə daha çox olub: 39495 nəfərin 27 nəfəri (0,09%), Qaxda 22188 nəfərdən 27 nəfər kişinin (0,12%), Balakəndə isə 38400 nəfərdən 27 nəfər kişinin (0,07%) təhsili yox idi. Qəbələdə 39305 nəfər qadından 51 nəfərinin (0,12%), Oğuzda isə 17208 nəfər qadında 39 nəfərinin (0,22%) təhsili yox idi [13,s.171].

Ümumi statistik rəqəmlərdə olduğu kimi, bu dövrdə Azərbaycan Respublikasının şimal-qərb rayonlarında təhsilin ayrı-ayrı pillələri üzrə aparılmış statistikada da öz əksini tapmışdır. Xüsusən 2003-cü ildən sonrakı mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü təhsil siyasətinin nəticəsi şimal-qərb bölgəsinin təhsil xəritəsində də ciddi kəmiyyət və keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır.

2003-cü ildən sonrakı mərhələdə təhsil prosesinin daha fundamental təşkili üçün məktəbəqədər müəssisələrdə təlimin keyfiyyətinin yeni mərhələyə yüksəldilməsi üçün işlər həyata keçirilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının şimal-qərb bölgəsində ümumilikdə 202 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərirdi.

2004-cü ilin sonunda Şəki rayonunda 61, Zaqatala rayonunda 39, Qax rayonunda 36, Balakən rayonunda 24, Qəbələ rayonunda 23, Oğuz rayonunda 19 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi. Müvafiq olaraq məktəbəqədər müəssisələrə ən çox Şəki rayonunda 2558 nəfər uşaq cəlb edilmişdi [3,s.163-192].

2007-ci ildə Azərbaycanın şimal-qərb bölgəsi üzrə məktəbəqədər müəssisələrin sayı 204 idi ki, bu müəssisələrdə 9696 nəfər təlim prosesinə cəlb edilmişdi. Şəki rayonunda 62, Zaqatala rayonunda 39, Qax rayonunda 35, Balakən rayonunda 25, Qəbələ rayonunda 23, Oğuz rayonunda 19 belə müəssisə fəaliyyət göstərirdi [4 ,s.167-177].

2008-ci ilin əvvəlinə olan məlumata görə Şəki-Zaqatala iqtisadi rayonu üzrə 200 məktəbəqədər təhsil müəssisəsi mövcud idi ki, bu müəssisələrdə də 9447 nəfərin təlim-tərbiyə prosesi həyata keçirilirdi. Bəhs olunan dövrdə Balakən rayonu üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı 25, onlardakı uşaqların sayı 1330 nəfər, Qax rayonu üzrə: məktəbəqədər təhsil müəssisələrinin sayı 34, onlardakı uşaqların sayı 1720 nəfər, Qəbələ rayonu üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı 23, onlardakı uşaqların sayı 718 nəfər, Oğuz rayonu üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı 19, onlardakı uşaqların sayı 1010 nəfər idi. Analoji dövrdə Zaqatala rayonu üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı 39, onlardakı uşaqların sayı 2140 nəfər, Şəki rayonu üzrə: məktəbəqədər təhsil müəssisələrinin sayı 60, onlardakı uşaqların sayı 2529 idi [5,s.167].

Ümumtəhsil müəssisələrinin statistik müqayisəsi də bu istiqamətdə yüksələn xətti müşahidə etməyə imkan verir. Belə ki, 2004-cü ildə regionda 372 dövlət orta ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Şəki rayonunda 100 (şagirdlərin sayı 31971), Qəbələ rayonunda 68 (şagirdlərin sayı 21346),

Zaqatala rayonunda 66 (şagirdlərin sayı 23368), Qax rayonunda 57 (şagirdlərin sayı 10711), Balakən rayonunda 48 (şagirdlərin sayı 16872), Oğuz rayonunda 33 (şagirdlərin sayı 9029) dövlət ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu dövrdə bütün şimal-qərb bölgəsində yalnız 1 qeyri-dövlət ümumtəhsil müəssisəsi vardı ki, bu da Şəkidə (şagirdlərin sayı 201) yerləşirdi [3, s.163-192].

2007-ci ildə də regionda fəaliyyət göstərən orta ümumtəhsil müəssisələrinin sayında dəyişiklik baş vermişdi. Statistik rəqəmlərdən aydın olur ki, bu dövrdə Oğuz rayonunda daha bir məktəb fəaliyyətə başlamış və regiondakı dövlət orta ümumtəhsil müəssisələrinin sayı 373-ə çatmışdı. Dİgər rayonlarda təhsil müəssisələrin coğrafiyası olduğu kimi qalmışdı. Bu dövrdə sağlamlıq imkanları məhdud uşaqlar üçün şimal-qərb regionunda 1 xüsusi internat məktəbi fəaliyyət göstərirdi. Bu məktəb Şəkidə yerləşirdi [4,s.167-203]. Qeyri-dövlət ümumtəhsil müəssisələrinin sayında da da dəyişiklik baş verməmişdi.

2003-cü ildən ötən beş illik müddətdə orta təhsil sahəsində də ciddi dəyişikliklər baş vermişdi. 2007/2008-ci tədris ilinin əvvəlinə olan dövlət gündüz ümumtəhsil məktəbləri ilə bağlı məlumatlarda göstərilirdi ki, Şəki-Zaqatala iqtisadi rayonunda yerləşən ümumtəhsil məktəblərinin sayı 375, onlarda təhsil alan şagirdlərin sayı 101 min 866 nəfər idi. Balakən rayonu üzrə ümumtəhsil məktəblərinin sayı 49 idi ki, onlarda 14 min 878 şagird təhsil alırdı. 57 ümumtəhsil məktəbinin fəaliyyət göstərdiyi Qax rayonunun məktəblərində 9416 nəfər təhsil alırdı. Qəbələ rayonu üzrə ümumtəhsil məktəbləri 68, onlarda şagirdlərin sayı 19 min 761 nəfər idi. Oğuz rayonununun 34 ümumtəhsil məktəbində 8146 nəfər təhsil alırdı. Zaqatala rayonu üzrə ümumtəhsil məktəbləri 66, onlarda şagirdlərin sayı 21 min 201 nəfər idi. Şəki rayonu üzrə ümumtəhsil məktəblərin sayı 569 nəfər idi ki, onlarda 140 min 254 nəfər təhsil alırdı [5,s.177].

Sosial dövlət prinsiplərinə uyğun olaraq regionda sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi internat məktəbi də fəaliyyət göstərirdi. Məktəb Şəki şəhərində yerləşir və burada 45 nəfər təhsil alırdı. Qeyri-dövlət gündüz ümumtəhsil məktəblərinə gəlincə əvvəlki illərdə olduğu kimi 2008-ci ildə bölgədə yalnız Şəkidə belə məktəb fəaliyyət göstərir və burada 240 şagird təhsil alırdı [5,s.188].

Bəhs olunan dövrdə Azərbaycan Respublikasının şimal-qərb bölgəsinə aid olan rayonlarda orta ixtisas təhsili müəssisələri də mütəxəssislərin yetişdirilməsində əhəmiyyətli rol oynamışlar. 2005-2006-cı tədris ilinin əvvəlinə olan statistik rəqəmlər göstərir ki bu dövrdə ümumilikdə Şəki-Zaqatala iqtisadi rayonu cəmi 5 belə təhsil müəssisəsi (4-ü Şəkidə, 1-i Zaqatalada) fəaliyyət göstərirdi ki, bu tədris müəssisələrinə də 2005-2006-cı tədris ilində 2585 nəfər qəbul olunmuş, 805 nəfər isə regionda yerləşən orta-ixtisas təhsil müəssisələrini bitirmişdilər.

2007/2008-ci tədris ilinin əvvəlinə bölgədəki dövlət ixtisas təhsil

müəssisələri üzrə göstəricilər aşağıdakı kimi idi. Şəki Dövlət Texniki Kollecinə 117 nəfər qəbul olmuş, 123 nəfər isə kolleci bitirmişdi. Tədris ilində bu müəssisədə təhsil alanların sayı 388 nəfər olmuşdu. Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecinə 56 nəfər qəbul olmuş, 28 nəfər isə bu təhsil müəssisəsindən məzun olmuşdu. Tədris ilində təhsil alan tələbələrin sayı 218 nəfər idi. Analoji dövrdə Şəki Musiqi Texnikumuna 82 nəfər qəbul olmuş, buranı 92 nəfər bitirmiş, tələbələrin sayı isə 323 nəfər olmuşdu. Şəki Pedaqoji Texnikumu 2007/2008-ci tədris ilində 252 yeni tələbə qəbul etmiş, 315 nəfər isə bu təhsil müəssisəsini bitirmişdi. Ümumilikdə bu dövrdə Pedaqoji Texnikumda 1231 nəfər oxuyurdu. Eyni dövrdə Şəki Tibb Məktəbinə qəbul olunanların sayı 120, məzunların sayı 131, tələbələrin sayı 311 olmuşdur [5,s.111-113].

2007/2008-ci tədris ilinin əvvəlinə olan məlumata görə orta ixtisas təhsil müəssisələrinin və onlarda təhsil alan şagirdlərin sayı aşağıdakı kimi idi: Şəki-Zaqatala iqtisadi rayonu üzrə təhsil müəssisələrinin sayı 5, qəbul olanların sayı – 627, tələbələrin sayı – 2471, buraxılanların sayı – 689; Zaqatala rayonu üzrə - təhsil müəssisələrinin sayı – 1, qəbul olanların sayı – 56, tələbələrin sayı – 218, buraxılanların sayı – 28; Şəki rayonu üzrə - təhsil müəssisələrinin sayı - 4, qəbul olanların sayı -571, tələbələrin sayı - 2253, buraxılanların sayı – 661 olmuşdur.

Məktəbəqədər və orta ümumtəhsil müəssisələrində təlim və tədris prosesinin yüksəlməsi, maddi-texniki bazanın güclənməsi təbii olaraq, ali təhsil müəssisələrinə qəbul olunanların sayına da təsir göstərirdi. Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə 2005/2006-ci tədris ilinin əvvəlinə dövlət ali məktəbləri üzrə Şəki-Zaqatala iqtisadi rayonundan qəbul olanların sayı 223 nəfər olmuşdu. Dövlət statistikasında bu dövrdə bölgədə ali təhsil müəssisələrində təhsil alan tələblərin sayı 1012 nəfər, məzun olanların sayı isə 104 nəfər göstərilmişdir [3,s.190-192].

2006-2007-ci tədris ilində bölgənin ali təhsil statistikasında geriləmə müşahidə olunmuşdur. Belə ki, bu dövrdə Şəki-Zaqatala iqtisadi rayonu üzrə dövlət ali təhsil müəssisələrinə qəbul olanların sayı 174, tələbələrin sayı 915, buraxılanların sayı 260 olmuşdur. Qeyd etmək lazımdır ki, məktəbəqədər və orta ümumtəhsil müəssisələri ilə bağlı statistika ümumilikdə şimal-qərb regionu rayonları üzrə aparıldığı halda, ali təhsil statistikası əsasən Şəki-Zaqatala iqtisadi rayonu üzrə aparılmışdır. Azərbaycanlı gənclərin xarici ölkələrdə yüksək səviyyəli mütəxəssis kimi hazırlanması məqsədi ilə qəbul edilmiş dövlət proqramlarından şimal-qərb bölgəsinə də pay düşmüşdür. Belə ki, 2006/2007-ci tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı: Şəki-Zaqatala iqtisadi rayonu üzrə 52 nəfər olmuşdur. Çin Xalq Respublikasında 1, İtaliyada 1, Kiprdə 1, Rusiyada 11, Türkiyədə 36, Ukraynada 2 nəfər təhsil almağa göndərilmişdi. Balakən rayonundan 5 (Türkiyədə 4, Ukraynada 1), Qax rayonundan 8 (Kiprdə 1, Rusiyada 1, Türkiyədə 5, Ukraynada 1), Qə-

bələ rayonundan 4 (İtaliyada 1, Türkiyədə 3), Oğuz rayonundan 2 (Rusiyada 1, Türkiyədə 1), Zaqatala rayonundan 7 (Türkiyədə 7), Şəki rayonundan 26 (Çin Xalq respublikası 1, Rusiyada 9, Türkiyədə 16) nəfər xaricdə təhsil alırdı [4,s.167-203].

2007-2008-ci tədris ilində Şəki-Zaqatala regionunda 1 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bəhs olunan dövrdə bu regiondakı ali təhsil müəssisələrinə 189 nəfər qəbul olunmuş, 284 nəfər isə ali təhsil müəssisələrini bitirmişdi.

2007/2008-ci tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı Şəki-Zaqatala iqtisadi rayonu üzrə ümumilikdə 47 nəfər idi [5, s.206].

Təbii ki, əvvəlki illərdə formalaşdırılan infrastruktur gələcəkdə təhsilin inkişafı üçün yeni imkanlar açırdı. 2009-cu ilin əvvəlinə Şəki-Zaqatala iqtisadi rayonunda 198 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bu müəssisələrdə də 9632 nəfər təlim və təhsil alırdı. Məktəbəqədər təhsil müəssisələrinin sayına görə bölgənin rayonları arasında Şəki rayonu birinci sırada idi (59 məktəbəqədər təhsil müəssisəsi). Zaqatalada 38, Qaxda 36, Balakəndə 25, Qəbələdə 22, Oğuzda 18 belə müəssisə fəaliyyət göstərirdi. Bölgənin ən çox məktəbəqədər təhsil müəssisəsinə malik olan Şəkidə bu müəssisələrdə 2542 nəfər, belə müəssisələrin sayına görə sonuncu yerdə duran Oğuzda isə 935 nəfər təhsil alırdı.

Məktəbəqədər təhsilin səviyyəsinin yüksəlməsi müvafiq olaraq ümumi orta təhsilin də yüksəlişinə təkan verirdi. 2008-2009-cu illərdə şimal-qərb bölgəsində fəaliyyət göstərən 374 dövlət əyani ümumi təhsil məktəbindən 49-u Balakən, 57-si Qax, 67-si Qəbələ, 34-ü Oğuz, 100-ü Şəki, 67-si Zaqatala rayonlarının payına düşürdü ki, bu məktəblərdə də ümumilikdə 96 min 880 nəfər şagird təhsil alırdı. Analoji dövrdə bölgədə yeganə qeyri-dövlət əyani ümumi təhsil müəssisəsi Şəki şəhərində fəaliyyət göstərirdi ki, bu təhsil müəssisəsində də 220 nəfər təhsil almaqda idi. Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəblərinin fəaliyyəti də diqqət mərkəzində idi. Bu dövrdə bölgədə 1 xüsusi məktəb fəaliyyət göstərirdi ki, bu məktəbdə də 17-si qız olmaqla ümumilikdə 38 şagird təhsil alırdı.

2008/2009-cu tədris ilinin əvvəlinə Şəki-Zaqatala iqtisadi rayonu üzrə 5 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bu təhsil müəssisələrində də 2440 nəfər tələbə təhsil alırdı. Ali təhsil müəssisələrinin sayında, eləcə də respublikanın ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin sayında da inkişaf müşahidə edilməkdə idi. Belə ki, əgər 2008-ci ilə qədər bölgədə bir ali təhsil müəssisəsi fəaliyyət göstərirdisə, 2008-2009-cu tədris ilində belə müəssisələrin və ya onların filiallarının sayı 2-yə çatmışdı. Əgər 2008-ci ildə bölgənin təhsil müəssisələrini bitirmiş 189 nəfər elə bu bölgədə fəaliyyət göstərən ali təhsil müəssisələrinə qəbul olunmuşdusa, 2009-cu ildə bu ali məktəblərə qəbul olunanların sayı 255 nəfər idi.

2008-ci ildə əyani ümumi təhsil müəssisələrini bitirmiş və həmin il

ölkənin ali təhsil müəssisələrinin sayı isə şimal-qərb bölgəsinin rayonları üzrə ümumilikdə 1139 (oğlanlar 616; qızlar 523) nəfər olmuşdu. Balakən rayonu üzrə - 103 (oğlanlar 52; qızlar 51), Qax rayonu üzrə - 126 (oğlanlar 66; qızlar 60), Qəbələ rayonu üzrə - 216 (oğlanlar 115; qızlar 101), Oğuz rayonu üzrə - 124 (oğlanlar 72; qızlar 52), Şəki rayonu üzrə - 410 (oğlanlar 238; qızlar 172), Zaqatala rayonu üzrə - 160 (oğlanlar 73; qızlar 87) ölkə ali təhsil müəssisələrinə qəbul olunmuşdu.

2008/2009-cu tədris ilinin əvvəlinə xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan tələbələrin sayı bölgə üzrə 50 nəfər idi. Bu tələbələr ABŞ, Almaniya, Belarus, Çin, Gürcüstanda, Fransa kimi ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alırdılar [6, s.216-269].

2009-cu ilin əvvəlinə Şəki-Zaqatala iqtisadi rayonunda 198 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərdiyi halda 2013-cü ildə bu rəqəm 201 olmuşdu. Əgər 2009-cu ilin əvvəlində bölgədəki məktəbəqədər təhsil müəssisələrində 9632 nəfər təlim və təhsil alırdısa, 2013-cü ilin əvvəlində bu rəqəm 10 min 110 nəfərə çatmışdı. Bu bölgənin iqtisadi durumu yüksəldikcə bölgə əhalisinin sayının da sürətlə artmasından xəbər verirdi. 2013-cü ilin əvvəlinə olan məlumatlar üzrə müqayisə apardığımız zaman müəyyən edə bilirik ki, bu dövrdə məktəbəqədər təhsil müəssisələrinin sayına görə bölgənin rayonları arasında Şəki rayonu birinciliyini qoruyub saxlamaqda idi (61 məktəbəqədər təhsil müəssisəsi). Zaqatalada 39, Qaxda 36, Balakəndə 25, Qəbələdə 22, Oğuzda 18 belə müəssisə fəaliyyət göstərirdi.

2012-2013-cü illərdə Şəki-Zaqatala bölgəsində fəaliyyət göstərən 373 dövlət əyani ümumi təhsil məktəbində 81 min 491 şagird təhsil alırdı. Bu məktəblərdən 49-u Balakən, 56-sı Qax, 68-i Qəbələ, 34-ü Oğuz, 99-u Şəki, 67-si Zaqatala rayonlarının payına düşürdü. Analoji dövrdə bölgədə yeganə qeyri-dövlət əyani ümumi təhsil müəssisəsi Şəki şəhərində fəaliyyət göstərirdi ki, bu təhsil müəssisəsində də 179 nəfər təhsil almaqda idi. Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəblərinin fəaliyyəti də diqqət mərkəzində idi. Bu dövrdə bölgədə 1 xüsusi məktəb fəaliyyət göstərirdi ki, bu məktəbdə də 15-i qız olmaqla ümumilikdə 57 şagird təhsil alırdı.

2012-2013-cü tədris ilinin əvvəlinə Şəki-Zaqatala iqtisadi rayonu üzrə 5 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bu təhsil müəssisələrində də 2291 nəfər tələbə təhsil alırdı. Bu dövrdə bölgədə 2 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. 2013 – cü ildə əyani ümumu təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin statistikası isə aşağıdakı kimi idi: əyani tam orta təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin sayı – 1321, o cümlədən, əyani tam orta təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin sayı Balakən rayonu üzrə 153,

Zaqatala rayonu üzrə 207, Qax rayonu üzrə 146, Şəki rayonu üzrə 377, Oğuz rayonu üzrə 155, Qəbələ rayonu üzrə 283 nəfər.

2012-2013-cü tədris ilinin əvvəlinə xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan tələbələrin sayı bölgə üzrə 79 nəfər idi. Bu tələbələr ABŞ, Avstraliya, Almaniya, Böyük Britaniya, Belarus, Çin, Gürcüstanda, Fransa kimi ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alırdılar [6, s.216-269]. Göründüyü kimi nəinki xaricə təhsil alan tələbələrin sayı artmış, həm də azərbaycanlı tələbələrin təhsil aldıqları ölkələrin coğrafiyası genişlənmişdi [7, s.222-276].

2013-cü ildən sonrakı dövrdə də təhsil sahəsində bir sıra nəzərəçarpacaq dəyişikliklər baş vermişdi. 2014-cü ilin əvvəlinə Azərbaycan Respublikası iqtisadi və inzibati rayon və şəhərləri üzrə dövlət və qeyri-dövlət məktəbəqədər təhsil müəssisələri ilə bağlı statistikada göstərilirdi ki, bu dövrdə Şəki-Zaqatala iqtisadi rayonu üzrə - məktəbəqədər təhsil müəssisələrinin sayı 202, onlarda uşaqların sayı 9893, məktəbəqədər təhsil müəssisələrində 100 yerə düşən uşaqların sayı isə 101 olmuşdur [8, s.226-228]. 2015-ci ildə isə bölgə üzrə məktəbəqədər təhsil müəssisələrinin sayı 204, onlarda uşaqların sayı 9989, məktəbəqədər təhsil müəssisələrində 100 yerə düşən uşaqların sayı isə 100 idi [9, s.228-230].

2016-cı ildə bölgədəki dövlət və qeyri-dövlət məktəbəqədər təhsil müəssisələrinin sayında dəyişiklik baş verməmişdi. Lakin bu müəssisələrdə uşaqların sayı artaraq 10 min 23 nəfərə çatmışdı [10, s.232-235].

2014-cü ildə Balakən rayonu üzrə - məktəbəqədər təhsil müəssisələrinin sayı 25, Zaqatala rayonu üzrə 40, Qax rayonu üzrə 36, Şəki rayonu üzrə 61, Oğuz rayonu üzrə 18, Qəbələ rayonu üzrə 22 olmuşdu [8, s.228-230].

2015-ci ilin əvvəlinə olan məlumata görə Zaqatala rayonunda 1 yeni məktəbəqədər müəssisə fəaliyyətə başlamış və beləliklə də bu cür müəssisələrin sayı 41-ə çatmışdı. Qəbələ rayonunda isə bu rəqəm 22-dən 23-ə yüksəlmişdi. Digər rayonlarda bu cür təhsil müəssisələrinin sayında dəyişiklik baş verməmişdi [9, s.230-232].

2013/2014-cü tədris ilinin əvvəlinə dövlət və qeyri-dövlət əyani ümumi təhsil müəssisələrinin sayı 371 idi ki, bu müəssisələrdə də 80 min 113 nəfər şagird təhsil alırdı. Balakən rayonu üzrə 49, Zaqatala rayonu üzrə 67, Qax rayonu üzrə 54, Şəki rayonu üzrə 99, Oğuz rayonu üzrə 34, Qəbələ rayonu üzrə 68, orta ümumtəhsil müəssisəsi fəaliyyət göstərirdi. Balakən rayonunun dövlət ümumtəhsil müəssisələrində 11 min 699, Zaqatala rayonunun dövlət ümumtəhsil müəssisələrində 16 min 15, Qax rayonundakı eyni kateqoriyalı müəssisələrində 6976, Şəki rayonunda 22 min 954, Oğuz rayonu üzrə 6007, Qəbələ rayonu üzrə isə 16 min 315 şagird təhsil alırdı. Bəhs olunan dövrdə sağlamlıq imkanları məhdud uşaqlar üçün bölgədə əvvəlki illərdə olduğu kimi 1 xüsusi məktəb fəaliyyət göstərirdi [8, s.226-281].

2014/2015-cü tədris ilinin əvvəlinə Şəki-Zaqatala bölgəsi üzrə əyani ümumi təhsil müəssisələrinin sayı 371 idi. Bu tipli təhsil müəssisələrində 80

min 188 şagird təhsil alırdı. Regionda ən çox əyani ümumtəhsil məktəbi Şəki rayonunda yerləşirdi (98 əyani orta ümumtəhsil məktəbi). Bu rayonun məktəblərində 23 min 359 nəfər şagird təhsil alırdı. Oğuz rayonu isə həm ümumtəhsil müəssisələrinin sayına (34), həm də təhsil alan şagirdlərin sayına görə (5897 nəfər) bölgə rayonları arasında sonuncu yerdə dururdu [9, s.228-283].

2015/2016- ci tədris ilinin əvvəlinə bölgədəki dövlət əyani ümumi təhsil müəssisələrinin sayı 369-a enmişdi, ki bu müəssisələrdə də 80 min 493 nəfər oxuyurdu. Balakən rayonu üzrə 49 əyani ümumi təhsil müəssisəsində 11 min 807, Zaqatala rayonu üzrə 67 əyani ümumi təhsil müəssisəsində 16 min 237, Qax rayonu üzrə 54 əyani ümumi təhsil müəssisəsində 6780, Şəki rayonu üzrə 97 əyani ümumi təhsil – müəssisəsində 23 min 740 nəfər təhsil alırdı. Oğuz rayonu üzrə 34 əyani ümumi təhsil məktəbi var idi ki, onlarda da 5843 nəfər şagird təhsil alırdı. Qəbələ rayonu üzrə 68 əyani ümumi təhsil müəssisəsində 16 min 86 nəfər təhsil alırdı. Şəki şəhərində fəaliyyət göstərən sağlamlıq imkanları məhdud uşaqlar üçün məktəbdə 49 şagird təhsil alırdı [10, s.235-287].

2013-2016-cı illərdə bölgədəki dövlət və qeyri-dövlət orta ixtisas təhsil müəssisələrinin sayında dəyişiklik baş verməmişdi. Qeyd etmək lazımdır ki, bu dövrdən etibarən daha çox ali təhsil müəssisələrinə tələb və maraq var idi. 2013/2014-cü tədris ilinin əvvəlinə bölgədə dövlət və qeyri-dövlət ali təhsil müəssisələrinin sayı 5-ə çatmışdı. Bu müəssisələrə qəbul olanların sayı – 806, tələbələrin sayı – 2503, bitirənlərin sayı – 574 nəfər idi. Ali təhsil müəssisələrinin filialları əsasən Şəki və Zaqatala rayonlarında mərkəzləşmişdilər.

2014-cü ildə əyani ümumu təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin statistikası aşağıdakı kimi idi. Şəki-Zaqatala iqtisadi rayonu üzrə əyani tam orta təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin sayı - 1536 olmuşdur. 2013/2014-cü tədris ilinin əvvəlinə Azərbaycan Respublikasının şimal-qərb bölgəsindən xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan tələbələrin sayı ümumilikdə 106 nəfər olmuşdur. Bu tələbələr ABŞ, Avstraliya, Avstriyada, Almaniya, Böyük Britaniya kimi ölkələrin ali təhsil ocaqlarına göndərilmişdilər [8, s.270-281].

2014/2015-ci tədris ilinin əvvəlinə bölgədə 2 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu ali təhsil müəssisələrinə 351 tələbə qəbul edilmiş, bəhs olunan dövrdə tələbələrin sayı 1256, bitirənlərin sayı 250 nəfər idi.

2015-ci ildə əyani ümumu təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin sayı 1902 nəfər idi ki, onlardan da 934 nəfərini kişilər, 968 nəfərini qadınlar təşkil edirdi. Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan tələbələrin sayı ilbəil artmaqda idi. Belə ki, bəhs etdiyimiz dövrdə bölgədən 112 tələbə Avstraliya,

Almaniya, Belçika, Böyük Britaniyanın ali təhsil ocaqlarına yüksək səviyyəli kadr kimi yetişmək üçün göndərilmişdi [9, s.228-283].

2016-cı ildə əyani ümumu təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin 1981 nəfər idi ki, onlardan 927 nəfəri kişi, 1054 nəfəri qadın idi. Balakən rayonundan 243 nəfər, Zaqatala rayonundan 285 nəfər, Qax rayonundan 213 nəfər, Şəki rayonundan 591 nəfər, Oğuz rayonundan 214 nəfər, Qəbələ rayonundan 435 nəfər, ali təhsil müəssisələrinə qəbul olunmuşdurlar. 2014/2015-ci tədris ilinin əvvəlinə xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan tələbələrin sayı Şəki-Zaqatala iqtisadi rayonu üzrə 7 nəfər idi. Onlardan 6-sı Kanadada, 1-i isə Koreya respublikasında təhsil alırdı [10, s.232-287].

Beləliklə, müstəqillik illərində Azərbaycanın Şimal-qərb bölgəsində təhsilin vəziyyətinin statistik rəqəmlər üzrə təhlili sübut edir ki, bu dövrdə Azərbaycan Respublikasının şimal-qərb bölgəsi təhsilin və maarifin inkişafında Azərbaycanda öncül yerlərdən birini tutmuşdur. Bölgədə istər ümumtəhsil, istər orta ixtisas, istər texniki peşə, istərsə də ali təhsil müəssisələrində böyük inkişaf getmiş və əhali arasında savadlılıq dərəcəsi günü-gündən yüksəlmişdir. Bölgədə təhsilin inkişaf dərəcəsini sübut edən amillərdən biri də dövlət hesabına xaricdə təhsil alan tələbələrin sayının ildən-ilə artması olmuşdur. Bu bölgədən olan abituriyentlər təhsilin müxtəlif profilləri üzrə dünyanın aparıcı universitetlərinə qəbul olunmuş və təhsillərini uğurla davam etdirmişlər. Bu da bölgənin gələcək inkişafı üçün yaxşı perspektivlər vəd edir.

***Ədəbiyyat siyahısı:***

1. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 1999-cu il. Cild II, I hissə. Bakı: Səda. 2000, 745 s.*
2. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Əhalinin Siyahıyaalınması 2009-cu il. Cild II. Bakı: 9 saylı kiçik müəssisə nəşriyyatı, 2010, 580 s.*
3. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2005.*
4. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2007*
5. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2008*
6. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2009*
7. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2013*
8. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə,*

*2014*
9. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2015*
10. *Azərbaycanda təhsil, elm və mədəniyyət. Rəsmi nəşr. Statistik məcmuə, 2016*
11. *Əmrah M. Mais qızı M. Şəkidə təhsil: tarix, inkişaf yolu. Bakı: ADPU-nun mətbəəsi, 2014, 522 s.*
12. *İsmayılov H. Zaqatala maarifi. Bakı: Azərnəşr,1999,288 s.*
13. *Vaqifqızı L. Azərbaycanın Şimal-Qərb rayonları əhalisinin təhsil səviyyəsi (XX əsrin sonu-XXI əsrin əvvəlləri) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı: 2015 №3, s.167-173.*

**UOT 94 (479.24); 930:314**

# TOVUZ RAYONUNUN İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ VƏ ƏHALİNİN SAY DİNAMİKASI (1999 VƏ 2009-CU İL SİYAHIYAALMA MATERİALLARI ƏSASINDA)

***İlham Məmmədov***
***BDU, Tarix fakültəsi, elmi işçi***
***mammadov-1965@mail.ru***

*Təqdim olunan məqalədə Azərbaycanın türk tayfalarının daha sıx yaşadığı bölgələrdən biri Tovuz rayonunun inzibati - ərazi bölgüsü haqqında məlumat verilir. Burada rayon haqqında ümumi məlumatlar əks olunmuş şəhər, kənd və qəsəbələr, əhalinin say tərkibi və s. haqqında məlumat verilir.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Tovuz rayonu, Tovuz şəhəri, ərazi, əhali*

## *АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕ ДЕЛЕНИЕ ТОВУЗСКОГО РАЙОНА И ЧИСЛЕННАЯ ДИНАМИКА НАСЕЛЕНИЯ (НА ОСНОВЕ СТАТИСТИЧЕСКИХ ДАННЫХ 1999 и 2009 гг.)*

*В статье представлена информация об административно-территориальном делении Товузского района, одного из наиболее густонаселённых тюркскими племенами регионов Азербайджана. Здесь представлена общая информация о регионе, городе, сёлах и посёлках, составе населения и т.п.*

***Ключевые слова:*** *Республика Азербайджана, Тавузский район, город Товуз, территория, население*

## *TOVUZ ADMINISTRATIVE DIVIONS OF POPULATION GROWTH OF ITS POPULATION (BASED ON STATISTIC SOURCES ON THE 1999 AND 2009 Y.)*

*Present article provides information about administrative territorial division of Tovuz as one of the charming corners of Azerbaijan. It contains of general information about the district, village and setlements, employment of the Tovuz population.*

***Keywords:*** *Azerbaijan Republic, Tovuz distric, Tovuz city , population, growth population, flora and fauna*

Tovuz rayonu inzibati ərazi vahidi kimi 1930-cu ilin avqust ayının 8-də təşkil olunmuşdur. Ermənistan Respublikası ilə 69 km (Berd rayonu – Çar

Rusiyasının Azərbaycanı işğalına başlamasınadək) (1802-1803) Şəmsəddil Sultanlığına aid olan hazırki Tovuzun bir hissəsi, indi də bu rayonu tovuzlular Şəmsəddin – Qalakənd (ermə dilində Berd-Qala, Kert-kənd adlandırırlar, Gürcüstan Respublikası ilə 23 kilometr (Dedoplist-Tsxaro ray.) sərhədi olan rayon qərbdə Ağstafa rayonu, şərqdə Şəmkir rayonu, cənubda Gədəbəy rayonu az bir hissəsi Samux rayonu ilə (Ceyrançöldə) həmsərhəddir [3].

Rayonun cənub hissəsi orta və yüksək dağlıq zonada, mərkəzi hissəsi alçaq dağlıq və dağətəyi düzənlikdə yerləşir. Ərazi 330 m. dəniz səviyyəsindən yüksəklikdə yerləşir [3].

Bakıdan Tovuzun Mərkəzi poçtuna qədər olan məsafə 441 km-dir. - 1935-1947-ci illərdə şəhər tipli qəsəbə statusu almışdır. 1963-1964-cü illər arasında Qazax rayonunun tərkibinə daxil edilmişdir. Bundan sonra yenidən müstəqil rayon mərkəzi olmuşdur. Son məlumata əsasən əhali təxminən 151,5 min nəfərdir. 1 inzibati şəhər, 1 qəsəbə, 109 kənd və başqa yaşayış məntəqələri var [3].

1963-cü ildə ləğv edilərək ərazisi Qazax rayonuna verildi, lakin bir il sonra, 1964-cü ildə yenidən müstəqil rayona çevrildi. Tovuz rayonu 43 inzibati ərazi dairəsindən ibarət olmuşdur.

Rayon ərazisinin 30609 hektar sahəsini meşəliklər örtür. Rayonun ən iri yaşayış məntəqələri Tovuz şəhəri (ərazisi 912 hektar, əhalisi 21340 nəfər), Qovlar şəhəri (ərazisi 5691 hektar, əhalisi 14860 nəfər), Əyyublu (keçmiş adı Aşağı Ayıblı) kəndi (ərazisi 5430 hektar, əhalisi 11647 nəfər), Aşağı Quşçu kəndi (ərazisi 3257 hektar, əhalisi 10741 nəfər) və digər kəndlərdir. Rayonun 9 inzibati ərazi dairəsi 69 km məsafədə bilavastə Ermənistanla həmsərhəddir (5).

Tovuz rayonu Azərbaycanın qərbində, Qazax-Gəncə düzənliyində yerləşir. Şimaldan Gürcüstan, cənubdan Ermənistanla həmsərhəddir. Mərkəzi Tovuz şəhəridir. Ərazisi 1903 kvadrat kilometrdir. Rayon ərazisindən Azərbaycan respublikası üçün həyati əhəmiyyət kəsb edən "Bakı-Tbilisi-Ceyhan" neft kəməri və "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri və Böyük İpək Yolu keçir. Tovuz rayonunun ərazisi relyef xüsusiyyətlərinə görə 4 zonaya: orta dağlıq, alçaq dağlıq, dağətəyi və yüksək dağlıq zonalara ayrılır [3].

İri yaşayış məntəqələri Tovuz (şəhəri), Qovlar (qəsəbəsi), Aşağı Ayıblı, Xatınlı, Düz Qırıxlı, Aşağı Quşçu kəndi hesab olunur. Tovuz rayonunun illər üzrə əhalinin artımı üzrə siyahıya nəzər salaq. 1999-2009-cu illər ərzində ümumi rayon üzrə əhali artımında fərq 15 min nəfəri əhatə edir [1, 156-158; 2, 209-213].

**Cədvəl 1**

**Tovuz rayonu üzrə inzibati ərazi bölgüsü və daimi əhalinin sayı**

| Ərazi | 1999 | 2009 | Fərq |
|---|---|---|---|
| | əhalinin ümumi sayı | əhalinin ümumi sayı | əhalinin say fərqi |
| Tovuz r/nu | 142854 | 157875 | 15021 |

| | | | |
|---|---|---|---|
| Kənd əhalisi | 118009 | 130907 | 12898 |
| Şəhər əhalisi | 24845 | 26968 | 2123 |
| Qovlar | 12021 | 13448 | 1427 |
| Ağbulaq | 267 | 295 | 28 |
| Ağdam | 1109 | 1236 | 127 |
| Girzan ə/v | 1601 | 1919 | 318 |
| Əsrik Cırdaxan | 2007 | 2075 | 68 |
| Aşağı Ayıblı | 9423 | 10797 | 1374 |
| Aşağı Quşçu | 8268 | 9320 | 762 |
| Bozalqanlı ə/v | 3652 | 4199 | 547 |
| Vahidli | 989 | 1119 | 130 |
| Hacallı | 1453 | 1629 | 176 |
| Dönük Qırıqlı | 3502 | 3770 | 268 |
| Dondar Quşçu | 3302 | 3754 | 452 |
| Aşağı Mülkülü ə/v | 2109 | 2364 | 255 |
| Düz Qırıqlı | 5531 | 6304 | 773 |
| İbrahim Hacılı | 3657 | 4021 | 364 |
| Qaralar | 246 | 243 | -3 |
| Koxa Nəbi | 226 | 240 | 14 |
| Xatınlı | 2757 | 3152 | 395 |
| Yuxarı Öysüzlü | 5564 | 6375 | 811 |
| Qaraxanlı ə/v | 3004 | 3252 | 248 |
| Tovuz şəhəri | 12824 | 13520 | 696 |
| Azaflı ə/v | 3854 | 4333 | 479 |
| Azaflı | 1370 | 1589 | 219 |
| Bayramlı | 2484 | 2744 | 260 |
| Alakol ə/v | 6305 | 7020 | 715 |
| Alakol | 3998 | 3911 | -87 |
| Köhnə Qala | 1604 | 1687 | 83 |
| Məşədilər | 506 | 1173 | 667 |
| Aşırlallar | 197 | 249 | 52 |
| Əlibəyli ə/v | 3317 | 3621 | 304 |
| Əlibəyli | 2379 | 2549 | 170 |
| Mülküllü | 938 | 1072 | 134 |
| Əlimərdanlı ə/v | 2981 | 3170 | 189 |
| Əlimərdanlı | 2981 | 3170 | 189 |
| Aşağı Öysüzlü ə/v | 6801 | 7506 | 705 |
| Aşağı Öysüzlü | 6312 | 6656 | 344 |
| Qazqulu | 489 | 850 | 361 |
| Böyük Qışlaq ə/v | 2697 | 2748 | 51 |
| Böyük Qışlaq | 1666 | 1671 | 5 |
| Şamlıq | 348 | 371 | 23 |
| Mollalar | 187 | 197 | 10 |
| Məsmalılar | 67 | 52 | 15 |
| Səfərli | 429 | 457 | 28 |

| | | | |
|---|---|---|---|
| Qəribli ə/v | 4075 | 4332 | 257 |
| Qəribli | 698 | 695 | 03 |
| İsakənd | 338 | 307 | -31 |
| Aşırallar | 120 | 101 | -19 |
| Qarabağlılar | 292 | 332 | 40 |
| Ağdərə | 275 | 300 | 25 |
| Hətəmallar | 138 | 143 | 5 |
| Öskən | 313 | 331 | 18 |
| Dəlləkli | 446 | 450 | 4 |
| Böyük Şamlıq | 196 | 237 | 41 |
| Bala şamlıq | 324 | 361 | 37 |
| Lazılar | 306 | 299 | -7 |
| Ağbaşlar | 409 | 460 | 51 |
| Almalı-Qala | 220 | 316 | 96 |
| Həsənli ə/v | 950 | 1061 | 111 |
| Həsənli | 371 | 421 | 50 |
| Məşədivəlilər | 579 | 640 | 61 |
| Göyəbaxan ə/v | 389 | 434 | 45 |
| Göyəbaxan | 92 | 92 | 0 |
| Hüseynqulular | 112 | 77 | 35 |
| Nəsibli | 48 | 57 | 9 |
| Qaraqaşlı | 55 | 89 | 34 |
| Düz Cırdaxan ə/v | 4258 | 4790 | 532 |
| Düz Cırdaxan | 2537 | 2979 | 442 |
| Cəlilli | 1721 | 1811 | 90 |
| Qaradaş ə/v | 648 | 688 | 40 |
| Qaradaş | 309 | 353 | 44 |
| Qayadibi | 230 | 221` | -9 |
| Qonaqlı | 109 | 114 | 5 |
| Kirən ə/v | 3075 | 3413 | 338 |
| Kirən | 793 | 682 | 111 |
| Hacıhəsənli | 519 | 604 | 85 |
| Molla ayrım | 238 | 268 | 30 |
| Xınnakirən | 137 | 316 | 179 |
| Soflar | 422 | 460 | 38 |
| Xatıncan | 100 | 116 | 16 |
| Qalaboyun | 307 | 342 | 35 |
| Saladınlı | 121 | 137 | 16 |
| Baqqallı | 438 | 488 | 50 |
| Sarıtala ə/v | 2467 | 2578 | 111 |
| Sarıtala | 446 | 429 | 17 |
| Dondar | 134 | 137 | 3 |
| Nəmxoş | 245 | 234 | 11 |
| Yoğunbulaq | 493 | 524 | 31 |
| Çobansıqnaq | 622 | 715 | 93 |

| | | | |
|---|---|---|---|
| Qaraboyunlar | 186 | 210 | 24 |
| Ağacqala | 341 | 329 | 12 |
| Çatax ə/v | 3009 | 3100 | 1 |
| Çatax | 297 | 310 | 13 |
| Kazımlı | 399 | 365 | -34 |
| Qandallar | 485 | 525 | 40 |
| Cürdək | 283 | 285 | 2 |
| Hacılar | 489 | 551 | 38 |
| Pələkli | 334 | 318 | -16 |
| Şıxheybət | 439 | 427 | 11 |
| Qoşa | 148 | 167 | 19 |
| Muncuqlu | 135 | 152 | 17 |
| Çeşməli ə/v | 2117 | 2344 | 227 |
| Çeşməli | 542 | 508 | -34 |
| Abbasqulular | 306 | 415 | 109 |
| Papaqçılar | 802 | 911 | 109 |
| Güvəndik | 467 | 510 | 43 |
| Yanıxlı ə/v | 4467 | 4894 | 427 |
| Yanıxlı | 1774 | 2130 | 356 |
| Məşədilər | 653 | 750 | 97 |
| Qoz Dərə | 283 | 123 | -160 |
| Böyük Xoşdarlı | 160 | 201 | 41 |
| Sadıqlı | 27 | 42 | 15 |
| Kecəvənd | 86 | 61 | -28 |
| Əhmədabad | 796 | 817 | 21 |
| Qoçdərə | 118 | 93 | -25 |
| Avdal | 108 | 143 | 35 |
| Aran yanıxlı | 462 | 534 | 72 |
| Abulbəyli ə/v | 5293 | 5936 | 643 |
| Abulbəyli | 5293 | 5936 | 643 |
| Cilovdarlı-Qədirli ə/v | 2639 | 1319+2875 | 1555 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Əhalinin siyahıyaalınması 1999-cu il, s.156-158, 2009-cu il, s.200-213

Cədvəl 1-də məlum olur ki, Tovuz rayonu üzrə kənd və ərazi vahidlərində cüzi dəyişiklik olmuş və 1999-cu ildə əhalinin umümi sayı 142.854 nəfər, 2009-cu ildə isə 157.875 nəfər olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 mart 2012-ci il tarixli sərəncamına əsasən Tovuz rayonunun inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilməsi qərara alınmışdır.

1. Aşağı Ayıblı kənd inzibati ərazi dairəsi tərkibindəki Aşağı Ayıblı kəndi Əyyublu kəndi adlandırılsın, Aşağı Ayıblı kənd inzibati ərazi dairəsi Əyyublu kənd inzibati ərazi dairəsi hesab edilsin.

2. Azaplı kənd inzibati ərazi dairəsi tərkibindəki Azaplı kəndi Azaflı kəndi adlandırılsın, Azaplı kənd inzibati ərazi dairəsi Azaflı kənd inzibati ərazi dairəsi hesab edilsin.

3. Aşağı Öysüzlü kənd inzibati ərazi dairəsi tərkibindəki Qazqulu kəndi Qazıqulu kəndi adlandırılsın.

4. Qəribli kənd inzibati ərazi dairəsi tərkibindəki Oskən kəndi Öskən kəndi adlandırılsın.

5. Girzan kənd inzibati ərazi dairəsi tərkibindəki Girzan kəndi Hunanlar kəndi adlandırılsın, Girzan kənd inzibati ərazi dairəsi Hunanlar kənd inzibati ərazi dairəsi hesab edilsin.

6. Qovlar qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Qovlar qəsəbəsinə şəhər statusu verilsin, Qovlar qəsəbə inzibati ərazi dairəsi Qovlar şəhər inzibati ərazi dairəsi hesab edilsin.

7.Tovuz şəhər inzibati ərazi dairəsi tərkibindəki Tovuz şəhəri ilə həmsərhəd olan Abulbəyli kənd inzibati ərazi dairəsi tərkibindəki Abulbəyli kəndinin ərazisindən 276,19 ha (bundan dövlət mülkiyyətində olan 55,92 ha, bələdiyyə mülkiyyətində olan 79,43 ha və xüsusi mülkiyyətdə olan 140,84 ha), Aşağı Öysüzlü kənd inzibati ərazi dairəsi tərkibindəki Aşağı Öysüzlü kəndinin ərazisindən 213,68 ha (bundan dövlət mülkiyyətində olan 34,01 ha, bələdiyyə mülkiyyətində olan 56,70 ha və xüsusi mülkiyyətdə olan 122,97 ha) və Qazıqulu kəndinin ərazisindən 62,49 ha (bundan dövlət mülkiyyətində olan 5,52 ha, bələdiyyə mülkiyyətində olan 48,43 ha və xüsusi mülkiyyətdə olan 8,54 ha), Bozalqanlı kənd inzibati ərazi dairəsi tərkibindəki Bozalqanlı kəndinin ərazisindən 36,73 ha (bundan dövlət mülkiyyətində olan 4,18 ha, bələdiyyə mülkiyyətində olan 19,85 ha və xüsusi mülkiyyətdə olan 12,70 ha), Dondar Quşçu kənd inzibati ərazi dairəsi tərkibindəki Dondar Quşçu kəndinin ərazisindən182,74 ha (bundan dövlət mülkiyyətində olan 167,75 ha, bələdiyyə mülkiyyətində olan 11,09 ha və xüsusi mülkiyyətdə olan 3,90 ha) və Düz Cırdaxan kənd inzibati ərazi dairəsi tərkibindəki Düz Cırdaxan kəndinin ərazisindən 28,5 ha (bundan dövlət mülkiyyətində olan 0,53 ha, bələdiyyə mülkiyyətində olan 5,94 ha və xüsusi mülkiyyətdə olan 22,03 ha) torpaq sahələri bu Qanuna əlavə edilmiş xəritəyə uyğun olaraq Tovuz şəhərinin inzibati ərazisinə verilsin.

8. Ağacqala kəndi Sarıtala kənd inzibati ərazi dairəsi tərkibindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Ağacqala kənd inzibati ərazi dairəsi yaradılsın və Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilsin.

9. Bayramlı kəndi Azaflı kənd inzibati ərazi dairəsi tərkibindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Bayramlı kənd inzibati ərazi dairəsi yaradılsın və Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilsin.

10. Cəlilli kəndi Düz Cırdaxan kənd inzibati ərazi dairəsi tərkibindən ayrılaraq, həmin kənd mərkəz olmaqla Cəlilli kənd inzibati ərazi dairəsi

yaradılsın və Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilsin.

11. Əhmədabad, Avdal və Qoçdərə kəndləri Yanıqlı kənd inzibati ərazi dairəsi tərkibindən ayrılaraq, mərkəzi Əhmədabad kəndi olmaqla Əhmədabad kənd inzibati ərazi dairəsi yaradılsın və Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilsin.

**Cədvəl 2**

**Tovuz rayonu yaşayış məntəqələri üzrə daimi əhalinin sayı**

| | 1999 | | 2009 | |
|---|---|---|---|---|
| | kişi | qadın | kişi | qadın |
| Tovuz rayonu | 70379 | 72475 | 79078 | 78797 |
| Şəhər əhalisi | 11956 | 12889 | 13198 | 13770 |
| Kənd əhalisi | 58423 | 59586 | 65880 | 65027 |

Tovuz rayonu yaşayış məntəqələri üzrə əhalinin say tərkibindən göründüyü kimi 1999-cu il şəhər üzrə qadınların sayı 933 nəfər kişilərin sayından çoxdur. 2009-cu ildə yenə də qadınların sayı kişilərə nisbətən 572 nəfər çoxluq təşkil edir.

1999-cu il rayon üzrə kənd əhalisinin kişilərə nisbətən qadınların sayı 1163 nəfər çoxdur. 2009-cu ildə isə kişilərin sayı qadınlardan 853 nəfər artıqdır. Belə ki, Tovuz rayonu üzrə kişilərin sayı qadınlara nisbətən 281 nəfər çoxluq təşkil edir.

1999-cu ildə Tovuz rayonunda əhalinin sayı 142.854 nəfər təşkil edirdi, əhalidə dinamik artım sayı 2009-cu ilə 15.000 nəfər artaraq 157.857 nəfər olmuşdur. Bu isə onu göstərir ki, hər 10 ildən bir rayon əhalisinin sayı artmaqda davam edir. 10 ilin ümumi artım faizini götürsək ortalama 10 %-dən çox təşkil edir. Tovuz rayonu əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olmasını toponimik materiallar da təsdiq edir.

***Ədəbiyyat siyahısı:***

1. *Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. I hissə, Bakı, "Səda" nəşriyyat, 2000, 566 s.*
2. *Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 2009-cu il. I c., Bakı, 2010, 9№ kiçik müəssisə, 630 s.*
3. *Xasıyev Z. Tovuzun toponim dünyası. Bakı, 1997.*
4. *Tovuz rayon İcra hakimiyyəti:http://tovuz-ih.gov.az/page/10.html*
5. *Tovuz rayonu Heydər Əliyev Mərkəzi: https://heydaraliyev-centers.az/tovuz/about-region*
6. *Tovuz rayonu haqqında ümumi məlumat. www.vikipedia.org*

***Məqalə BDU-nun Azərbaycan tarixi kafedrasının professoru İbrahim Zeynalovun rəyi ilə çapa təqdim edilib.***

## III BÖLMƏ
## ÜMUMİ TARİX MƏSƏLƏLƏRİ

**UOT 94 (479.24); 930:314**

# ERKƏN DƏMİR DÖVRÜNDƏ AZƏRBAYCANDA MİQRASİYA PROSESLƏRİ

***Hicran Mahmudova***
***BDU,Tarix fakültəsi, t.f.d.***
***hicranmahmudova@mail.ru***

*Azərbaycanda erkən dəmir dövründə əsasən təbii şəraitdən asılı olaraq baş vermiş miqrasiya prosesləri mühüm siyasi və sosial-iqtisadi mahiyyət daşımışdır. Bu miqrasiyalar arxeoloji mədəniyyətlərin ənənəvi xüsusiyyətlərinə ciddi təsir etməsə də, müəyyən maddi mədəniyyət nümunələrində yeni elementlərin qeydə alınması ilə müşahidə olunur. İstər xarici, istərsə də daxili miqrasiyalar dəmir dövründə geniş yayılmış və arxeoloji tapıntılarda bu proses izlənilmişdir.*

***Açar sözlər:*** *dəmir dövrü, miqrasiya, Xocalı-Gədəbəy mədəniyyəti, iskitlər*

## *МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В АЗЕРБАЙДЖАНЕ В РАННЕ ЖЕЛЕЗНОМ ВЕКЕ*

*Миграционные процессы, начавшие в основном из-за природных условий, в ранне железном веке в Азербайджане, имели важное политическое и социально-экономическое значение. Хотя эти миграции не оказывали существенного влияния на традиционные особенности археологических культур, но наблюдается новые элементы в определенных образцах материальных культур. Внешняя и внутренняя миграция была широко распространена в течение железного века, и следы этих процессов было слежено в археологических находках.*

***Ключевые слова:*** *железный век, миграция, Ходжали-Гедабекская культура, скифы*

## *THE MIGRATION PROCESSES IN AZERBAIJAN IN THE IN THE EARLY IRON AGE*

*Migration processes, which began mainly due to natural conditions, in the early Iron Age in Azerbaijan, had important political and socio-*

*economic importance. Although these migrations did not significantly affect the traditional characteristics of archaeological cultures, new elements are observed in certain samples of material cultures. External and internal migration was widespread during the Iron Age, and traces of these processes were traced in archaeological finds.*
***Keywords:*** *Iron Age, migration, Khojaly-Gadabay culture, Scythians*

Arxeologiya elmi qədim dövrdə əmək alətlərinin təkmilləşməsinin birbaşa ictimai həyata təsirini açıq şəkildə göstərə və təsdiq edə biləcək faktiki materialları üzə çıxarmağa imkan verir. Dəmir dövründə bu təkmilləşmənin geniş ərazilərə yayılaraq izlənilməsi baş verən miqrasiyalar vasitəsi ilə mədəni nailiyyətlərin mübadiləsinin mümkün olduğunu göstərir. Azərbaycan daxilində tayfaların yerdəyişməsi, eyni zamanda, əsasən şimaldan gələn axınlar arxeoloji mədəniyyətlərin bir sıra xüsusiyyətlərində özünü büruzə vermişdir.

Erkən dəmir dövründə cəmiyyətin daxili quruluşundakı fərqli inkişaf metal alətlərə, əsasən də silahlara tələbatı artırır, dağ-mədən işi, metallurgiya sahəsinin inkişaf etdirilə bilməsi və tələbatın ödənilməsi üçün tayfaların təbii ehtiyatlarla zəngin bölgələrə istiqamətlənməsini də şərtləndirirdi. Əgər ilk vaxtlar insanlar təbii-iqlim şəraitinin dəyişməsi ilə bağlı miqrasiyaya məcbur idilərsə və bu sadəcə yerdəyişmə, yeni əlverişli ərazilərdə məskunlaşma xarakteri daşıyırdısa, sonralar miqrasiyalar iqtisadi, demoqrafik amillərlə bağlı olur və işğallarla, ərazi üzərində hakimiyyətin ələ keçirilməsi ilə müşahidə olunurdu [5, s.62]. Demək olar ki, metal dövrünün miqrasiyalarının əksəriyyəti eyni xarakterli olmuşdur. Təbii ki, belə makro və mikro miqrasiyalar həm də konkret regionda mövcud olan arxeoloji mədəniyyətə də təsirsiz keçməmişdir. Arxeoloji araşdırmalar erkən dəmir dövründə sosial ziddiyətlərin kəskinləşməsi ilə yanaşı, müxtəlif tayfalar arasında yerdəyişmələrin, miqrasiyaların artmasını, eyni zamanda, etnik və mədəni birləşmə prosesinin getdiyini göstərir. Azərbaycana dəmir dövründə gəlmiş tayfalar əsasən türk olduğundan, yerli əhali ilə qaynayıb qarışmış və sonradan vahid xalqın formalaşma prosesində mühüm rol oynamışdılar.

Türk tayfalarının Azərbaycana erkən axınları kimi kimmer, iskit və sakların gəlişi - miqrasiyası arxeoloji elmi ədəbiyyatda dəmir dövrünün ən genişmiqyaslı miqrasiyalarından hesab oluna bilər. Azərbaycanın müxtəlif bölgələri, xüsusən Abşeron, Şirvan, Mil-Qarabağ, Muğan, Şərur və digər düzləri, geniş qış otlaqları, su ehtiyatları və isti iqlimi ilə qədim köçəri tayfaların, o cümlədən skiflərin buraya gəlməsi üçün əlverişli mühit olmuşdu. Yazılı və arxeoloji mənbələrə əsasən, miqrasiyanın istiqamətini də müəyyən etmək mümkündür. Belə ki, Herodot «Tarix» əsərinin iki yerində iskitlərin hərəkət istiqamətini göstərərkən, onların, Qafqaz dağlarını sağda qoyaraq keçdiklərini göstərir [3, s.36].

İskitlərin hansı keçid vasitəsilə gəlmələri isə tədqiqatçılar arasında

fikir ayrılığı yaratmışdır. Tədqiqatçılar onların – Meotida Kolxida sahilboyu yolu, Dərbənd keçidi ilə hərbi Gürcüstan yolu, Mamison keçidi ilə Hərbi Osetin yolu və Dərbənd keçidindən istifadə edərək hərəkət etdiklərini bildirirlər. Arxeologiyada miqrasiyaların mövcudluğu artefaktlarla təsdiq oluna bilir. Belə ki, göstərilən istiqamətdə e.ə. VI-V əsrlərə aid Xabadin qəbristanlığının 2 və 7 saylı qəbirlərindən iskit tipli əşyalar, Arkas çoxtəbəqəli yaşayış məskənində dəmirdən düzəldilmiş at ələhə və bəzəkləri, Amalo dəmir yol stansiyası, Qarabulaqkənd, Tarnair, Qayakənd, Bavtuqay qəsəbəsi və digər ərazilərdən iskit tipli ox ucluqları iskitlərin miqarsiya istiqamətinin hərbi Gürcüstan yolu - Terek çayı, Araqvi çayı və Dəryal keçidi, habelə, hərbi Osetin – Ardon və Rioni sahilləri boyunca olduğunu göstərir. Iskitlərə məxsus tunc və dəmir silahlar, at əsləhəsi və heyvani üslublu digər tapıntılar Şimali Osetiyanın Kumbulta, Qaliat kəndlərindən, Diqor kanalından və Qərbi Gürcüstana gedən yoldan aşkar edildiyindən, Osetin yolunun keçid kimi istifadə olunduğunu güman etmək olar [3, s.37]. Qeyd edək ki, Heyvani üslubda eyni zamanda paralel inkişaf yolunu keçmiş realist və üslubi istiqamətlər olmuşdur. Belə ki, erkən dövrlərdə heyvanların aydın, dəqiq, həyati təsvirləri üstünlük təşkil etmiş, təqribən e.ə. III əsrdən bu təsvirlər sxematikləşməyə başlamışdır. Eyni zamanda heyvani üslubun öyrənilməsində 2 qrup süjet və simvollar əsas götürülür: bütün skif-sibir dünyası üçün və ayrı-ayrı rayonlar üçün səciyyəvi olan süjet və simvollar. Bu ümumilik və fərqlər xüsusilə obraz seçimində: otyeyən, yırtıcı, əfsanəvi heyvan təsvirlərində, onların realist və ya naxışlı işləmələrində nəzərə çarpırdı. Ayrı-ayrı ərazilərdə, lakin oxşar sosial-iqtisadi şəraitdə yaranmış heyvani üslubda regionlardan asılı olaraq, bu və ya digər motiv üstünlük təşkil etmişdir. Məsələn, taqar mədəniyyəti üçün qrifon və vəhşi quş başı, qaban və ya keçinin bütöv, qoyun başı, at, şir, pələng, maral, canavar, uzunqulaq, tetra quşları, qırqovul təsvirləri daha xarakterik olsa da, sığın, sayqak (antilop qrupundan ceyranabənzər heyvan), dəvə və təqribən 15-ə qədər heyvan təsvirləri bir qədər az rast gəlini [3, s.58].

Mərkəzi Gürcüstanın Tsisamuri kəndi, Mtsxet şəhəri yaxınlığında, Beştaşeni ərazisində iskitlərə məxsus əşyaların çoxsaylı qeydə alınması Dəryal keçidinin də hərəkət yollarından biri olduğunu göstərir. Bununla belə, əsas hərəkət istiqaməti olaraq, iskitlər Dərbənd keçidindən istifadə etmişdilər. Onların Xəzər yolu ilə keçidini antik müəlliflər və arxeoloji materiallar dəfələrlə təsdiq etmişdir. Mahaçqala yaxınlığında tapılmış rombvari iki pərli, uzun oymaqlı ox ucluğu e.ə. VIII-VII əsrlərə, başqa sözlə, iskitlərin yürüşü vaxtına aid edilir [3, s.37]. Məlumdur ki, e.ə. VII əsrdə skif mədəniyyətinin bütün əsas cəhətləri formalaşan dövrdə ox ucluqlarının dəsti meydana çıxır. E.ə. V əsrin ortalarınadək oxlar yastı, rombvari, dəfnəyarpağı, sadə yarpaqlı, bir qanadlı olmuşdu. Eyni zamanda ox uclarının kənarları bir və ya iki çıxıntılı üçkünc başlıqlı və ya 3 üzlü; əyri 3 pərli olurdu. Oxun saplağı adətən şam ağacı budağından düzəldilirdi. Ox

ucluqları tuncdan, bəzən dəmirdən, bəzən də sümük və ya ağacdan hazırlanırdı. Ox ucluğunun ağac gövdə ilə birləşməsi özlüyündə bir neçə qrup yaradırdı. Tıxacla birləşən bu hissələr görünən çıxıntılı və görünməyən (daxili) olur, ox sapı isə uzun, orta və qısa olurdu. Ucluğun formasına görə: a) köndələn – enli, 3 üzlü, 3 pərli quraşdırılmış; b) konturunun uzunluğuna görə – taclı, 3 künc, rombvari, trapesvari; v) əsasının formalaşmasına görə – pərin ağac gövdəyə doğru düz, ya iti, küt kəsilmiş olması; q) ucluğu xarakterizə edən ölçüyə görə: qısa, orta, uzun olmaqla seçilirdi. Ayrım kəndində L.Morqan tərəfindən aparılan qazıntılarda üzə çıxarılan qəbirlərin bir qrupundan dəmir alətlər tapılmışdır, onların içərisində ikipərli skif tipli ox ucluqları tipli silahlar tapılmışdır. Ayrım kəndində (Şeytan dağ) əyri uclu bıçaqlar və iri nizə ucluqları və s. tapılmışdır. V.Belk və A. İvanovskinin Şəmkir qazıntıları nəticəsində e.ə. VII-VI əsrlərə aid qəbirlərdə iskit ox ucluğunun qeydə alındığı daş qutu qəbri tapılmışdır. Oxşar materiallar Gədəbəydə e.ə. IV əsr abidələrindən tapılmışdır [3, s.36-39]. Əyri tiyəli nizə ucluqları Mingəçevirdən də qeydə alınmışdır. Azərbaycanın müxtəlif bölgələrində bu dövrün köçünün izləri istər arxeoloji, istər toponimik materilallarla təsdiq olunur.

Azərbaycanda son tunc-erkən dəmir dövründə arxeoloji mədəniyyətlərdə iqtisadi-mədəni əlaqələrin, başqa sözlə müəyyən miqrasiyaların mövcudluğu ilə əlaqələndirilə bilən xüsusiyyətlər də qeydə alınmışdır. V.Baxşəliyevin fikrincə, e.ə. II minliiyin sonu, I minilliyin əvvəlində Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının cənuba doğru hərəkəti, Urmiya hövzəsində meydana gələn siyasi hadisələr və bu etnik bağlılıqla əlaqədar olmalıdır. Bu qəbilələrin Zaqros-Elam dil qrupu ilə bağlandığı və Ural-Altaylarla əlaqələli olduğu elmi ədəbiyyatlarda qeyd edilmişdir [1, s.225]. E.ə. II minilliyin ortalarında Azərbaycanın şimalında meydana çıxan arxeoloji mədəniyyətin əlamətlərinin e.ə. II minilliyin əvvəllərində Azərbaycanın cənub rayonlarına da yayılması bu dövrdə əhalinin daxili yerdəyişməsinin izlərini özündə əks etdirir.

Arxeologiyada xarici əlaqələrin istiqamətləri də eyni qayda ilə müəyyən edilir. Dövrünə görə yüksək inkişaf etmiş iqtisadiyyata və zəngin mənəvi aləmə malik olan xalqların formalaşmasında, şübhəsiz ki, qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin inkişafı müəyyən rol oynamışdır. Arxeoloji tapıntılar bu əlaqələrin şərqdə Çinə, qərbdə Misirə, cənubda Mesopotamiyaya, şimalda Qara dəniz sahillərinə qədər uzandığını göstərir. Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr, mühüm əhəmiyyət daşımışdır. Bu dövr qəbirlərində qara cilalı, ornamentsiz, kobud formada hazırlanmış saxsı qablar tapılmışdır. Belə ki, yerli zəmin əsasında yaranmış və özündən əvvəkli mədəniyyətlərin varisi kimi bir çox xüsusiyyətləri ilə seçilən Xocalı-Gədəbəy mədəniyyəti məlum olduğu kimi, boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilir. Bu mədəniyyətə aid Gəncəçay abidələri qrupunda isə qeydə alınmış ağ inkrustasiyalı qablar hazırlanma texnikasına görə Aralıq dənizi bölgəsində yerləşən ölkələrdən aşkar olunan həmdövr

abidələrdə də mövcuddur [1,s. 235]. Bununla əlaqədar tədqiqatçılar belə qənaətə gəlir ki, immiqrantlar mövcud mədəniyyət daxilində variantların formalaşmasına da təsir edə bilirlər [4, s.85].

Miqrasiyaların intensivliyi tapıntıların xarakterinin tez-tez dəyişməsi ilə də müşahidə olunur. Son Tunc və Erkən Dəmir dövründə Azərbaycanda, əsasən Naxçıvanda boz rəngli keramika və boyalı qablarla xarakterizə olunan komplekslər bir-birindən fərqlənir. Lakin, eyni zamanda, onlar arasında birləşmə prosesinin getdiyi də özünü göstərir. Çaynik tipli qablara Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan komplekslərdə rast gəlinməsi, habelə, göbələkşəkilli çıxıntısı olan qablara boyalı qabların xarakterik olduğu komplekslərdə rast gəlinməsi, həm də bu tip qabların boyalılarının tapılması, buna aydın sübutdur [1, səh. 224]. Beləliklə də, həmin dövrdə daxili miqrasiyanın əsas istiqamətlərini də müəyyənləşdirmək olur. Naxçıvan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin Gədəbəy qrupu üçün xarakterik olan mədəniyyət geniş yayılması onu göstərir ki, e.ə. II minilliyin sonunda Gədəbəy qrupuna aid olan etnoslar üstünlük təşkil etmiş və Azərbaycanın cənub rayonlarına da yayılmışdır.

Arxeoloji abidələrin hansı qrupunun mövcudluğu da bu və ya digər mənada etnik qrupların məskunlaşmasının göstəricisi ola bilər. Məlumdur ki, Azərbaycan ərzisində də türklər üçün daha çox xarakterik olan, dəfn adəti ümümtürk xarakteri daşıyan kurqanlar qeydə alınmışdır. Hələ XIX əsrdə Emil Reslerin Qarabağda tədqiq etdiyi kurqanların quruluşu, dəfn adətləri və üsullarının Herodotun təsvir etdiyi iskit kurqanları ilə üst-üstə düşdüyü tədqiqatçılar tərəfindən qeyd olunmuşdur. Belə ki, M.Xəlilov Ballıqaya və Sırxavənd arasında örtüyü 9 m, dərinliyi 5 m olan kurqanda atla birgə dəfn və qəbrin quruluşunu iskit çar kurqanları ilə oxşarlığını göstərməyə çalışmışdır [6, səh.15]. Qədim türklərdə uzun müddət zəngin maddi mədəniyyət nümunələrinin əsas saxlanc yeri məhz qəbirləri-mohtəşəm kuqranları olmuşdur.

Türk tayfalarının e.ə. I minillik dövrü arxeoloji abidələri içərisində qəbir abidələri öz çoxsaylılığı ilə digər abidələrdən fərqlənir. İctimai təbəqələşmə prosesini, mənəvi və maddi mədəniyyəti, iqtisadiyyatı tədqiq etmək üçün mühüm mənbə sayılan qəbir abidələri, əsasən, zəngin avadanlığa, quruluşunda özünəməxsusluğa malikdir. Maraqlıdır ki, qəbir abidələrinə daha çox çay sahili ərazilərdə, çöl və dağ çökəkliklərində rast gəlinmiş, qəbir tiplərində isə o qədər də fərqlilik müşahidə olunmamışdır. Dəmir dövründə türk tayfalarının qəbir abidələri, əsasən, müxtəlif forma və ölçülü torpaq qəbirləri və kurqanlardan ibarət olmuşdur. Mustye dövründə meydana çıxaraq tunc dövründə geniş yayılmış torpaq qəbirlərinin üzəri ağac, torpaq və qumla qurulduğundan, müasir dövrümüzə bunlar təbii ki, gəlib çatmamışdır.

Qəbir avadanlıqlarında isə dəmir dövrü üçün xarakterik olan avadanlıqların materiallarının fərqli olması da əhəmiyyət daşıyır. Məlumdur ki, son

tunc dövründən etibarən, yerli əhali bimetallik və dəmir silahlardan, alətlərdən, həmçinin, qiymətli metallardan düzəldilmiş bəzək əşyalarından istifadə edirdi. Lakin, bu metalların (dəmir və qiymətli metallar) çətin əldə edilməsi səbəbindən, dini inancların tələblərinə uyğun olaraq qəbirə onlardan düzəldilmiş məmulatları qoymur, əvəzinə, onların yalnız tuncdan düzəldilmiş replikaları, yamsılamaları qoyulurdu [2, s.27-28]. P.Qasımovun fikrincə, belə bir strategiya regionda təhlükəli və aqressiv mühitin mövcudluğu ilə də izah edilə bilər; tayfalararası müharibələr, sənət sahələrinin, o cümlədən, metallurgiyanın inkişafı üçün lazım olan ticarətin zəifləməsi, məğlub tayfaların qəbirlərinin talanması təhlükəsi və s. bu cür "yamsılama ənənəsini" şərtləndirə bilərdi. İri miqyaslı ekoloji-təbii dəyişiliklər, ilk növbədə zəlzələlər və bunun nəticəsi kimi qonşu regionlarda müharibələrin və dağıdıcı miqrasiyaların intensivləşməsi, mədəni mərkəzlərin məhvi kimi proseslər Cənubi Qafqazdan yan keçə bilməzdi [2, s.27-28]. Türk tayfalarının məskunlaşdığı arealda göstərilən dövr üçün daha xarakterik olan kurqanların örtüyü torpaq, daş və bunların qarışığından tökülür, kurqanaltı qəbirlər isə ya torpaqda qazılır, ya da iri daşdan, ağac tirdən düzəldilirdi.

Müəyyən dövrdə türklərin sənətkarlığının inkişaf səviyyəsini, hərb işini, dini inanclarını, gündəlik məişət və təsərrüfatlarını, bütövlükdə maddi və mənəvi mədəniyyətini öyrənmək, bu mədəniyyətin izlərini, varisliyin hansı bölgələrdə izlənməsini müəyyən etməklə, türklərin məskunlaşma arealını izləmək mümkündür.

İnsan cəmiyyətinin inkişafı gedişində xüsusi yeri olan və ən keyfiyyətli metalın –dəmirin əldə edilməsi ilə əsası qoyulan yeni mərhələ özünəməxsus xüsusiyyətləri ilə ən mühüm tarixi hadisələrin, daha ciddi və sistemli bir toplumun qarşılıqlı münasibətləri, əlaqələri fonunda öz rəngarəngliyi ilə seçilir. Belə ki, erkən dəmir dövründən başlayaraq, insan məskənləri də daxil olmaqla, əmək alətləri, məişət əşyaları, silahlar və bu kimi artefaktlar Azərbaycanda, eləcə də, həmin dövrdə insanların məskunlaşdığı bütün bölgələrdə həyati təminat vasitələrinin müsbətə doğru dəyişdiyini təsdiq etməyə imkan verir. Erkən dəmir dövründə Azərbaycanın bir çox bölgələrində yeni yaşayış məskənləri salınmaqla bərabər, əvvəlki yaşayış yerlərinin yenilənməsi, böyüməsi, tədricən, demoqrafik yüksəlişin göstəricilərindən biri kimi qəbul oluna bilər. Məhz bu dövrdən etibarən, sosial - əmlak bərabərsizliyinin artması nəticəsində, arxitektur tikililərdə xüsusi mühafizə qurğularının üstün yer tutması özünü büruzə verir. Təbəqələşmənin dərinləşməsi isə həm tayfa daxilində gedən proseslərlə, həm də tayfalararası münasibətlərin artıq daha ciddi müstəviyə keçməsi ilə bağlı ola bilərdi. Bunlara təsir edən amillər içərisində miqrasiyalar mühüm yer tutur. İbtidai dövrün miqrasiyaları təbii ki, əsasən əlverişli həyatı təminatın ödənilməsi uğrunda fərqli tayfaların məqsədyönlü yerdəyişməsi ilə, eyni zamanda, istər təbii-iqlim şəraitinin əlverişsizliyi, qonşu tayfalarla toqquşmalar və s. ilə bağlı ola bilərdi. Məhz bu dövrün miqrasiyaları iri

tayfa ittifaqları arasındakı münasibətləri, bir çox bölgələrdə isə yenicə formalaşan dövlətlər arasındakı münasibətləri, başqa sözlə, ilkin beynəlxalq əlaqələrin xarakterini, müttəfiq və mübarizə aparan tərəfləri müəyyən etməyə imkan verir. Qeyd etmək lazımdır ki, artıq erkən dəmir dövründə konkret irqi – etnik əlamətlərin lokallaşması da məhz miqrasiyaların istiqaməti, məqsədi və təsiri ilə yeni bir sistem halını ala bilirdi. Azərbaycanda bu dördə daxili miqrasiyalarla yanaşı, kimmer, iskit və sak tayfalarının kütləvi axını kimi xarici miqrasiyalar da müşahidə olunmuşdur ki, bu da həm strateji yerləşmə, həm əlverişli iqtisadi və təbii şəraitin mövcudluğu, eyni zamanda, etnik yaxınlıqla da əlaqələndirilə bilər.

***Ədəbiyyat siyahısı:***

1. *Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 239 s.*
2. *Qasımov P. Xocalı – Gədəbəy mədəniyyətinin dəfn ənənəsində replika-əşyalar (Tovuz bölgəsindən olan son tunc dövrü tapıntıları üzrə) /Azərbaycan Arxeologiyası V. 20 № 2 2017, 22-37*
3. *Mahmudova H.R. Sibir iskitləri və Azərbaycan. Bakı: Ekoprint, 2009, 220 s.*
4. *Корякова Л.Н., Молодин В.И. Изучение культурной изменчивости в археологии Вестник НГУ, Серия история, филология, 2012, стр 82-102*
5. *Клейн Л.С. Миграция: археологические признаки/ https://cyberleninka.ru/article/n/migratsiya-arheologicheskie-priznaki/viewer, 52-71*
6. *Халилов М.Дж. Протоскифы и их потомки в Карабахе / Наследие, №2-3, 2005, 14-17*

**UOT 94 (479.24)**

## AZƏRBAYCANIN SİRLİ TARİXİ ABİDƏSİ – QOBUSTAN

***Sevil Heydərova***
***BDU,Tarix fakültəsi, t.f.d.***
***s_heydarova@mail.ru***

***Nigarxanım Qasımova***
***BDU,Tarix fakültəsi, elmi işçi***
***nigarqasimova509@mail.ru***

*Bəşəriyyətin ilkin dövrlərini, xüsusən son paleolit, mezolit və neolit dövrünü öyrənmək baxımından Qobustan abidələri böyük əhəmiyyət kəsb edir. Qobustan qayaları yalnız qədimdə yaşayan insanların məskəni kimi deyil, Azərbaycanın qədimliyini sübut edən əvəzsiz dəyərli tarixi mənbədir.*

*Belə ki, Qobustan daşlarında həkk olunan qayaüstü təsvirlər qədim insan düşərgələri hesab olunan qayaltı sığınacaqların divarlarında, düşərgə ətrafında aydın göstərən, heç bir çətinlik çəkmədən yaxınlaşmaq mümkün olan daşlar - qayalar üzərində, hətta ocaq qırağındakı kiçik daşlarda çəkilmişdir. Həmin təsvirlər və aşkar edilən maddi mədəniyyət nümunələri, burada yaşayan insanların təsərrüfat həyatı ilə yaxından tanış olmağa imkan verir. Bu təsvirlər heç bir mistik və dini oyanmaların nəticəsi deyil, insanın təbiətcə təsviri sənətə meyilli olmasının, real həyatla bağlı, həyatda gördüklərinin təcəssümündən ibarətdir.*

***Açar sözlər:*** *Azərbaycan, Qobustan abidələri, qayaüstü təsvirlər, maddi və mənəvi mədəniyyət, insan təsvirləri, heyvan təsvirləri*

## *ТАИНСТВЕННЫЙ ИСТОРИЧЕСКИЙ ПАМЯТНИК АЗЕРБАЙДЖАНА – ГОБУСТАН*

*Памятники Гобустана имеют большое значение с точки зрения изучения ранних периодов развития человечества, особенно позднего палеолита, мезолита и неолита. Скалы Гобустана - это не только место проживания древних людей, но и бесценный исторический источник, свидетельствующий о древности Азербайджана.*

*Так, наскальные рисунки, высеченные на камнях Гобустана, написаны на стенах скальных убежищ, которые считаются древними человеческими лагерями, на скалах, которые хорошо видны вокруг лагеря, к которым легко подойти - на камнях и даже на небольших камнях на краю очага. Эти образы и обнаруженные образцы материальной культуры позволяют нам познакомиться с хозяйственной жизнью живущих здесь людей. Эти образы не являются результатом*

*какого-либо мистического или религиозного пробуждения, а являются воплощением естественной склонности человека к изящным искусствам, того, что он видит в реальной жизни.*

***Ключевые слова:*** *Азербайджан, памятники Гобустана, наскальные рисунки, материальная и духовная культура, образы людей, образы животных*

## *MYSTERIOUS HISTORICAL MONUMENT OF AZERBAIJAN - GOBUSTAN*

*Gobustan monuments are of great importance for the study of the early periods of mankind, especially the Late Paleolithic, Mesolithic and Neolithic. Gobustan rocks are not only a place of ancient people, but also an invaluable historical source proving the antiquity of Azerbaijan.*

*Thus, the rock carvings engraved on the Gobustan stones were painted on the walls of the rocky shelters, which are considered to be ancient human camps, on the rocks that clearly show around the camp, which can be approached without difficulty - even on small stones on the edge of the hearth. These images and the discovered examples of material culture allow us to get acquainted with the economic life of the people living here. These images are not the result of any mystical or religious awakening, but are the embodiment of man's natural inclination to the fine arts, of what he sees in real life.*

***Keywords:*** *Azerbaijan, Gobustan monuments, rock paintings, material and spiritual culture, images of people, images of animals*

Məlumdur ki, Azərbaycan dünyanın coğrafi cəhətdən zəngin və maraqlı guşələrindən biridir. Azərbaycan xalqı minilliklər boyu Qafqaz və Qədim Şərq xalqları ilə iqtisadi və mədəni əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan xalqımız çox şey əxz etmiş və faydalanmışdır. Xalqımız da öz növbəsində həmin xalqların tükənməz təsərrüfat həyatına, maddi və mənəvi mədəniyyətinə çox şeylər bəxş etmiş, onu daha da zənginləşdirmişdir [4, s.5].

Azərbaycan tarixçi-arxeoloqlarının tədqiqatları və elmi ümumiləşdirmələri Azərbaycan ərazisində yaşayan indiki azərbaycanlıların qədim əcdadlarının nəsli ardıcıllıqla, arası kəsilməz inkişaf prosesi, iqtisadi-ictimai həyat tərzi və mədəni inkişaf səviyyəsi və başqa bu kimi məsələləri izləməyə imkan verir. Son onilliklər ərzində aparılmış elmi araşdırmalar nəticəsində Azərbaycan tarixşünaslığında sübut edildi ki, burada qədim dövrdən insanlar yaşamış və özünəməxsus mədəniyyət yaratmışlar. Azərbaycan tarixçiləri sübut etdilər ki, buranın qədim sakinləri, yəni indiki azərbaycanlıların ulu əcdadları 2 milyon il bundan əvvəl görünməyə başlamışlar [1].

Azərbaycan ərazisində qədim olduğu qədər misilsiz tarixi zənginliyi özündə yaşadan abidələr mövcuddur. Belə abidələr sırasına daxil olan

Qobustan öz möhtəşəmliyi və ecazkarlığı ilə fərqlənir. Qobustan haqqında elmi-publisistik məqalələr, broşurlar və kitablar, o cümlədən elmi tədqiqat əsərləri – monoqrafiyalar və dissertasiyalar yazılmasına baxmayaraq aktuallığını daim qoruyub saxlamaqdadır.

Qobustan adının mənşəyi və anlamı barədə müxtəlif tədqiqatçılar fərqli fikirlər söyləmişlər. Lakin onlardan ən çox işlədilən fikir toponimin coğrafi şəraitlə bağlı yaranmasıdır. Həmin fikrə görə Qobustan qobular diyarı, ucsuz-bucaqsız düzənlik, saysız-hesabsız təpələr arasında torpaq uçuntulardan əmələ gəlmiş yarğanlar və dərələrdir. Heç bir həndəsi şəklə malik olmayan bu sistemsizliyin özündə suyun, havanın, küləyin, zəlzələ və palçıq püskürmələrinin yaratdığı böyük təbii hərc-mərclik aləmi müşahidə olunur. Bu, illərin, əsrlərin deyil, milyon illərin ardıcıl olaraq yaratdığı dağıntılar və "quraşdırmaların" nəticəsidir. Qobustan adının da mənşəyi məhz bu təbii şəraitlə izah edilməyə çalışılır. Türk dillərində "qobu / kobu" sözü "yarğan, boşluq, yarısəhra" anlamına gəlir [6].

Qobustan abidələri kompleksi uzunu 15-20 km, eni 2 km olan zolaqvari kiçik bir sahədə yerləşən Böyükdaş, Kiçikdaş və Cingirdağ ərazisindəki qayalıqlar arasındadır [10]. Qobustan daş dövründən tutmuş orta əsrlərədək uzun bir dövrü əhatə edən bir mədəniyyət abidəsi kimi zəngin tarixi-arxeoloji kompleksdir. Burada minlərlə piktoqrafik təsvir, ibtidai insan məskənləri və digər tarixi abidələr mövcuddur [3]. Bu abidələr ilk dəfə XX əsrin 30-cu illərinin sonlarında diqqəti cəlb etmişdir. II dünya müharibəsinin başlanması ilə əlaqədar onları tədqiq etmək, bu regionda fundamental elmi axtarışlar aparmaq işi təxirə salınmış və onların müntəzəm tədqiqinə yalnız 1947-ci ildən başlanmışdır. Qobustan abidələrində aşkar edilmiş maddi mədəniyyət qalıqları və minlərlə qayaüstü təsvir mövzunun işlənilməsi üçün aktual amillərdən olmuşdur [5].

Qobustanın ilk tədqiqatçısı olan görkəmli alim İ.M.Cəfərzadə 1939-1940-cı illərdə Bakının 60-70-km-də, Səngəçal-Duvannı dəmiryol stansiyaları rayonunda, Böyükdaş, Kiçikdaş, Cingirdağ-Yazılıtəpədə elmi tədqiqat işlərinə başlamışdır. Onun müntəzəm tədqiqinə isə 1947-ci ildən başlamışdır. İ.M.Cəfərzadənin rəhbərliyi ilə Qobustanda bir neçə min qaya və daş gözdən keçirilmiş, onlardan 725 daş üstündə döymə, qazma və sürtmə üsulu ilə çəkilmiş 3000-dən çox insan və heyvan rəsmi, 20 qayaaltı sığınacaq qeydə alınmışdır [15, s.18].

1966-cı ildən başlayaraq Qobustanda tədqiqat işləri C.N.Rüstəmov və F.Muradova tərəfindən aparılması qeyd edilmişdir. Alimlər tərəfindən 1966-2005-ci illərdə Qobustan ərazisində apardığı tədqiqatlar nəticəsində “Ana zağa”, “Ovçular zağası”, “Firuz”, “Kənizə”, “Şonqar”, “Ceyranlar”, “Qaya-arası”, “Dairə”, “Böyükdaş”, “Çapmalı” yaşayış yerləri və 30-dan artıq kurqanlar qeydə alınıb tədqiq edilmişdir [2]. Qobustanda aparılan tədqiqatlar zamanı üst Paleolit, Mezolit, Neolit, Eneolit, Tunc və Orta əsrlərə aid maddi və mənəvi mənbələr üzə çıxarılmışdır. İ.M.Cəfərzadə, C.N.Rüstəmov və

F.M.Muradovanın rəhbərliyi altında Qobustan ərazisində aparılan tədqiqat işləri nəticəsində Qobustandan tapılmış maddi-mədəniyyət qalıqları bu ərazidə əkinçilik və maldarlığın ilkin meydana çıxması, burada istehsaledici təsərrüfatın ilk rüşeymlərinin meydana gəlməsini Mezolit dövrünün sonlarından başlanmasını söyləməyə əsas verir. Bu Mezolit dövrünün öyrənilməsində Qobustan abidəsinin önəmli mənbə olduğunu bir daha sübut edir. Mezolit dövrünə aid Qobustanda aşkar edilmiş erkən qayaüstü rəsmlərin başlıca mövzusu həmin ərazidə ovlanan heyvanlarla bağlıdır [15, s.15].

Qobustanda aparılan arxeoloji qazıntı və tədqiqatların nəticələri göstərdi ki, burada Böyükdaş və Kiçikdaş dağları sahəsində qədim insanın yaşaması ümumən 15 min il əvvəlki dövrdən başlayır. Qobustanda həyatın bu qədər qədimdən başlaması və Qobustan mədəniyyətinin bu qədər zənginliyi, uzun minillər boyu davam və inkişaf etməsinin qanunauyğunluğuna şübhə qalmır. Axı ovçuluq bol ov olan yerdə, həyat, yaşayış üçün şərait olan yerdə, mədəniyyət də yaşayışın tam təmin olunduğu, insanların onun inkişafı üçün imkan və vaxtları olduğu şəraitdə daha tez və sürətlə inkişaf edə bilər [10, s.14-15].

Qoruq ərazisində alimlər tərəfindən 6000-dən artıq qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilmiş və öyrənilmişdir. XX əsrin ortalarından başlayaraq alimlər tərəfindən öyrənilən Qobustan piktoqrafik abidələri tədqiqatçılara Azərbaycan tarixinin qədim dövrünü öyrənmək üçün ilk mənbə kimi bol material vermişdir. Böyükdaş və Kiçikdaş, Cingirdağ, Yazılıtəpə dağlarında 3500-dək qaya üzərində piktoqrafik təsvir, yalaqlar, yazılar və insan əllərinin yaratdığı digər abidələr tarixçi-arxeoloq İshaq Cəfərzadə tərəfindən kəşf edilmişdir [13].

Bəşəriyyətin ilkin dövrlərini, xüsusən Son Paleolit, Mezolit və Neolit dövrünü öyrənmək baxımından Qobustan abidəsi son dərəcə qiymətli və əvəzsiz mənbədir. 1939-cu ildə Qobustan ərazisində tarixçi-arxeoloq İshaq Cəfərzadənin rəhbərliyi altında aparılan qazıntı işləri və axtarışlar nəticəsində aşkar edilən qayaüstü təsvirlər və maddi-mədəniyyət nümunələri Azərbaycan ərazisində qədim daş dövrü mədəniyyəti izlərinin olması haqqında elmi fikirlər yürütdü.

Aparılan tədqiqatlar nəticəsində Kiçikdaş dağı sahəsində üzərində qədim qayaüstü təsvir və insan əlinin başqa izi olan 90 yeni daş, Qayaaltı sahəsində 21 daş və Daşqışlaq sahəsində 41 daş aşkar edilib işlənilmişdir. Kiçikdaş dağı ərazisində qayaüstü təsvirlərin ən qədimi "Qayaaltı" sahədə "Qayaarası" düşərgəsində və Kiçikdaş sahəsinin 49 və 49b nömrəli daşlarında ("Ceyranlar" düşərgəsində) qeydə alınmış yuxarı paleolit dövrünə aid təsvirlərdir. Tarixin sonrakı dövrlərinə aid rəsmlərə Kiçikdaş dağı kolleksiyasının müxtəlif sahələrində rast gəlinir [11].

Kiçikdaş dağı Qobustan qəsəbəsindən cənub-qərbdə, Böyükdaş dağından 3-km cənubdadır. Hazırda Kiçikdaş dağı iki hissədən ibarətdir: dağ hissə, gil özülü dağılıb qayalıqlar dənizinə çevrilmiş hissə. Kiçikdaş dağının qayaüs-

tü təsvirləri 3 kolleksiyadan - Qayaaltı, Kiçikdaş və Daşqışlaq kolleksiyalarından ibarətdir. Qobustanda aşkar edilən bu tədqiqat obyekti Azərbaycan tarixinin qədim dövrünü öyrənmək üçün mühüm əhəmiyyət daşıyan önəmli mənbələrlə zəngin bir abidədir. "Qayaaltı" qayaüstü təsvirlər kolleksiyası Kiçikdaş dağı zirvəsinin cənub-şərq tərəfində, dağın daş örtüyünün altında, nəhəng qaya parçaları arasında aşkar edilmiş 18 rəsmli daş "Qayaaltı" kolleksiyası kimi qeydə alınmışdır. Bu sahədə təsvirlərin dövrünü müəyyənləşdirmək məqsədilə "Qayaarası" və "Qayaarası-2" adlı daş dövrü düşərgələrində elmi tədqiqat işi aparılmış, nəticədə bu kolleksiyadakı öküz, qaban, döymə qadın, xətti kişi, ceyran təsvirlərinin çəkilmə tarixinin üst paleolitin sonuna aid olduğu müəyyənləşdirilmişdir. "Qayaaltı" daşlarında artıq yay-oxun meydana çıxdığını göstərən tək-tək yay-oxlu kişi təsvirlərinə də təsadüf olunur. Hər iki düşərgə sakinləri əsas ceyran ovlamışlar, fauna qalıqlarının 98%-ni iri ceyran sümüyü təşkil edir. "Qayaaltı" kolleksiyasının 5 №-li daşında qədim qadın təsvirləri sitayiş obyekti - totem öküzün üstündə çəkilmişdir. Onların hər ikisi üst paleolitin sonuna aiddir. 5 №-li daşda uzunluğu 430 sm olan tunc dövrünə aid nərə cinsindən olan balıq təsviri çəkilmişdir. 6 №-li qayada 3 qadın təsvirinin bədəni kəsmə xətlərlə bəzədilmişdir. Hər iki düşərgənin daş məmulatının arxaik səciyyəli olması burada şatelperron tipli paleolit əlamətli köndələn bıçaq nümunələrinin çoxluğu materiallar arasında paleolit səciyyəli qadın heykəlciklərinin və mədəni təbəqə altındakı daşlarda öküz başı təsvirlərinin açılması bu kolleksiya abidələrini üst paleolitin sonuna aid etməyə imkan verir (e.ə. 18-15 min il) [11].

Əgər qayaüstü təsvirlər qədim düşərgə, yaşayış yeri və qəbir abidələrindən uzaqdırsa onların tarixini əsaslandırılmış şəkildə müəyyən etmək çox çətin olur. Təsvirlərdə eyni obyektin (deyək ki, insanın, öküzün, keçinin və s. ayrı-ayrılıqda) iri və ya kiçik ölçülü, az və çox real çəkilməsi də onun tarixini müəyyənləşdirmək üçün əsas ola bilməz. Belə bir fərdin təsviri nəhəng qaya səthində çox iri ölçüdə də kiçik də qazıla bilər. Lakin ocaq başında kiçik bir daş parçası üzərinə qazılmış eyni heyvan şəkli dövründən asılı olmayaraq kiçik ölçülü olacaqdır. Qayalar üzərindəki qədim təsvirlərin reallıq dərəcəsi də sözsüz həmişə əsas kimi qəbul oluna bilməz. O dövrün “rəssamlarının” heç də hamısı eyni qabiliyyətə, indiki ölçü ilə savada malik olmamışdı. Elə indinin özündə bir neçə lap eyni məktəbi qurtarmış adam naturadan və ya fotosundan istifadə etmədən hansı bir heyvanın, deyək ki, öküzün, keçinin təsvirinin çəkməyi tələb etsək, onların çəkdiyi rəsmlərin heç ikisi də bir-biri ilə eyni olmayacaq [16].

Qobustanda öküz təsvirləri çoxdur. Sözsüz ki, onların çox qədimləri və daha sonradan çəkilənləri də var. Qədim Qobustanda ən çox ceyran və gür ovlanmasına baxmayaraq, əyani təsvirləri azdır. Ceyran şəkilləri keçiyə, gür şəkilləri isə ata oxşadığından ayrı-ayrılıqda hər birinin tarixinin müəyyənləşdirmək çətindir. Lakin ümumən təsvirlərin gür şəkillərindən daha əvvəl çəkildiyini söyləmək olar. Çünki “Qayaarası” düşərgəsində ən

çox ceyran ovlanması, görünür bu yerlərdə hələ gürların məskunlaşmadığı ilə əlaqədardır [8]. Qədim insan və öküz təsvirləri bizə Qobustan abidələrinin daha qədim dövrə yəni üst Paleolitə gedib çıxmasına əsas verir.

Qayaüstü təsvirlərin aşkar edilib qeydə alındığı yerlərdən çox uzaqda aparılmış qazıntılar zamanı əldə edilmiş materiallardan gil qablar, sümükdən və tuncdan düzəldilmiş əşya, silah, kəmər və s. üzərində müxtəlif bəzək xətləri və təsvirlərə (keçi, maral, balıq və s.) rast gəlinir və bu kimi materiallar qayaüstü təsvirlərdə, ümumi hal kimi bu və ya başqa süjetin hansı tarixi dövrdən başlanıb yaranması üçün əsas götürülür. Bu da müəyyən qədər deyək ki, Xanlar rayonundan üzərində keçi ovu səhnəsi təsvir edilmiş qab, Şaxtaxtından üzərində heyvan rəsmləri çəkilmiş boyalı qab, müxtəlif rayonlardan tapılmış tünc kəmərlər kimi abidələr üzərindəki təsvirlər, tapıntı və onu müşaiət edən materiallarda dövrləşdirmək baxımından əhəmiyyətlidir. Lakin, qədim təsvirlərin tam dəqiq, yəni nəinki müəyyən yüzilliyin əvvəli-axırı ilə lap əsrlə də müəyyənləşdirilməsi etiraz doğura bilər [16].

Qədim qayaüstü təsvirlərin dövrünü çox geniş götürmək lazımdır. Belə ki, eyni süjet istifadə olunan abidənin (gil qabın, kəmərin və s.) düzədilməsindən əvvəl də, sonra da yaşaya bilər. Yəni deyək ki, bir keçi şəkli və ya hər hansı bir rəsmin tarixini arxeoloji materialın üzərindəki eyni tipli rəsmə əsasən o materialın (gil qabın) dövründən sözsüz ki, qabağa aid edirik. Lakin o qabın üzərindəki şəklin qabdan gec olması o demək deyil ki, bizim onunla oxşar saydığımız obyekt ondan gec ola bilməz. Və ya bir arxeoloji abidə üzərində qeydə alınmış süjetin yalnız o tapıntı dövründə meydana gəldiyini, ondan çox-çox qabağ da yaşamadığını kim təsdiq edə bilər. Ona görə də Qobustanda arxeoloji qazıntılar zamanı aşkar təsvirlərində baldırlar öndən görünüşdə ikiləşir, yayla (kaman) silahlanmış, bədəni xətlərlə kəsilib bəzənmiş və s. şəkildə verilirlər. Qobustanda qədim insanın bir neçə düşərgəsi üzə çıxarılmışdır. Düşərgələrin ərazilərində əhəmiyyətli və olduqca maraqlı material verən məzarlar aşkar edilmişdir ki, burada qədim dövrün öyrənilməsinə dair mühüm maddi mənbələr vardır. Onlardan müxtəlif alətlər və bəzək əşyaları tapılmışdır. Qobustan zonasında daş dövrünün 10-dan çox düşərgəsi aşkar edilmişdir ki, onların da bir hissəsindən sonrakı dövrlərdə istifadə edilmişdir [7].

Elə məhz bu cəhətlərinə görə, Qobustan qayaları təkcə qədimdə yaşayan insanların məskənləri kimi deyil, eyni zamanda, Azərbaycanın və Azərbaycan xalqının ən qədim dövrlərə aid tarixini öyrənmək üçün əvəzsiz dəyərli tarixi mənbədir. Bu qayalarda regionun təqribən 15 minillik həyatını, yaşam tərzini, tariximizin indiyədək qaranlıq qalmış, az tədqiq olunmuş qatlarını öyrənmək baxımından da olduqca qiymətli məlumatlar vardır. Bu məlumatlar antik dövr tarixindən başlayaraq Yuxarı paleolit dövrünü və orta əsrlərə qədərki böyük zaman kəsiyini əhatə edir [13].

Qobustanın Mezolit və Neolit dövrü daş məmulatında olan yaxın oxşarlıq qədim qobustanlıların tarixi-mədəni inkişaf ənənələrindəki varislik və minillik-

lərlə burada yaşamış qəbilələrin eyni etnik qrupa daxil olduğuna əyani sübutdur. Qobustan abidələrində aşkar edilən maddi mənbələrdən olan daş toxaların, sürtgəclərin, dənəzən daşların, bıçaqvari lövhədən biçin bıçağı tipli alət nümunələrinin tapılması əkinçiliyin yaranacağından xəbər verir. Bu alətlərdən yabanı dənli bitkilərin biçilməsi, döyülməsi, əzilməsində istifadə olunurdu. Burada bəzi heyvanların əhliləşdirilməsinə doğru ilk addımlar atılır [14].

Qobustanın mənbələri olan qayaüstü təsvirlər bəşər mədəniyyətinin abidələri, keçmişin təsərrüfat həyatı və ideologiyasının öyrənilməsi üçün əvəzolunmaz mənbə kimi böyük əhəmiyyət kəsb edir. Neolit dövrünə aid qayaüstü təsvirlər qədim insan düşərgələri - qayaltı sığınacaqların divarlarında, düşərgə ətrafında aydın göstərən, heç bir çətinlik çəkmədən yaxınlaşmaq mümkün olan daşlar - qayalar üzərində, hətta ocaq qırağındakı kiçik daşlarda çəkilmişdir. Bu təsvirlər heç bir mistik və dini oyanmalar nəticəsi deyil, insan təbiətcə təsviri sənətə meyilli olmasının, real həyatla bağlı, həyatda gördüklərinin təcəssüm etdirilməsindən ibarətdir. Deməli, burada aşkara çıxarılan mənbələrə əsasən ovsunçuluq nə qədim təsvirlərin meydana gəlməsində, nə də təsviri sənətin nəqqaşlığın yaranmasında həlledici əhəmiyyət kəsb etmişdir. Qədim incəsənət nümunələri, eləcə də qayaüstü təsvirlər real həyatın tərənnümüdür. Qobustandakı “Ovçular zağası”, “Ana zağa”, “Kənizə” düşərgələrindəki neolit dövrünə aid mənbələr olan qayaüstü təsvirlər Azərbaycanın ibtidai icma dövrü maddi mədəniyyət tarixini saysız-hesabsız yeni tipoloji nümunələrlə zənginləşdirmişdir [9, s.6].

Qədim qayaüstü təsvirlərin dövrünü dəqiqləşdirmək sahəsində arxeoloji qazıntıların nəticələri əsas ola bilər, əgər qazıntı ilə tədqiq edilən abidənin qayaüstü təsvirlər mədəniyyəti ilə əlaqəsi olsa, yəni bilavasitə qonşu olsalar. Bu baxımdan qədim şəkillərin tarixinin müəyyənləşdirilib dəqiqləşdirilməsi üçün Qobustanda aparılmış qazıntı-tədqiqat işləri böyük elmi əhəmiyyət kəsb edir [10].

Beləliklə, ümumilikdə qeyd edə bilərik ki, sirli Qobustan abidələri Azərbaycanın qədim tarixinin zənginliyini və qədim sivilizasiya mərkəzlərdən biri olduğunu sübut edən ecazkar abidələr sırasındadır. Bütövlükdə Qobustan qayalarındakı rəsmlərin xarakteri, mahiyyəti və süjet xətləri Daş, Tunc və Erkən dəmir dövründə yaşamış sakinlərin həyat tərzi ilə yaxından tanış olmağa və elmi dəlillərlə sübut olunaraq dünya ictimaiyyəti tərəfindən tanınmasına imkan verir.

### *Ədəbiyyat siyahısı:*


1. *Aslanov Q.M.Abşeronda arxeoloji qazıntılar. Bakı,1965,247 s.*
2. *Avşarova İ.N. Qafqaz arxeologiyası /İ.N.Avşarova, Q.Ə.Pirquliyeva. Dərslik. Bakı,2010,248 s.*
3. *Azərbaycan arxeologiyası. Bakı,Şərq-Qərb,2008,c.1, 448 s.*
4. *Azərbaycan etnoqrafiyası. Bakı, Şərq-Qərb, 2007, c.1,544 s.*
5. *Azərbaycan tarixi. Bakı, Elm, 2007, c.1, 520 s.*

6. Azərbaycanı tanıyaq: Qobustan qayaları barədə bilmədiklərimiz: [Elektron resurs] // https:www.faktxeber.com/azrbaycan-tanyaq-qobustan-qayalar-bard-bilmdiklrimiz _ h 49 54 76.html.
7. Cəfərzadə İ.M. Qobustan / İ,M,Cəfərzadə. Bakı, 1999
8. Fərəcova M. Azərbaycan qayaüstü incəsənəti. Bakı, 2005, 486 s.
9. Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, Bakı Universiteti nəşriyyatı, 2009, 420 s.
10. Rüstəmov C. Qobustan dünyası. Bakı, Azərnəşr,1994, 176 s.
11. Rüstəmov C. Qobustan, Kiçikdaş dağı abidələri. Bakı, 2008, 316 s.
12. Tağıyev C. Mesopatamiyanın daha qədim mədəniyyət ocağı. Bakı, 2009
13. Vəliyeva S. Qobustan qayalar üzərində salnamədir. Bakı, 2008, 9 iyul, № 9
14. Бадер Н. Петроглифы и животный мир Гобустана в начале пашей эры: [Электронный ресурс] // https://history.wikireading.ru/343021.
15. Джафарзаде И.М. Наскальные изображения Гобустана (Азерб.ССР). //Археологические исследования в Азербайджане (Сборник статей). Баку, 1965, с.18-29
16. Qayaüstü təsvirlərin dövrləşdirilməsi. //https://azkurs.org /ceferqulu-rustemov.html?page=9

## ŞƏKİLLƏR



**Şəkil 1.**



**Şəkil 2.**



**Şəkil 3.**



**Şəkil 4.**

**UOT 94 (479.24); 930:314**

# XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AHISQA TÜRKLƏRİNİN REPATRİASİYASINA MANE OLAN AMİLLƏR

***Samirə Hadıyeva***
***BDU,Tarix fakültəsi, magistrant***
***samira1997hadiyeva@gmail.com***

*Məqalədə hazırda Gürcüstan sərhədləri içərisində qalan Samtsxe-Cavaxetiya bölgəsinın türk müsəlman yerli əhalisi olan Ahısqa türkləri problemindən bəhs edilir. Onların müxtəlif illərdə məruz qaldığı deportasiya və onun nəticələri və günümüzdə davam edən vətənə qayıdış prossesi araşdırılmışdır. Xüsusən, XX əsrin sonu - XXI əsrin ilk onilliklərində Ahısqa türklərinin repatriasiyası** və bu məsələnin beynəlxalq müstəviyə çıxarılması məsələlərinə toxunulmuşdur. Bu problemin həllinə başlıca mane olan faktorlara nəzər salınmışdır.*

***Açar sözlər:*** *Samtsxe-Cavaxetiya, Ahısqa türkləri, deportasiya, repatriasiya, erməni, separatizm*

## *THE END OF THE XX CENTURY – AT THE BEGİNNİNG OF THE XXI CENTURY FACTORS PREVENTİNG THE REPATRIATION OF AKHISGA TURKS*

*The article deals with the problem of Meskhetian Turks, a Turkic-speaking Muslim indigenous population of the Samtskhe-Javakheti region, which is currently within the borders of Georgia. Their different years deportation and its aftermath, as well as the ongoing repatriation process, have been investigated. In particular, the issues of repatriation of Meskhetian Turks in the late XX-early XXI centuries and raising this issue to the international level were touched upon. The factors hindering the solution of this problem are considered.*

***Keywords:*** *Samtskhe-Javakheti, Meskhetian Turks, deportation, repatriation, armenian, separatism*

## *КОНЕЦ XX ВЕКА - НАЧАЛО XXI ВЕКА ФАКТОРЫ ПРЕДУПРЕЖДЕНИЯ РЕПАТРИАЦИИ ТЮРКОВ АХИСГА*

*В статье рассматривается проблема турок-месхетинцев, тюркоязычного мусульманского коренного населения региона Самцхе-*

---

[*] *Vaxtilə yaşayış yerindən zorla çıxarılmış, deportasiya olunmuş şəxslərin və ya milli-etnik qrupların yenidən həmin məkana qaytarılması*

*Джавахети, который в настоящее время находится в пределах Грузии. Их депортация в разные годы и ее последствия, а также продолжающийся процесс репатриации были расследованы. В частности, были затронуты вопросы репатриации турок-месхетинцев в конце XX - начале XXI веков и вывода этого вопроса на международный уровень. Рассмотрены факторы, препятствующие решению этой проблемы.*

***Ключевые слова:*** *Самцхе-Джавахети, турки-месхетинцы, депортация, репатриация, армянин, сепаратизм*

**Giriş.** Ahısqa türklərinin tarix boyu yaşadıqları ərazi Gürcüstanın Məhsəti bölgəsi olmuşdur. Ahısqa türkləri hazırda Gürcüstan sərhədləri içərisində qalan Samtsxe-Cavaxetiya bölgəsində tarixən yaşamış qədim sakinlər olmuşlar. Samtsxe-Cavaxetiyanın yerli əhalisi olan Ahısqa türkləri, günümüzdə dünyanın dörd bir yanına dağılmış, tarix boyu bir millətin başına gətiriləcək ən qorxunc və insanlığdan kənar bir faciənin qurbanı olan türk müsəlman xalqdır.

Ahısqalılar tarixin müəyyən dövrlərində müxtəlif faciələrlə qarşılaşsa da, bunlardan ən faciəli dövr XIX-XX yüzillikləri əhatə edir. Bu dövr ahısqalıların tarixində faciəli sürgünlər, deportasiyalar dövrüdür.

Məlum olduğu kimi, Ahısqa türkləri üçün yeni bir çətin dönəm İkinci dünya müharibəsi illərinə təsadüf edir. Müharibə ərəfəsində Gürcüstanın Axaltsıx qəzasının 83 kəndində 59,5 min nəfər yaşayırdı. Əhali içərisində türklər 28,5 min nəfər (48%), gürcülər 6 min nəfər (10%) qeydə alınmışdır. Geri qalanlar isə rus və digər millətin nümayəndələri idi. Rəqəmlərdən də türklərin daha çoxluq təşkil etdiyi görünməkdədir. 1944-cu ilin əvvəllərində bölgədə 87,987 nəfər türk qeydə alınmışdır [7, 64].

1944-cü ildə SSRİ rəhbəri İosif Stalinin əmri ilə on minlərlə türk bir gecədə Mərkəzi Asiya və Sibirə deportasiya edildi. SSRİ Dövlət Müdafiə Komitəsinin 1944-cü il 31 iyul tarixli 6279 nömrəli qərarına əsasən 1944-cü il noyabrın 14-də Ahıska kəndindən 100-120 min ahısqa türkü yük vaqonlarına doldurularaq Mərkəzi Asiyaya sürgün edilmiş, xüsusilə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan çöllərinə yerləşdirilmişdir. Lakin bu onların tarixboyu vətənə qayıtma mübarizəsini qırmamışdır [6, 59]. SSRİ Ali Soveti Rəyasət Heyəti 1957-ci ilin oktyabrın 31-də Ahısqa türklərinin 1944-cü il noyabrında sürgün edilməsinin qeyri-qanuni olması haqqında fərman verir. Bu dövrdən etibarən Ahısqa camaatı Gürcüstana dönmək istəsə də, onlara buna razılıq verilmədi.

Təbii ki, Ahısqa türklərinin deportasiya edilməsinin müharibədən əlavə, digər səbəblər də olmuşdur. Baş verən prosesləri və sonrakı dövrdə bölgədəki etno-demoqrafik dəyişiklikləri təhlil edərkən belə bir qənaətə gəlirik ki, bu deportasiya prossesində daha çox İosif Stalinin çevrəsindəki ermənilər əhəmiyyətli rol oynamışdır. Çünki türklərin regiondan deportasi-

yasından sonra, Gürcüstanda əsas xalq olan gürcülərin deyil, ermənilərin sayı sürətlə artmağa başlamış və nəticə də ümumilikdə bütün Samtsxe-Cavaxetiya bölgəsi Gürcüstandakı erməni separatizminin mərkəzinə çevrilmişdir.

Gürcüstanda ictimai rəydə Ahısqa türklərinə qarşı ötən əsrin 80-cı illərində, nəhayət ki, müsbət meyllər izlənilməkdə idi. Beləki, 1987-ci il dekabrın 8-də Respublika Nazirlər Sovetinin "Başqa respublikalardan Gürcüstan SSR-ə daimi yaşayış üçün köçmək istəyən mesxetlərin ailələrinin 1987-1988-ci illərdə mütəşəkkil köçürülməsi üzrə tapşırıqların təsdiqi haqqında" 600 saylı qərarının çıxması ilə Ahısqa türklərinin vətənə qayıtmaq uğrunda ictimai hərəkatı özünün yüksək inkişaf pilləsinə qalxmışdır.

Özbəkistan Ahısqa türklərinin vətənə qayıtmaq uğrunda apardıqları mübarizənin ən fəal, dinamik və parlaq mərkəzlərindən birinə çevrilmişdir. Bunun əsas səbəbi 1989-cu ilin yanvarında əhalinin siyahıyaalınmasıdır. SSRİ əhalisinin siyahıyaalmasına görə, Özbəkistanda 106 minə yaxın ahısqalı (SSRİ-də Ahısqa türklərinin 51% - i) yaşayırdı [1, 60].

Bunu nəzərə alan, SSRİ rəhbərliyi Ahısqa türklərinin vətənə dönmək uğrunda apardıqları ardıcıl və fəal mübarizənin qarşısını almaq üçün bəşəriyyətə sığmayan vasitəyə əl atdı: Fərqanədə faciəli münaqişə baş verdi. Ahısqalılar növbəti dəfə Özbəkistandan deportasiya olunaraq müxtəlif bölgələrə səpələndilər. Özbəkistanı tərk etməyə məcbur olunmuş 74 min nəfər ahısqalı dünyanın müxtəlif yerlərinə səpələnərək, sözün əsl mənasında həyat mübarizəsi verdi. Özbəkistanı tərk etməyə məcbur olunmuş ahısqalıdan 17,5 mini Qazaxıstanda, 16 mini Rusiyada, 40 min nəfərdən çoxu Azərbaycanda özünə sığınacaq tapa bildi [7, 82]. Beləliklə, 1989-cu il Fərqanə hadisələrindən sonra Ahısqa türklərinin ikinci deportasiyası nəticəsində onların çoxu Azərbaycanda məskunlaşır.

Fərqanə faciəsi göstərir ki, bu hadisələr siyasi məqsədlər üçün təşkil edilmiş və həm də Gürcüstana qarşı yönəlmişdir. Sovet imperiyasının xüsusi xidmət orqanları tərəfindən törədilən bu qırğınlar, əslində bir neşə məqsəd daşayırdı – birincisi, Ahısqa türklərinin qanuni formada aparılan mübarizəsini sarsıtmaq, ikincisi, Özbəkistanda milli şüurun, türklük şüurunun inkişafını ləngitmək, üçüncüsü Gürcüstandakı milli hərəkatı əsas məqsəddən – azadlıq ideyasından uzaqlaşdırmaq, bunun üçün Özbəkistandan türklərin kütləvi axınını Gürcüstana yönəltmək, türklər və gürcülər arasında qanlı toqquşmalar salmaq və Gürcüstanı tam nəzarətinə götürmək.

Lakin bu faciədən sonra Ahısqa türklərinin milli hərəkatı daha da vüsətlənir. 1989-cu ilin 2 sentyabrında Azərbaycanda Saatlı rayonunun Adıgün kəndində 10-cu qurultay keçirilir, vətənə dönüş məsələsi tam kəskinliyi ilə qoyulur, həmin ilin 23 sentyabrında Moskvada İzmaylov parkında müxtəlif respublikalardan gəlmiş 526 nümayəndənin iştirakı ilə türklərin ümumittifaq konfransı keçirilir. 1990-cı ilin fevralında Moskvada Ahısqa türklərinin sovet və xarici jurnalistlər üçün mətbuat konfransı olur. Konfransda Qayıdış Müvəqqəti Komitəsinin sədri Y. Sərvərov xalqın

qurtuluşunun yalnız Vətənə qayıtmaqda olduğunu bir daha bəyan edir, bununla faciələrin qarşısının alınacağının bildirir [5, 67].

Sovet İttifaqının dağılmasından sonra, ilk illər Ahısqalılar üçün heç də ürək açan olmamışdır. 1991-ci ildə müstəqilliyini qazanan Gürcüstan əvvəlcə Ahısqa türklərinin geri qaytarılması üçün hər hansı bir məsuliyyət götürməkdən çəkindi. Gürcüstan, Ahısqa türklərinin SSRİ rəhbərliyi tərəfindən sürgün edildiyini və əslində müstəqil olmadığı bir vaxtda baş verən sürgünə görə qanuni məsuliyyət daşımadığını iddia etdi [4, 28].

Əslində, Sovet İttifaqı dağıldıqdan sonra Ahısqa türklərinin təşkilatlanmasında dörd fərqli meylin ortaya çıxması da bu prossesin gedişatına mənfi təsir göstərmişdir. Uzun müddət davam edən bu parçalanmış quruluşun təsirləri bu gün də davam etməkdədir.

Bunlardan birincisi, "türk" kimliyindən imtina etmədən Gürcüstana qayıtmağın tərəfdarı olan "Vətən Cəmiyyəti" və onu dəstəkləyənlərdən ibarət idi. SSRİ-nin süqutundan sonra 1992-ci ildə Ahısqa türklərinin "Vətən" cəmiyyəti beynəlxalq status almış və 1996-cı ilin mayında Avropa Mili Azlıqlar Federal İttifaqına kollektiv üzv seçilmişdir [5, 69].

Ahısqa türklərinin problemi Avropa Milli Azlıqlar Federal İttifaqının 1999-cu ilin mayında keçirilən 44-cü konqresində də əsas məsələlərdən olmuş və 15 mayda bu məsələ xüsusi müzakirə edilmişdir. Bu konqresdən sonra AMAFİ-nin xüsusi missiyası həmin ilin 9-17 noyabrında əvvəlcə Azərbaycanda, sonra Gürcüstanda olmuş rəsmi şəxslər və ahısqalılarla görüşərək vəziyyəti öyrənmişdir. Vyana görüşündəki razılığa uyğun olaraq, 1999-cu ilin iyulunda Avropa Şurası, ATƏT və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı "1944-cü ildə Mesxet regionundan deportasiya olunmuş əhali ilə bağlı məsələlərə dair" Gürcüstana müştərək ekspert missiyası göndərib. Elə həmin ildə Gürcüstan Respublikası Avropa Şurasına qəbul edildikdə "sovet rejimi tərəfindən deportasiya olunmuş mesxet əhalisinə repatriasiya və inteqrasiya, o cümlədən gürcü vətəndaşlığı hüququna imkan verən hüquqi çərçivənin hazırlanması... (və) repatriasiya və inteqrasiyanı başlamaq" barədə rəsmi öhdəlik götürüb [5, 71].

İkincisi, Gürcüstan dövlətini tam rəhbər tutan və Ahısqalıların gürcü olduğunu iddia edərək Gürcüstana geri qaytarılmasını müdafiə edən "Xsna" təşkilatı olmuşdur. "Xsna" təşkilatı, Sovet İttifaqı dağıldıqdan sonra, 1992-ci ildə Gürcüstanın dəstəyi ilə qurulan, əsas iddiası Ahısqa türklərinin gürcü olması fikirini təbliğ edən təşkilat olmuşdur. 1992-ci ildən bəri uzun müddətdir ki, Gürcüstanda Ahısqa türklərini beynəlxalq platformalarda təmsil edən "Xsna", beynəlxalq səviyyədə qəbul edilən və istifadə edilən "Ahısqa Türkləri" terminini istifadə etməmiş, "məsxlər" ifadəsini israrcı olaraq müdafiə etmişdir. Bu dərnəyin üzvü olmaq istəyənlər üzv olma anketini doldurarkən gürcü olduqlarını və gürcü soyadını qəbul etməli və ana dilinin gürcü olduğunu təsdiq etmə şərtlərini qəbul etməli idilər [2, 6]. .Bir çox Ahısqa türkünün bu yanaşmanı qəbul etməməsi, öz türklüklərini güzəşt

etmək niyyətində olmadığını bəyan etmələri ilə Ahısqa türklərinin Gürcüstana qayıtmaq istəyi əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdır.

Təşkilatlanmada üçüncü qrup meyil isə Türkiyədə Ahısqa birliyi üzvlərindən ibarət fərqli dərnək və təşkilatların fəaliyyəti idi. Bu dərnəklər Ahısqalıların Türkiyəyə dönüşünü müdafiə etməkdədirlər.

Dördüncü qrup, mövcud olduğu yerlərdə yaşamağı düşünən Ahısqa türklərindən ibarətdir. Məhz 90-cı illərdə təşkilatlanmada müşahidə olunan bu fərqli meyillər Ahısqa probleminin həllinə mane olan əsas faktorlardan sayılmaqdadır.

Beynəlxalq təşkilatlar, Ahısqa türklərinin taleyinə keçən əsrin 80-cı illərinin axırlarından, xüsusən Fərqanə hadisələrindən sonra diqqət yetirməyə başlasalar da, Ahısqa türkləri məsələsinin ilk dəfə beynəlxalq ictimaiyyətə çıxması, real fəaliyyət 90-cı illərin ortalarından izlənilir. Lakin bunu da qeyd etməliyik ki, 1970-ci illərin əvvələrində (1970-1972) Ahısqalıların beynəlxalq təşkilatlara, bir neçə dəfə (1970-ci ilin aprelində, 1971-ci ilin mart və mayında) Türkiyə səfirliyinə müracitləri olmuşdur [5, 69].

Ümumilikdə, 1957-1991-ci illər arasında Ahısqa nümayəndələri Sovet rəhbərləri ilə vətənə dönmələri ilə əlaqədar Moskvada razılığa gəlmək üçün 164 dəfə görüşdülər, lakin SSRİ problemi həll etmədən tarixə qarışdı [4, 24].

Ahısqa türkləri probleminin beynəlxalq müstəviyə çıxarılması isə 1996-cı il MDB-nin çağırdığı iclasda öz istəkləri olmadan yerlərindən sürgün edilən xalqların probleminə toxunulması ilə baş verdi. 1998-ci il sentyabrın 7-10-da Haaqada ATƏT tərəfindən təşkil edilən görüşdə Rusiya, Azərbaycan və Gürcüstan hökümət üzvləri ilə Beynəlxalq Vətən Cəmiyyəti üzvləri arasında, həmçinin 1999-cu il martın 15-17-də Vyanada yığıncaq zamanı Ahısqalıların vətənə qayıtma problemi, insan hüquqlarının müdafiə edilməsi məsələsi müzakirə edilmişdir.

Məlum olduğu kimi, Avropa Şurasının təzyiqi və Gürcüstan hökumətinin Avropa ilə inteqrasiya etmək istəyi Gürcüstanı demokratikləşmə istiqamətində addımlar atmağa vadar etdi. Məhz bu hadisədən sonra Ahısqa türklərinin vətənə dönmə probleminin həllində yeni bir dönüş yaranmış oldu. Belə ki, 27.01.1999-cu il tarixli 209 nömrəli qərarının 10.2. maddəsində deyildiyi kimi Gürcüstan Avropa Şurasına üzvlük şərti kimi, Şuraya üzv olduqdan sonra 2 il ərzində Ahısqa Türklərinin geri qayıtmasını təmin edən qanunu hazırlamalı, qanunun qəbul etməzdən əvvəl Avropa Şurasının rəyinə verməli və geri dönüş və inteqrasiya proseslərini üzv olduqdan 12 il ərzində yəni, 2011-ci ildə tamamlamalı idi [1, 75]. Lakin, Gürcüstan hökuməti Avropa Şurasının şərtlərini qəbul edərək, Ahısqa türklərinin Gürcüstana qayıdışını tənzimləyən qanunu hazırlayacağını və tətbiq edəcəyini bildirsə də, 2006-cı ilə qədər Gürcüstan tərəfindən real bir addım müşahidə olunmadı.

2003-cü ilin noyabrında "Gül inqilabından" sonra hakimiyyətə qərbyönümlü dövlət başçısı Mixail Saakaşvilinin gəlməsi Ahısqa türklərinin ge-

riyə dönməsi prossesinə müəyyən canlanma gətirmişdir. Mixail Saakaşvilininn iqtidara gəlməsi ilə problemin həllində yeni bir komissiya təşkil edildi. 2005-ci ilin martından - 2006-cı ilin sentyabrına kimi bu dövlət komissiyasına, 2004-cü ilin fevral ayında Münaqişələrin Həllinə Cavabdeh olan Dövlət Nazirliyinə təyin edilmiş Giorgi Haindrava rəhbərlik etməyə başladı [1, 78]. Nazir Haindrava qatıldığı bir çox görüşlərdə Gürcüstanın Ahısqa türklərinin problemini həll etmədən müasir ölkələr sırasında ola bilməyəcəyini vurğulamışdır. O, 2005-2006-cı illərdə Ahısqa türklərinin yaşadığı ölkələrə səfər edərək Ahısqa türkləri və bu ölkələrdəki ölkə rəsmiləri ilə əlaqə qurmuş və geri dönmə prosesi ilə əlaqədar Gürcüstan tərəfindən edilən araşdırmalar haqqında məlumat vermişdir. Digər tərəfdən, Haindrava, Ahısqa türklərinin geri qaytarılması ilə bağlı qanun layihəsinin hazırlanmasında fəal rol oynayan Azlıqların Problemləri üzrə Avropa Mərkəzinin (ECMI) dəstəyi ilə ilk dəfə 2006-cı ilin aprelində Tiflisdə müxtəlif ölkələrdən gələn Ahısqa türk dərnəklərinin nümayəndələri və Gürcüstan nümayəndələrini bir araya gətirən iclasa sədrlik etmişdir. Bu görüşdə geri dönüş prosesi ilə bağlı iki vacib problem bir daha aydın oldu. Birincisi, Ahısqa türklərinin etnik mənsubiyyətinə dair fikir ayrılıqlarından irəli gəlirdi. Nazir Haindrava, bu məsələdə güzəştə getmək üçün Gürcüstana gələn Ahısqa türkünə "Sən kimsən?" sualın yönləndirilməyəcəyini bildirdi. Bir mənada, Haindrava, Gürcüstanda illərdir mövcud olan Ahısqalıların "müsəlmanlaşdırılmış gürcülər" olduğu tezini dayandırdı. İkinci problem, dönüşün ediləcəyi yerlə bağlı idi. Haindrava, dönüşün Ahısqadan başlamayacağını açıqladı. Başqa sözlə, Haindrava bu məsələ ilə ciddi məşğul olub, lazımi qanuni tənzimləmə prosesində fəal iştirak etsə də, bir daha aydın oldu ki, Gürcüstan Ahısqa türklərinin qovulduğu torpaqlara qaytarılmasına istəksiz münasibətdədir [1, 79].

Prosseslərin gedişatından da görüldüyü kimi, Ahısqa türklərinin geri dönməsini tənzimləyən qanunun hazırlanması nəzərdə tutulduğundan xeyli uzun sürdü. Bu vəziyyət Avropa Şurasının da diqqətində olduğu üçün 12-13 iyul 2006-cı il tarixində Strasburqda Avropa Şurasının fikirlərini Gürcüstan rəsmiləri ilə bölüşən bir müşavirə keçirildi. Avropa Şurasının Katibliyi, 25 aprel 2006-cı ildə Avropa Şurası ekspertləri qanun layihəsini, 4 may 2006-cı ildə Tiflisdə keçirilmiş iclasın nəticələrini və qeyri-hökumət təşkilatlarının tənqidlərini nəzərə alaraq yeni hesabat hazırladılar. Bu hesabatın məqsədi qanun layihəsindəki qeyri-müəyyənlikləri aradan qaldırmaq və ya minimuma endirmək idi. Mövcud Gürcüstan hökuməti bu tənqidləri və tövsiyələri nəzərə alacağına söz versə də, 12 iyul 2006-cı il tarixində Avropa Şurası ilə danışıqlardan sonra nazir Haindravanın işdən çıxarılması və bir həftə əvvəl keçmiş Xarici işlər naziri Merab Antadzenin təyin edilməsi qanunun icrasını təxirə saldı və ümumiyyətlə prosesi ləngitdi. Bir cəhəti də qeyd etmək lazımdır ki, Ahısqa türk birliklərinin bu prosesdə iştirakı kifayət qədər məhdud idi. Bunu müsahibələr zamanı Ahısqa türkləri də qeyd

etmişdirlər. Məhz bu səbəbdən konfransın gedişində "Vətən cəmiyyəti" tərəfindən qanun layihəsinə öz etirazlarını əks etdirən məktub Avropa Şurasının Baş katibinə və Avropa Şurası Parlament Assambleyasına göndərilmişdir. Məktubda, Gürcüstana qayıdan Ahısqa türklərinin xarici (əcnəbi) sayılmamalı olduğu, onların keçmiş Gürcüstan Sovet Sosialist Respublikasının vətəndaşı olaraq qəbul edilməsi və Ahısqa türklərinin Gürcüstanda müxtəlif yerlərdə yerləşdirilməsinin sırf assimilyasiya məqsədləri üçün edildiyi vurğulanmışdır [2, 56].

Nəticə olaraq, qanun layihəsinə yönəlmiş tənqidlər və təkliflər fonunda, qanun layihəsi yekunlaşdırılaraq Gürcüstan Parlamentinin təsdiqinə təqdim edildi. 11 iyul 2007-ci ildə parlamentdə müzakirə edilən qanun layihəsi 1 yanvar 2008-ci ildə qüvvəyə minmək üçün qəbul edildi [1, 81]. Ancaq qanunun icrası, geri dönüş prosesinin 2011-ci ildə tamamlanacaq bir tempdə işlədiyini təmin etmədi və Gürcüstanın daxili siyasətində zaman-zaman yaşanan problemlər bu prosesə birbaşa təsir etdi. Başqa sözlə, 2006-cı ilin iyulunda nazir Haindravanın vəzifəsindən azad edilməsi və keçmiş xarici işlər naziri Merab Antadzenin təyin edilməsi ilə dayandırılan proses 2008-ci ildə Cənubi Osetiyada baş verən hadisələrə görə daha da ləngidi.

Bu qanunun qəbul edilməsi Ahısqa türkləri üçün çox böyük addım sayılsa da, qanunda onların hüquqlarını məhdudlaşdıran maddələr də mövcud idi. Məsələn; Vətənə qayıdış haqqında qanununun 4 (4) maddəsində qeyd edilirdi ki, müraciət sənədləri ingilis və ya gürcü dillərində hazırlanmalıdır. Lakin, Ahısqadan sürgün olunanlar ingilis və gürcü dilində danışmağı bacarmırdılar. Bilən birisi vardısa belə, bu 1%-i keçmirdi. Bu qanunun asanlıqla həyata keçirilməsi üçün sənədlərin türk dilində və ya ən azı rus dilində hazırlanmasına da icazə verilməli idi. Çünki keçmiş SSRİ vətəndaşı Ahısqa türklərinin əksəriyyəti bu dildə düzgün danışa və bu dildə yaza bilməkdə idi. Eyni zamanda qanunun ən vacib çatışmazlığı, vətənə qayıdanların tibbi sığortası və pensiya kimi hüquqlarında boşluq olması idi [8].

Dönüş prossesini surətləndirmək üçün 2008-ci il noyabrın 18-də 7 dövlətin 46 nümayəndəsinin iştirakı ilə "Dünya Ahısqa Türkləri Birliyi" yaradıldı. Təşkilatın hədəfi Ahısqa türklərinin müxtəlif ərazilərdə qurduqları təşkilatları bir yerə cəmləşdirmək idi. Təşkilat bu məsələni beynəlxalq qurumların gündəminə salmaq üçün 2010-cu ildə Avropa Şurasının Strasburqda keçirilən 4 iclasına, 2010-cu il noyabrın 26-dan 28-dək Qazaxıstanın paytaxtı Astanada keçirilən ATƏT-in Zirvə toplantısına qatılmış, burada sürgün və ayrı seçkiliklə bağlı sənəd hazırlayaraq ATƏT-ə üzv ölkələrə göndərmişdir. Lakin Ahısqa türklərinin vahid bir ərazidə olmaması bu birliyin fəaliyyətinə çətinlik yaradırdı [6, 60].

Qanunun qəbulundan sonra Gürcüstandakı siyasi, sosial və iqtisadi qeyri-sabitlik Ahısqa türklərinin qayıdış prosesinə son dərəcə mənfi təsir göstərdi. Avropa Şurası, 5 yanvar 2008-ci ildə alınan 1603 nömrəli Fərmanda, 1477 saylı Qərarda olduğu kimi, Gürcüstandan geri qayıtma ilə əlaqədar

tənzimləmələrin sürətləndirilməsi tələb etsə də, nəticədə, Avropa Şurası tərəfindən müəyyən edilmiş və Gürcüstan hökuməti tərəfindən yerinə yetirmək öhdəliyi kimi götürülən geri dönüş prosesi 2011-ci ildə tamamlanmadı. Avropa Azlıqların Məsələləri Mərkəzinin Tiflis ofisi tərəfindən verilən məlumatlara görə, 2012-ci ilə kimi təxminən 9 min müraciət edilmiş ancaq eyni ilin birinci yarısında qəbul edilən müraciətlərin sayı 350-yə çatmamışdır. Bu rəqəmin artacağı proqnozlaşdırılsa da, Gürcüstanın son dərəcə tərəddüdlü, ehtiyatlı olması və prosesi yavaşlatmağa çalışması inkaredilməz bir həqiqət olmuşdur [3, 2673].

Lakin Gürcüstan rəsmilərinin son açıqlamalarında geri dönmə əməliyyatının tamamlanmasının zəruriliyinə diqqət çəkilir. Məsələn, xarici işlər naziri Maya Panjikidze 2013-cü ilin mart ayında Batumidə keçirdiyi mətbuat konfransında Gürcüstanın Ahısqa Türklərinin geri qaytarılması ilə bağlı öhdəliklərini yerinə yetirməli olduğunu bildirmiş, geriyə dönüşlə bağlı 5 min müraciət ərizəsi olduğunu və min müraciətin qəbul olunduğunu bildirmişdir. Lakin müraciət edənlərin sayı və qəbul olunan müraciətlər haqqında dəqiq məlumat yoxdur. Rəqəmlərdə ziddiyyətli və fərqli məlumatlar yer almaqdadır. Trier, Tarxan Mouravi və Kilimnik (2011) tərəfindən yayımlanan məlumatlara görə, 2010-cu ildə 5.841 ailə Gürcüstana qayıtmaq üçün müraciət etmişdir. Bunlardan; 5.389-u Azərbaycandan, 173-ü Qırğızıstandan, 144-ü Türkiyədən, 64-ü Rusiyadan, 25-i Özbəkistandan, 16-ı Qazaxıstandan və 5-i də Ukraynadandır. 21 ailənin isə vətəndaşlığı yoxdur [1, 83].

Ümumilikdə, Ahısqa türklərinin geri qayıtması Gürcüstan üçün çox həssas bir mövzu olmaqdadır. Bu prosesin həyata keçirilməsində iqtisadi problemlərlə yanaşı, mühüm sosial və siyasi əngəllər də mövcuddur:

1. Erməni faktoru. Bu problemin həllində ən vacib faktorlardandır. Ermənistandan gələn diplomatik təzyiq və erməni diasporunun Ahısqa türklərinin gəlməsi ilə bölgədə sosial iğtişaşlar, etnik qarşıdurmaların ortaya çıxacağını iddia etməsi problemin həllinə mane olan ən vacib amil sayılmaqdadır. Günümüzdə Cavaxetiya bölgəsindəki etnik-siyasi problemlər bir müddət dondurulsa da, bu vəziyyətin nə qədər davam edəcəyini proqnozlaşdırmaq mümkün deyil. Ermənistan hökumət dairələri də bu mövzuda eyni bir fikiri müdafiə etmirlər. Məsələn, 2013-cü ildə Ermənistandakı prezident seçkilərində namizəd olmuş Vardan Sedrakyan, 2008-ci il Rusiya-Gürcüstan müharibəsi zamanı Ermənistanın Cənubi Gürcüstanı işğal etməməsinin böyük bir səhv olduğunu bildirmişdir [1,83]. Gürcüstan dövlət rəhbərləri də problemin həllinə mane olan səbəblər içərisində erməni faktorunu etiraf edirlər. Gürcüstan Prezidentinin Millətlərarası münasibət məsələləri üzrə müşaviri Aliksey Gerasimov Ahısqa türklərinin vətənə qayıdışını əngəlləyən əsas bir səbəb kimi həmin ərazilərin "erməni millətindən olan vətəndaşlar" tərəfindən tutulmasını göstərmişdir.

Bu gün ermənilərin Cavaxetiya problemini açıq şəkildə gündəmə gətirməməsinin də bir sıra səbəbləri vardır. Dağlıq Qarabağ məsələsindəki

yanlışlıqları təkrar etmək istəməyən ermənilər daha uyğun tarixi mühitin yetişməsini gözləyir. Dağlıq Qarabağa məsələsini gündəmə gətirərkən ermənilər qısa zamanda bu məsələni öz xeyrlərinə həll edəcək və daha sonra Cavaxetiya məsələsini gündəmə gətirəcəklərini düşünürdülər. Lakin Dağlıq Qarabağda cərəyan edən hadisələr, iki cəbhədə siyasi-hərbi mübarizənin Ermənistan üçün asan olmayacağını anlayan Erməni hökuməti Cavaxetiyaya yönəlik tələblərini hələki rəsmi olaraq açıq gündəmə gətirmir.

Digər bir səbəb isə Ermənistanın müstəqilliyini elan etdikdən sonra nəqliyyat sahəsində yaşadığı problemlər olmuşdur. Şimala sadəcə Gürcüstan ilə çıxışı olan Ermənistan bu ölkəyə qarşı siyasətində son dərəcə diqqətli olmağı dərk edir.

Ümumilikdə, Qafqazda potensial münaqişə ocağı sayılan Samtsxe-Cavaxetiya məsələsini təkcə Gürcüstan üçün deyil, ümumilikdə Qafqazda sülhün və sabitliyin davamlılığını təhdid qarşısında qoyan "dondurulmuş bir bomba" kimi xarakterizə etmək olar.

2.Etnik faktor. Ahısqa türklərinin geri dönməməsi üçün başqa bir vacib amil etnik amildir. Onların türk və müsəlman olmalarıdır. Gürcüstan bildirir ki, Ahısqa türklərinin geri qaytarılması yalnız gürcü dilini qəbul edib gürcü soyadlarını aldıqları təqdirdə mümkündür. Ahısqalılar, bu qədər sürgün və qırğına baxmayaraq milli kimlik və ata yurdları barəsində güzəştə getmək istəməməkdədirlər**. "Biz Türkük, sürgündən əvvəlki vətənimizə dönmək, viran yurdumuzu şənləndirmək istəyirik, başqa bir əməlimiz yoxdur"** deyirlər [8].

3.Ahısqa türkləri arasında birliyin olmaması, fikir ayrılığının mövcudluğu faktoru. Tədqiqatlar, fərqli ölkələrdə yaşayan Ahısqa türklərinin geri dönüş mövzusunda fərqli düşüncələrə sahib olduqlarını ortaya qoymaqdadır. Daha əvvəl qeyd edildiyi kimi, çoxları bu prossesə tərəddüd edir və ya istəksizdirlər. Bu səbəblə geri dönmə prosesi tamamilə Ahısqa türklərinin ixtiyarına buraxılmalıdır. Bu fərqli fikirlərin mövcudluğu, 2006-2007-ci illərdə Avropa Azlıqların Problemləri Mərkəzi tərəfindən geniş tədqiqatlar aparmasına səbəb olmuşdur. Bu araşdırmalara görə, Gürcüstana qayıtmaq istəyənlərin xeyli hissəsi bu gün Azərbaycanda yaşayan Ahısqa türkləri arasındadır. Başqa sözlə, vətən düşüncəsinin və vətənə qayıtmağın əsas məqsəd olduğu Ahısqa türkləri qrupunun Azərbaycanda olduğu müəyyən edilmişdir [1, 84].

Ancaq bütün bu mənfi cəhətlərə baxmayaraq, Ahısqa türkləri mövzusunun qanuni və insan hüquqları aspekti nəzərə alınmalıdır. Əsas odur ki, Ahısqa türklərinin deportasiya edildikləri bölgəyə qayıtmaq hüququ, 1944-cü il deportasiyasında məruz qaldığı haqsızlıqların qanuni düzəlişi və geri dönüşü yeni ayrıseçkilik və yeni insan hüquqları pozuntularına səbəb olmayan bir şəkildə həyata keçirilsin. Geri dönüş prosesində beynəlxalq təşkilatların və ya müvafiq ölkələrin maliyyə dəstəyi də məcburidir. Gürcüstanın üzləşdiyi iqtisadi problemləri nəzərə alaraq, Ahısqa türklərinin beynəlxalq

dəstək olmadan geri qayıtmasını reallaşdıra bilməyəcəyi danılmaz bir həqiqətdir. İnkar edilə bilməyən digər bir həqiqət, beynəlxalq maliyyə dəstəyinin həm Ahısqa türklərinin, həm bölgəsinin və həm də yerləşəcəyi insanların inkişafına kömək edəcək bir şəkildə qurulmasıdır [3, 2674]. Bütün bu ölçülərdən başqa bəlkə də nəzərdən keçirilməli ən vacib məsələ, əvvəlki səhifələrdə müzakirə olunan, bölgəni potensial münaqişə zonasına çevirən və kökləri tarixi faktlara söykənən etnik-siyasi - strateji problemlərdir. Qeyd etmək lazımdır ki, bölgənin reallığını hərtərəfli sosioloji təhlil etmədən geri dönüş proqramı ciddi problemlərə səbəb olacaqdır.

Yekun olaraq qeyd edə bilərik ki, bu gün Ahısqa türklərinin Ahısqaya qayıtması həm Gürcüstan, həm də Ahısqa türkləri üçün aktual problemdir. Dönüş nəticəsi olaraq Gürcüstan 75 ildən çox davam edən ədalətsizliyə son qoyan bir dövlət olaraq böyük nüfuz qazanacaqdır. Başda Türkiyə və Avropa Birliyi ölkələri arasında güvən sahibi olacaq, bundan əlavə, Ahısqa bölgəsində yenidənqurma işləri ölkədə iqtisadiyyatın canlanmasına da öz töhfəsini verəcəkdir.

### *Ədəbiyyat siyahısı:*

1. *Aydıngün İ. Aydıngün A. Ahıska Türkleri: ulusötesi bir topluluk-ulusötesi aileler. Ankara, Hoca Ahmet Yesevi Uluslararası Türk-Kazak Üniversitesi, 2014, 199 s .*
2. *Aydıngün A. Ahıska Türklerinin Gürcistan'a Dönüşünde Son Durum. Stratejik Analiz. C. 7, No. 77, 2006, 53-58 s*
3. *Aydıngün A. Ahıska Türklerinin Dünü, Bugünü ve Yarını. Yeni Türkiye, Türk Dünyası Özel Sayısı II. No. 54, 2013, 2665-2674 s.*
4. *Alpbaz E. Geri dönüş yasası çərçivəsində Ahıska türklərinin Gürcüstan Cümhuhuriyyetine dönüşü. Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yüksek Lisans Tezi , Ankara, 2018, 122 s.*
5. *Hacılı A. Ahısqa Türkləri: Vətən bilgisi. İstanbul, 2009, 584 s.*
6. *Qafqazda deportasiyalar. Respublika elmi konfransı. Tezislər. Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Qafqazşünaslıq İnstitutu, 2018, 152 s.*
7. *Юнусов А. Месхетинские турки: Дважды депортированный народ. Баку, «Заман», 2000, 164 с.*
8. *Bizim Ahıska. Vatana Dönüş Kanunu Üzerine Bazı Değerlendirmeler. https://www.ahiska.org.tr/?p=630 İstifadə olunma tarixi: 24.03.2020*

***Məqalə BDU-nun Türk xalqları tarixi kafedrasının dosenti Sevinc Ruintənin rəyi ilə çapa təqdim edilib.***

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA MƏRKƏZİ ASİYA İLƏ BAĞLI LAYİHƏLƏR (XX ƏSRİN SONU)

***Gülnarə Sədrəddinova***
***BDU, Tarix fakültəsi, elmi işçi***
***ayxan.sadraddinov@mail.ru***

*SSRİ-nin süqutundan sonra Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı münasibətlərdə yeni pəncərə açıldı. Türkiyə Azərbaycan dövlətinin vasitəçiliyi ilə Mərkəzi Asiya respublikalarının ixracat məhsullarını satın ala bilmək, regionun iqtisadi sərvətlərindən əlverişli istifadə etmək, buradakı iqtisadi və siyasi profilini genişləndirmək istəyirdi. Türk dünyasının mədəni körpüsünün qurulmasında TÜRKSOY-un rolu, Mərkəzi Asiyada bütün dünya bazarları ilə əlaqələri olan limanlar içərisində ən qısa, ən sürətli və ən ucuzu sayılan TRASECA layihəsi, Bakı-Tbilisi-Ceyhan boru kəməri, tarixi İpək yolunun bərpası və s. kimi məsələlər məqalədə təhlil edilmişdir. Türkiyənin regional dövlətə çevrilməsi və Xəzərsahili dövlətlərin enerji ehtiyatları ilə zəngin olması Qərbin də həmin layihələri dəstəkləməsinə şərait yaratdı.*

***Açar sözlər:*** *Türk dövlətləri, Bakı-Tbilisi-Ceyhan boru kəməri, TRASECA*

## *ПРОЕКТЫ ПО ЦЕНТРАЛЬНОЙ АЗИИ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ (В КОНЦЕ XX ВЕКА)*

*После распада СССР открылось новое окно для взаимоотношений между Азербайджаном, Турцией и странами Центральной Азии. При посредничестве азербайджанского государства, Турция хотел покупать экспортные товары из республик Центральной Азии, эффективно использовать экономические ресурсы региона и расширять его экономический и политический профиль. Роль TÜRKSOY в строительстве культурного моста тюркского мира, самый короткий, быстрый и дешевый порт в Центральной Азии – TRASECA, трубопровод Баку-Тбилиси-Джейхан, восстановление исторического Шелкового пути и т.д. такие вопросы были проанализированы в статье. Превращение Турции в региональное государство и богатство прикаспийских государств позволило и Западу поддержать эти проекты.*

***Ключевые слова:*** *Тюркские государства, трубопровод Баку-Тбилиси-Джейхан, TRASECA*

# PROJECTS IN CENTRAL ASIA BETWEEN AZERBAIJAN AND TURKEY (AT THE LATE OF THE XX CENTURY)

*After the collapse of the USSR, a new window was opened in mutual relations between Azerbaijan, Turkey and Central Asian countries. Turkey wanted to buy export products of Central Asian republics, effective use of the region's economic resources, expanding its economic and political profile here through the mediation of the Azerbaijani state. The role of TURKSOY in the construction of the cultural bridge of the Turkic world –, the shortest, fastest and cheapest of ports in Central Asia – TRASECA, Baku-Tbilisi-Ceyhan pipeline, restoration of historical Silk Way, etc. And like these issues have been discussed in the article. Turkey's transformation into a regional state and the richness of the Caspian littoral states have made it possible for the West to support these projects as well.*

***Keywords:*** *Turkish states, Baku-Tbilisi-Ceyhan pipeline, TRASECA*

Soyuq müharibənin bitməsi və SSRİ-nin dağılmasından sonra dünyanın müxtəlif yerlərində olduğu kimi Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı münasibətlərdə də yeni pəncərə açıldı. XX əsrin 90-cı illərindən etibarən təkcə Türkiyə deyil, yeni yaranan türk respublikaları da beynəlxalq aləmdə türk dünyasını təmsil etməyə başladılar. Bu əlamətdar dövrün başlanğıcı ortaq dil, mədəniyyət, din və etnik mənsubiyyətə malik olan türk dövlətlərinin qarşılıqlı əməkdaşlıqları əsasında qoyuldu.

Mühüm geosiyasi mövqedə - Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan Türkiyə, İran, Gürcüstan, Rusiya və Mərkəzi Asiya dövlətlərinin nəzər nöqtəsində idi. Həmçinin, həmin dövlətlərlə münasibətləri hərtərəfli inkişaf etdirmək yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikasının xarici siyasətinin əsas hissəsini təşkil edirdi.

Müstəqillik qazanan Xəzər dənizi ölkələrindən Qazaxıstan və Azərbaycan neft potensialından, Türkmənistan isə təbii qaz zənginliyindən istifadə edərək iqtisadi dəyişiklikləri reallaşdırmaq və keçid dövrünün problemlərini həll etmək istəyirdi. Türkiyə tədqiqatçılarının fikrincə, Azərbaycan Türkiyə üçün coğrafi mövqeyi, etnik, mədəniyyət, tarix və dil baxımından böyük əhəmiyyət kəsb etdiyindən, Xəzər dənizi Türkiyənin Mərkəzi Asiyaya açılan kilid dəniz hövzəsi kimi qiymətlidir [3, s.181]. Türkiyə Mərkəzi Asiya Respublikalarının ixracat məhsullarını satın ala bilmək üçün bu dövlətlərin iqtisadiyyatına dəstək verilməsinin tərəfdarı idi. Bununla, türk hökuməti Mərkəzi Asiyanın iqtisadi sərvətlərindən əlverişli istifadə etmək, buradakı iqtisadi və siyasi profilini genişləndirmək niyyətində idi.

Azərbaycan, Qazaxıstan və Türkmənistan müstəqillik əldə etdikdən sonra Xəzərin əhəmiyyəti daha da artdı. Hər üç dövlət Qərb şirkətlərini

bölgəyə investisiya qoymağa və enerji qaynaqlarını çıxarmağa dəvət etdi. Beləliklə, Avropa ölkələrinin neft sektorundan gəlir əldə etmək istəyi, Qafqaz və Orta Asiya dövlətlərinin inkişaf etmiş ölkələrə inteqrasiya arzuları və həmin ölkələrin texnologiyasından yararlanmaq istəkləri bu iki bölgə arasında nəqliyyat yollarının təkmilləşdirilməsi fikrini gücləndirdi. Bu baxımdan, Türkiyə hökuməti Mərkəzi Asiya ilə bağlı uzunömürlü planlarını gerçəkləşdirmək yolunda Qərbin dəstəyini qazanaraq irəliləmək istəyirdi.

Texniki bilik və sənayeləşmə yolunda sahib olduğu təcrübələrlə əlaqədar, bu ölkələr üçün də Türkiyə ilə əməkdaşlığın əhəmiyyəti artırmaqda idi. Türkiyə, Mərkəzi Asiyanın Türk Respublikaları ilə xüsusilə nəqliyyat və rabitə sahəsində əməkdaşlığa üstünlük verərək quru və hava nəqliyyatı ilə bağlı müqavilələr imzalamağa başladı [10, s.284-285].

1992-ci ilin əvvəlində Türkiyə Mərkəzi Asiya ölkələrin hər birində səfirliklərini açdı. Həmin ilin dekabr ayında isə Baş Nazirliyin nəzdinə “Türk Əməkdaşlıq və İnkişaf Agentliyi” (TİKA) yaradıldı. (8, s.20) Bundan sonra həyata keçirilən türk dövlətlərinin Sammitləri qarşılıqlı əməkdaşlığın qurulmasında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın müstəqilliyinin ilk illərində prezident Əbülfəz Elçibəy 1992-ci il oktyabrın 28-dən noyabrın 5-dək Türkiyəyə səfər etdi. Oktyabrın 30-31-də Türk dövlət başçılarının zirvə toplantısında digər iqtisadi-siyasi məsələlərlə bərabər, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkmənistan neftinin Türkiyə ərazisindən keçərək Aralıq dənizinə, oradan da Avropaya nəql edilməsi, Türkmənistan və digər ölkələrdəki təbii qazın Türkiyə ərazisindən Avropaya nəql edilməsi məsələləri müzakirə edildi. Görüşün sonunda birgə bəyannamə imzalandı.

Heydər Əliyevin (iyun 1993 – 2003) hakimiyyətə gəlişindən sonra Azərbaycan-Türkiyə münasibətlə-rində yeni mərhələ başladı. 1994-cü ilin 8-10 fevralında Azərbaycan prezidentinin Türkiyəyə rəsmi səfərindən sonra dövlətlər arasında münasibətlər daha da yüksələn xətlə inkişaf etmiş, nəticədə iki dövlət arasında ticarət dövriyyəsi 1994-1997-ci illərdə 3 dəfə artmışdır [1, s.59-65].

1993-cü il martın 9-da ARDNŞ və TPAO arasında Azərbaycan neftinin Bakı-Ceyhan boru kəməri ilə nəqlinə dair müqavilə imzalandı. Ancaq bu məsələ ilə bağlı razılaşma uzun çəkdiyindən əsas müqavilə noyabrın 18-də 1999-cu ildə İstanbulda keçirilən ATƏT Sammitində imzalandı. Aprel 2000-ci ildə isə Azərbaycan, Türkiyə, Gürcüstan, ABŞ dövlətinin rəsmi nümayəndələri ilə BP və Amoco nümayəndələri görüşərək Bakı-Ceyhan inşası üçün ortaq mətn hazırlamışlar. Bu mətn Azərbaycan və Gürcüstan parlamentləri tərəfindən həmin ilin mayında təsdiq edilmişdir.

Türk dünyasının mədəni körpüsünün qurulmasında TÜRKSOY-un böyük rolu vardır. 1993-cü ildən fəaliyyət göstərən təşkilat türk dövlətlərinin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə və Özbəkistan Respublikalarının mədəniyyət nazirlərinin 1992-ci ildə İstanbul və Bakı

şəhərlərində apardıqları danışıqlar zamanı əldə olunmuş razılıq əsasında yaradılmışdır. TÜRKSOY-un qalan 7 üzvü (Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz respublikaları) əsasən müşahidəçi qismində iştirak edirlər. TÜRKSOY eyni zamanda, UNESCO, İSESCO, Avropa Şurası, Avrokomissiya, Dövlətlərarası Humanitar Əməkdaşlıq Təşkilatı (DHƏT) və MDB arasında əməkdaşlığın gücləndirilməsinə istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirmişdir. 1996-cı il iyunun 8-də İstanbulda TÜRKSOY-la UNESCO arasında qarşılıqlı əməkdaşlıq haqqında Müqavilə imzalanmışdır [5, s.22-25].

1993-cü ildə Brüsseldə 8 dövlətin (5 Mərkəzi Asiya, 3-ü Qafqaz) nümayəndə heyətinin iştirak etdiyi konfransda TRASECA proqramı qəbul edildi. TRASECA Mərkəzi Asiyada bütün dünya bazarları ilə əlaqələri olan limanlar içərisində ən qısa, ən sürətli və ən ucuzu sayılırdı. 1997-ci ildə Azərbaycan Respublikasının prezindenti Heydər Əliyev və Gürcüstan Respublikasının prezidenti Şevarnadze tərəfindən TRASECA çərçivəsində Çoxtərəfli Çatdırılma Müqaviləsinin imzalanması üçün Qafqaz ölkələrinin birində konfrans keçirilməsi barədə ortaq təklif irəli sürüldü. Bu təklif 1998-ci il sentyabrın 8-də Bakıda İpək yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi ilə gerçəkləşdirildi. Konfransda Azərbaycan, Bolqarıstan, Gürcüstan, Moldova, Türkiyə, Rumıniya, Özbəkistan və Ukrayna prezidentləri Aİ Komissiyasının nümayəndələri, hökumət başçıları, Nəqliyyat nazirləri və 32 dövlətdən professor heyəti iştirak etdi. Burada Avropa-Qafqaz-Asiya dəhlizi ilə yüklərin daşınmasına dair sənədlər imzalandı. Tarixi İpək Yolunun bərpası siyasi baxımından da mühüm proses idi. Çünki, bu dövrdə dövlətlər arasında Boğazlarla bağlı qarşıdurmalar yaranmışdı. Azərbaycan neftinin Qərbə daşınması ilə bağlı Türkiyə prezidenti Süleyman Dəmirəl "Boğazlar yol keçən yer və ya boru xətti deyildir" sözlərini demişdi. Türkiyə çoxlu miqdarda neftin boğazlardan keçidini İstanbul üçün ekoloji baxımdan təhlükəli hesab edirdi [6, s.479].

Nəqliyyat üzrə həyata keçirilən layihələrin dövriyyəyə olan təsirindən onu misal çəkmək olar ki, İpək Yolu layihəsi fəaliyyətə başladığından etibarən, Azərbaycan üzərindən həyata keçirilən yük daşınması 1999-cu ilin 1-ci yarısından 2 milyon 241.5 min tona çatmışdır. Bu isə 1998-ci ilin həmin aylar ilə müqayisədə 82 min ton daha çoxdur [13].

1996-cı ildə Türkiyənin üzv olduğu BMT-nin Asiya və Sakit okean İqtisadi Sosial Komissiyasının (UNESCAP) 1997-ci ildə keçirilən Banqkok görüşündə 3 nəqliyyat dəhlizi müzakirə edildi:

1. Mərkəzi Asiyanı Rusiya-Ukrayna-Belarusiya vasitəsilə birləşdirəcək Şimal Koridoru
2. Mərkəzi Asiya- Xəzər dənizi- Qafqaz – Aralıq dənizi/Rusiya Federasiyası – Ukrayna və Türkiyə yolu ilə Avropaya birləşəcək Mərkəzi Koridor.
3. Mərkəzi Asiyanı İran və Türkiyə üzərindən Avropaya birləşdirəcək

Cənub koridoru [12, s.171].

1954-cü ildə kəşf edilən və Xəzərin Azərbaycan hissəsində yerləşən ən böyük qaz yatağı olan Şahdəniz təbii qaz yatağının istismarı üçün Türkiyə ilə Azərbaycan arasında ilk müqavilə 1996-cı il iyunun 4-də Bakıda imzalanmışdır. Bu müqavilə həmin ilin oktyabrın 17-də Azərbaycan Parlamenti tərəfindən təsdiq edildi və Şahdəniz təbii qazının dünya bazarlarına nəql edilməsi üçün yeni bir boru kəməri üzərində araşdırmalara başlanıldı.

1997-ci ilin 5-8 mayında Heydər Əliyevin Türkiyəyə növbəti rəsmi səfərindən sonra «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında» bəyannamə imzalanmış və Azərbaycanın neft-qaz kəmərlərinin Türkiyəyə doğru istiqamətlənməsi planları həyata keçirilməyə başlamışdır.

Energetika sferası üzrə beynəlxalq əməkdaşlıq layihələrindən biri Avropa İttifaqı, Qara dəniz ətrafı və Xəzər dəniz ətrafı ölkələr, həmçinin onlarla qonşu ölkələrin daxil olduğu INNOGATE proqramıdır. Bu proqram ABŞ-ın yeni müstəqillik əldə etmiş dövlətlərə texniki yardım baxımından əsas regional layihədir. Proqramın əsas məqsədləri yeni yaranmış dövlətlərdə:

- yerli neft və qaz məhsullarının daşınması sisteminin yenidən bərpa olunması və müasirləşdirilməsi.
- Xəzər dənizindən və Mərkəzi Asiya bölgələrindən neft və qazın daşınması üçün alternativ yolların müəyyənləşdirilməsi [14].

Bu proqrama Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələri daxil olmaqla 50-ə yaxın ölkə qoşuldu.

1998-ci ilin oktyabr ayında Türkiyə, Azərbaycan, Gürcüstan Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ Energetika naziri (müşahidəçi statusunda) tərəfindən imzalanan Ankara Bəyannaməsi, Xəzər dənizi karbohidrogen ehtiyatlarının dünya bazarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan (Xəzər-Aralıq dənizi) boru kəməri layihəsinin və Türkmən qazının dünya bazarına daşınmasının gerçəkləşməsini nəzərdə tuturdu.

Mərkəzi Asiyanın neft və təbii qazının Türkiyə üzərindən xarici bazarlara çatdırmaq ABŞ tərəfindən dəstəklənirdi. Qazaxıstanda olan böyük neft qaynaqlarının Bakı-Ceyhan vasitəsilə daşınması üçün Transxəzər neft boru xəttinin inşası məsələsi artıq müzakirə edilməyə başlanmışdı. 1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT-in Zirvə görüşü keçirildi. Azərbaycan və Türkiyə Respublikalarının prezidentlərinin görüşündən sonra Bakı-Tbilisi- Ceyhan neft boru kəməri barədə sənədi İstanbulun Çırağan sarayında ABŞ prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan,Türkiyə, Gürcüstan və Türkmənistan prezidentləri imzaladılar.

Beləliklə, Azərbaycan, Türkmənistan və Qazaxıstan enerji ehtiyatları və yerləşdikləri coğrafi mövqe baxımından Türkiyə üçün ən əhəmiyyətli ölkələrə çevrilmişdi. Mərkəzi Asiyaya gedən iqtisadi-siyasi yollar isə

Azərbaycandan keçirdi. Enerji mənbələrinə əsaslanan siyasi-iqtisadi münasibətləri aydınlaşdırmaq üçün Azərbaycan Respublikasının Mərkəzi Asiya ilə birbaşa əlaqələrinə və Türkiyənin mövqeyinə nəzər yetirmək lazımdır. Müstəqillik əldə etdikdən sonra Qazaxıstan Respublikası ilə münasibətlər müxtəlif səpkilərdə inkişaf etməyə başladı. 1996-cı ilin 16-17 sentyabrında Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Azərbaycana ilk rəsmi səfəri gerçəkləşdi. Səfər zamanı Qazaxıstan prezidenti Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistanın daxil olduğu Dördtərəfli sazişə - Transqafqaz dəhlizinə qoşulmağa razılıq verdi. Dövlət başçıları Xəzər dənizi məsələləri üzrə 6 maddədən ibarət bir bəyanat imzaladı. Azərbaycan Respublikasının prezidentinin Qazaxıstana ilk rəsmi səfəri isə 1997-ci ilin iyunun 10-da baş tutdu [1, s.71]. Səfərin yekununda dövlətlər arasında 17 sənəd imzalanmış oldu. Həmin sənədlərin içərisində neftin nəqli sahəsində əməkdaşlıq haqqında memorandum xüsusi əhəmiyyət kəsb edir. Memodandumda nefti beynəlxalq bazarlara çıxarmaq üçün Qazaxıstandan Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisinə sonra isə Gürcüstan və Türkiyə ərazisi ilə Aralıq dənizi sahilinə neft boru kəmərinin tikintisi nəzərdə tutulmuşdu.

Türkiyənin 1996-cı ildən üzv olduğu UNESCAP da 1997-ci ildə keçirilən Banqkok görüşündə 3 nəqliyyat dəhlizi müzakirə edildi:

1. Mərkəzi Asiyanı Rusiya-Ukrayna-Belarusiya vasitəsilə birləşdirəcək Şimal Dəhlizi
2. Mərkəzi Asiya- Xəzər dənizi- Qafqaz – Aralıq dənizi/Rusiya Federasiyası – Ukrayna və Türkiyə yolu ilə Avropaya birləşəcək Mərkəzi Dəhliz.
3. Mərkəzi Asiyanı İran və Türkiyə üzərindən Avropaya birləşdirəcək Cənub Dəhlizi [12, s.171].

Beləliklə, SSRİ-nin dağılması dünyadakı tarazlığı pozaraq beynəlxalq münasibətlərdə yeni bir şərait yaratmışdı. Türkiyənin regional güc dövlətinə çevrilməsi isə Azərbaycan ilə əlaqələrində yeni bir dövr başlatmış oldu.

Aİ-nın əsasən bölgənin infrastrukturunu inkişaf etdirmək məqsədilə həyata keçirdiyi layihələr bu bölgədə yerləşən ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafına yol açmışdır. Bu eyni zamanda Qafqaz və Orta Asiyanın Türk Respublikaları ilə Aİ arasında əlaqələrin güclənməsinə də səbəb oldu. Hər iki bölgə arasında yerləşən Türkiyə isə bu layihələrdən istifadə edərək həm Aİ ilə, həm də Qafqaz və Orta Asiyanın Türk Respublikaları ilə əlqələrini möhkəmləndirə bildi.

1997-ci ildə Zbiqnev Bjezinski haqlı olaraq Azərbaycanı Şərqi Avropa ilə Mərkəzi Asiyanı birləşdirən “geosiyasi dayaq nöqtələri”ndən biri adlandırmışdı. Lakin Azərbaycanın enerji siyasəti o dərəcədə səmərəli oldu ki, ölkə XXI əsrin birinci onilliyində “geosiyasi dayaq nöqtəsi” statusundan “geosiyasi oyunçu” statusuna yüksələ bildi [7, s.86].

***Ədəbiyyat siyahısı:***

1. *Azərbaycan-Qazaxıstan münasibətləri. Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab. Bakı, 2005. 650 səh.*
2. *Aydın Mustafa,"Kafkasya ve Orta Asya'yla İlişkiler", Baskın Oran, der.,Türk Dış Politikası Cilt II. İstanbul: İletişim Yayınları, 2001. Ss. 366-439.*
3. *Davudoğlu Ahmet. Strateji Derinlik. Türkiyenin uluslararsı konumu. İstanbul: Küre yay., 2001. 600 s.*
4. *Demirtepe Turgut M..Orta Asya ve Kafkasya Güç Politikası. 1.Baskı. Usak Yayınları: 2008. 322 s.*
5. *Mais Əmrahov. Azərbaycan-Türkiyə mədəni əlaqələrində TÜRKSOY-un rolu. Geostrategiya (ictimai-siyasi, elmi-populyar jurnal). Sentyabr – Oktyabr, 2018. № 05 (47) s.22-25.*
6. *Qasımlı Musa. Azərbaycan Respublikasının diplomatiya tarixi / Azərbaycan Respublikasının xarici siyasəti. (1991-2003) 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015. 648 səh.*
7. *Məmmədov Novruz. Xarici siyasət: Reallıqlarvə gələcəyə baxış. Bakı: Qanun Nəşriyyatı, 2013. 264 səh.*
8. *Məmmədli N.A. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı: АзAmaM,2005. 233 s*
9. *İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? "Azerbaijan Focus" Bakı, 2009. №1 (1). S.69.*
10. *Seyidoğlu Halil, "Türk Cumhuriyetleri ile Olan İlişkilerde Gelişmeler", Erciyes Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 1999, Sayı:15. S:284-285.*
11. *Şimşir Bilal N. Azerbaycan. Azerbaycanın yeniden doğuşu sürecinde Türkiye-Azerbaycan ilişkileri. Ankara: Bilgi yay., 2011. 768 s.*
12. *Türkiye ve Türk Cumhuriyyetleri ve Bölge ülkeleri İlişkileri. Özel İhtisas Komisyon Raporu. DPT, Ankara, 2000. S.171.*
13. *Ежедневные Новости. Баку: 8 окт., 2000. № 40 (206)*
14. *Rövşən İbrahimov https://html2-f.scribdassets.com/3wj6ze6pxc1d4ciz/images/8-1fff0a37b8.jpg*

***Məqalə BDU-nun Avropa və Amerika ölkələrinin yeni və ən yeni tarixi kafedrasının professoru Məmməd Fətəliyevin rəyi ilə çapa təqdim edilib.***

**UOT 94 (479.24)**

## MÜASİR DÖVRDƏ QARABAĞIN MADDİ MƏDƏNİ İRSİNİN SAXTALAŞDIRILMASINA DAİR

***Arzu Abbasova***
***BDU,Tarix fakültəsi, bərpaçı***
***eldeniz197314@gmail.com***

*Məqalədə Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə Azərbaycanın maddi-mədəniyyət irsinin saxtalaşdırılması barədə konkret faktları araşdırılır. Müəllif ermənilərə aid qurumlarının arxeoloji abidələrə qarşı qanunsuz fəaliyyətini tənqid edir. Faktiki materiallar əsasında beynəlxalq prinsiplərin nəzərə alınmadığını göstərir.*

***Açar sözlər:*** *Qarabağ, Azıx mağarası, Laçında Məlik Əjdər və Kar türbəsi, Xocəvənd Alban kilsəsi, Şuşa məscidi*

## *О ФАЛЬСИФИКАЦИИ МАТЕРИАЛЬНОГО И КУЛЬТУРНОГО НАСЛЕДИЯ КАРАБАХА В СОВРЕМЕННОЕ ВРЕМЯ*

*В статье исследуются конкретные факты фальсификации материального и культурного наследия Азербайджана на территориях, оккупированных Арменией. Автор критикует незаконную деятельность армянских учреждений против археологических памятников. Это показывает, что международные принципы не принимаются во внимание на основе фактических материалов.*

***Ключевые слова:*** *Карабах, Азыхская пещера, усыпальницы Малик Аждар и Кар в Лачине, Албанский монастырь в Ходжавенде, Мечеть в Шуше*

## *CONTEMPORARY PERIOD OF THE MONUMENTS US THE CULTURAL HERITAGE IN NAGORNO-KARABAKH OF AZERBAIJAN*

*The present article is dedicated to the one problem about illegally the acquisition by Armenian separatists of monuments of the cultural heritage of Azerbaijan in the occupied territory of Nagorno-Karabakh. Author revealing critical analysis of the illegal actions of the Armenian department for the protection of archaeological monuments and cultural heritage of Armenia. Based on factual materials, the author of this article points out the absence of international documents on the acquisition of monuments of the cultural heritage of Azerbaijan by the Armenian separatists.*

***KeyWords:*** *Karabakh, Azikh cave, the tomb of Malik Ajdar and Kar in Lachin, the monastery of Albania in Khojavendi, Mosque in Shusha*

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətrafındakı rayonların azərbaycanlı əhalisi öz doğma ata-baba yurdlarını tərk edərək qaçqın həyatını yaşamaq məcburiyyətindədirlər. Hərbi təcavüz nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünə qəsd olunmuş, 14 min $km^2$ ərazi işğal edilmiş, xalqımızın mədəni irsinə ağır zərbə vurulmuş, küllü miqdarda mədəniyyət və tarixi abidələr məhv edilmişdir. Erməni vandalları işğal müddətində yerli əhalinin yaddaşı və mənəviyyatı olan maddi mədəniyyət abidələrinə də qarşı soyqırımı siyasəti yeridiblər. 2019-cu il noyabrın 26-da Heydər Əliyev adına Konqres zalında keçirilən BDU-nun 100 illik yubileyinə həsr olunmuş mərasimin təntənəli açılışında dövlət başçımız bu haqda xüsusi qeydlərini göstərərək demişdir: - "Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var... O dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər... Buna necə göz yummaq olar?" [2].

Qarabağın maddi mədəniyyəti zəngin olub arxeoloji abidələrin bütün növlərini, o cümlədən ibtidai insan düşərgələrini, neolit və sonrakı dövrlərin kənd tipli yaşayış yerlərini, kiçik və böyük şəhərgahları, qala və qəsrlərin qalıqlarını, qədim qəbiristanlıqları, kurqan qruplarını, menhirləri, qayaüstü rəsmləri, daşdan yonulmuş bütləri, dini kompleksləri özündə birləşdirir. Bu arxeoloji abidələr Qarabağda məskunlaşmanın 2 mln. Il əvvəl başladığını, bu bölgənin bəşər övladının ilk məskunlaşdığı bölgələrdən biri olduğunu, burada həyatın müasir dövrədək fasiləsiz davam etdiyini, ərazinin qədimdən xalqımızın yaşayıb yaratdığı əzəli torpaqlardan olduğunu təsdiqləyir. Onların arasında ölkə hüdudlarından kənarda da yaxşı tanınan abidələr də az deyil. Misal üçün Azıx mağara düşərgəsi, Leylatəpə, Qarakəpəktəpə, Üzərliktəpə yaşayış yerləri belə abidələrdəndir [4, s. 96-98].

Tədqiqatçıların fikrincə, Ermənistan Respublikası Qarabağın maddi mədəniyyət abidələrinə qarşı mədəni soyqırım siyasəti əsasən üç istiqamətdə həyata keçirilmişdir:

- Müxtəlif saxtalaşdırmalarla Azərbaycanın mədəni irsinə yiyələnmək, özününküləşdirmək siyasəti;
- Müxtəlif saxtalaşdırmalarla Azərbaycanın İslam dövrü arxeoloji və memarlıq abidələrinin digər xalqlarla – farslar və ya türkmənlərlə əlaqələndirməklə xalqımızın mədəni irsinin özgələşdirilməsi və son nəticədə özününküləşdirməyə cəhdlər göstərilməsi;
- Azərbaycan xalqının maddi və mənəvi mədəniyyət abidələrinin məhv edilməsi [3, 5.səh. 94-109].

Ermənistan Respublikası xalqımıza qarşı təcavüzkar siyasətinin gerçəkləşdirilməsində maddi mədəniyyət abidələrindən, arxeoloji dəlillərdən

istifadə etməyə cəhd göstərmiş, erməni millətçiləri xalqımızın çoxəsrlik, zəngin mədəni irsinə qarşı düşünülmüş terror, soyqırımı siyasəti həyata keçirmiş, insanların fiziki məhvinin davamı olaraq onların ulularının yaratdıqları və yadigar qoyduqları mədəni dəyərləri məhv etmiş, abidələri saxtalaşdırmış və özününkiləşdirməyə cəhdlər etmişdilər. Ermənistan Respublikası beynəlxalq hüquqi sənədləri kobudcasına pozmuş, həmin sənədlərin tələblərini yerinə yetirmir. "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 14 may 1954-cü il tarixli Haqqa Konvensiyasına görə ''Hər bir xalq dünya mədəniyyətinə öz töhfəsini verdiyindən hər bir xalqın mədəni dəyərlərinə vurulan ziyan bütün bəşəriyyətin mədəni irsinə zərərdir'' [1]. "Arxeoloji irsin qorunması haqqında'' 16 yanvar 1992-ci il tarixli Avropa Konvensiyasının 3-cü maddəsində bildirilir ki, bu sənədi imzalayan dövlətlər arxeoloji irsi qorumaq üçün''....qanunsuz hər hansı qazıntı aparılmasının, yaxud da arxeoloji irs elementlərinin götürülməsinin....'' qarşısının aparılmasını öhtəsinə götürür [4, s.38.]. UNESCO-nun Baş konfransının 9-cu sessiyasının arxeoloji qazıntıların beynəlxalq tənzimlənməsinin prinsipləri haqqında qəbul etdiyi tövsiyənin (5 dekabr 1956-cı il) 32-ci maddəsinə görə: "Silahlı münaqişələr zamanı, bu və ya digər dövlətin ərazisini işğal edən UNESCO-nun üzvü olan dövlətlər işğal etdikləri tapıntılar (misal üçün, hərbi işlər zamanı tapılan) əldə olunduqda onların mühafizəsi üçün bütün mümkün tədbirləri görməli, hərbi əməliyyatlar bitdikdən sonra müvafiq sənədlərlə birlikdə işğal olunmuş ərazinin səlahiyyətli nümayəndələrinə təqdim etməlidir". Ermənistan Respublikası yuxarıda qeyd olunan beynəlxalq sənədlərə etinadsızlıq göstərir, Qarabağ ərazisində siyasi məqsədlərə xidmət göstərən, elmi yanaşmalardan uzaq qeyri-qanuni arxeoloji qazıntılar aparır. Siyasi sifarişləri icra edən erməni alimləri bunu heç gizlətmir və açıq bəyan edirlər. Ermənistan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Ağdam rayonunun işğal olunmuş ərazisində arxeoloji qazıntılar aparan ekspedisiyasının rəisi H.Petrosyan arxeoloji qazıntıların siyasi məqsəd daşıdığını açıqlığı ilə etiraf etmiş və bildirmişdir ki, "Bu kəndin ərazisində azərbaycanlılar məskunlaşmışdı, burada məskunlaşan ermənilərin isə mədəni məkanın təşkilinə, öz tarixi mühitinin formalaşdırılmasına ehtiyacı var. Beləliklə, hazırda Tiqranakert müqəddəs, mənəvi mərkəz rolu yerinə yetirir". Siyasi sifarişləri icra edən erməni alimi Ağdam yaxınlığında guya erməni hökmdarı II Tiqranın e.ə. I əsrdə saldırdığı "Tiqranakert" şəhərinin xarabalıqlarını aşkarladıqlarını elan etmiş, bu ermənisayağı "kəşf" ilə xəyalən yaratdıqlarını reallıq kimi təqdim etmək istəyirdi. Bu işğalçıların öz cinayətkar əməllərinə haqq qazındırmaq üçün növbəti yalan və sayıqlamalardan biridir [5].

İşğal olunmuş Qarabağ və ətraf rayonlarda ermənilər tərəfindən ən çox mənimsənilməsinə və saxtalaşdırılmaya məruz qalan memarlıq və arxeoloji irs isə alban xristian abidələridir. Onların üzərindəki xristian dinin rəmzləri və simvolları qriqoryan məzhəbinə, erməni mədəniyyətinə məxsus

elementlərlə dəyişdirilir və saxtalaşdırılır. İlk orta əsrlərdə Albaniyada, o cümlədən Qarabağda alban xristianlıq rəsmi qəbul olunmuş və xristian alban monastırları inşa edilmişdir. Qarabağ ərazisində (Dağlıq Qarabağda Amaras, Ağdamda Govurqala və.s) və Albaniyanın digər şəhərlərində (Qax rayonu Qum kəndi və Kürmük məbədi, Qəbələ rayonu Böyük Əmidli kəndindəki məbəd) xeyli Alban xristian abidəsi tikilmişdir [15]. III-VII əsrlərin memarlığının özünəməxsus xüsusiyyətləri var idi. Bu dövrdə Albaniyada şəhər quruculuğu geniş vüsət almış, yaşayış və sitayiş təyinatlı binalar salınmış, suvarma qurğuları və körpülər inşa edilmişdir. Bu baxımdan Qarabağın dağlıq hissəsində olan Ağoğlan alban monastrı (Xocavənd kəndi, Sos kəndi) iri bazilika tikintisi ilə diqqəti daha çox cəlb edir. Bazilika Ağoğlan çayının sol sahilində "Müqəddəs" dərədə tikilmiş və Amaraz adlanan qədim şəhər yerinin mərkəzində yerləşirdi və dini mərkəzlərdən birinə çevrilmişdir. Amarasda erkən orta əsrlərdə iki xristian məbədi inşa edilmiş, VI əsrdən burada monastır mövcud olmuşdur. Həmin məbədlərdən biri qorunub saxlanılmış, bir neçə dəfə təmir və yenidənqurmalara baxmayaraq ilkin plan quruluşunu və formasını saxlamışdır.

Sovetlər dövründəki xristian təəssübkeşliyindən istifadə edərək ermənilər bütün alban-xristian abidələrini "erməni abidələri" kimi qələmə verməyə çalışmışdılar. Guya Kür və Araz çayları arasındakı ərazidə tapılan maddi-mədəniyyət irsinin ermənilərə məxsusluğunu "sübuta" səy göstərmişdilər. Onlar Rəşid Göyüşovun ünvanına qərəzli, əsassız tənqidi fikirlər söyləmiş, məbədin erməni tədqiqatçılarının fəaliyyət sahəsi olduğunu sübuta yetirməyə çalişmışlar, Qarabağ ərazisində erməni mövcudluğu tezisini təsdiqləmək üçün alban irsinə yiyələnmək,bu irsi özününküləşdirməyə cəhd edirlər. Azərbaycan ərazisində qeyri azərbaycanlıların, xüsusilə də ermənilərin tədqiqat aparması, alban xristianlığının qriqoryanlaşdırılması növbəti erməni maraqlarına uyğun senari üzərində gedirdi.

Erməni alimləri Azərbaycanın İslam dövrü abidələrini mənsubiyyətini dəyişmək, digər xalqların mədəni irsi kimi təqdim etməyə cəhdlər göstərirlər. 2000-ci ilin avqustunda ermənilər Tarix və mədəniyyət abidələrinin mühafizəsi İdarəsi nəzdində erməni abidələrinin külliyatı redaksiyasının ekspedisiyası Azərbaycan Respublikasının erməni hərbçiləri tərəfindən işğal olunmuş Laçın rayonunda müsəlman qəbirstanlığında və orta əsrlərə aid iki türbədə qeyri-qanuni tədqiqat işləri aparmış və bu tədqiqatın nəticələri haqqında ekspedisiyanın rəisi, arxeoloq A.Simonyan Türkmənistanda "Miras" jurnalında məqalə çap etdirmişdir [13]. Məqalədə bildirir ki, ekspedisiya "...respublikanın cənub-qərbində indiyədək elmi-ədəbiyyatında əksini tapmamış geniş müsəlman qəbristanlığında və iki türbə tədqiq etmişdir" [13]. Məqalə faktların saxtalaşdırılmasına və Azərbaycanın orta əsr memarlıq abidələrinin özgələşdirilməsinə yönəlmişdir. Birinci türbə Ermənistan ərazisində deyil, erməni terrorçuları tərəfindən işğal olunmuş Laçın Cicimli kəndində yerləşir. İkinci, həmin abidələr-Məlik Əjdər və Kar günbəz türbələri

elmi ədəbiyyatda hələ keçən əsrin 30-cu illərindən məlumdur. İşğaldan öncə Məlik Əjdər türbəsi Laçın rayonunun sakinləri tərəfindən pir kimi ziyarət olunurdu [5].

Erməni millətçiləri, vandalları öz qeyri-qanuni, fitnəkar fəaliyyətlərinə digər ölkələrin alim və tədqiqatçılarını da cəlb edirlər. Dünya əhəmiyyətli, professor Məmmədəli Hüseynovun rəhbərliyi ilə Azərbaycan alimlərinin keçən əsrin 60-80-ci illərində tədqiq etdikləri məşhur Azıx paleolit düşərgəsində ermənilər İspaniya, Böyük Britaniya alimlərini cəlb etməklə qeyri-qanuni arxeoloji qazıntılar aparmışlar. Lakin ermənilərin bütün cəhdlərinə, fitnəkarlıqlarına baxmayaraq M.M.Hüseynovun Azıx paleolit düşərgəsi üzrə tədqiqatlarının nəticələri, irəli sürdüyü fikirlər bu gün də başlıca mənbə olaraq qalır [13], elmi ictimaiyyət tərəfindən sayılır və yüksək qiymətləndirilir.

Erməni vandalları yeni dövrün memarlıq abidələrinə, o cümlədən dini abidələrə qarşı terror, vandalizm aktları törədiblər. Şuşada Azərbaycan mütəfəkkirlərinin heykəllərini avtomat gülləələri ilə deşik-deşik etdilər. Şuşa muzeylərini dağıtdılar. Ən dəhşətlisi insanlığa xas olmayan hərəkət sayılan məscidlərimizi xarabaya çevirdilər. Şuşa şəhərində iki cümə məscidinin olması E.Avalov şəhərdə iki islam icmasının fəaliyyət göstərməsi ilə izah edilir [16]. Yuxarı Gövhərağa məscidi ilk dəfə Şuşanın 1855-ci ilə aid baş planında yuxarıda yerləşən mədrəsə ilə birlikdə qeyd edilir. Aşağı Gövhərağa məscidi 1874-1875-ci illərə aid olub. Qoşa minarəli məscid kompleksi Gövhər ağanın maddi dəstəyi əsasında Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmişdir. Eyni memarlıq-planlaşdırma prinsipi əsasında inşa edilmiş hər iki cümə məscidi hazırda erməni işğalçıları tərəfindən darmadağın edilmişdir. Aşağı məscidin minarələrinin bəzədilməsində küfi hüsn-xətti ilə "Allah" kəlməsi dolama lentvarı qaydada aşağıdan yuxarıya qədər minarələrə həkk olunmuşdur. Kəlmələr erməni gülləsi tərəfindən deşik-deşik edilmişdir.

Erməni vandalları maddi mədəniyyət abidələrini tamamilə məhv etmək əməllərindən çəkinmir və bunu dövlət siyasəti səviyyəsində həyata keçirirlər. Ermənilərin davam etdirdiyi vandalizm Azərbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin çoxunu məhv etdi. XX əsrin ən böyük faciəsi - Xocalı faciəsini törətdi. Erməni və rus hərbi birləşmələri Xocalı əhalisini soyqırımına məruz qoymaqla bərabər Xocalı qəbirstanlığını da texnika vasitəsilə məhv etdi. Qəbirüstü abidələr sındırılıb işə yaramayan daş qırıntıları halına salınmışdır. Mənfurlar Xocalıda və Şuşada bu vandalizmi ifrat dərəcəyə çatdırmışlar. Məşhur Xocalı-Gədəbəy mədəniyyətinin qədim beşiyi olan Xocalı kurqanlarını yer üzündən sildilər [6].

Qədim tarixə malik Qarabağın maddi-mədəni irsinin ermənilər tərəfindən saxtalaşdırılmasına qarşı mübarizə aparılmalıdır.

İşğala son qoyulduqdan sonra bütün abidələrin beynəlxalq ekspertlərlə birlikdə monitorinqi keçirilməsi və bir sıra abidələrin bərpası vacibdir.

***Ədəbiyyat siyahısı:***

*1.Arxeoloji irsin qorunması haqqında Avropa konvensiyası(yenidən baxılmış)Valetta,16 yanvar 1992-ci il.*
*2. Azərbaycan qəzeti 27 noyabr, 2019-cu il səh:2*
*3.Dostiyev T. Azərbaycan arxeoloji irsinə qarşı erməni terroru // 31 mart Azərbaycanlıların soyqırımı günüdür. Elmi-praktik seminar. Tezislər toplusu. Bakı, 2014.*
*4. Dostiyev T. Arxeoloji irs və onun bəzi məsələləri // Qarabağın arxeoloji irsi. Beynəlxalq elmi konfransın materialları. Bakı: Xəzər Universiteti nəşr., 2016, 501 səh.*
*5. Dostiyev T.Ermənistan Respublikasının Azərbaycan xalqının arxeoloji irsinə qarşı soyqırım siyasəti //31 Mart-Tariximizin faciəli səhifəsi.Bakı: Elm və təhsil. Bakı-2019, 501 səh.*
*6. Əliyev V. ,Qarabağ (qədim dövr)-Çaşloğlu, 2010, 204 səh.*
*7.Hüseynov M.M.Azıx-Bakı,1984. (Azərbaycan, ingilis, fransız, ərəb, alman və rus dillərində)-Bakı,2005, 103 səh.*
*8.Hüseynov M.M.,İsmayılov Q.S.,Quliyev.İ.M.,Azərbaycanın arxeoloji abidələri. Bakı,1981, 89 səh.*
*9.Qiyasi C.Nizami dövrü memarlıq abidələri.Bakı.İşıq nəşr.,1991,264s.*
*10. https://artsakhprees.am/rus/news/65997/; http://garabagh. net/content_340_ru/html#sthash.7cIZbzNL.dpuf*
*11. Алиев И.Г. Нагорный Карабах. Баку, 1989, 103 səh.*
*12. Карабах (Очерки истории культуры). Баку, 2004, 218 səh.*
*13. Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 1985, 220 səh.*
*14.Мамедова Г.Г. Культовое зодчество Кавказской Албании (IV-XIV вв.).Баку, 1997, 231 səh.*
*15. Симонян А.Е. Два новонайденных мавзолея туркменских султанов Каракоюнлу в Армении //Мирас, 2001, № 4, 31 mart- Tariximizin faciəli səhifəsi. Bakı: Elm və təhsil. 2019, 501 sıh.*
*16. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985, 276 səh.*
*17. Ямпольский З.И. Древняя Албания в III-I в до н.э. Баку, 1962, 382 səh.*
*18. Фатуллаев, Ш. С. Памятники Шуши. Баку.1970,492 səh.*

**ƏLAVƏLƏR:**

Şəkil 1.



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.



Şəkil.5



Şəkil 6.



***Məqalə BDU-nun Arxeologiya və etnoqrafiya kafedrasının dosenti tarix elmləri doktoru Tarix Dostiyevin rəyi ilə çapa təqdim edilib.***

**UOT 94 (479.24)**

# CƏNUBİ QAFQAZDA SÜLHÜN VƏ SABİTLİYİN FORMALAŞMASINDA AZƏRBAYCAN RESPUBLİKASININ ROLU

***Murad Əsədov***
***BDU, Tarix fakültəsi, dissertant***
***muradasadov@bsu.gov.az***

*Yeni yüzillliyin ilk onilliklərində Cənubi Qafqazda yeni nüfuz dairələrinin bölünməsi uğrunda böyük güclər arasında kəskin geosiyasi mübarizə genişlənməkdədir. Region strateji vəziyyəti və etnik fərqliliyi ilə geopolitik bir rəqabət sahəsi olmuşdur. Bu vəziyyət regiondakı dövlətlər üçün təhlükə mənbəyi olurdu. Həm qonşu, həm də uzaqda olan böyük dövlətlərin bu regiona olan kəskin marağının səbəbi, burada zəngin təbii sərvətlərin, əsasən də neftin və qazın olması ilə yanaşı, Cənubi Qafqazın geostrateji mövqeyidir.*

***Açar sözlər:*** *Cənubi Qafqaz, NATO, Qafqaz Əməkdaşlıq və Sabitlik Paktı*

## *РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В УСТАНОВЛЕНИИ МИРА И СТАБИЛЬНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ*

*В первые десятилетия нового века между великими державами шла острая геополитическая борьба за разделение новых кругов влияния на Южном Кавказе. Регион был геополитическим районом конкуренции со своим стратегическим статусом и этнической самобытностью. Это было источником опасности для стран региона. Причиной повышенного интереса как соседних, так и отдаленных стран региона является геостратегическое положение Южного Кавказа, а также его богатые природные ресурсы, в основном нефть и газ.*

***Ключевые слова:*** *Южный Кавказ, НАТО, Пакт о сотрудничестве и стабильности на Кавказе*

## *THE ROLE OF THE REPUBLIC OF AZERBAIJAN IN THE ESTABLISHMENT OF PEACE AND STABILITY IN THE SOUTH CAUCASUS*

*In the first decades of the new century, there was a sharp geopolitical struggle between the great powers for the separation of new circles of influence in the South Caucasus. The region has been a geopolitical area of competition with its strategic status and ethnic identity. This was a source of danger for the countries in the region. The cause of the intense interest of both neighboring and far-off countries in the region, It is the geostrategic position of the South*

*Caucasus along with its rich natural resources, mainly oil and gas.*
***Keywords:*** *South Caucasus, NATO, Caucasus Cooperation and Stability Pact*

Sovetlər Birliyinin dağılmasından sonra Qərb-Şərq geosiyasi qarşıdurmasının yavaş-yavaş Aralıq dənizinin şərqindən Xəzər regionuna keçməsi prosesi başladı. Bu iqtisadi müharibədə bir tərəfdən ABŞ və NATO-nun, digər tərəfdən Rusiya və İranın geostrateji imperativləri çıxdı. SSRİ-nin süqutu ilə Qafqaz bölgəsi bir sıra ciddi beynəlxalq və dövlətlərarası münaqişə ocağına çevrildi. İndiyədək keçmiş çar və sovet Rusiyasından miras qalmış etnik separatizmdən (Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Şimali Qafqazda Çeçenistan və b.) Qafqaz bölgəsi xilas ola bilmir və hazırda etnik münaqişələrin ən qaynar nöqtələrindən, sülh və təhlükəsizlik üçün narahat bölgələrdən biri olaraq qalır. Bu isə bölgə dövlətləri və xalqları arasında iqtisadi və mədəni inteqrasiyanı məhdudlaşdırır. Milli-etnik zəmində baş verən bu münaqişələrin həlli hər iki respublikanı müxtəlif diplomatik cəhdlər qarşısında qoymuş, onların iqtisadi inkişafına böyük sədd çəkmişdir. Ermənistan etnik təmizləmə siyasəti ilə regionda yeganə monoetnik dövlətə çevrilmişdir.

SSRİ-nin dağıldığı andan etibarən beynəlxalq təşkilatlar və ölkələr tərəfindən Cənubi Qafqazda münaqişələrin nizamlanması və sabitliyin bərqərar edilməsi üzrə çoxsaylı cəhdlər və təşəbbüslər olub. Amma uzun illər keçməsinə baxmayaraq, indiyədək heç bir münaqişə həll olunmayıb. Vasitəçilərin səylərinin yeganə müsbət nəticəsi münaqişə zonalarında hərbi əməliyyatların dayandırılması olub. Həmin vaxtdan etibarən münaqişələrin nizamlanması məsələsində tərəflər bir addım belə irəliləməyib. Əlbəttə, region ölkələri dövlət quruculuğu ilə məşğul olmaq, beynəlxalq ictimaiyyətə inteqrasiyanı inkişaf etdirmək imkanı əldə ediblər, amma "dondurulmuş" münaqişələr mövcud olduğu şəraitdə onlar nə iqtisadiyyatda, nə vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli uğurlar əldə edə bilməyiblər [12].

Regional əməkdaşlıq və regional inteqrasiya terminləri yerli və xarici siyasətçilərin, siyasətşünasların leksikonuna XX əsrin 90-cı illərinin ikinci yarısında girmişdir. Lakin bu proses Ermənistan və Azərbaycan arasında atəşkəs imzalandıqdan sonra başladı. Azərbaycanın 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalanmasından sonra bütün Qafqaz üçün əhəmiyyətli inteqrasiya başladı.

Qafqaz üçün bir neçə regional əməkdaşlıq modeli nəzərdən keçirildi:
1. Balladyur stabillik paktı: Fransa tərəfindən Avropa İttifaqına təklif olunmuş pakt 1994-cü ildə meydana gəldi. Qafqaz üçün bu modelin variantı belədi ki, AB-nin böyük köməyi və ona inteqrasiya olması ilə Azərbaycan, Ermənistan və Gürcüstana Qarabağda və Abxaziyada münaqişələrin həllinə stimullar təklif olunur. Bu, Aİ-Ermənistan-Azərbaycan-Gürcüstan birgə sammitinə gətirib çıxartdı. 1999-cu ilin iyunun 22-də Lüksemburqda keçi-

rilən tədbirin yekun bəyannaməsində qeyd olunurdu ki, mövcud münaqişələr "hər üç dövlətin siyasi və iqtisadi inkişafına maneçilik törədir".
2. Balkanlarda stabillik paktı: Aİ, ABŞ, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan, həmçinin digər Qara dəniz və Xəzər dəniz ölkələri və beynəlxalq təşkilatları regional siyasətə və əməkdaşlığın inkişafına dair geniş dialoqa girirlər.
3. Avropa İttifaqına virtual üzvlük ideyası: Yəni Avropa İttifaqı özünün iqtisadi, maliyyə və təhlükəsizlik sahələrində Gürcüstanın, Ermənistanın və Azərbaycanın inteqrasiyasına aktiv yanaşır, həmçinin regionun etnosiyasi münaqişələrinin həlli üçün konstitusion paketlər təklif edir.
4. Türkiyənin qəbul edilməsi ilə Aİ Qafqaz istiqamətinə doğru genişlənir. Rusiya isə regionun inkişafı, təhlükəsizliyi və sabitliyi kimi ümumi məsələlər işində öz əməkdaşlığını genişləndirir.

Nəhayət, 2000-ci ilin mayında Avropa siyasətinin tədqiqat mərkəzi beşinci modeli təklif etdi:
- Dağlıq Qarabağda, Abxaziyada, Cənubi Osetiyada münaqişələrin həll olunması,
- ATƏT-in himayəsi altında regional əməkdaşlıq rejimi,
- Cənubi Qafqaz birliyinə təşəbbüs göstərmək,
- Aİ və Rusiya arasında "əməkdaşlığın cənubi məkanının" inkişafı,
- "Qara dəniz iqtisadi əməkdaşlığı" təşkilatının rolunun artırılması,
- Neft-qaz sahəsində qarşılıqlı əməkdaşlığın leqal strukturasının təkmilləşdirilməsi.

Cənubi Qafqazda böyük oyunların getdiyi vaxtda Rusiyanın regionda nüfuzunu qorumaq məqsədi ilə Gürcüstan və Azərbaycana təzyiqlərini gücləndirməsi və region siyasətində mövqelərinin İranla üst-üstə düşməsi regiondakı təhlükəsizliyi və sabitliyi əngəlləyirdi. Norsk Utenrikspolitiks Institutinun (NUPI) politoloqu Eyinar Vigana görə, "bu üç dövlət arasında olan əməkdaşlıq hələ soyuq müharibə dövründə bir-birlərinə çox da etibarı olmayan ölkələrin, yəni Azərbaycan, Gürcüstan və Türkiyənin ənənəvi güc bloklarına qarşı çıxmasına imkan verirdi" [19]. Rusiya siyasətçilərindən V. Papavaya görə isə "Xəzər dənizi hövzəsinə açar olan Rusiyanın Gürcüstan və Azərbaycanda təsirini gücləndirmək üçün daha çox enerji amilinə diqqət verməsi lazımdır" [13, səh, 164].

Regionda mürəkkəb geosiyasi oyunun getməsi ilə yanaşı, qabarıq şəkildə real iqtisadi və mədəni maraqlara əsaslanan praqmatik əlaqələr sisteminin qurulması elementləri nəzərə çarpır. Bu, ilk növbədə Azərbaycan ilə Gürcüstan arasındakı qarşılıqlı münasibətlərə aiddir. Belə ki, GUAM-da birgə üzvlülük, bir neçə regional lahiyələrdə əməkdaşlıq, o cümlədən TRASECA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı çərçivəsində, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərlərinin tikilməsi və istifadəsində, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikilməsində, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin və s. həyata keçirilməsindəki

əməkdaşlıqları birbaşa Qafqazın, o cümlədən Azərbaycanın, Gürcüstanın milli təhlükəsizliyi, xalqlarımızın rifahı ilə yanaşı, region ölkələrinin, ilk növbədə Qafqaz ölkələrinin iqtisadi və mədəni inteqrasiyası, regional əməkdaşlığı sürətləndirməklə, sülhün, əmin-amanlığın, sabitliyin möhkəmlənməsinə yönəldilmişdir. Bu istiqamətdə strateji əməkdaşlıq Azərbaycan, Gürcüstan və Türkiyə Respublikaları arasında bağlanmış Trabzon sazişi ilə bərkidilmişdir. XXI əsrdə dünyanın bir çox dövlətlərini, o sıradan Qafqazı vahid iqtisadi məkanda birləşdirmək, Qafqazın Asiya ilə Avropa arasında iqtisadi və mədəni körpü rolunu həyata keçirtmək bu proqramların ana xəttini, leytmotivini təşkil edir [6].

Cənubi Qafqazda böyük oyunların getdiyi vaxtda Rusiyanın regionda nüfuzunu qorumaq məqsədi ilə Gürcüstan və Azərbaycana təzyiqlərini gücləndirməsi və region siyasətində mövqelərinin İranla üst-üstə düşməsi regiondakı təhlükəsizliyi və sabitliyi əngəlləyirdi. Norsk Utenrikspolitiks Institutinun (NUPI) politoloqu Eyinar Vigana görə, "bu üç dövlət arasında olan əməkdaşlıq hələ soyuq müharibə dövründə bir-birlərinə çox da etibarı olmayan ölkələrin, yəni Azərbaycan, Gürcüstan və Türkiyənin ənənəvi güc bloklarına qarşı çıxmasına imkan verirdi". Rusiya siyasətçilərindən V. Papavaya görə isə "Xəzər dənizi hövzəsinə açar olan Rusiyanın Gürcüstan və Azərbaycanda təsirini gücləndirmək üçün daha çox enerji amilinə diqqət verməsi lazımdır"[13, səh. 169].

Müasir politoloji fikrə görə Gürcüstanın siyasi, iqtisadi və hərbi cəhətdən Qərb dövlətləri tərəfindən dəstəklənməsinin əsasında onun Azərbaycanın Xəzər hövzəsindən çıxarılan enerji resurslarının ixracı marşurutları və Şərq-Qərb nəqliyyat-kominikasiya dəhlizlərinin üzərində yerləşməsi ilə bağlıdır. Gürcüstan və Azərbaycan Şərq və Qərbi birləşdirən kontinental dəhlizin üzərindədir. Bu ölkələrin əraziləri Qara və Aralıq dənizləri hövzəsini, Qərbin inkişaf etmiş ölkələrini Xəzər bölgəsinin, Avrasiyanı zəngin enerji resursları ilə bağlayır və Şərq-Qərb əlaqələrini öz təsirində saxlamaq istəyən Rusiyaya alternativlik yaradır [7, səh, 418].

Türkiyənin isə Cənubi Qafqaz regionunda olan maraqlarının mərkəzində enerji təhlükəsizliyi dayanır. Hazırda enerji təhlükəsizliyi dünyanın iqtisadi və siyasi həyatının əhəmiyyətli bir hissəsidir, dünyada iqtisadi və siyasi sabitlik göstəriciləri birbaşa enerji təhlükəsizliyindən asılı hala gəlmişdir [16, səh. 81]. Lakin qiymətlərin artması enerjidən asılı olan ölkələri iqtisadi və siyasi baxımdan çətin vəziyyətə salır, çünki enerji ixrac edən ölkələrin xarici siyasəti bu amildən asılıdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin (1993-2003) təşəbbüsü ilə yaradılması nəzərdə tutulan bu Təhlükəsizlik Paktına Qafqaz dövlətləri və Türkiyə ilə yanaşı ABŞ-da daxil edilməli idi. Bu Pakt modelinin 3+3+2 (Azərbaycan, Gürcüstan, Ermənistan+Rusiya, Türkiyə, İran+ABŞ və AB) əsasında olmalı idi [9, səh.131]. Lakin Azərbaycanın təklifi Rusiya, Ermənistan və İranda rəğbətlə qarşılanmadı. Belə ki, regiondan kənar dövlət olan ABŞ-ın bölgədəki proseslərə müdaxiləsini yolverilməz hesab edən

Rusiya və regional təhlükəsizlik sisteminin formalaşdırılmasından kənarda qalan İran bu paktı birmənalı şəkildə qəbul etmədi (8, səh. 697). Səbəbi Türkiyənin ABŞ-la birlikdə layihədə iştirakı və nəticədə Rusiyanın Cənubi Qafqazda mövqeyinin zəifləməsi idi. Buna görə də Cənubi Qafqazda yarana biləcək ABŞ-Türkiyə-Azərbaycan-Gürcüstan ittifaqına qarşı, Rusiya İran və Ermənistan üçbucağı qoyulurdu. Türkiyə Prezidenti Süleyman Dəmirəl 2000-ci ilin yanvarında Tbilisi səfəri əsnasında regionda sülhün bərpa olunması məqsədi ilə ilk növbədə Rusiya hərbi hissələrinin azaldılması, Balkan yarımadasında yaradılan Cənub-Şərqi Avropa Təhlükəsizlik Paktına oxşar bir platformanın yaradılması fikrini irəli sürdü. Süleyman Dəmirəlin təklifi ilə bu pakt sayəsində region ölkələri üzərində nüfüzunu qurmaq istəyən ölkələrin önünə keçiriləcəyini, beləcə regionda sülhün və təhlükəsizliyin qorunmasında yardım göstərəcəyinə ümid edirdi [14].

Mövcud vəziyyətdə Azərbaycana, Türkiyə və Gürcüstan Avro-Atlantik bloka çıxışı təmin edirlər. Bu mənada Azərbaycanın hərbi-siyasi təhlükəsizliyinin təmin edilməsində bu dövlətlərin müstəsna qiymətini çətinliklə təyin etmək olar. Ankarada Gürcüstana öz növbəsində mühüm tranzit ölkə kimi baxılır. Hal-hazırda isə Türkiyə nəinki Azərbaycanın, həmçinin Gürcüstanın mühüm iqtisadi partnyoru sayılır. Beləliklə də, Türkiyə-Gürcüstan-Azərbaycan "üçbucağı" gündəmdədir [6].

Cənubi Qafqazda təhlükəsizliklə bağlı 2002-ci il sentyabrın 21-də ABŞ-ın Konnektikut ştatı Nyu-Heven şəhərində keçirilən "İpək yolu XXI əsrdə" konfransa peyk vasitəsi ilə qoşulan Azərbaycan Prezidenti Heydər Əliyev Qafqazda layihələrin həyata keçirilməsi üçün sülhün və təhlükəsizliyin bərpa olunmasının lazımlı olduğunu vurğulamışdı. Azərbaycan Prezidenti Gürcüstandakı münaqişələrə də toxunaraq onların tezliklə Gürcüstan dövlətinin ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyini qeyd etmişdi. Azərbaycan hökuməti Gürcüstan ərazisindəki münaqişələri bu ölkənin daxili işi kimi dəyərləndirmişdi. Konfrans BTC əsas ixrac boru kəmərinin Gürcüstan ərazisindən keçməsini nəinli Gürcüstanda, ümumiyyətlə regionda sülhün və sabitliyin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini xüsusi qeyd etmişdi [3, səh. 109].

Politoloq M.Emersonun rəhbərliyi ilə hazırlanan "Qafqaz üçün Sabitlik Paktı" regionda yaranan münaqişəli vəziyyəti aradan qaldırmalı idi. M.Emersona görə, Qafqazda çox da təsirli ola bilməyən Aİ regionda olan etnik münaqişələrin sona çatması və region dövlətlərinin iqtisadi inkişafına nail olunması üçün təkliflər hazırlamışdı [1]. Lakin bu paktın reallaşması üçün bir sıra regiondaxili məsələlərin həlli lazım idi.

Qafqaz ölkələrinin gələcək inkişafının əsası kimi kompleks yanaşma götürülməlidir. Ayrı-ayrı vəzifələrin kompleks yanaşma olmadan həlli yaxın gələcəkdə uzunmüddətli sabitliyə və region ölkələrinin və xalqlarının bütün sahələrdə dinamik irəliləyişinə gətirib çıxarmayacaq. Bəzi araşdırmaçılar belə hesab edirlər ki, buna gələcək Qafqaz ittifaqının hüquqi bazasının yaradılma-

sından başlamaq lazımdır. Məsələn, Qafqaz Evi və onun vahid siyasi, iqtisadi, mədəni, hərbi məkanı haqqında Hərtərəfli Müqavilə. Bu sənəd hərtərəfli olmalı və konkret müddətləri olan, bütün prosesi – status-kvo vəziyyətindən (dövlətlərin ərazi bütövlüyünün və mövcud reallıqların tanınması) vahid Qafqaz məkanının yaradılması və onun regionumuzda sabitliyin zamini kimi Avropa təsisatlarına qoşulmasını əhatə edən proqram və plan ehtiva etməlidir. Hüquqi bazanı bütün tərəflər beynəlxalq vasitəçilərin – qəbul edilmiş qərarların həyata keçirilməsinin zaminlərinin iştirakı ilə yaradılmalıdır [12].

Gürcüstan, Moskva və Ankaranın qarşı-qarşıya gəldiyi regionlardan biridir. 2008-ci ilin avqustunda Rusiya, Cənubi Osetiya və Abxaziyanı müstəqil dövlətlər olaraq tanıdı. Türkiyə, Abxaziya ilə iqtisadi bağlarını güçləndirməklə, Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir və qarşıdurmaların beynəlxalq tanınmış sərhədlər daxilində, sülh yoluyla nizamlanmasını istəyir. Moskvanın əksinə Ankara, AB-in Cənubi Qafqaz respublikaları arasındakı iqtisadi və ictimai inteqrasiyası gücləndirməyi qarşısına məqsəd qoyan Şərq Tərəfdaşlığı siyasətini da dəstəkləyir. Onu da qeyd etmək lazımdır ki, Türkiyənin Cənubi Qafqaz yanaşması Moskva tərəfindən yaxşı qarşılanmışdı. Bu səbəbdən 2008-ci il avqust Rusiya-Gürcüstan müharibəsindən sonra Ankara, regional məsələlərin xarici oyunçuların müdaxiləsi daha az olacaq şəkildə müzakirə olunmasına çalışırdı. Türkiyə öndərliyində 2008–ci ildə başladılan Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması, bölgədəki dialoqu güçlendirmək üçün yenidən canlandı [9, səh. 16 ].

Türkiyə ilə Gürcüstan arasında əlaqələrin daha yüksək inkişafında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılması mühüm əhəmiyyətə malikdir. YSSƏŞ-ın ilk iclası 2016-cı il iyulun 19-da Ankarada olmuşdu. Azərbaycanın da daxil olduğu bu qurum regionda sülhü və sabitliyi bərpa etmək üçün əhəmiyyətli bir addımdır [15]. Türkiyənin xarici siyasəti, son zamanlarda daha çox Yaxın Şərqlə bağlı olduğundan Cənubi Qafqaz siyasəti bir qədər arxa plana keçmişdi. Halbuki Azərbaycan və Gürcüstan xarici işlər nazirlərinin iştirakı ilə Trabzonda imzalanan bəyanat bu prosesin səssiz bir şəkildə davam etdirildiyini göstərirdi [17 ].

Rusiyanın ixracatının 80 %-ini enerji (neft və təbii qaz) təşkil etməsi onun iqtisadi inkişafı üçün neft boru xətlərinin nə qədər önəmli olduğunu göstərir. Gürcüstan və Türkiyə isə Azərbaycan və Mərkəzi Asiyanın enerji ehtiyatlarının Qərbə daşınmasında qapı, eyni zamanda Rusiyanın cənuba isti dənizlərə enməsi üçün bir vasitə, şımaldan isə Bəsrə körfəzinə qədər uzanan əsas neft və qaz xətlərinin mərkəzidir [18, səh. 99]. Bununla yanaşı, bir tərəfdən Azərbaycanda böyük dövlətlərin enerji mübarizəsi, digər tərəfdən Rusiyanın istəkləri və İranın separatçılığı enerji siyasətində mürəkkəb vəziyyətin yaranmasına səbəb olmuşdur.

Hazırda Azərbaycanın neft ixracının 70%-indən çoxu Bakı-Supsa boru xətti ilə həyata keçirilir (2001-ci ildən 5 mln. Ton), qalan hissəsi Rusiyanın nəzarətində olan Bakı-Novorossiyski boru xətti ilə ixrac edilməkdədir.

Bakı-Supsa boru xəttinin tutumu kəskin şəkildə böyüməkdədir (2001-ci ildə 110 000 kubmetr, 2003-cü il 165 000 kubmetr). Rusiyadan keçən boru xətti genişləndirildiyi halda, tranzitin baha olması, neftin Sibir nefti ilə qarışması nəticəsində keyfiyyət problemləri, tez-tez baş verən təxribatlar bu yolun təhlükəli olduğunu göstərirdi. Əsas ixrac xətti olan BTC xəttinin Gürcüstan və Türkiyə hissəsinin hazır olması xam neftin bu xətt vasitəsi ilə daha təhlükəsiz nəqlinə imkan vermişdi [4].

Hazırda reallaşmaqda olan bir sıra beynəlxalq layihələr region ölkələri ilə Şərq və Qərb ölkələri arasında əməkdaşlığa, böyük gələcəyi olan perspektivlərə yol açmışdır. Belə ki, böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – TRACECA proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyatlarından birgə istifadəyə dair "Əsrin müqaviləsi" (24 sentyabr 1994) və "Yeni əsrin müqaviləsi" (sentyabr 2017) adını almış neft kontraktları, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft kəməri, "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri layihələrinin əsas məqsədi Qafqazın, o cümlədən Azərbaycanın milli təhlükəsizliyinin qorunması və regionda sülhün, sabitliyin möhkəmlənməsinə nail olmaq, habelə iqtisadi inteqrasiya proseslərində daha fəal iştirak etməkdən ibarətdir [11, səh. 503].

1995-ci il noyabrın 29-da Gürcüstan mətbuatında gedən yazılarda Xəzər neftinin ixrac marşrutu kimi Gürcüstanın təsadüfən seçilmədiyini yazırdı. Çünki Ermenistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Qərb dövlətlərinin İranla problemləri neft marşurutunun Gürcüstan ərazisi olacağını reallaşdırırdı. Belə ki, Azərbaycan, Türkiyə və Gürcüstan liderlərinin İstanbul görüşü zamanı Xəzər neftinin Gürcüstan üzərindən Türkiyəyə neft kəməri vasitəsilə ötürülməsi qərara alınmış və Azərbaycan prezidenti Heydər Əliyev bununla bağlı məlumatı mətbuat konfransında bəyan etmişdi. Mətbuatın araşdırmalarında bu qərara ABŞ-dakı erməni lobbisi və Rusiyanın ciddi müqavimət göstərdiyi bildirilirdi. Azərbaycanın kütləvi informasiya vasitələrində neftin ixracı ilə bağlı əldə olunmuş sazişin təfərrüatları daha geniş şərh edilir və Azərbaycan prezidenti Heydər Əliyevin sərgilədiyi aşağıdakı qəti mövqeyə diqqət yetirilirdi: "İxrac neft kəməri heç vaxt Ermənistandan keçməyəcəkdir". Mətbuat Xəzər neftinin Türkiyə-Azərbaycan-Gürcüstan müttəfiqliyinin möhkəmlənməsində və Cənubi Qafqazda sabitliyin yaradılmasında əhəmiyyətinə silsilə məqalələr həsr edirdi [2, səh. 5-9].

Rusiyanın Mərkəzi Asiyada və Qafqazda ən əhəmiyyətli hədəfi ölkəsinin maraqlarına uyğun olan əvvəlki layihə və müqavilələri qüvvədə saxlamaq, əsas enerji yollarını "şimal-cənub istiqamətində" birləşdirmək, bununla özünə qarşı olan ittifaqların qarşısının almaq idi. Belə yanaşma BTC boru xəttinə mane olmasa da, gələcəkdə Türkiyə üçün təhlükə kəsb edirdi [5].

Rusiya Qərbə gedən enerji yollarının öz ərazisindən keçməsində maraqlıdır və əsas məqsədi enerjiyə ehtiyacı olan Avropanı özündən asılı vəziyyətə salmaqdır. Buna görə də ABŞ və Avropa dövlətləri Rusiyaya siyasi sahədə böyük üstünlük yaradan bu sistemə maneə yaratmaq üçün

enerji xətlərini ona alternativ kimi Gürcüstan-Türkiyə yolunu ortaya qoymuşdular. Zəngin təbii qaz və neft qaynaqlarına sahib olan Xəzərin Türkiyə ilə birbaşa sərhəddinin olmaması, Ermənistan- Türkiyə sərhəddinin bağlı olması, Mərkəzi Asiya və Xəzərin enerji resurslarının qərbə daşınması üçün coğrafi olaraq Gürcüstan-Türkiyə ya da İran-Türkiyə yollarının seçilməsini şərtləndirmişdi. İranın Qərb ilə gərgin əlaqələri Gürcüstan-Türkiyə marşrutunun üstünlüyünü şərtləndirmiş, BTC ixrac boru xəttinin çəkilməsi ilə Tbilisi-Ankara əməkdaşlığı qeyri-adi dərəcədə genişlənmişdi.

Cənubi Qafqazda "Qafqaz Evi"nin yaradılması və sonradan Şimali Qafqaz regionunun ona cəlb edilməsi, şübhəsiz, Rusiyanın cənubunda da sabitliyə xidmət edəcək. Qafqaz Evi layihəsi çərçivəsində etnik qrupların ərazi mənsubiyyəti tamamilə mənasını itirir, çünki onların hüquqları və maraqları Qafqaz Parlamentində, hökumətində, məhkəməsində və s. təmin olunacaq, burada onlar hamısı təmsil olunacaq. Vahid Qafqaz məkanı, yerləşmə yerindən və sayından asılı olmayaraq, bütün etnik qrupların təhlükəsizliyinin, inkişafının və rifahının zəmanəti ola bilər və olmalıdır. Bu kontekstdə Azərbaycan bu prosesin lokomotivi olmaq üçün zəruri resurs potensialına malikdir. Lakin Azərbaycan ilk növbədə öz maraqlarından çıxış edir. Bu baxımdan, qonşu İranın və Rusiyanın qıcığına səbəb olacaq addımları atmaq Bakının maraqlarına uyğun deyil. Azərbaycan NATO, İran və Rusiya arasında birmənalı seçim etməyə tələsmir və balans diplomatiyasına üstünlük verir.

"Qafqaz Evi" regional təhlükəsizlikdən böyük narahatlıq duyan Türkiyə və Azərbaycanın yaxşı niyyətli bir diplomatik addımıdır. Hər iki dövlət bu şəkildə, həm bölgəsində təşəbbüsü ələ almaq, həm də qonşuları ilə yaxşı əlaqələr inkişaf etdirmək niyyətindədir. Lakin, istər Qafqazın mürəkkəb etnik və siyasi quruluşu, istərsə də ABŞ və Rusiyanın bir-biriylə qarşıdurma halındakı regional geosiyasi maraqları bölgədə qalıcı sabitlik mühitinin yaradılmasında çətin olduğunu göstərməkdədir. Buna baxmayaraq, bölgədəki problemlərə həll yolları axtarmağa çalışan Türkiyə və Azərbaycan bu platforma ilə regional sülhün yaranmasında böyük köməkliyi olacaqdır.

## Ədəbiyyat siyahısı:

1. *Binay Mehmed. Balkanlardan sonra Kafkasya istikrar paktı. Arsiv.ntv.com.tr/news/5088.asp 19 may 2000*
2. *Əliyev İ. Əstin müqaviləsinin" imzalanması ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsidir. Dirçəliş-XXI əsr jurn., 2004, avqust-sentyabr, N78-78, s.5-9*
3. *Əliyev Heydər.Müstəqilliyimiz əbədidir. Bakı, 2012 ss 480*
4. *Gürcistan Raporu. Amerikan Global Dünya Üniversite Merkezi idaresinde Regionel Ekonomik İş Grupu. www1.american.edu/.../T2CountryReports/georgiacountry-tr*
5. *Fatih Akgül. Rusya'nin putin dönemi avrasya enerji politikalari'nin*

*türkiye-rusya ilişkilerine etkileri. www.harpak.edu.tr*
6. *"Qafqaz evi": regional əməkdaşlığın yaradılması və perspektivləri 27-1-2015 http://agsunews.az/index.php?sectionid=news&id=337*
7. *Həsənov Ə. Azərbaycan Respublikasının Milli İnkişaf Və Təhlükəsizlik Siyasətinin Əsasları. Bakı 2016. Ss 662*
8. *Həsənov Ə.. Müasir Beynəlxalq Münasibətlər Və Azərbaycanın Xarici Siyasəti. Bakı, 2005. Ss 752*
9. *Memduh Karakullukçu ve Dmitri Trenin. Çalkantılı Bir Bölgede Rusya-Türkiye İşbirliği Fırsatlarının İncelenmesi. Türkiyə 2014 ss 22*
10. *Məmmədov N.. Xarici Siyasət: Reallıqlar və gələcəyə baxış. Bakı 2013 ss 135*
11. *Manafova Bənövşə. TRASEKA proqramı və onun iqtisadi əhəmiyyəti. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya iqtisadi və beynəxalq münasibətlər II beynəlxalq konqres materialları. Qafqaz Universiteti Bakı, 02-05 May 2007 ss 915*
12. *Rəşidoğlu Azər, Vahid Avropa qurulmasında Avropanın təcrübəsindən Qafqaz Evinin yaradılmasında əsas alət kimi istifadə olunmalıdır; 04.05.2019, https://sputnik.az/columnists /20190504/420284991/Qafqaz-Evinin-yaradilmasi-zerurete-cevrilib.html*
13. *Papava, Vladimer. Energy Cooperation Opportunities in the Caucasus. Bulletin of the Georgian national academy of sciences. Vol. 5, no. 1, 2011 s. 164-169*
14. *Serkan Demirtaş, "Yeni Bir Kafkasya Arayışı", Cumhuriyet qəzeti, 2000, 17 yanvar*
15. *Türkiye-Gürcistan Siyasi İlişkileri. www.mfa.gov.tr\turkiye -gurcistan-siyasi-iliskileri.tr.mfa*
16. *Tamer Çetin. Orta Asya ve Kafkaslar'da Enerjinin Politik Ekonomisi. Enerji, Piyasa ve Düzenleme. Cilt:1,Sayı:1,2010, S 81*
17. *Tüysüzoğlu Göytürk. Türkiye, Güney Kafkasya ve Trabzon bildirisi iyun 2012 http://politikaakademisi.org /2012/06/11/turkiye-guney-kafkasya-ve-trabzon-bildirisi/*
18. *Zəngin Eyüp, Əsədov Aqil. Türkiyə və Azərbaycan Örneğinde Boru Hatları Ulaştırılmasının Çevre Üzerindeki Etkisi. ZKÜ Sosyal Bilimler Dergisi, Cilt 5,Sayı 9, 2009, s 99*
19. *Wigan, Einar, 'NUPI Report: The Shifting Geopolitics of the Black Sea Region: Actors drivers and Challenges, http://www.nupi.no/Publikasjoner/Boeker-Rapporter/2011/The-Shifting-Geopolitics-of-the- Black-Sea-Region 05.07.2012*

***Məqalə BDU-nun Dünya azərbaycanlıları: tarixi demoqrafiya ETL-nin dosenti Səidə Quliyevanın rəyi ilə çapa təqdim edilib.***

# QAYDALAR

## Məqalənin qəbulu şərtləri:

- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəşrlər qarşısında qoyduğu tələblər əsas götürülür.
- Tələblərə əsasən xaricdə və ya respublikada çap edilmiş eyni adlı və məzmunlu məqalələrin jurnala tədqim edilməsi yolverilməzdir.
- Plagiat aşkar edilən müəlliflərin məqalələri çap edilmir və həmin müəllifə jurnala məqalə təqdim etməyə qadağa qoyulur.
- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Yalnız Redaksiya heyəti tərəfindən müsbət rəy verilən məqalələr çap olunur.
- Redaksiya heyəti müəlliflərin elmi yaradıcılığında mövqelərini tam ifadə etməsi üçün hər cür şərait yaratmışdır.
- Müəlliflərin və Redaksiya heyətinin mövqeyi uyğun gəlməyə bilər.
- Məqalələr Redaksiya heyəti tərəfindən redaktə olunduqdan sonra çapa təqdim edilir.
- Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
- Jurnal ildə bir dəfə nəşr edilir.
- Məqalələr müəlliflərin hesabına çap edilir.
- Məqalələr çap və elektron formada Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyasına təqdim edilməlidir.
- Jurnal respublikanın əsas kitabxanalarına təqdim edilir.
- Jurnalın elektron versiyası Bakı Dövlət Universitetinin saytında yayımlanır: http://bsu.edu.az

## Məqalənin tərtibi qaydaları:

- Mətn Times New Roman şrifti, 12 öіçü, 1 interval ilə yazılmalıdır;
- Həcm 7-10 səhifə (təqribən 2500-5000 söz);
- Məqalənin adı hamısı böyük hərflərlə tünd rəngdə (Bold) mərkəzdə yazılmalıdır;
- Məqalənın adı 3 sətirdən artıq olmamalıdır.
- Məqalənin adı ilə məzmunu tam uyğun olmalıdır;
- Məqalənin başlığının altında sağ tərəfdə müəllifin adı, soyadı – tünd rəngdə (Bold), fakültəsi, akademik və elektron poçt ünvanı göstərilməlidir;
- İlk səhifədə 100-200 sözdən ibarət 2 dildə (Azərbaycan və ingilis dillərində) xülasə və açaq sözləri verilir. Azərbaycan dilində xülasənin altından məqalənin ingiliscə başlığı, xülasə və açar sözlər verilməlidir. Xülasələrin adı, mətni və açar sözlər eyni olmalıdır;
- Məqalələr struktur olaraq “Xülasə”, "Giriş”, "Əsas hissə” (Başlıqlar), "Nəticə” (yekun, elmi yenilik, təklif), "Ədəbiyyat siyahısı”ndan ibarət

olmalı və məzmun buna uyğun qurulmalıdır;
- Məqalə içindəki yarımbaşlıqlar Birinci hərfi böyük, qalanları kiçik olmaqla verilməlidir. Məsələn, Giriş; Nəticə, Ədəbiyyat siyahısı;
- Məqalədə istifadə edilən ədəbiyyat və internet resursları son 5-10 ilin tədqiqatlarını əhatə etməlidir. Mənbələrin ünvanı isə dəqiq göstərilməlidir (nəşr yeri, ili, nəşriyyat və cəmi səhifəsi);
- Məqalədə istifadə edilən bütün ədəbiyyat və internet resursları məqalənin sonunda əlifba sırası ilə düzülür. Mətndə istinadlar həmin sıraya uyğun kodla verilir. Məsələn [5, səh. 8];
- İnternet resursları göstərilərkən, əvvəlcə istinad olunan məqalənin ya yazının müəllifi, məqalənin ya məlumatın bağlılığı və ondan sonra hiperiqtibas qoyulmalıdır;
- Məqalədə sitatlar məqalənin ümumi həcminin yalnız 30 faizini əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir olmalıdır;
- Cədvəl və şəkil verilərsə, cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 və s. şəklində sıralanmalı və ad verilməlidir. Məsələn, Cədvəl 1. Azərbaycan respublikasının əhalisi (1999-cu il siyahıyaalmasına əsasən);
- İqtibaslar, cədvəllər və cədvəlin mənbəsi cədvəlin aşağısında 10 ölçüdə verilməlidir;
- Məqalədə verilən şəkil və xəritələr ayrıca fayl (GİF, JPEG) kimi də təqdim edilməlidir;
- Məqalələr tam redaktə olunduqdan sonra təqdim edilməlidir.

# DÜNYA AZƏRBAYCANLILARI: TARİX VƏ MÜASİRLİK

**(Elmi-nəzəri toplu)**

**VII BURAXILIŞ**

*Çapa hazırlayanlar:* *Ulduz Miri qızı Paşayeva*
*Səidə Zakir qızı Quliyeva*

**BAKI - 2020**

**Çapa imzalanmışdır: 25.12.2020**
**Kağız formatı: 70x100 Həcmi 27.75 ç.v.**
**Sifariş: 65**
**Sayı 60 ədəd**

**"Füyuzat" nəşriyyatının mətbəəsində çap olunmuşdur**